HEYDƏR ƏLİYEV İRSİNİ ARAŞDIRMA MƏRKƏZİ
HEYDAR ALIYEV HERITAGE RESEARCH CENTER

# BAKI-BRÜSSEL (Azərbaycan-Avropa İttifaqı münasibətləri)
# BAKU-BRUSSELS (Azerbaijan-European Union relations)

Bakı · Baku · 2011

***“Bakı-Brüssel (Azərbaycan-Avropa İttifaqı münasibətləri)”*** *kitabı Heydər Əliyev İrsini Araşdırma Mərkəzinin növbəti nəşridir. Kitab Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında tərəfdaşlıq və əməkdaşlıq haqqında sazişin imzalanmasının 15 illiyinə həsr olunur.*

*Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqının nümayəndələri ilə görüşlərinin mətni və eləcə də bu təşkilatın tədbirlərindəki çıxışları kitaba daxil edilmişdir. Avropa İttifaqının Azərbaycanla bağlı qəbul etdiyi bəzi qətnamə, tövsiyə və kommünikeləri də kitabda yer alan sənədlərdəndir.*

1203020000 qrifli nəşr
036-2011

ISBN 978-9952-8134-7-7

© *Heydər Əliyev İrsini Araşdırma Mərkəzi 2011*

Heydər Əliyev İrsini Araşdırma Mərkəzi
Heydar Aliyev Heritage Research Center

# BAKI - BRÜSSEL

## Azərbaycan - Avropa İttifaqı münasibətləri

# BAKU - BRUSSELS

## Azerbaijan–European Union relations

**“Heydər Əliyev İrsini Araşdırma Mərkəzinin nəşrləri” seriyasının məsləhətçisi:**
Asəf NADİROV
Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Heydər Əliyev İrsini Araşdırma Mərkəzinin Elmi-Redaksiya Şurasının sədri

**Elmi məsləhətçilər:**
Filip BLANŞAR
Belçika Parlamentinin üzvü, Azərbaycan-Belçika parlamentlərarası dostluq qrupunun sədri

Elxan SÜLEYMANOV
AVCİYA-nın prezidenti, Azərbaycan Respublikası Milli Məclisinin üzvü, Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin üzvü

**Yaradıcı heyətin rəhbəri:**
Fuad BABAYEV

**Yaradıcı heyət:**
İsmayıl QASIMOV
Təmkin MƏMMƏDLİ
İrina MUXTAROVA
Gündüz NƏSİBOV

**Dilçi-redaktor:**
Mətanət BABAYEVA

**Dizayn:**
Elviz İSMAYILOV

**Səhifələmə:**
İsmayıl İSMAYILOV

Kitabın foto-blokunda Azərbaycan Respublikası Prezidenti mətbuat xidmətinin foto-materiallarından istifadə edilmişdir.

Kitabda AzərTAc-ın, Azərbaycan Respublikası Prezidentinin rəsmi saytının (www. president.az), Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin rəsmi saytının (www.mfa.gov.az), Avropa İttifaqının rəsmi saytının (www.europa.eu), Azərbaycan-Avropa İttifaqı münasibətləri mövzusunda tarixi arayışda isə Azərbaycan Respublikası Prezident Administrasiyası ictimai-siyasi məsələlər şöbəsinin müdiri, tarix elmləri doktoru, professor Əli Həsənovun “Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti” kitabının materiallarından istifadə olunmuşdur.

*Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında tərəfdaşlıq və əməkdaşlıq haqqında sazişin imzalanmasının 15 illiyinə həsr olunur*

**Azərbaycan Avropa ölkələri arasında inteqrasiya proseslərinin gələcəyinə böyük ümidlər bəsləyir və bərabərhüquqlu tərəfdaş kimi bu proseslərdə fəal iştirak edəcəkdir.**

*Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Azərbaycan Respublikası ilə Avropa Birliyi arasında tərəfdaşlıq və əməkdaşlıq haqqında sazişin imzalanması mərasimində çıxışından - Lüksemburq, 22 aprel 1996-cı il*

**Azərbaycan gələcəyini Avropa ailəsində görür.**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Baş katibi Xavyer Solana ilə görüşündəki çıxışından – 18 may 2004-cü il*

## *Hörmətli oxucular!*

20 il öncə dövlət müstəqilliyini əldə edən Azərbaycan Respublikası demokratik, dünyəvi, hüquqi dövlət quruculuğu yolu seçmişdir. Buna görə də Avropa dəyərlərindən bəhrələnmək, onlardan həm dövlət quruculuğu prosesində, həm də cəmiyyətin formalaşdırılmasında, sosial-iqtisadi sahədə istifadə etmək bir vəzifə kimi qarşıda durur.

Bu baxımdan, Avropa İttifaqı ilə çoxşaxəli əməkdaşlıq Azərbaycanın xarici siyasət doktrinasında mühüm istiqamətlərdən biri kimi müəyyənləşdirilmişdir.

Ölkəmizin əlverişli coğrafi mövqeyi, zəngin təbii sərvətləri və geniş nəqliyyat infrastrukturunun mövcudluğu Azərbaycanın Avropa üçün əhəmiyyətin daha da artırır. Qeyd etmək lazımdır ki, Avropa İttifaqının rəhbərliyində təmsil olunan şəxslər bu amili dəfələrlə vurğulamışlar.

Avropa İttifaqı da Azərbaycan ilə getdikcə əməkdaşlıq hüdudlarını aşan və daha çox siyasi əməkdaşlıq, tədrici iqtisadi inteqrasiyaya və dərinləşməyə tərəf yönələn əlaqələr axtarır. Azərbaycanla Avropa İttifaqı arasında olan əlaqələrin tarixi 1990-cı illərin əvvəllərinə gedib çıxır və Avropa Komissiyasının Müstəqil Dövlətlər Birliyi (MDB) ölkələrinə göstərdiyi dəstəyə (TACİS proqramı) əsaslanır.

Azərbaycanın bu mötəbər qurumla münasibətlərinin yaradılması və inkişaf etdirilməsi ümummilli lider Heydər Əliyevin adı ilə bilavasitə bağlıdır. 22 aprel 1996-cı ildə Lüksemburq şəhərində imzalanmış və onu imzalamış bütün dövlətlər tərəfindən ratifikasiya edildikdən sonra 1 iyul 1999-cu il tarixində qüvvəyə minmiş "Tərəfdaşlıq və Əməkdaşlıq haqqında Saziş" ikitərəfli münasibətlərin hüquqi bazasının əsasını təşkil etmişdir.

Sazişin imzalanması mərasimində çıxış edən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev bu sənədi ölkəmizin Avropa məkanına inteqrasiyası istiqamətində mühüm addım kimi səciyyələndirmişdir: "Azərbaycan Avropa ölkələri arasında inteqrasiya proseslərinin gələcəyinə böyük ümidlər bəsləyir və bərabərhüquqlu tərəfdaş kimi bu proseslərdə fəal iştirak edəcəkdir".

Bu sənəd əməkdaşlığı möhkəmləndirmək üçün müvafiq mexanizmlər təmin etməklə, Azərbaycanla Avropa İttifaqı arasında münasibətlərə yeni təkan vermişdir. Saziş siyasi dialoq, insan hüquqları, ticarət, investisiya, iqtisadi, qanunverici, mədəni və digər əməkdaşlıq sahələrində genişmiqyaslı əməkdaşlığı nəzərdə tutur. Onun əsas məqsədlərindən birini Azərbaycan qanunvericiliyinin Avropa İttifaqının qanunvericiliyinə uyğunlaşdırılması təşkil edir.

Ulu öndər Heydər Əliyevin qeyd etdiyi kimi: "Konkret nəticə nöqteyi nəzərindən Avropa İttifaqı ilə əməkdaşlıq başqa beynəlxalq təşkilatlara nisbətən daha da nəticəlidir".

Azərbaycan Respublikasının coğrafi-strateji vəziyyəti onun Avropa İttifaqının bütün proqramlarında iştirakını şərtləndirir. Elə bu səbəbdən də Azərbaycan Respublikası Avropa İttifaqının nəqliyyat və enerji sahələrində proqramlarının fəal iştirakçısıdır. "Yeni İpək Yolu" adlandırılan TRASEKA proqramı Mərkəzi Asiya, Qafqaz və Avropa arasında nəqliyyat əlaqələrini inkişaf etdirilməsini nəzərdə tutan proqramdır. TRASEKA (Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi) Brüsseldə 3 may 1993-cü il tarixində keçirilmiş 8 təsisçi dövlətin (5 Mərkəzi Asiya və 3 Cənubi Qafqaz ölkələri) ticarət və nəqliyyat nazirlərinin Konfransında təsis olunmuşdur. Proqramın məqsədi qeyd edilən dövlətlərin siyasi və iqtisadi müstəqilliyini dəstəkləməklə onların alternativ nəqliyyat yolları vasitəsilə Avropa və dünya bazarlarına çıxış qabiliyyətini yüksəltmək və Avropadan Qara Dəniz və Qafqaz vasitəsilə Mərkəzi Asiyaya və əks istiqamətdə ən tez və ən ucuz nəqliyyat dəhlizinin yaradılmasından ibarətdir.

TRASEKA üzrə ən mühüm tədbir – beynəlxalq konfrans 1998-ci ilin sentyabr ayında Bakıda keçirilmişdir. Avropa Komissiyasının təşkilatçılığı ilə keçirilən bu tədbirdə TRASEKA proqramının iştirakçısı olan 32 dövlətin ən yüksək səviyyəli nümayəndə heyəti ilə yanaşı, 13 beynəlxalq və regional qurumların da nümayəndələri iştirak etmişdir. Konfransın sonunda Avropa İttifaqı Komissiyası, iştirakçı ölkələrin rəhbərləri "Avropa-Qafqaz-Asiya nəqliyyat-kommunikasiya dəhlizinin inkişafına dair çoxtərəfli saziş"i imzalamışdır. Bundan başqa iştirakçılar adından Avrasiya ölkələri arasında hərtərəfli əməkdaşlıq və regional inteqrasiyanın əsas prinsiplərini əks etdirən "Bakı bəyannaməsi" də qəbul edilmişdir. Beynəlxalq konfransda TRASEKA layihəsinin işlərini planlaşdırmaq və həyata keçirilməsini koordinasiya etmək məqsədilə Bakı şəhərində xüsusi "mənzil-qərargah"ın yaradılması qərara alınmışdır.

Xüsusi qeyd etmək lazımdır ki, Azərbaycanın ən çətin dövrlərində, iqtisadiyyatının böhranlı vəziyyətində Avropa İttifaqı ölkəmizə 400 milyon avro dəyərində yardım göstərmişdir.

2004-cü ilin mayında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Avropa İttifaqı Şurasının Baş katibi Xavyer Solana ilə Brüsseldəki görüşündə bir daha vurğulamışdır: "Azərbaycan gələcəyini Avropa ailəsində görür. Əlbəttə ki, biz əlimizdən gələni edəcəyik ki, Avropanın bütün meyarlarına cavab verə bilək".

Azərbaycan Respublikasını Avropa Qonşuluq Siyasətinə (AQS) daxil etmək haqqında Aİ Şurasının 14 iyun 2004-cü il tarixli qərarı ikitərəfli əməkdaşlıqda irəliyə doğru mühüm addım olmuşdur. Aİ ilə əlaqələrdə daha yüksək səviyyəli siyasi və iqtisadi inteqrasiya vəd edən AQS ona daxil olan ölkələr üçün tərəfdaşlığın gələcək inkişafı baxımından yeni bir mərhələ olmuşdur.

AQS ölkəmiz üçün aşağıdakı imkanları yaratmışdır:

- siyasi, iqtisadi və inzibati islahatların həyata keçirilməsi və birgə dəyərlərə

hörmət edilməsində konkret irəliləyişə nail olunması müqabilində Aİ-nin daxili bazarında müəyyən paya sahib olma imkanı;

- vətəndaşların, əmtəələrin, xidmətlərin və kapitalın sərbəst dövriyyəsini təmin etmək məqsədilə gələcək inteqrasiya və liberalizasiya proseslərində iştirak;

- Aİ üzv ölkələri ilə daha səmərəli siyasi dialoq və əməkdaşlıq, güzəştli ticarət əlaqələri və açıq bazar, miqrasiya, narkotiklər və mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq, sərmayələrin təşviqi, yeni maliyyə mənbələrinin əldə edilməsi, ölkəmizin Ümumdünya Ticarət Təşkilatına üzv olmasının dəstəklənməsi və s.

AQS-in mərkəzi elementi isə Aİ ilə hər bir tərəfdaş ölkə arasında razılaşdırılmış və ölkə üzrə bir sıra qısa və orta müddətli prioritetlərin əks olunduğu Fəaliyyət Planlarıdır. Azərbaycan Respublikası – Avropa İttifaqı Fəaliyyət Planı 14 noyabr 2006-cı ilin tarixində Brüsseldə AR-Aİ Əməkdaşlıq Şurasının iclası zamanı qəbul edilmişdir.

7 noyabr 2006-cı ildə Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyev və Avropa Komissiyasının sədri Joze Manuel Barrozu Azərbaycan Respublikası və Avropa Birliyi arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumu imzalamışlar. Bu memorandum artıq tərəflər arasında münasibətlərin yeni müstəviyə daxil olmasının göstəricisi sayıla bilər. Belə ki, bu anlaşma memorandumunun icrası Azərbaycanın Avropa İttifaqının enerji bazarlarına daha tez inteqrasiyasına kömək etməklə yanaşı, Xəzər hövzəsindən enerji daşıyıcılarının nəqli Avropa İttifaqının enerji təhlükəsizliyini daha da güclənməsinə xidmət edəcəkdir.

Avropa İttifaqı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə münasibəti ilə də seçilir. Hələ 1992-1994-cü illərdə bu münaqişə ilə bağlı Avropa İttifaqı dəfələrlə bəyanat qəbul etmişdir. Avropa İttifaqının rəsmi sənədlərində Azərbaycanın ərazi bütövlüyü birmənalı şəkildə müdafiə olunmuş və Dağlıq Qarabağda keçirilən seçkilər pislənilmişdir.

2010-cu il mayın 20-də Avropa Parlamenti Avropa İttifaqının Cənubi Qafqaz strategiyasına dair 2009/2216 nömrəli qətnamə qəbul etmişdir. Qətnamədə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələlərinə xüsusi yer verilmişdir.

Qətnamədə Dağlıq Qarabağ müharibəsi zamanı doğma yurdlarından didərgin düşmüş yüz minlərlə qaçqın və məcburi köçkünün pozulmuş insan haqlarından ciddi narahat olduğunu bəyan edən Avropa Parlamenti Ermənistan silahlı qüvvələrinin işğal etdikləri Azərbaycan torpaqlarından dərhal çıxmasını tələb etmiş və məcburi köçkünlərin doğma evlərinə qayıtması prosesi zamanı və keçid mərhələsində əhalinin təhlükəsizliyini BMT Nizamnaməsi əsasında təmin etmək üçün həmin ərazilərdə beynəlxalq qüvvələrin yerləşdirilməsinin vacibliyini vurğulamış, siyasi hakimiyyətləri və icmaların rəhbərlərini məcburi köçkünlərin geri dönməsinə

hazırlıq işləri çərçivəsində etnik münasibətlərin normallaşması üçün səyləri artırmağa çağırmışdır. Qətnamədə Ermənistandan silahlı qüvvələrini işğal etdiyi Azərbaycanın Dağlıq Qarabağ bölgəsindən və onun ətrafındakı rayonlardan dərhal çıxarması tələb edilmiş, münaqişənin beynəlxalq prinsiplər və dövlətlərin ərazi bütövlüyü çərçivəsində həllinin vacibliyi vurğulanmış və Dağlıq Qarabağın yekun statusu müəyyənləşdiriləndək ona müvəqqəti status verilməsi qeyd olunmuşdur. Bildirilmişdir ki, bu, bölgənin azərbaycanlı və erməni əhalisinin dinc yanaşı yaşamasına və əməkdaşlığına töhfə verəcəkdir.

Azərbaycan hazırda Avropa İttifaqı ilə həm də "Şərq Tərəfdaşlığı" proqramı çərçivəsində əməkdaşlıq edir. "Şərq Tərəfdaşlığı"nda məqsəd proqramı əhatə edən dövlətləri Avropa İttifaqına daha da yaxınlaşdırmaq, sabitlik, yaxşı idarəçilik və iqtisadi inkişafı təşviq etməkdir. Bu təşəbbüs demokratiya, qanunun aliliyi, insan hüquqlarına və əsas azadlıqlara hörmət, bazar iqtisadiyyatı və davamlı inkişaf kimi ümumi dəyərlərə əsaslanır.

Bu ilin yanvarında Avropa Komissiyasının sədri Joze Manuel Borrozonun Azərbaycana səfəri əməkdaşlığın inkişafında yeni üfüqlər açmışdır. Cənab Borrozo səfər dövründə Avropa İttifaqının Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda həyata keçirilən islahatları dəstəklədiyini bəyan etdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi: "Bu gün, nəhəng neft və qaz ehtiyatları, müasir infrastruktur, boru kəmərləri və önəmli məkanda yerləşən Azərbaycan əlbəttə ki, regional enerji təhlükəsizliyi və Avropanın enerji təhlükəsizliyində mühüm rolunu davam etdirir. Avropa Azərbaycanın böyük tərəfdaşıdır."

Hazırda Azərbaycan Avropa İttifaqı ilə bir sıra sahələrdə faydalı əməkdaşlıq edir. Avropa İttifaqı Azərbaycanın ümumi xarici ticarətində təxminən 30 faizi təşkil edərək, ölkəmizin əsas ticarət tərəfdaşıdır. Bu əlaqələrin genişləndirilməsində və inkişaf etdirilməsində isə 15 il əvvəl imzalanmış Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi möhkəm bünövrədir.

Buna görə də hesab edirəm ki, Heydər Əliyev İrsini Araşdırma Mərkəzinin növbəti nəşri olan "Bakı-Brüssel (Azərbaycan-Avropa İttifaqı münasibətləri)" kitabı bu münasibətlərlə maraqlananlar üçün dəyərli mənbə olacaqdır. Azərbaycan və ingilis dillərində nəşr olunan kitaba mövzu ilə bağlı Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışları, məktubları və görüşlərinin mətni, rəsmi sənədlər, tarixi arayışlar və məlumat-soraq materialları daxil edilmişdir.

**Əli Hüseynli,**
**Azərbaycan Respublikası Milli Məclisinin hüquq siyasəti**
**və dövlət quruculuğu komitəsinin sədri**

## Avropa Birliyi Komissiyasının sədri zati-aliləri Jak Santer cənablarına

1 avqust 1994-cü il

Hörmətli cənab Jak Santer!

Avropa Birliyi Komissiyasının sədri seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı, səadət, Avropa xalqlarının tərəqqisi naminə yorulmadan göstərdiyiniz fəaliyyətdə müvəffəqiyyətlər arzulayıram. Ümidvaram ki, regionda sülhün və əmin-amanlığın bərqərar olması, iqtisadi dirçəlişin təmin edilməsi ucun səylərinizi əsirgəməyəcəksiniz.

Hörmətlə,
Heydər Əliyev,
Azərbaycan Respublikasının Prezidenti

## Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Avropa Birliyi rəhbərləri ilə görüşmək üçün Belçikaya yola düşərkən Binə Hava Limanında jurnalistlərə müsahibəsi

17 aprel 1995-ci il

Azərbaycanın Avropa Birliyinə qoşulması respublikamız üçün çox böyük imkanlar verir. Ümumiyyətlə, indi qitədə və dünyada Avropa Birliyinin fəaliyyəti bütün sahələrdə - həm iqtisadi, həm də siyasi sahədə çox genişdir. Ona görə də indi Avropa Birliyi ilə əlaqələrimizin inkişaf etməsi respublikamız üçün hərtərəfli mənfəətlidir.

Bu birlik və onun iqtisadi komissiyası Azərbaycana xeyli kömək-humanitar yardım edib, respublikamıza xüsusən taxıl məhsulları və başqa ərzaq malları göndəribdir. Onlar ölkəmizin böhran vəziyyətindən çıxmasına kömək edirlər. Bu yardımın indən sonra da davam etdirilməsi üçün onların geniş bir proqramı var. Ona görə də Azərbaycan Respublikasının beynəlxalq aləmdə mövqelərinin daha da möhkəmləndirilməsi və qarşımızda duran bütün məsələlərin, siyasi məsələlərin, o cümlədən Ermənistan - Azərbaycan münaqişəsinin aradan qaldırılması və Avropa Birliyinin, onun iqtisadi komissiyasının ölkəmizə köməyinin daha da artırılması üçün bu səfər çox əhəmiyyətlidir.

# Azərbaycan Prezidenti Heydər Əliyevin Brüsseldən Vətənə dönərkən təyyarədə müsahibəsi

18 aprel 1995-ci il

***Heydər Əliyev:*** Avropa Birliyi beynəlxalq aləmdə çox böyük nüfuzlu bir təşkilatdır. Onun böyük imkanları vardır. Bu birliyə inkişaf etmiş 15 ölkə daxildir. Avropa Birliyi öz fəaliyyətini həyata keçirmək üçün bu ölkələrin imkanlarından istifadə edir.

Avropa Birliyinin fəaliyyətinin dünya siyasətinə, iqtisadiyyatına, beynəlxalq aləmdə gedən proseslərə çox böyük təsiri var. Ona görə də bilavasitə Avropa Birliyi ilə Azərbaycan arasında əlaqələr yaranması bütün cəhətlərə görə lazımdır, zəruridir və mənfəətlidir. Mənim Brüsseldə səfərimin əsas məqsədi də bundan ibarət idi ki, Azərbaycan Avropa Birliyi ilə daha sıx əlaqə yaratmaq imkanı qazansın.

Avropa Birliyinə hər altı ayda bir ölkə rəhbərlik edir. Onun daimi fəaliyyət göstərən strukturlarının rəhbərləri isə beş ildən bir seçilir. Cənab Santer də Avropa Birliyi komissiyasının prezidentliyinə beş il müddətinə seçilib. Bu komissiya ilə bizim sıx əməkdaşlığımız üçün şəxsi münasibətlər yaratmaq, Azərbaycanla Avropa Birliyi arasındakı əlaqələri nizama salmaq çox vacibdir. Mən bu səfərimin nəticələrindən çox razıyam.

Səfər zamanı cənab Santerlə, cənab Bruk və başqaları ilə çox səmərəli danışıqlar, söhbətlər, müzakirələr apardıq. Respublikamızın iqtisadi, sosial vəziyyəti ölkəmizdə gedən proseslər, Ermənistanla müharibə nəticəsində Azərbaycanın düşdüyü vəziyyət, torpaqlarımızın bir hissəsinin işğal altında olması bir milyondan çox qaçqının çətin şəraitdə yaşaması haqqında mən orada geniş məlumat verdim, bu sahədə ölkəmizdə aparılan işlərdən söhbət açdım. Mən respublikamızdakı demokratik dəyişikliklər, proseslər, dövlət quruculuğu, iqtisadiyyat, siyasət sahəsində aparılan işlər haqqında, o cümlədən iqtisadi islahatların həyata keçirilməsi, demokratik prinsiplərin bərqərar olunması haqqında, siyasi plüralizm, insan azadlığı, söz azadlığı, insan hüquqlarının qorunması məsələləri haqqında da ətraflı məlumat verdim.

Bu ilin oktyabrında respublikamızda parlament seçkiləri keçirilməsi nəzərdə tutulur. Seçkilərin demokratik şəraitdə aparılması haqqında mən orada söhbət açarkən Avropa Birliyini də bu seçkilərdə müşahidəçi kimi iştirak etməyə dəvət etdim. Biz bu il yeni demokratik Konstitusiya hazırlığı və qəbul etməyi nəzərdə tuturuq. Mən bu barədə də Avropa Birliyinə məlumat verdim. Bunlar çox əhəmiyyətli məsələlərdir. Avropa Birliyi demokratik dəyişikliklərin, islahatların aparılmasında çox maraqlıdır və respublikamıza da bununla əlaqədar öz münasibətini, köməyini göstərir.

Bunlarla yanaşı, Avropa Birliyinin respublikamıza indiyədək etdiyi yardım,

kömək haqqında öz minnətdarlığımı bildirdim. Eyni zamanda biz bundan sonra görüləsi işlər haqqında danışıqlar apardıq. Avropa Birliyinin bu sahədə böyük imkanları vardır. Birlik bir neçə istiqamətdə fəaliyyət göstərir, keçmiş sovet ittifaqının tərkibində olmuş respublikalara yardım edir. Təəssüf ki, biz Avropa Birliyinin bu imkanlarından yalnız son vaxtlarda istifadə etməyə çalışmışıq. Bu imkanlar əvvəllər ya respublikamıza məlum olmayıb, yaxud passiv mövqe tutması nəticəsində Azərbaycan bu istiqamətdə lazımi əlaqə qura bilməyib. Amma son vaxtlar - təxminən 1994-cü ilin ikinci yarısından və 1995-ci ilin əvvəlindən Avropa Birliyi ilə bizim əməkdaşlığımız sürətlənmişdir. Nazirlər Kabineti bu sahədə son vaxtlar çox işlər görüb. Mən bu işləri müsbət qiymətləndirirəm. Məhz görülən bu işlər nəticəsində Avropa Birliyinin ölkəmizə iqtisadi yardımı güclənmişdir.

Məsələn, Avropa Birliyinin respublikamıza 300 min tona qədər taxıl və un göndərilməsi qərara alınacaqdır. Bundan başqa əvəzsiz olaraq 2 min ton ət, 2 min ton yağ verilib. Bildiyiniz kimi, Avropa Birliyi vaxtilə Azərbaycana 66 milyon ekyü məbləğində kredit ayırıb. Bu kreditin bir hissəsindən istifadə olunub. Amma qalan hissəsindən istifadə olunması yolları müəyyənləşdirildi.

Avropa Birliyinin bir sıra digər proqramları da var. Məsələn, EKHO proqramı əsasında Avropa Birliyi Azərbaycandakı aztəminatlı adamlara, qaçqınlara, çətin vəziyyətdə yaşayanlara humanitar yardım göstərir. Belə yardım keçən il də göstərilib. Amma həmin yardım bundan da artıq ola bilər. Biz bu yardımın daha səmərəli, mütəşəkkil olması haqqında da Brüsseldə danışıqlar apardıq.

Avropa Birliyinin TASİS proqramı da var. Bu, çox geniş bir proqramdır. Azərbaycan bu proqram əsasında çox müvəffəqiyyətli müştərək iş görə bilər. Amma təəssüf ki, bu işlərin hamısına nəzarət edilməyib. Respublikadakı bir sıra təşkilatların fəaliyyətsizliyi, bir çox sahələrdəki bürokratizm nəticəsində bəzi təşəbbüslər sönüb. TASİS proqramı haqqında mən indi geniş məlumat aldım və belə fikirləşirəm ki, bu proqramın çox sahələrində əməkdaşlıq edə bilərik. Biz bu barədə Avropa Birliyi komissiyasında razılığa gəldik.

Bundan əlavə, 1993-cü ilin ikinci yarısında və 1996-cı ildə Azərbaycana əvəzsiz ərzaq yardımı göndərilməsi barədə razılıq əldə olundu. Biz öz tələbatımızı Avropa Komissiyasına bildirdik və bunların ödənilməsi üçün razılıq verildi.

Avropa Birliyinin bütün bunlardan başqa çox güzəştli krediti var. Biz bu krediti almaq istəyirik. Mən bu barədə də danışıqlar apardım. Əgər bu mümkün olsa, Avropa Birliyinin nümayəndə heyəti may ayında Azərbaycana gələcək, respublikamızda bu istiqamətdə aparılan işlərə, iqtisadi islahatların həyata keçirilməsi vəziyyətinə baxacaq, demokratik proseslərin gedişi ilə tanış olacaqdır. Onlar sadəcə olaraq bunları öyrənmək istəyirlər.

Avropa Birliyində respublikadakı vəziyyətlə tanışdırlar. Onlar mənim verdiyim məlumatlardan razı qaldılar. Bizim danışıqlarımız çox səmərəli, əhəmiyyətli

keçdi. Birliyin nümayəndə heyəti respublikamızda olandan sonra mayın axırında bu məsələlər Avropa Şurasında müzakirə ediləcək, sonra dövlət başçılarının müzakirəsinə veriləcəkdir. Bundan sonra həmin yardımların respublikamıza göndərilməsinə başlanacaqdır.

Mən belə hesab edirəm ki, bütün bunlar respublikamız üçün geniş perspektivlər açır və apardığımız danışıqlarda yaxşı əsaslar qoya bilmişik. Güman edirəm ki, danışıqlarımızın nəticəsi təkcə bunlardan ibarət deyil. Əsas budur ki, Avropa Birliyinin rəhbərliyi ilə Azərbaycan prezidenti arasında bilavasitə münasibətlər yarandı və bu da bizim gələcək işlərimizə çox kömək edəcəkdir. Əminəm ki, Avropa Birliyi ilə əməkdaşlığımız daha da genişlənəcəkdir.

Mən indicə burada müşavirə keçirdim, məni bu səfərdə müşayiət edən şəxslərlə söhbət apardım, gördüyümüz işlərin nəticələri ilə bağlı onlara göstərişlər verdim. Fikrim bundan ibarətdir ki, bu işi daha mütəşəkkil aparmaqdan ötrü hər sahə üçün məsul qruplar yaradılmalı və onlar hamısı bir yerdə mərkəzləşməlidir. Mərkəzdə həmin işlərə həm nəzarət edilməli, həm də bu işlərin təşkilinə xüsusi fikir verilməlidir.

Bir sözlə, Avropa Birliyindəki görüşlərimdən, apardığım danışıqlardan çox məmnunam, razıyam. Hesab edirəm ki, bunlar Avropa Birliyi ilə əməkdaşlıq üçün yaxşı əsas yaradacaqdır.

***Sual:*** Cənab prezident əlbəttə, respublikamızın vəziyyəti ağırdır, humanitar yardımlar lazımdır. Lakin respublikamızın büdcə kəsirini heç olmasa indiki səviyyədə saxlamaq, inflyasiyanın dərinləşməsinin qarşısını almaq üçün Avropa Birliyindən alacağımız kredit kifayət edəcək, yoxsa əlavə tədbirlər lazımdır?

***Cavab:*** Bilirsiniz, bu bizim öz işimizdir. Avropa Birliyindən də, başqa yerlərdən də aldığımız kreditlər, gəlirlər hesabına yəqin ki, büdcənin kəsirini müəyyən qədər ödəyəcəyik. Ancaq büdcənin kəsirini təkcə bunlarla ödəmək mümkün deyil. Büdcəni normal vəziyyətdə saxlamaq, normal maliyyə fəaliyyəti göstərmək üçün gərək istehsal inkişaf etsin və bunun üçün lazımi tədbirlər görülsün. Bilirsiniz ki, aqrar sahədə istehsalı qaydaya salmaq üçün bir tərəfdən islahatlar aparılır, digər tərəfdən cari işlərin sürətləndirilməsi üçün mən bu yaxınlarda böyük bir müşavirə keçirdim. Orada konkret vəzifələr həyata keçiriləcək. Güman edirəm ki, islahatlarla yanaşı, bunlar öz nəticəsini verəcəkdir. Sənaye sahəsində də istehsalı artırmaq üçün əlavə tədbirlər görülməlidir. Birincisi, mən hesab edirəm ki, bizim sənaye müəssisələrinin mövcud imkanlarından lazımi səviyyədə istifadə olunmur. Mənə belə gəlir ki, sənaye sahəsindəki strukturlara rəhbərlik edənlər, zavodların, fabriklərin başçıları səhlənkarlıq edirlər. Bu yaxınlarda mən bu işə də diqqəti artıracağam, səhlənkarlıq edən adamların hamısı ciddi tənbeh olunacaq, cəzalandırılacaqdır. Onların bəziləri bəlkə də vəzifələrindən azad olunacaqlar.

Məsələn, bu yaxınlarda mən "Metallurgiya" Dövlət Şirkətinin rəhbərini

vəzifəsindən azad etdim. Çünki bir tərəfdən işlər pis gedirdi, həmin şirkətdə olan imkanlardan lazımınca istifadə olunmurdu, digər tərəfdən də o, vəzifəsindən istifadə edərək cinayət edirdi və bu cinayətə görə də məsuliyyət daşımalıdır. Başqaları da bundan ibrət götürməlidirlər. Axı bəzi insanlar bu cinayət yolu ilə nə qədər yaşayacaqlar, vəzifələrindən nə qədər sui-istifadə edəcəklər. Bax, bütün bunların nəticəsində respublika iqtisadiyyatında gərgin vəziyyət yaranmışdır. Doğrudur, yollar bağlıdır, iqtisadi əlaqələr qırılıb, başqa obyektiv səbəblər də var. Amma eyni zamanda respublikamızda mövcud potensialdan səmərəli istifadə olunmur. Ona görə də nazirlər, şirkət, müəssisə rəhbərləri özləri üçün nəticə çıxarmalı, sənaye müəssisələri işləməlidir.

Əgər mövcud imkanlardan səmərəli istifadə olunsa, istehsalın səviyyəsi yuxarı qalxar, bu da büdcənin sağlamlaşdırılmasına şərait yaradar. Yenə də deyirəm, büdcənin sağlamlaşdırılması məsələsinin təkcə kreditlər vasitəsilə həll etmək olmaz. Biz gərək respublikamızdakı potensialı hərəkətə gətirək. Güman edirəm ki, biz bunu edəcəyik.

***Sual:*** Cənab prezident, soydaşlarımızla görüşdə deyildiyi kimi, Azərbaycan prezidenti hər gün təxminən 19-20 saat işləyir, onun ətrafındakılar isə yox. Bu yaxınlarda keçirdiyiniz müşavirədə də siz bu məsələyə toxundunuz və dediniz ki, belə davam edə bilməz. Biz çox vaxt demokratiya ilə anarxiyanı qarışıq salırıq. Buna yol verməmək üçün Heydər Əliyevin dəmir əlinin qalxmasına ciddi ehtiyac olduğunu söyləyirlər. Bu belədirmi?

***Cavab:*** Bilirsiniz, həqiqət bundadır ki, demokratiyanı heç anlamayan adamlar "demokratiya" deyə-deyə respublikada anarxiya yaradıblar. Demokratiya bərqərar olmalıdır, iqtisadiyyat inkişaf etməlidir. Söhbət sağlam, həqiqi demokratiyadan gedir. Bizim cəmiyyətdə demokratiya pərdəsi altında çirkin işlər görənlərə yer olmamalıdır. Biz bu istiqamətdə iş aparmalıyıq. "Demokratiya" deyib qışqıra-qışqıra cinayət edənlərə, dövlətimizin əleyhinə gedənlərə cəmiyyətdə yer verilməməlidir. Bundan sonra belə hal olmayacaq, onlar öz cəzalarını alacaqlar. Bu son hadisələr göstərdi ki, heç bir şey cəzasız qalmır və qalmayacaqdır.

Ancaq eyni zamanda vəzifəli şəxslərin çoxu son illər məsuliyyətsizliyə öyrənibdir. Bəziləri məsuliyyətsizlik, vəzifəsindən sui-istifadə və cinayət edərək vəzifəsində qaldığına görə elə hesab edirlər ki, belə yaşamaq olar. Onlar bizim cəmiyyətə nə qədər zərər vururlar. Bir tərəfdə kasıb kütlə, o biri tərəfdə qeyri-qanuni, cinayət yolu ilə zənginləşmiş ayrı-ayrı vəzifəli şəxslər - bu ədalətsizlikdir. Mən bu ədalətsizliyə dözə bilmirəm və xalq da dözə bilmir, dözməyəcəkdir. Mən də dözməyəcəyəm, xəbərdarlıq da etmişəm.

Güman edirəm, bu söhbətimiz televiziya vasitəsilə hamıya çatacaq, ona görə də bir daha deyirəm ki, mən bütün bunlara dözməyəcəyəm. Kim xalqına sədaqətlə, namusla, saf ürəklə, mənəviyyatla xidmət edəcəksə, onlar bizimlə bərabər işləyəcəklər.


www.aliyevheritage.org

Cinayətkar yolla, vəzifəsindən sui-istifadə edərək rüşvət alanlar, cürbəcür pis əməllər törədərək varlananlar elə hesab edirlərsə ki, bu varla yaşayacaqlar, - səhv edirlər. Yaşamayacaqlar! Bizim cəmiyyət onları kənara atacaq, sağlamlaşacaq, mənəviyyat yüksələcək və orada belə adamlara yer olmayacaqdır. Nə qədər gec deyil, qoy o adamlar düzgün yol tutsunlar.

***Sual:*** Cənab prezident, sizə və sizin siyasətinizə qarşı ən qatı müxalifətdə duranlar da beynəlxalq aləmdəki müvəffəqiyyətlərinizi inkar etmək imkanında deyillər, lakin daxili siyasətinizi tənqid edirlər. Bu məsələyə münasibətiniz necədir?

***Cavab:*** Bilirsiniz, onlar nədən danışdıqlarını heç bilmirlər. Əslində isə danışmağa söz tapmırlar. Görəsən onlar anlayırlarmı ki, daxili siyasət nədir? Anlamırlar. Məgər iqtisadi islahatlar haqqında qanunların qəbul edilməsi asan məsələdirmi? Görəsən, bu iqtisadi islahatları aparmağa onlara kim imkan vermirdi? Axı indi bağıran o adamların əlində hakimiyyət var idi, bəs nə üçün onlar bu islahatları aparmadılar? Aparmadılar, hakimiyyətdən gedəndən sonra isə istədiklərini danışırlar. O, tərəfdən, bu tərəfdən olan bir-birinə zidd çıxan adamlar indi, necə deyərlər, eyni havanı çalırlar, eyni səslə bağırırlar ki, o yoxdur, bu yoxdur.

Azərbaycanda iqtisadi islahatlar, demokratiya prosesi gedir və gedəcəkdir. Orda -burda qışqırırlar ki, seçki nə vaxt olacaqdır. Fevral ayında parlamentin səlahiyyəti qurtarır. İndidən qışqırmağın nə əhəmiyyəti var? Ora-bura getdilər ki, guya respublikada seçki keçirmək istəmirlər. Necə ola bilər ki, seçki aparılmasın? Seçki keçiriləcəkdir. İndi seçki qanunu hazırlanır. Seçkinin vaxtı üç ay qabaq elan olunacaqdır. Amma bu adamların ağzını yummaq üçün bir daha deyirəm ki, seçkilər oktyabr ayında keçiriləcəkdir. Qərarı mən qəbul etmirəm. Ancaq yəqin ki, mənim də fikrim müəyyən qədər nəzərə alınacaqdır.

Məlumdur ki, daxili həyatımız o qədər də asan deyil. Azərbaycanda il yarım ərzində üç dəfə dövlət çevrilişi cəhdi olub. Hansı ölkədə belə şey ola bilər? 1993-cü ilin iyununda biz Azərbaycanı böyük bir faciədən xilas etdik. O vaxt Azərbaycan dağılmışdı, parçalanmışdı. Azərbaycanı belə faciəli hala salan adamlar nəticə çıxarmaq əvəzinə, üzərlərindən təhlükə götürülən kimi özlərini yenə də köhnə əhval-ruhiyyə ilə aparmağa başladılar.

Yaxud, o vaxt vəzifə alan adamlar. Məgər bu vəzifə onlar üçün bəs deyilmi? Yox, onlara daha böyük vəzifələr lazım imiş. Keçən ilin oktyabrında yeni bir çevriliş hazırladılar. Çevriliş edənlərin bir hissəsini dağıtdıq, bir hissəsini bağışladıq ki, respublikamızda əmin-amanlıq olsun. Lakin əmin-amanlıq olmadı. Bütün o müxalifət qüvvələri Xüsusi Təyinatlı Polis Dəstəsinin başına toplaşdılar. Doğrudur, XTPD-də olanların da ağlı yox idi. Bir də deyirəm, bir-birinə zidd olan qüvvələr həmin bu XTPD-dən hərəsi öz məqsədləri üçün istifadə etməyə çalışdılar. Dəstənin başında duranlar da belə fikirləşdilər ki, XTPD dövləti devirə bilər. Gəlib qan tökdülər. Bu çevrilişin də qarşısı alındı. Bayaq dediyim kimi, Azərbaycan il yarım içərisində üç

dəfə faciədən qurtarıb. Bəs bunu nəzərə almamaq olarmı? Bir çevrilişdən sonra məhkəmə prosesi getdi və yarımçıq qaldı. İkinci çevriliş cəhdindən sonra adamlar həbs olundu, indi istintaq gedir. Üçüncü çevriliş cəhdindən sonra adamlar həbs olundu, eyni zamanda bəziləri qaçıb. Oktyabr hadisələrindən sonra da bəzi adamlar qaçıb gizləniblər. Onları axtarmaq, tapmaq, cəzalandırmaq lazımdır. Daxili siyasət barədə bağıran adamlar bütün bunları görürlərmi? Axı onlar özləri bu gərginliyi yaradan adamlardır. Bir tərəfdən gərginlik yaradır, işləməyə imkan vermirlər, digər tərəfdən də bağırırlar ki, "daxili siyasətdə çatışmazlıqlar var". Heç bir şey yoxdur. Hər şey normal gedir və normal da gedəcək. Hamı da bilsin ki, Azərbaycanda bərqərar olan demokratiya keçmiş Sovetlər İttifaqının tərkibində olmuş respublikaların hamısı üçün nümunə olacaqdır. Heç kəsin buna şübhəsi olmasın. Onlar da bilsinlər ki, bəsdir və çəkilib yerlərində otursunlar.

Biz artıq üç dəfə sübut etdik ki, Azərbaycanı dağıtmaq istəyən adamların qarşısında güc var. Bu, birinci növbədə xalqın gücüdür, iradəsidir. Mən də bura gələn gündən bir prezident kimi xalqın iradəsinə arxalanmışam, söykənirəm və bundan sonra da arxalanacağam. Bunlar isə mənə milyon dəfə artıq güc verir.

Mənim Brüsseldə Belçikanın Baş naziri ilə səmərəli görüşüm, çox əhəmiyyətli söhbətim oldu. Belçika Avropanın mərkəzində böyük bir ölkədir. Bir çox beynəlxalq təşkilatların baş qərargahı burada yerləşir. Belçika həm iqtisadi cəhətdən, həm də dövlət quruculuğu sahəsində çox inkişaf etmiş bir dövlətdir. Bu ölkənin Baş naziri ilə mən keçən dəfə də görüşmüşdüm. Sonra biz Budapeştdə, Kopenhagendə, Davosda da görüşmüşdük. Bu gün bizim ikitərəfli münasibətlər qurulması haqqında daha ətraflı söhbətimiz oldu. Mən onu Azərbaycanda rəsmi səfərə dəvət etdim. O da məni Belçikaya rəsmi səfərə dəvət etdi. O bildirdi ki, siz beynəlxalq təşkilatların rəhbərləri ilə görüşmək üçün buraya gəlirsiniz, amma indi Belçikaya rəsmi səfərə gəlin.

Belə hesab edirəm ki, apardığımız bu danışıqlar ölkəmiz üçün əhəmiyyətli olacaq. Biz Belçika ilə əlaqələri bilavasitə inkişaf etdirə bilərik. Məhz buna görə də mən Azərbaycanın Belçikada səfirini təyin etdim. O, Brüsseldə qaldı, orda fəaliyyət göstərəcək. Mən onu Baş nazirə təqdim etdim. Bu isə beynəlxalq təşkilatlarla əlaqəsinə kömək edəcək, həm də ölkəmizlə Belçika arasında əlaqələri inkişaf etdirəcəkdir.

***Sual:*** Keçmiş SSRİ-nin tərkibində olmuş ölkələrin bir çoxunda, xüsusilə Orta Asiya və Qazaxıstanda səlahiyyətləri başa çatan prezidentlər öz səlahiyyətlərini referendum yolu ilə uzatmaq niyyətindədirlər. Prezident Heydər Əliyev isə həmişə xalqa arxalanıb. Oktyabr çevrilişi cəhdi zamanı bir çağırışınızla meydana bir milyon adam yığıldı. Təkcə televiziyanın xəbərlər baş redaksiyası prezidenti müdafiə edən minlərlə teleqram alıb. Onların bəzilərində, hələ vaxta 4 il qalsa da, səlahiyyət müddətinizin uzadılması məsələsi qaldırılır.

***Cavab:*** Narahat olmasınlar, mənim səlahiyyət müddətim çoxdur. Səlahiyyət müddəti başa çatanda seçkilər olacaq. Əgər xalq istərsə, mən yenə də seçilərəm. Güman edirəm ki, xalq məndən ayrılmayacaq.

***Sual:*** Yəni siz həmin seçkilərə gedəcəksiniz?

***Cavab:*** Bəli, bəli.

# Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Avropa Birliyi Komissiyasının komissarı Hans Van Den Brukla birgə mətbuat konfransında bəyanatı

4 oktyabr 1995-ci il

Hörmətli xanımlar və cənablar!

Siz - mətbuat nümayəndələri Avropa Birliyinin nümayəndə heyətinin başçısı cənab Hans Van Den Brukla və nümayəndə heyətinin üzvləri ilə danışıqlarımızda iştirak etmisiniz, onların məzmunu ilə tanışsınız. Ona görə də bu barədə geniş məlumat verməyə ehtiyac yoxdur. Mən yalnız onu demək istəyirəm ki, Azərbaycan ilə Avropa Birliyi arasında əməkdaşlıq sürətlə inkişaf edir. Brüsseldə, Avropa Birliyinin baş qərargahında olarkən mən bu birliyin rəhbərləri cənab Jak Santerlə və cənab Hans Van Den Brukla, habelə başqaları ilə ətraflı söhbətlər aparmışdım. Bundan sonra bizim əməkdaşlığımızda böyük dəyişikliklər əmələ gəlir. Azərbaycanın iqtisadi vəziyyəti ağır olduğuna görə Avropa Birliyi ölkəmizə ərzaqla və digər yardımlarla kömək edir. Bütün sahələrdə bizim əməkdaşlığımız mütəşəkkil surətdə həyata keçir.

Ancaq qeyd etmək istəyirəm ki, əməkdaşlığımızın bundan sonra da inkişaf etməsinə böyük ehtiyac vardır. Bunu nəzərə alaraq mən cənab Van Den Bruku Azərbaycana rəsmi səfərə dəvət etmişəm. O, mənim dəvətimi qəbul edərək böyük bir nümayəndə heyəti ilə respublikamıza gəlib. Hesab edirəm ki, burada apardığımız danışıqlar səmərəli oldu. Nəticədə Azərbaycan ilə Avropa Birliyi arasında yeni memorandumu indicə imzaladıq. Memorandumu Azərbaycan Respublikası tərəfindən Baş nazir Fuad Quliyev, Avropa Birliyi tərəfindən isə təşkilatın komissiyasının komissarı cənab Hans Van Den Bruk imzaladı.

Bizim əməkdaşlığımız təkcə bu memorandumla bitmir. Bu, sadəcə olaraq hazırkı vaxta dair olan sənəddir. Biz Avropa Birliyi ilə daha sıx əməkdaşlıq etmək üçün, onun tərəfdaşı olmaq üçün öz təkliflərimizi vermişik. Həmin təkliflər qəbul olunubdur. Bu günlərdə danışıqlar aparmaq üçün biz xüsusi nümayəndə heyətini təyin edəcəyik. Danışıqlar nəticəsində belə razılığa gəlmişik ki, bu nümayəndə heyəti bu ayın sonunda və ya noyabrın əvvəlində Brüsselə gedəcək. Avropa Birliyi ilə tərəfdaşlıq səviyyəsində əməkdaşlıq etmək üçün danışıqlar aparacaqdır. Həmin danışıqlar nəticəsində böyük bir saziş imzalanacaqdır. Biz bunu istəyirik və bu sahədə lazımi işləri görəcəyik. Biz Avropa Birliyi ilə əməkdaşlığın genişləndirilməsinə tərəfdarıq. Hesab edirəm ki, cənab Van Den Brukun Azərbaycana səfəri bu işə müsbət təsirini göstərəcəkdir.

Cənab Van Den Bruk Respublikamızda qaçqınların məskunlaşdığı bölgəyə səfər edib və orada qaçqınlarla görüşüb, Azərbaycanın işğal olunmuş ərazilərindən zor-

la qovulmuş vətəndaşlarımızın həyat şəraitinin ağırlığını öz gözləri ilə görübdür. Onu müşayiət edən nümayəndə heyəti də həmin yerlərdə olubdur. Bunların hamısı Avropa Birliyində Azərbaycan barəsində daha dəqiq, ətraflı və obyektiv məlumat əldə etmək üçün yaxşı bir vasitədir. Mən buna görə - Azərbaycana gəldiyinə və burada bu işləri gördüyünə görə cənab Van Den Bruka və onunla gələn nümayəndə heyətinə təşəkkürümü bildirirəm. Hesab edirəm ki, cənab Van Den Bruk da öz bəyanatını verəcəkdir.

# Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Qərbi Avropa ölkələrinə işgüzar səfərə yola düşməzdən əvvəl Binə Hava Limanında müxbirlərin suallarına cavabı

21 aprel 1996-cı il

Avropa Birliyi ilə Azərbaycan arasında əməkdaşlıq artıq başlanıbdır. Biz xeyli zamandır ki, bu əməkdaşlığı yaratmaq üçün addımlar atmışıq, danışıqlar aparmışıq və nəhayət, indi Avropa Birliyi qərara alıbdır ki, aprelin 22-də Lüksemburqda Avropa Birliyinin üzvü olan ölkələrin xarici işlər nazirlərinin toplantısında Azərbaycan, eləcə də Gürcüstan və Ermənistan Avropa Birliyinə qəbul olunmaq üçün saziş imzalayacaqlar. Bu, şübhəsiz ki, ilkin sazişdir, amma çox mühüm bir sazişdir və bunun tarixi əhəmiyyəti var. Çünki bu saziş Azərbaycanın Avropa Birliyinə qoşulmasında böyük bir addımdır.

Bunun həm iqtisadi, həm də siyasi əhəmiyyəti var. Bu, Azərbaycanda demokratiyanın inkişafı, Azərbaycanın demokratiya yolu ilə, bazar iqtisadiyyatı yolu ilə getməsi prinsiplərinin Azərbaycanda daha da inkişaf etməsi üçün yeni bir mərhələdir. Ona görə mən buna çox böyük əhəmiyyət verirəm və bir də qeyd edirəm ki, mən yola düşməzdən öncə biz burada - Azərbaycanda bu məsələni müzakirə etdik. Hesab edirəm ki, bu, Azərbaycanın həyatında tarixi hadisədir. Eyni zamanda mən Brüsseldə olarkən NATO-nun Baş Qərargahına gedəcəyəm. Bildiyiniz kimi, 1994-cü il mayın 4-də Azərbaycan NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulubdur və o zaman mən bu barədə sənədi imzalamışam. İndi o sənədin imzalanması ilə əlaqədar bu qoşulmanın prezentasiya sənədi təqdim ediləcəkdir. Burada da görüşlərimiz olacaqdır.

Ondan sonra isə mən Norveçə yola düşəcəyəm. Norveç ilə Azərbaycan arasındakı əlaqələr son zamanlar çox sürətlə inkişaf edir. Bilirsiniz ki, Norveçin böyük neft şirkəti "Statoyl" Xəzər dənizinin Azərbaycan sektorunda neft yataqlarının istifadə olunmasında iştirak edir və konsorsiumun üzvüdür. Biz onlarla çox sıx əməkdaşlıq edirik və Norveç hökumətinin dəvəti ilə mən bu ölkəyə rəsmi səfərə gedirəm. Orada Norveçlə Azərbaycan arasında əlaqələrin inkişaf etdirilməsi üçün danışıqlar aparılacaq və bir çox sənədlər imzalanacaqdır.

Hesab edirəm ki, bunların hamısı Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirən və onu dünyada bir daha nümayiş etdirən addımlardır, hadisələrdir və eyni zamanda Azərbaycanın Dünya Birliyində tutduğu özünəməxsus yeri bir daha əyani surətdə nümayiş etdirir.

***Sual: Ayaz Mütəllibovun Azərbaycana verilməsi məsələsinə necə baxırsınız?***

***Cavab**:* Adamlar öz vətənindən qaçmamalıdırlar. Hətta hüquqa, qanuna zidd hansısa əməllər törətmiş olsalar da, öz xalqı, öz hakimiyyət orqanları qarşısında

bunu etiraf etmək yaxşıdır, nəinki hansısa başqa bir ölkədə sığınacaq tapmaq. İndiki halda Mütəllibov da, Rəhim Qazıyev də cinayət etmişlər. Əslində elə buna görə də uzun müddətdir ki, Azərbaycanın hüdudlarından kənarda gizlənirdilər.

Bilirsiniz ki, Rəhim Qazıyev Rusiyanın hüquq-mühafizə orqanları tərəfindən həbs edilmiş və respublikamıza verilmişdir, Azərbaycanın hüquq-mühafizə orqanlarının sərəncamındadır. Mütəllibov da həbs olunub və Rusiyanın hüquq-mühafizə orqanlarının sərəncamındadır. Zənnimcə, bunun özü Rusiya ilə Azərbaycan arasında, o cümlədən hüquq-mühafizə orqanlarımız arasında mehriban əməkdaşlığın olmasına inandırıcı sübutdur. Bu fakt göstərir ki, Rusiya ilə Azərbaycan arasında münasibətlər dostluq xarakteri daşıyır və biz bu münasibətləri çox yüksək qiymətləndirir, bunları bütün sahələrdə - iqtisadiyyatda da, elm-texnika sahəsində də inkişaf etdirmək, dərinləşdirmək üçün hər şeyi edirik. Yeri gəlmişkən, deyim ki, aprelin 23-də Moskvada Azərbaycan mədəniyyəti günləri başlanacaqdır. Biz Rusiya ilə dostluğu Azərbaycanın xarici siyasət sahəsində əməkdaşlığının çox mühüm amili sayırıq.

Rəhim Qazıyevə gəldikdə isə, bilirsiniz ki, o, Milli Təhlükəsizlik Nazirliyinin təcridxanasından qaçmış və qanunsuz yolla Azərbaycanın hüdudlarını tərk edərək Moskvada gizlənirdi. Şübhəsiz ki, buna görə cavab verməlidir. O ki qaldı bağışlanma haqqında müraciətə, bizim məhkəməmiz ədalətlidir, əgər insan öz günahını başa düşürsə, əməllərindən peşman olursa, ona həmişə rəhm edilir. Ona da belə münasibət ola bilər.

Mənə məlum olduğuna görə, Mütəllibov ən yüksək cəza – ölüm cəzası nəzərdə tutulan maddə ilə ittiham edilmir. Buna görə də hesab edirəm ki, onun barəsində belə cəza tətbiq oluna bilməz. Ümumən onun məsuliyyət daşımasına gəldikdə isə, hesab edirəm ki, o, Vətəninə qayıtmalı və ədalət məhkəməsi qarşısında dayanmalıdır. Məhkəmə ona ədalətlə və mərhəmətlə yanaşacaqdır.

***Sual: Axtarışda olan adamların verilməsi müqabilində Azərbaycanın müəyyən güzəştlərə gedə biləcəyi barədə şayiələrlə əlaqədar fikrinizi bilmək olarmı?***

***Cavab:*** Bilirsiniz, bunlar çox bəsit uydurmalardır. Dövlətlərarası münasibətlər, xüsusən də Azərbaycan üçün çox yaxın, dost dövlət olan Rusiya kimi böyük bir ölkə ilə münasibətlərimiz hansısa təsadüfi amillər əsas götürülməklə qurula bilməz. Bu şayiələr olduqca bəsit uydurmadır. Mən də fikir vermişəm, Moskva mətbuatında belə mülahizələr, ehtimallar artıq dərc olunur. Mən buna hətta təəccüb edirəm. Bilirsiniz, biz Rusiya ilə çox mehriban əməkdaşlıq edirik, bu əməkdaşlıq konyunktura xarakteri daşımır və hansısa cinayətkarın Azərbaycana verilib-verilməməsindən asılı ola bilməz. Əgər biz dövlətlərarası münasibətlərimizi həmin prinsiplər əsasında qursaydıq, bu, bizim də, Rusiyanın da səviyyəsini aşağı salmış olardı. Hesab edirəm ki, Rusiya Federasiyası dövləti də, Azərbaycan dövləti də bu təsadüfi hallardan çox-çox yüksəkdə dayanır.

Biz Rusiya ilə fəal əməkdaşlıq edirik. Biz MDB-yə daxilik, onun tərkibində də əməkdaşlığımız uğurla gedir. Xəzərdəki neft yataqlarının birgə işlənməsində də Rusiya Federasiyası ilə çox fəal əməkdaşlıq edirik, Rusiyanın "LUKoyl" şirkəti beynəlxalq konsorsiumda böyük yer tutur. Bu ilin yanvarında Moskvada mən və Rusiyanın Baş naziri cənab Çernomırdin Azərbaycandan ilkin neftin Rusiyanın Novorossiysk limanına və oradan Qara dəniz vasitəsilə ixracına dair böyük saziş imzalamışıq. Əməkdaşlığa dair çoxlu başqa layihələrimiz də var, bunlar irimiqyaslı, dövlətlərarası xarakter daşıyır. Rəhim Qazıyevin, yaxud Mütəllibovun şəxsiyyəti bununla müqayisədə əhəmiyyətsiz şeydir.

# Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Azərbaycan Respublikası ilə Avropa Birliyi arasında tərəfdaşlıq və əməkdaşlıq haqqında sazişin imzalanması mərasimində çıxışı

Lüksemburq, 22 aprel 1996-cı il

Hörmətli xanımlar və cənablar!

Azərbaycan Respublikası ilə Avropa Birliyi arasında tərəfdaşlıq və əməkdaşlıq haqqında bu gün imzalanan saziş gənc müstəqil Azərbaycan dövləti üçün çox böyük əhəmiyyəti olan tarixi bir hadisədir.

Saziş hərtərəfli əməkdaşlığı genişləndirmək və dərinləşdirmək, beynəlxalq sülhü və təhlükəsizliyi, inteqrasiya prinsiplərini möhkəmləndirmək, insan hüquqlarını qorumaq, bütün Avropa qitəsində tərəqqiyə və səmərəli əməkdaşlığa nail olmaq üçün geniş üfüqlər açır.

Azərbaycan Avropa ölkələri arasında inteqrasiya proseslərinin gələcəyinə böyük ümidlər bəsləyir və bərabərhüquqlu tərəfdaş kimi bu proseslərdə fəal iştirak edəcəkdir.

Dövlət müstəqilliyini əldə etdikdən sonra Azərbaycan Respublikası demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolu ilə əzmlə irəliləyir. Qısa bir zaman ərzində bu sahədə xeyli nailiyyətlər əldə edilmişdir. Respublikada otuzdan artıq siyasi partiya fəaliyyət göstərir, siyasi plüralizm, söz azadlığı, mətbuat və vicdan azadlığı bərqərar olmuşdur. Referendum yolu ilə müstəqil Azərbaycanın ilk demokratik Konstitusiyası qəbul edilmiş, respublikanın parlamentinə çoxpartiyalı əsasda ilk demokratik seçkilər keçirilmişdir.

Biz azad sahibkarlığa və bazar iqtisadiyyatına əsaslanan geniş miqyaslı iqtisadi islahatlar aparırıq. Mülkiyyətin özəlləşdirilməsinə dair dövlət proqramı qəbul edilib və həyata keçirilir. Özəl sektorun yaradılması və xarici investisiyaların cəlb edilməsi üçün hər cür şərait təmin olunur.

Dünyanın aparıcı şirkətləri ilə imzalanmış sazişlər Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyasında mühüm rol oynayır. Xəzər dənizinin Azərbaycan sektorundakı enerji ehtiyatlarının birgə istismarına dair xarici şirkətlərlə bağlanmış neft müqavilələri buna əyani sübutdur.

İqtisadi islahatları həyata keçirmək üçün biz beynəlxalq maliyyə təsisatları və beynəlxalq təşkilatlar ilə sıx əməkdaşlıq edirik. Avropa Birliyi ilə əməkdaşlığa isə xüsusi əhəmiyyət veririk.

Avropa Birliyinin topladığı təcrübə və bu birliyə daxil olan dövlətlərin demokratiyanı inkişaf etdirməkdə, səmərəli iqtisadiyyat yaratmaqda, öz xalqlarının firavanlığını təmin etməkdə qazandıqları müvəffəqiyyətlər gənc müstəqil dövlətlər üçün

gözəl nümunədir.

Beynəlxalq sülhü və təhlükəsizliyi qoruyub saxlamaq və möhkəmləndirmək sahəsində də Avropa Birliyinin böyük nailiyyətləri var. Bir çox kəskin beynəlxalq problemlər barəsində Avropa Birliyinin tutduğu prinsipial mövqelər istər Avropada, istərsə də onun hüdudlarından kənarda münaqişələrin ədalətlə aradan qaldırılmasına dəfələrlə kömək etmişdir. Biz ümid edirik ki, Cənubi Qafqazda mövcud olan problemlərin həllində də Avropa Birliyi daha fəal iştirak edəcək və bu da regionumuzda sülhün və sabitliyin tezliklə bərpa olunmasına öz təsirini göstərəcəkdir.

Azərbaycana qarşı törədilmiş təcavüz nəticəsində ərazimizin iyirmi faizi işğal edilmiş, minlərlə kəndlər, şəhərlər, sosial, xalq təsərrüfatı obyektləri, mədəniyyət abidələri dağıdılmış, yerlə yeksan edilmişdir. İşğal olunmuş ərazilərdən bir milyondan çox Azərbaycan vətəndaşı öz doğma yurdlarından didərgin düşmüş və qaçqın vəziyyətində yaşayır.

Böyük itkilərə, xalqımıza dəyən maddi və mənəvi zərbələrə baxmayaraq, biz Ermənistanla münaqişəni sülh yolu ilə, ATƏT-in Minsk qrupu çərçivəsində danışıqlar yolu ilə həll etməyin tərəfdarıyıq. Sülhə nail olmaq üçün dövlətlərin suverenliyini, ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını tanımaq, beynəlxalq hüquq normalarına əməl etmək lazımdır.

Bu mötəbər məclisdə mən bir daha bəyan edirəm ki, biz bu prinsiplərə bundan sonra da sadiq olacağıq, Ermənistan ilə Azərbaycan arasında sülhün əldə olunmasına çalışacağıq.

Bunun üçün işğal olunmuş bütün Azərbaycan ərazilərindən Ermənistan silahlı qüvvələri çıxmalıdır.

Yerlərindən-yurdlarından didərgin düşmüş qaçqınlar doğma yurdlarına qayıtmalıdırlar.

Azərbaycan Respublikası Dağlıq Qarabağa Azərbaycan dövlətinin tərkibində müasir dünya təcrübəsində mövcud olan ən yüksək muxtariyyət statusu verməyə hazırdır. İki dövlət arasında sülhün əldə olunması regionda sabitliyi və iqtisadi çiçəklənməni təmin edəcəkdir.

Fürsətdən istifadə edib, Azərbaycana göstərilən humanitar yardım üçün Avropa Birliyinə öz təşəkkürümü bildirirəm. Humanitar yardım hərbi təcavüz nəticəsində ziyan çəkmiş yüz minlərlə adamın vəziyyətini yüngülləşdirmişdir. Ümidvaram ki, Avropa Birliyi gənc dövlətimizin ehtiyaclarının və problemlərinin həll olunmasında bundan sonra da öz xeyirxahlığını əsirgəməyəcəkdir.

Azərbaycan ilə Avropa Birliyinin münasibətlərində yeni səhifə açarkən bir daha bəyan edirəm ki, sülh və sabitlik naminə, Avropa qitəsinin bütün xalqlarının rifahı naminə əlimizdən gələni edəcəyik.

Diqqətinizə görə təşəkkür edirəm.

## Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Avropa Konfrans Mərkəzində Zaqafqaziyanın digər iki respublikasının prezidentləri ilə birgə mətbuat konfransı

Lüksemburq, 22 aprel 1996-cı il

***Sual:*** Cənab Ter-Petrosyan, Ermənistanın da üzv olduğu BMT və ATƏT-in prinsiplərinə uyğun olaraq, Azərbaycanın ərazi bütövlüyünü rəsmən tanımaqda nə üçün çətinlik çəkirsiniz? Axı məlum olduğu kimi, Zaqafqaziyanın üç dövləti liderlərinin bəyannamə imzalaması yolunda əngəl məhz budur. Koçaryanın Dağlıq Qarabağa müstəqillik verilməsinin zəruriliyi barədə verdiyi, əslində ikinci erməni dövləti yaratmaq demək olan bəyanatlara münasibətiniz necədir?

***Levon Ter-Petrosyan:*** Birinci sualınıza - Azərbaycanın ərazi bütövlüyünü Ermənistanın nə üçün tanımaması haqqında suala cavab verim. Sizə əks sualım var - Azərbaycan Dağlıq Qarabağın öz müqəddəratını təyin etmək hüququnu nə üçün tanımır?

***Jurnalistin cavabı:*** Azərbaycan BMT-nin prinsiplərinə uyğun olaraq Azərbaycan Respublikasının ərazi bütövlüyü çərçivəsində Dağlıq Qarabağın öz müqəddəratını təyin etmək hüququnu tanıyır.

***Sual:*** Cənab Ter-Petrosyan, Ermənistan birliyin iştirakçısı olan dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və sərhədlərin toxunulmazlığına əməl edilməsi haqqında bəyannaməni imzalamaqdan boyun qaçırmışdır. Azərbaycan da daxil olmaqla MDB dövlətlərinin ərazi bütövlüyü məsələsində Ermənistanın mövqeyini necə izah edərdiniz? Bildiyiniz kimi, vasitəçilər belə hesab edirlər ki, Ermənistan ilə Azərbaycan arasındakı münaqişəyə son qoymaq üçün tərəflər qarşılıqlı güzəştə getməlidirlər. Azərbaycan prezidenti dəfələrlə bəyan etmişdir ki, onun ölkəsi güzəştə getməyə hazırdır və Azərbaycan Dağlıq Qarabağa ən yüksək muxtariyyət statusu verir. BMT-nin üzvü kimi Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımağa hazırdırmı? Sonrakı sualım prezident Heydər Əliyevə və Ermənistan prezidentinədir: dünənki rəsmi məlumatda qeyd olunmuşdur ki, münaqişənin aradan qaldırılması beynəlxalq prinsiplərə əməl edilməsinə əsaslanmalıdır. Bunu deyərkən nəyi nəzərdə tutursunuz?

***Levon Ter-Petrosyan***: Birinci suala cavab vermişəm. İkinci sual barədə onu deyə bilərəm ki, beynəlxalq hüquqlar deyərkən hamımızın hörmət etdiyimiz on prinsipi nəzərdə tuturuq. Bunların hamısının eyni qüvvəsi var. O ki qaldı, Dağlıq Qarabağın statusuna, bu məsələni Dağlıq Qarabağın əhalisi həll etməlidir.

***Heydər Əliyev:*** Beynəlxalq hüquq normalarına əməl edilməsi ifadəsi altında, şübhəsiz ki, bütün beynəlxalq hüquq normalarını nəzərdə tuturuq. Buraya çox anlayışlar daxildir və onlardan heç biri istisna edilmir.

***Sual:*** Sovet İttifaqını keçmiş sərhədləri daxilində bərpa etmək barədə Moskvada göstərilən cəhdlərə necə baxırsınız?

***Eduard Şevardnadze:*** Mən bunu yolverilməz sayıram. Yəqin ki, Dövlət Dumasının prezident Yeltsin tərəfindən rüsvayçı qərar adlandırılan qərarını nəzərdə tutursunuz. Zənnimcə, bu, çox dəqiq qiymətdir. Onu da əlavə edim ki, Dövlət Duması özünün bu qərarı ilə NATO-nun Şərqə doğru genişlənməsi prosesinin sürətlənməsinə kömək edir.

***Levon Ter-Petrosyan:*** Bilirsiniz, keçmiş Sovet İttifaqında, məhz Rusiyada kommunistlərin qayıtmaq təhlükəsi var. Ölkəmin adından əmin etmək istəyirəm ki, Ermənistan heç vaxt öz suverenliyindən imtina etməyəcək və keçmiş Sovet İttifaqı hüdudlarında heç bir yeni ittifaqa daxil olmayacaqdır. Lakin kommunistlərin qayıtması təkcə keçmiş Sovet İttifaqı respublikaları üçün deyil, zənnimcə, həm də Avropa və bütün dünya üçün böyük təhlükədir. Cənab Şevardnadzenin dediyi məsələyə toxunaraq qeyd etmək istəyirəm ki, Rusiyada demokratiyanın qorunub saxlanması Avropanın təhlükəsizliyi üçün NATO-nun genişlənməsindən daha mühümdür. İndi dünyanın təhlükəsizliyi üçün başlıca məsələ Rusiyada kommunistlərin qayıtmasına yol verməməkdən ibarətdir.

***Heydər Əliyev:*** Açıq deyirəm və hesab edirəm ki, bununla bütün Azərbaycan xalqının rəyini ifadə etmiş oluram. Bir prezident kimi mən Sovetlər İttifaqının bərpasına və şübhəsiz ki, kommunist rejiminin bərpasına dair Rusiyada özünü göstərən meyllərə qəti şəkildə mənfi münasibət bəsləyirəm. Azərbaycan öz müstəqilliyindən heç vaxt geri çəkilməyəcəkdir. Azərbaycanın müstəqilliyi onun tarixi nailiyyətidir və biz keçmiş Sovetlər İttifaqı kimi hər hansı bir ittifaqa daxil olmağı özümüzə heç vaxt rəva bilməyəcəyik. Hesab edirəm ki, bu niyyətin müəllifləri nəyəsə nail olmağa ümid bəsləyirlərsə, son dərəcə yanılırlar. Rusiyada kommunistlərin qayıtması təhlükəsi var və zənnimcə, demokratik qüvvələr bunun qarşısına sipər çəkməlidirlər. Rusiyada demokratik proseslərin inkişaf etməsinin təkcə onun özü üçün deyil, həm də keçmişdə Sovetlər İttifaqının tərkibində olub indi demokratiya yolu ilə gedən ölkələrin hamısı üçün böyük əhəmiyyəti var.

***Sual:*** Cənab Əliyev, siz bəyan etdiniz ki, Azərbaycanda demokratik seçkilər keçirilib, 30 partiya və azad mətbuat var. ATƏT-in beynəlxalq müşahidəçiləri Azərbaycanda keçirilmiş parlament seçkilərini qeyri-demokratik və qeyri-azad seçkilər kimi səciyyələndirmişlər. Siyasi partiyalar qadağan olunub, azad mətbuat yoxdur. Burada ziddiyyət nədən ibarətdir?

***Heydər Əliyev:*** Sizin sualınız qərəzli xarakter daşıyır. Mən dedim ki, qeydiyyatdan keçmiş 30 partiya sərbəst fəaliyyət göstərir, demokratik yolla seçilmiş parlamentdə 9 partiya təmsil olunub və bunlardan bəziləri müxalifət partiyalarıdır. Azərbaycanda bütün sahələrdə demokratiya bərqərar olur. İstinad etdiyiniz mənbələrdən xəbər alın ki, onlar nə üçün belə bəyanatlar verirlər.

***Sual:*** Bu gün imzalanmış saziş Avropa ilə əməkdaşlığı və inteqrasiyanı nəzərdə tutur. Lakin mənə elə gəlir ki, indi Zaqafqaziyanın özündə inteqrasiya bundan heç də az əhəmiyyətli deyildir. Siz Zaqafqaziyada inteqrasiyanın mümkünlüyünə inanırsınızmı? Bu gün imzalanmış saziş ona necə kömək edə bilər.

***Levon Ter-Petrosyan:*** Zənnimcə, bu suala əvvəlcə "Qafqaz evi" yaratmağın təşəbbüsçüləri cavab verəcəklər, sonra mən onların fikrinə qoşularam.

***Eduard Şevardnadze:*** Biz hesab edirik ki, bugünkü gün Gürcüstan üçün, Zaqafqaziyanın bütün dövlətləri üçün tarixi bir gündür. Əvvəla, ona görə ki, biz Avropa ilə inteqrasiyaya başlayırıq; ikincisi, Avropa özü Qafqazın həm Avropa, həm də bütün dünya üçün əhəmiyyətini dərk etməyə başlayır. Avropa Birliyi müasir dünyada dövlətlər arasında inteqrasiya proseslərinin həyata keçirilməsinə ən yaxşı nümunədir. Bu, on illərlə toplanmış təcrübədir. Ona görə də Avropa Birliyi ilə saziş imzalayarkən, şübhəsiz ki, biz nəzərdə tuturuq ki, Zaqafqaziya regionu daxilində, bu əsasda da Avropa ilə inteqrasiya mümkündür. Yeri gəlmişkən, onu da əlavə etmək istəyirəm ki, Avropa Birliyi ilə imzaladığımız saziş MDB çərçivəsində və Qara dəniz iqtisadi regionu ölkələrinin əməkdaşlığı çərçivəsində üzərimizə götürdüyümüz öhdəliklərə əsla zidd deyildir.

***Heydər Əliyev:*** Söz yoxdur ki, bugünkü hadisə tarixi əhəmiyyətə malikdir. Avropa ilə inteqrasiya bütün Zaqafqaziya respublikaları üçün bütövlükdə dünya iqtisadi sistemi ilə inteqrasiyadan, demokratik proseslərin inkişafından, demokratik islahatların həyata keçirilməsindən ötrü çox mühüm vasitədir. Artıq Avropa Birliyindən aldığımız kömək, humanitar yardım, habelə müxtəlif bazar islahatlarının aparılması üçün göstərilən kömək ona dəlalət edir ki, inteqrasiya səmərəli və faydalı olacaqdır. Təbiidir ki, bu inteqrasiya Zaqafqaziya bölgəsində də inteqrasiya həyata keçirilməsini nəzərdə tutur.

Zaqafqaziya respublikaları arasında inteqrasiyanın mümkünlüyü barədə konkret suala cavab vermək istəyirəm. Əlbəttə, Zaqafqaziya respublikaları arasında inteqrasiya mümkündür. Məsələn, Azərbaycanla Gürcüstan arasında çox sıx inteqrasiya mövcuddur. Bu yaxınlarda biz Tbilisidə bir sıra sənədlər imzaladıq. Cənab prezident Şevardnadze və mən, Gürcüstanın və Azərbaycanın digər nümayəndələri inteqrasiyaya dair böyük bir proqram nəzərdə tutmuşuq. Şübhəsiz ki, Azərbaycan ilə Ermənistan arasında da çox sıx inteqrasiya mümkündür. Bununla əlaqədar dünən axşamdan xeyli keçmiş biz cənab prezident Ter-Petrosyan ilə görüşdükdə dedik ki, biz münaqişənin aradan qaldırılmasına, sülh yaranmasına, sülh sazişi bağlanmasına nail olmalıyıq. Mənim heç bir şübhəm yoxdur ki, bunun ardınca iqtisadi əlaqələr yüksək sürətlə inkişaf edəcəkdir. Mən buna inanıram.

***Levon Ter-Petrsoyan:*** Mən də əlavə etmək istəyirəm ki, Zaqafqaziya dövlətlərinin sıx əməkdaşlığına inanıram. Bir tarixçi kimi deməliyəm ki, bu, labüddür. Zaqafqaziya üç xalqın tarixən təşəkkül tapmış regionudur, bu xalqların taleləri əsrlər

ərzində qaynayıb qarışıbdır. İndi regionda birliyin olmaması bizim bəlamızdır. Amma Allaha şükür ki, məsələ, məncə kiçik bir işdən asılıdır. Heydər Əliyeviç dedi ki, Azərbaycan ilə Gürcüstan arasında gözəl münasibətlər var. Mən bunu Gürcüstan ilə Ermənistan arasında münasibətlər barəsində də deyə bilərəm. Kiçik bir məsələ - Azərbaycan ilə Ermənistan arasında münasibətləri tənzimləmək məsələsi qalır. Bundan ötrü isə yalnız Qarabağ problemini həll etmək lazımdır. Burada hələlik yeganə bir maneə var. Hətta Abxaziya münaqişəsi - Gürcüstan üçün ağır problem olan bu münaqişə, şükürlər olsun, Zaqafqaziya dövlətləri arasında münasibətlərə xələl gətirmir. Biz Qarabağ probleminin həll olunacağı xoşbəxt günə gəlib çıxdıqda hesab edə bilərsiniz ki, həmin gündən bu inteqrasiya da olacaqdır. Çünki onsuz biz mövcud ola bilmərik. Bu yaxınlarda mən Ermənistanda öz çıxışlarımdan birində dedim ki, istər Azərbaycan, istərsə də Ermənistan özü üçün ən təbii iqtisadi tərəfdaşdan əslində məhrum olmuşdur. Bir iqtisadi tərəfdaş kimi Ermənistan Azərbaycanı itirmişdir, Azərbaycan isə Ermənistanı itirmişdir. Onlar ən təbii iqtisadi tərəfdaşdırlar. Bu tərəfdaşlığın zəruriliyi bütün tarix ərzində sübuta yetirilmişdir. Bu tərəfdaşlığın bərpasından sonra hər iki dövlətimiz iqtisadi yüksəliş üçün böyük ehtiyat mənbəyi əldə edəcəkdir. Bir sözlə, mən buna nəinki inanıram, həm də hesab edirəm ki, biz bu məqsəd uğrunda mübarizə aparmalıyıq.

***Heydər Əliyev:*** Əlavə edim ki, Dağlıq Qarabağ məsələsinin həlli üçün hərbi münaqişəyə son qoymaq, Azərbaycanın işğal olunmuş torpaqlarından silahlı qüvvələri çıxarmaq, bir milyon qaçqını öz yaşayış yerlərinə qaytarmaq lazımdır. Qarabağ məsələsinin həllinin açarı məhz bundan ibarətdir. Mən bir daha bəyan edirəm ki, Azərbaycan Dağlıq Qarabağa Azərbaycan Respublikası çərçivəsində, Azərbaycanın ərazi bütövlüyü şərti ilə ən yüksək status verməyə hazırdır.

***Sual:*** Cənab prezidentlər, çeçen münaqişəsinə münasibətiniz necədir? Sizin fikrinizcə, bu münaqişəni necə aradan qaldırmaq olar?

***Eduard Şevardnadze:*** Zənnimcə, cavab sadədir. Çeçenistan Rusiya dövlətinin tərkib hissəsidir. Biz hamımız həm öz ölkələrimizin, həm də Rusiyanın ərazi bütövlüyünə tərəfdarıq. Bilavasitə münaqişəyə gəldikdə, biz, o cümlədən də mən onun dinc vasitələrlə tezliklə aradan qaldırılmasına həmişə tərəfdar olmuşuq. Belə düşünürəm ki, Rusiya prezidentinin axırıncı təşəbbüslərində münaqişənin məhz dincliklə aradan qaldırılması nəzərdə tutulur.

***Levon Ter-Petrosyan:*** Bu suala cavabım standartdır: Qarabağ problemini indiyədək həll etməyə qadir olmadığımdan, bu suala cavab verməyi özüm üçün mənəviyyatsızlıq və ya etikaya zidd sayıram. Biz bu problemi həll etdikdən sonra çeçen probleminin həlli barədə məsləhətlər verə bilərəm.

***Heydər Əliyev:*** Biz həmişə separatizmin əleyhinə çıxmışıq və çıxırıq, hər hansı bir dövlətin ərazi bütövlüyünə, sərhədlərinin pozulmazlığına, indiki halda Rusiyanın ərazi bütövlüyünə və suverenliyinə tərəfdarıq. Çeçenistanda nə baş verirsə,

bunların hamısı bizim keçmişdə də, bu gün də pislədiyimiz separatizmin nəticəsidir. Aydındır ki, müharibə gedir, qan tökülür. Bunların hamısı böyük narahatlıq doğurur. Hesab edirəm ki, Rusiya hökuməti öz ölkəsinin ərazi bütövlüyü prinsipini əsas tutaraq, bu məsələnin həllinin ən məqbul yolunu axtarıb tapmağa qadirdir.

***Sual:*** Cənab Şevardnadze, Avropa strukturları, Rusiya Qafqazda münaqişələrin aradan qaldırılması proseslərinə necə təsir göstərə bilərlər?

***Eduard Şevardnadze:*** Bu gün mən öz çıxışımda dedim ki, gürcü - osetin münaqişəsinin həllində müəyyən tərəqqi yaranmışdır. Özü də burada Avropanın təhlükəsizlik strukturları, xüsusən Avropa Birliyi böyük rol oynayırlar. Rusiya ilə birlikdə onlar vasitəçilik vəzifəsini yerinə yetirir və bu, ona əyani misaldır ki, xüsusən belə mühüm saziş imzalandıqdan sonra Avropa Birliyi Zaqafqaziyada və bütövlükdə Qafqazda münaqişələrin hamısının aradan qaldırılmasında daha mühüm rol oynaya bilər.

***Sual:*** Cənab prezidentlər, bu gün siz Almaniyanın xarici işlər naziri Klaus Kinkel ilə görüşdünüz. Bununla siz Qafqazda Almaniyanın xüsusi bir rolu olduğunu nəzərə çarpdırmaq istəyirsiniz?

***Levon Ter-Petrosyan:*** Əgər bizi başqa bir ölkənin xarici işlər naziri səhər yeməyinə dəvət etsəydi, siz bu ölkənin xüsusi rolundan danışardınız? Bu, sadəcə olaraq təsadüfdür.

***Eduard Şevardnadze:*** Mən xoşbəxtəm ki, bütün dövlətlərin, o cümlədən Avropa ölkələrinin rəhbərləri ilə şəxsən mənim aramda çox səmimi və yaxşı münasibətlər yaranıbdır. O ki qaldı Almaniyaya, o cümlədən cənab Kinkelə, bəlkə də burada hansısa xüsusiyyətlər, Gürcüstan dövlətinin təşəkkül tapmasına, xüsusən iqtisadi sahədə dirçəlməsinə bu ölkənin göstərdiyi xüsusi bir yardımın, xüsusi bir köməyin rolu var.

***Heydər Əliyev:*** Biz Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılmasında və Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpa edilməsində bizə real kömək göstərə bilən hər hansı dövləti alqışlayırıq. Almaniya Avropanın ən böyük dövlətlərindən biridir. Almaniyaya və onun xarici işlər nazirinə böyük hörmət və rəğbətim var.

***Sual:*** Cənab Əliyev, Qarabağa vəd etdiyiniz geniş muxtariyyət dedikdə nəyi nəzərdə tutursunuz?

***Heydər Əliyev:*** Dünya praktikasında mövcud olan ən yüksək muxtariyyət statusunu. Müxtəlif ölkələrdə öz dövlətçilik atributları olan muxtar qurumlar var, amma həmin atributlar bu muxtar qurumun daxil olduğu dövlətin atributlarına tam uyğun olmalıdır. Mən bunu nəzərdə tuturam. Lakin aydın və konkret olsun deyə, dünya praktikasında mövcud olan ən yüksək muxtariyyət statusunu nəzərdə tuturam. Dünya praktikasında hər hansı muxtariyyəti tapıb mənə xəritədə göstərin, mən ona razılıq verərəm.

***Sual:*** Bu sual Ermənistan prezidentinədir: Ermənistan dinc Qafqaz uğrunda Tbilisi bəyannaməsinə qoşulmağa hazırlaşırmı? Bu sual isə prezident Şevardnadzeyədir: NATO-nun Şərqə tərəf genişlənməsi ilə müqayisədə Avropa Birliyinin genişlənməsinə regional təhlükəsizlik üçün daha möhkəm zəmin kimi baxmaq olarmı?

***Levon Ter-Petrosyan:*** Sizin sualınıza mən demək olar, cavab vermişəm. Çünki Zaqafqaziya dövlətlərinin inteqrasiyası ideyasını dəstəkləyir və tarixi zərurilik sayıram. O ki qaldı Ermənistanın Tbilisi bəyannaməsinə formal surətdə qoşulmasına, burada iki məqam var: Əvvəla, biz bu sənədin hazırlanmasında iştirak etməmişik. İkincisi, Ermənistan bu məsələyə Qarabağ probleminin həllindən sonra baxacaqdır.

***Eduard Şevardnadze:*** Zənnimcə, NATO-nun Şərqə tərəf genişlənməsi ilə Avropa Birliyinin genişlənməsini bu cür qarşı-qarşıya qoymaq əsla qanunauyğun deyildir. Onların müxtəlif funksiyaları, müxtəlif məqsədləri var. Mən bayaq dedim ki, Avropa Birliyinin Şərqə tərəf genişlənməsi nə MDB-nin, nə də Qara Dəniz İqtisadi Birliyi ölkələrinin və digər regional təşkilatların maraqlarına zidd deyildir. Buna görə də mənə elə gəlir ki, Avropa Birliyinin Şərqə tərəf genişlənməsi bütün regionlarda, o cümlədən Zaqafqaziyada sabitlik üçün mühüm təminatdır.

***Sual:*** Cənab prezidentlər, siz Qafqazda münaqişələrin aradan qaldırılmasında Rusiyanın istər keçmişdə, istərsə də gələcəkdə rolunu necə qiymətləndirirsiniz?

***Eduard Şevardnadze:*** Rusiya abxaz münaqişəsinin, eləcə də gürcü - osetin münaqişəsinin aradan qaldırılmasında çox yaxından iştirak edir. Zənnimcə, Rusiyanın bu cür iştirakı, vasitəçiliyi və müəyyən dərəcədə sülhpərvərliyi, şübhəsiz, faydalı, bəlkə də hətta həlledici olacaqdır; amma bir şərtlə ki, bunlar BMT Təhlükəsizlik Şurasının və birlik ölkələrinin məlum qətnamələrində göstərilmiş prinsiplər əsasında həyata keçirilsin. Bizim xüsusi coğrafi mövqeyimiz sizə məlumdur. Rusiya istəsə, abxaz münaqişəsi çox sürətlə aradan qaldırılar. Amma bəla burasındadır ki, Rusiyada müxtəlif qüvvələr, müxtəlif cərəyanlar var. Bəzən siyasi spektrin bu cür tərkibi nizamasalma prosesini, o cümlədən abxaz münaqişəsinin aradan qaldırılmasını sürətləndirməyə mane olur.

***Levon Ter-Petrosyan:*** Keçmiş Sovet İttifaqının ərazisindəki bütün münaqişələrin aradan qaldırılmasında Rusiyanın çox yaxından iştirakı onların müvəffəqiyyətlə həlli üçün zəruri şərtdir. Yəni Rusiyanın fəal iştirakı olmadan bu münaqişələr heç vaxt aradan qaldırılmayacaqdır.

***Heydər Əliyev:*** Rusiya Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılmasında fəal iştirak edir. O, ATƏT-in Minsk qrupunun həmsədridir. Biz onun fəaliyyətinə böyük ümid bəsləyirik. Bu baxımdan biz Rusiya ilə uzun illərdir əməkdaşlıq edirik və bu əməkdaşlığı indən sonra da davam etdirməyi lazım bilirik. Zənnimcə, Qafqazda bu münaqişələrə, xüsusən Dağlıq Qarabağ üstündə Ermənistan ilə Azərbaycan arasındakı münaqişəyə son qoymaq üçün Rusiya bö-


www.aliyevheritage.org

yük potensial imkanlara malikdir. Ümidvaram ki, Rusiya özünün bu imkanlarından istifadə edəcəkdir.

***Sual:*** Ermənistan və Azərbaycan prezidentləri görüşərək, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması məsələlərinin müzakirəsi üçün bu səfərdən niyə istifadə etmədilər?

***Levon Ter-Petrosyan:*** Azərbaycan və Ermənistan prezidentləri Lüksemburqda olduqlarından istifadə etdilər və dünən gecədən xeyli keçmiş görüşdülər. Bu görüş bir saatdan çox çəkdi. Demək olar ki, dünən biz münaqişənin aradan qaldırılması məsələsində indiki vəziyyətə yekun vurduq və yaxın aylarda görəcəyimiz tədbirləri razılaşdırdıq. İndiki atəşkəsi qəti olaraq saxlamaq, Azərbaycan ilə Ermənistan arasında dialoqu intensiv surətdə davam etdirmək, humanitar problemləri həll etmək, ən əvvəl, tərəflərin bütün hərbi əsirləri və girovları azad etməsi nəzərdə tutulmuşdur. Belə düşünürəm ki, bu, bir görüş üçün böyük nailiyyətdir. Biz onun yekunlarına əsasən birgə rəsmi məlumat yaydıq, buraya sadaladığım həmin bəndlər daxildir.

***Heydər Əliyev:*** Cənab Prezident Ter-Petrosyanın verdiyi məlumatla tamamilə razıyam, ona görə də təkrar etməyəcəyəm. Yalnız onu əlavə etmək istəyirəm ki, dünən mən Lüksemburqa gələn kimi cənab Ter-Petrosyanın burada olub-olmamasını xəbər aldım. O, Lüksemburqa gələn kimi mən öz müşavirim Vəfa Quluzadəni onun yanına göndərdim. Onlar razılığa gəldilər və cənab Ter-Petrosyanın dediyi kimi, biz gecədən xeyli keçmiş görüşdük, çox uzun çəkən bir söhbət keçirdik. Görüşün nəticələri, razılaşmalarımız elə dünən elan etdiyimiz birgə bəyanatda öz əksini tapmışdır. Bəyanatın məzmunu barədə Levon Akopoviç danışdı.

# Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Qərbi Avropa ölkələrinə səfərdən qayıtdıqdan sonra respublika milli televiziyasına müsahibəsi

27 aprel 1996-cı il

***Heydər Əliyev:*** Bu səfər çox vaxt alsa da, hesab edirəm ki, səfər zamanı görülən işlər həqiqətən çox dəyərlidir. Bilirsiniz ki, aprelin 21-dən, yəni Bakıdan yola düşəndən bəri bu səfər zamanı çox gərgin iş olub. Bu da birinci növbədə hər bir imkandan istifadə edib Azərbaycanın mənafelərini təmin etmək üçün lazımi tədbirlər görməklə əlaqədar idi. Bu səfərin birinci hissəsi Azərbaycan Respublikasının Avropa Birliyi ilə əməkdaşlıq və tərəfdaşlıq haqqında sazişi imzalaması ilə bağlı idi. Biz bu sazişi imzaladıq. İmzalanma mərasimi çox böyük hadisə idi.

Bilirsiniz ki, Avropa Birliyinə daxil olan dövlətlərin xarici işlər nazirləri orada idi. Bu həm də məhz Azərbaycanın və digər Zaqafqaziya respublikaları - Gürcüstanın, Ermənistanın Avropa Birliyi ilə saziş imzalaması mərasimi ilə əlaqədar idi. Bir daha deyirəm, bu, tarixi hadisədir. Hesab edirəm ki, bu sazişin imzalanması müstəqil dövlət kimi Azərbaycanın mövqelərini daha da möhkəmləndirir, eyni zamanda respublikamızın daxili, ictimai-siyasi həyatında, iqtisadiyyatında və başqa sahələrdə Avropa demokratiyasına uyğun tədbirlərin həyata keçirilməsinin təzahürüdür. Xatirinizdədir ki, orada olan çıxışlarda Avropa Birliyinin nümayəndələri, üzvləri də bunu qeyd edirdilər. Mən bunu çox yüksək qiymətləndirirəm. Hesab edirəm ki, bu, Azərbaycanın həyatında böyük hadisədir, Avropa Birliyi ilə əməkdaşlıq etməyimiz üçün çox dəyərli bir addımdır. Şübhəsiz ki, bunun müsbət nəticələri olacaqdır.

Bununla yanaşı, biz Lüksemburqda bir neçə başqa görüş də keçirdik. Əməkdaşlığımızın bugünkü vəziyyəti və gələcək perspektivləri haqqında Brüsseldə Avropa Birliyinin iqtisadi komissiyasının sədri Jak Santerlə, ali komissar Van-Den Brukla danışıqlar apardıq. Bunlar da çox əhəmiyyətlidir. Çünki bunların hamısı Avropa Birliyi ilə çoxsahəli əməkdaşlıq aparmaq üçün lazım olan tədbirlərdir. Xüsusən Jak Santerlə və Den Brukla apardığımız danışıqlarda iqtisadi əməkdaşlığımız, yəni Avropa Birliyinin TASİS Traseka Proqramı, Humanitar yardım proqramı ilə nəzərdə tutulan tədbirlər və onların həyata keçirilməsi məsələsi müzakirə olundu. Bu da çox əhəmiyyətlidir. Hesab edirəm ki, bunlar hamısı bir yerdə, kompleks halda Azərbaycan ilə Avropa Birliyi arasında əməkdaşlığın irəli getməsini nümayiş etdirir.

Mən Brüsseldə NATO-nun baş qərargahında oldum, NATO-nun Baş katibi ilə görüşdüm. Mən 1994-cü ilin may ayında orada olmuşdum və NATO-nun “Sülh naminə tərəfdaşlıq” proqramını imzalamışdım. Ancaq biz bundan sonra da əməkdaşlığımızı davam etdirmişdik. Bu əməkdaşlığı daha da təsdiq etmək üçün

həmin proqram çərçivəsində respublikamızın prezentasiya sənədini mən onlara təqdim etdim.

Hesab edirəm ki, NATO-nun Baş katibi ilə danışığımız da çox məzmunlu, əhəmiyyətli oldu. Azərbaycanın müstəqilliyinin qorunub saxlanması üçün fikirlərimi mən ona bildirdim. Biz geniş fikir mübadiləsi apardıq. Bu da bizim üçün çox əhəmiyyətlidir.

***Müxbir:*** Cənab prezident, NATO ilə respublikamızın münasibətləri bəzən çoxlarında belə təsəvvür yaradır ki, - bu, müəyyən istəkdən də irəli gəlir - NATO ilə Azərbaycan arasında sıx əməkdaşlıq yaranıb. Amma yəqin ki, əslində bunlar ilk təmaslardır, əməkdaşlığın bünövrəsi qoyulur.

***Heydər Əliyev:*** Bəli, əməkdaşlığın bünövrəsi qoyulur. Çünki NATO-nun 1994-cü ildə elan etdiyi "Sülh naminə tərəfdaşlığ"a çağırış, sülh naminə çağırışdır. NATO-nun Baş katibi ilə danışıqlarımızın da məzmunu, mənası ondan ibarətdir ki, Azərbaycanın NATO-nun bu proqramına qoşulması və əməkdaşlıq etməsi Avropada, o cümlədən, bizim regionda sülhün daha da möhkəmləndirilməsinə nail olmaq məqsədi daşıyır. Bunlar sülh məramlı danışıqlardır. Mən hesab edirəm, bunu belə də qəbul etmək lazımdır. Şübhəsiz ki, əməkdaşlığımızı bu istiqamətdə bundan sonra da davam etdirəcəyik.

Lüksemburqda, Brüsseldə mənim ikitərəfli görüşlərim də oldu. Almaniyanın xarici işlər naziri cənab Kinkel ilə danışıqlarımız çox əhəmiyyətli, maraqlı oldu. Ermənistan prezidenti Levon Ter-Petrosyan ilə mənim Lüksemburqdakı görüşüm çox lazımlı bir görüş idi. Bu görüş hər iki tərəfin - həm Ermənistanın, həm də Azərbaycanın təşəbbüsü ilə oldu. Bu görüş və danışıqlar - münaqişədə olan iki ölkənin prezidentləri arasında birbaşa danışıqlar nəticəsində biz ilk dəfə olaraq birgə bəyanat elan etdik. Bu bəyanat çox əhəmiyyətlidir. Ona görə əhəmiyyətlidir ki, birincisi, biz bəyan etdik ki, hər iki tərəf atəşkəs rejiminin qorunub saxlanmasını bundan sonra da təmin edəcəkdir. Bilirsiniz ki, mayın 12-də bu sazişin imzalanmasının iki ili tamam olur. Bu çox vacibdir ki, biz atəşkəsin qorunub saxlanmasını bir daha bəyan edək və biz də arxayın olaq ki, Ermənistan da buna riayət edəcəkdir. Şübhəsiz, Ermənistan da narahatdır və onlar da istəyirlər bilsinlər ki, biz bu atəşkəsə riayət edəcəyik, yoxsa yox.

İkincisi, biz bəyan etdik ki, ikitərəfli danışıqlar davam edəcəkdir və bu məsələnin həll edilməsi yalnız sülh yolu ilə ola bilər. Bu da çox əhəmiyyətlidir. Biz bəyan etdik ki, bunun üçün danışıqları həm ATƏT-in Minsk qrupu çərçivəsində, həm də birbaşa davam etdirəcəyik. Bilirsiniz ki, Ermənistan ilə Azərbaycan arasında birbaşa danışıqlar da var və bu da davam edəcəkdir.

Sonra biz qərara gəldik ki, əsirlər iki tərəfdən də - onlarda da, bizdə də olanlar azad olunmalıdır. Əsirlər sayına görə yox, kimdə nə qədər var - "Hamını hamıya" prinsipi ilə verilməlidir. Bu da çox əhəmiyyətlidir. Mən hesab edirəm ki, bu

görüş və bu birgə bəyanat indiki mərhələdə bizim üçün lazımdır. Bu, dünyaya bir daha nümayiş etdirir ki, ağır zərbələr almasına baxmayaraq, Azərbaycan yenə də sülhsevər siyasət aparır, sülh yolu ilə gedir, məsələni sülh yolu ilə həll etmək istəyir.

Mənim Brüsseldə Gürcüstan prezidenti Eduard Şevardnadze ilə də görüşüm oldu. Bu görüş Gürcüstan ilə Azərbaycan arasında olan dostluq əlaqələrinin yeni bir təzahürüdür. Mən mart ayında Gürcüstanda səfərdə olmuşdum, biz çox əhəmiyyətli danışıqlar aparmışdıq və dəyərli sazişlər imzalamışdıq. Biz bunları bir daha nəzərdən keçirdik. Görüşdə təkcə Gürcüstan-Azərbaycan əlaqələri yox, bütün regionda olan vəziyyət, o cümlədən dünyanın və Müstəqil Dövlətlər Birliyinin problemləri ilə əlaqədar geniş danışıqlar apardıq. Mən bunu da çox əhəmiyyətli hesab edirəm.

Şübhəsiz ki, Brüsseldə başqa görüşlər də olub. Bilirsiniz ki, mən Brüsseldə ticarət mərkəzinə, o cümlədən ABŞ-ın oradakı ticarət mərkəzinə getdim. Digər görüşlərim də oldu. Mən bunların hamısını çox əhəmiyyətli hesab edirəm. Ancaq bir neçə məqam üzərində dayandım.

Norveçə isə rəsmi səfərə getmişdim. Bu səfər Norveçin Baş naziri xanım Brundtlandın dəvəti ilə idi. Mən bu dəvəti çoxdan almışdım, onun vaxtını elə müəyyənləşdirdim ki, Avropa Birliyinə səfərimlə eyni zamanda olsun ki, vaxta qənaət edə bilim. Mən hesab edirəm ki, bu səfər də çox uğurludur.

Bizim Norveç ilə əməkdaşlığımız çox səmərəlidir. Deyə bilərəm ki, Norveçdə olarkən apardığım danışıqlar, keçirdiyim görüşlər nəticəsində belə qənaətə gəldim ki, bu əməkdaşlıq, ola bilər, Azərbaycanda hələ təsəvvür edilməyən qədər səmərəlidir. Ola bilər ki, bu əməkdaşlığın bu gün və gələcək üçün nə qədər əhəmiyyətli olduğunu ictimaiyyətimiz hələ o qədər də bilmir. Yəqin ki, siz bu görüşlər, danışıqlar haqqında məlumat verdikdən sonra ictimaiyyətimiz bunu biləcək və hesab edirəm, bunun nə qədər əhəmiyyətli olduğunu dərk edəcəkdir. Mən bunu xüsusi qeyd etmək istəyirəm.

İlk dəfədir ki, Norveçlə Azərbaycan arasında birbaşa sazişlər imzalanıb. Biz Baş nazir xanım Brundtland ilə Norveç və Azərbaycan arasında əməkdaşlıq haqqında bəyanat imzaladıq. Bu, çox mühüm bir bəyanatdır. Başqa sazişlər də imzalandı. Yəni Norveç ilə Azərbaycan arasında əlaqələr indiyədək sadəcə iqtisadi əlaqələr səviyyəsində idisə, indi isə dövlətlər arasındakı əlaqələr səviyyəsinə qaldırıldı. Əgər indiyədək bizim əməkdaşlığımız iki ölkənin ayrı-ayrı şirkətləri ilə əlaqələr səviyyəsində idisə, indi bu, dövlətlərarası səviyyəyə qalxdı. Bu, çox əhəmiyyətlidir.

Bilirsiniz ki, Norveç Avropanın həm iqtisadi cəhətdən inkişaf etmiş, həm də iqtisadiyyatın demokratiya prinsipləri əsasında qurulması sahəsində çox nailiyyətlər əldə etmiş bir ölkədir. Norveçin xüsusiyyətlərindən biri də budur ki, bu dövlətdə bazar iqtisadiyyatı prinsipi ölkənin əhalisinin sosial vəziyyətinin inkişafı ilə çox sıx bağlıdır. Bu, Avropanın başqa ölkələrindən fərqlidir. Burada sosial problemlərə

çox böyük qayğı, diqqət göstərilir və nailiyyətlər çoxdur. Ona görə də indiki mərhələmizdə biz respublika əhalisinin sosial problemləri ilə ciddi məşğul olarkən mən bu təcrübənin çox əhəmiyyətli olduğunu qeyd etmək istəyirəm.

Şübhəsiz ki, Norveçdə neft-qaz sənayesi sahəsində əldə olunan nailiyyətlər çox maraqlıdır. Stavanger şəhərində, Stavangerdən 240 kilometr məsafədə dənizin ortasındakı platformada gördüklərimiz məni çox heyran etdi. Bu, çox əhəmiyyətlidir. Çünki 25-30 il ərzində neft və qaz istehsalı sahəsində, dənizin dərinliyindən neftin, qazın çıxarılması və ondan istifadə edilməsi sahəsində əldə olunmuş nailiyyətlər çox yüksək qiymətə layiqdir.

***Müxbir:*** Cənab prezident, siz Norveçdə olarkən bu platformanı möcüzə adlandırdınız. Azərbaycan prezidenti, yəni neft sənayesi ilə çox bağlı olan bir adam bunu möcüzə adlandırır. Bunun möcüzəliyi nədən ibarətdir?

***Heydər Əliyev:*** Bunun möcüzəliliyi ondadır ki, birincisi, bu, suyun dərinliyi çox olan sahədə yerləşən bir platformadır. İkincisi, bu platforma elə bir qurğudur ki, orada hər bir şey yaradılmışdır. Üçüncüsü, orada çox yüksək texnika, texnologiya tətbiq edilib, hər şey elektronika vasitəsilə idarə olunur. Məsələn, təsəvvür edin ki, ildə altı milyard kubmetr qaz istehsal olunan bir platformada onu idarə edən cəmisi 51 adam işləyir. Bilirsiniz, bu çox yüksək nailiyyətdir.

***Müxbir:*** Deməli, həm də öyrənməyə çox şey var.

***Heydər Əliyev:*** Bəli, öyrənməli çox gözəl şeylər var. İndi biz imzaladığımız müqavilələr əsasında quracağımız platformalar məhz belə platformalar olacaqdır. Ola bilər. Biz onu təkrar etməliyik, o cür qurmalıyıq. “Statoyl” şirkəti ilə yanaşı, o platformanı quran şirkətlərin hamısı məhz Norveçdə yerləşir. Mən onlarla da görüşdüm. Yəni bu platformanı təkcə neft istehsal edən şirkət qurmur. Bu platforma bir çox şirkətlərin birgə əməyinin nəticəsində yaranıb. Bu, kompleks inteqrasiyadır. Ona görə də bu, mənim üçün çox maraqlıdır, ona görə də, bu, möcüzədir.

Vaxtilə biz də möcüzələr yaratmışıq. Məsələn 20-30 il bundan əvvəl Neft Daşlarına dünyada möcüzə deyirdilər. Amma indi onlar Neft Daşlarında olan nailiyyətləri çoxdan ötüb keçiblər. Təkcə Neft Daşları deyil. Bizdə bu platformalar qurulubdur. Amma biz bu səviyyəyə hələ gəlib çatmamışıq. Mən belə platformaları 15 il bundan əvvəl Meksika körfəzində görmüşdüm. Ancaq bu, ondan da yüksəkdir, üstündür. Ona görə də möcüzədir.

Ola bilər, gələcəkdə Xəzər dənizində biz bundan da möcüzəli bir şey yaradaq. Ancaq bu gün biz sadəcə olaraq bu təcrübədən istifadə etməliyik. Ona görə də Norveçdəki görüşlərimiz çox əhəmiyyətlidir. Həm Baş nazir, həm parlament sədri, həm kral ilə, həm də nazirlərlə görüşlərim çox maraqlı, məzmunlu, əhəmiyyətli oldu. O cümlədən Oslo şəhəri ilə yanaşı Stavangerdə bir çox şirkətlərlə görüşlərim oldu. Mən dünən iş adamları ilə çox ətraflı söhbət etdim, onların qarşısında çıxış etdim. Azərbaycanın bugünkü iqtisadi imkanları haqqında geniş məlumat verdim,

onları respublikamıza sərmayə qoymağa dəvət etdim. Mən onlarda Azərbaycana olan çox böyük marağı hiss etdim. Bu, onu göstərir ki, Azərbaycan ilə Norveç arasındakı əlaqələrin geniş imkanları və böyük perspektivləri var.

Ümumiyyətlə, bu ölkə mənim çox xoşuma gəldi. Ərazisi böyük, amma əhalisi az olan bir ölkədir. Eyni zamanda Avropada yerləşən, keçmişdə çox kasıb, bu gün isə çox zəngin olan bir ölkədir. Yəni qısa müddətdə kasıblıqdan zənginliyə keçmək, demokratiyanı inkişaf etdirmək, yüksək texnologiyanı mənimsəmək və ondan istifadə etmək çox maraqlıdır. Təsəvvür edin, burada 800-ə qədər su elektrik stansiyası var. Ölkədə istifadə edilən elektrik enerjisi bu stansiyalarda istehsal olunur. Şübhəsiz ki, bizdə bu qədər çaylar və bu qədər su elektrik stansiyası tikmək imkanı yoxdur. Biz Kür üzərində "Yenikənd" Su Elektrik Stansiyasını tikmək istəyirik. Bunun üçün Avropa Yenidənqurma və İnkişaf Bankından kredit almışıq. Norveçin şirkətləri platformanın tikilməsində bizə çox kömək edə bilərlər. Onlar hələ bir əməkdaşlığa maraq göstərirlər. Yəni demək istəyirəm ki, biz onlarla həm iqtisadi, həm ümumxalqlar, millətlər, dövlətlər arasında əməkdaşlıq edə bilərik və bu, bizim üçün çox əhəmiyyətli olar.

Bütün bu səfərimin, görüşlərimin müsbət nəticələrindən biri ondan ibarətdir ki, Avropanın inkişaf etmiş bu dövlətlərində - həm Lüksemburqda, həm Belçikada, həm də Norveçdə Azərbaycanın demokratiya sahəsində əldə etdiyi nailiyyətləri qiymətləndirirlər. Bütün çıxışlarda, məsələn, xanım Brundtlandın, yaxud Jak Santerin çıxışlarında və başqa çıxışlarda Azərbaycana olan münasibət, respublikamızda demokratik dövlətin qurulması və demokratiyanın inkişaf etdirilməsi qeyd olundu. Nailiyyətlərimiz, iqtisadiyyat sahəsindəki potensial imkanlarımız onları cəlb edir və onlar bu sahədə əldə etdiyimiz nailiyyətləri yüksək qiymətləndirirlər. Bu da həm Avropa Birliyi ilə, həm də Avropanın demokratik dövlətləri ilə Azərbaycan arasında münasibətlərin inkişaf etdirilməsi üçün çox yaxşı əsasdır.

Ümumiyyətlə, mən bu səfərimdən və görüşlərimdən çox məmnunam. Hesab edirəm ki, Azərbaycanın dünya miqyasında, xüsusən Avropa qitəsində mövqelərinin möhkəmləndirilməsi, respublikamızın geniş miqyasda tanınması üçün lazımi qədər iş görülübdür və bunlar da hamısı dövlət müstəqilliyimizin möhkəmlənməsinə kömək edə bilər. Sağ olun.

## Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Avropa Birliyi İqtisadi Komissiyasının sədri Jak Santer ilə görüşdə söhbətindən

Strasburq, Avropa sarayı, 10 oktyabr 1997-ci il

Hörmətli cənab Santer! Məni səmimi salamladığınıza və ünvanıma söylədiyiniz xoş sözlərə görə təşəkkür edirəm. Brüsseldə Sizinlə görüşümüzü xatırladaraq apardığımız danışıqlardan razı qaldığımı bildirirəm. Biz Avropa strukturlarına daxil olmağımıza çox şadıq, Avropa Şurasının bugünkü zirvə görüşündə biz qonaq kimi iştirak edirik, ancaq ümidvarıq ki, yaxın gələcəkdə bu təşkilatın bərabərhüquqlu üzvü olacağıq. Bildirirəm ki, şəxsən mən Avropa strukturları ilə Azərbaycan arasında əlaqələrin indiki səviyyəsindən prinsip etibarilə razıyam.

Respublikamız Avropa Birliyinin komissiyası ilə əlaqələri daha da genişləndirmək istəyir. TRASEKA proqramı uğurla həyata keçirilir. Transqafqaz nəqliyyat dəhlizi qısa müddət ərzində Azərbaycanı, bütünlükdə Qafqazı, Avropanı birləşdirmişdir. Xatırladıram ki, Azərbaycan, Gürcüstan, Türkmənistan və Özbəkistan həmin dəhlizin yaradılması haqqında saziş imzalamışlar.

Xəzər dənizinin Azərbaycan sektorundakı yataqlardan çıxarılacaq neftin nəqli məsələsinə toxunarkən bunları demək olar: biz xarici neft şirkətləri ilə ilk müqaviləni 1994-cü ilin sentyabrında imzalamışdıq. İlkin neftin ixracı üçün iki boru kəmərinin marşrutları müəyyən edilmişdir. Hazırda neft boru kəmərinin marşrutu müzakirə olunur. Azərbaycanın imzaladığı neft müqavilələrində Avropa ölkələrinin iri şirkətləri də iştirak edirlər. Ona görə də istəyirik ki, əsas kəmər nefti Avropaya nəql etməyə imkan versin.

Ölkəmizdə həyata keçirilən iqtisadi islahatlardan danışarkən vurğulamaq olar ki, MDB-yə daxil olan digər ölkələrə nisbətən Azərbaycanda islahatlara müəyyən səbəblərə görə gec başlanmasına baxmayaraq, mühüm nəticələr əldə edilmişdir. İqtisadiyyatda dirçəliş başlanmış, inflyasiyanın səviyyəsi sıfır həddinə endirilmişdir. Özəlləşdirmə proqramı həyata keçirilir və bu prosesdə xarici ölkələrin hüquqi və fiziki şəxsləri də iştirak edə bilər. Torpaq islahatı haqqında radikal qanun qəbul edilmişdir. Azərbaycan dünya iqtisadiyyatına qovuşmaq xətti götürmüşdür. Xarici investisiyaları ölkəmizə cəlb etmək üçün əlverişli hüquqi-normativ baza yaradılmışdır. Biz Avropa Birliyi ilə əlaqələrin daha da genişləndirilməsinə xüsusi əhəmiyyət veririk.

Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması ilə bağlı məsələlər barədə danışarkən bunları demək olar ki, ATƏT-in Lissabon Zirvə görüşündə bu problemin sülh yolu ilə həllinə dair qəbul olunmuş prinsiplər, Minsk qrupu həmsədrlərinin təklifləri münaqişənin sülh yolu ilə həll olunacağına ümidləri artır-

mışdır. Azərbaycan tərəfi hərbi əməliyyatların yenidən başlanmaması, münaqişəyə Lissabon prinsipləri əsasında sülh yolu ilə son qoyulması üçün əlindən gələni edəcəkdir. Biz istəyirik ki, Avropanın bu hissəsində də sülh və əmin-amanlıq olsun.

Bizim Xəzər dənizinin statusu ilə bağlı mövqeyimizə gəlincə onu deyə bilərəm ki, biz sektor bölgüsünü düzgün hesab edirik. Bir daha xatırladıram ki, Xəzər dənizindəki neft yataqları vaxtilə məhz Azərbaycan alimləri və mütəxəssisləri tərəfindən kəşf olunmuşdur və dənizdən ilk nefti də yarım əsr əvvəl biz çıxarmışıq. Bildirirəm ki, Xəzərin statusu ilə bağlı fikir ayrılıqlarını biz danışıqlar yolu ilə həll etməyin tərəfdarıyıq.

***Jak Santer:*** Hörmətli cənab Prezident, ətraflı məlumat üçün Sizə təşəkkür edirəm. Əmin ola bilərsiniz ki, biz Azərbaycanla həmişə maraqlıyıq. Sizin ölkənizə Avropada maraq çox yüksəkdir. Biz əməkdaşlığımızı davam etdirəcəyik.

***Heydər Əliyev:*** Cənab Santer, ölkəmiz haqqında söylədiyiniz xoş sözlərə görə sizə təşəkkürümü bildirirəm və Sizi Azərbaycana səfərə dəvət edirəm.

# Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Tarixi İpək Yolunun bərpası üzrə Bakıda keçirilmiş beynəlxalq konfransda giriş nitqi

8 sentyabr 1998-ci il

Hörmətli dövlət və hökumət başçıları, nümayəndə heyətlərinin rəhbərləri!

Xanımlar və cənablar!

Sizi, Tarixi Böyük İpək yolunun bərpası üzrə beynəlxalq konfransın iştirakçılarını səmimi salamlayıram.

Avropa Birliyi Komissiyası ilə birlikdə belə mötəbər məclisin təşkilatçısı olmaq Azərbaycan Respublikası üçün böyük şərəfdir.

Konfransımız yeni müstəqil dövlətlərə kömək edilməsi sahəsində Avropa Birliyinin göstərdiyi səmərəli səylərin nəticəsidir. Həmin köməyin bünövrəsini 1991-ci ildə təsis edilmiş TASİS proqramı qoymuşdur. TASİS-in milli və dövlətlərarası proqramları çərçivəsində bir çox mühüm layihələr həyata keçirilir və bunlar yeni müstəqil dövlətlərdə demokratik islahatlar, bazar islahatları aparılmasına kömək göstərir.

Belə layihələrdən biri də 1993-cü ilin mayında qəbul olunmuş "Avropa-Qafqaz-Asiya Transqafqaz nəqliyyat dəhlizi (TRASEKA)" proqramıdır. Avropa Birliyi Komissiyasının təklifi ilə Azərbaycan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Ermənistan, Tacikistan, Türkmənistan, Özbəkistan nümayəndələrinin Brüsseldə görüşü olmuş və bu görüşdə regionun nəqliyyat infrastrukturunun inkişafı ilə bağlı məsələlər müzakirə edilmişdir.

Brüssel bəyannaməsi Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin əhəmiyyətini, onun inkişaf etdirilməsi sahəsində əməkdaşlığın konkret istiqamətlərini, forma və mexanizmlərini müəyyənləşdirmiş ilk beynəlxalq sənəd olmuşdur.

O vaxtdan bəri TRASEKA-nın işçi qruplarının Almatıda, Vyanada, Venesiyada, Afinada və Tbilisidə beş iclası keçirilmiş və bu iclaslarda mövcud nəqliyyat strukturlarının modernləşdirilməsinə və yeni obyektlərin tikilməsinə dair bir çox layihələr qəbul edilmiş və artıq qismən yerinə yetirilmişdir. Ukrayna və Monqolustan TRASEKA proqramının tam hüquqlu iştirakçıları olmuşlar.

TRASEKA proqramının uğurla həyata keçirilməsi, Avropa Birliyi Komissiyasının və iştirakçı ölkələrin gördükləri böyük iş, əməkdaşlığımızın konkret müsbət nəticələri daha genişmiqyaslı layihələr işlənib hazırlanmasına təkan vermişdir. Tarixi Böyük İpək yolunun bərpası bu layihələr arasında başlıca yer tutur.

Bununla əlaqədar olaraq, Avropa Birliyi Komissiyası və TRASEKA proqramının iştirakçısı olan ölkələr bu gün açdığımız Bakı Beynəlxalq konfransının keçirilməsi haqqında qərar qəbul etmişlər.

Konfransda 32 ölkənin və 13 beynəlxalq təşkilatın nümayəndə heyətləri iştirak edirlər.

Əminəm ki, tarixi Böyük İpək yolunun bərpası məsələlərinin müzakirəsi, konfransımızın nəticələri və yekunları milli və regional nəqliyyat strukturlarının, beynəlxalq iqtisadi əməkdaşlığın inkişafı, Avrasiya məkanında sülhün, sabitliyin və tərəqqinin möhkəmləndirilməsi üçün böyük əhəmiyyət kəsb edəcəkdir.

İcazə verin, konfransımızın hazırlanması, imzalanmağa təqdim olunmuş sənədlərin işlənib hazırlanması və razılaşdırılması üçün gördüyü böyük işə görə TRASEKA-nın işçi qrupuna təşəkkür edim.

Konfransın təşkilində köməyinə görə, demokratik islahatların, bazar islahatlarının aparılmasında, beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsində yeni müstəqil dövlətlərə böyük maliyyə yardımı və texniki yardım göstərdiyinə görə Avropa Birliyi Komissiyasına təşəkkür edirəm.

Dəvətimizi qəbul edib, Bakı şəhərinə gəlmiş bütün konfrans iştirakçılarına təşəkkürümü bildirirəm, onlara qonaqpərvər Azərbaycan torpağında uğurlu iş arzulayıram.

Tarixi Böyük İpək yolunun bərpası üzrə beynəlxalq konfransı açıq elan edirəm.

## Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Tarixi İpək Yolunun bərpası üzrə Bakıda keçirilmiş Beynəlxalq Konfransda çıxışı

8 sentyabr 1998-ci il

Hörmətli dövlət başçıları və nümayəndə heyətlərinin rəhbərləri, xanımlar və cənablar!

Bəşər sivilizasiyasının tarixində yollar, nəqliyyat xətləri həmişə çox böyük rol oynayaraq, həyatın bütün sahələrinə - siyasətə, iqtisadiyyata, mədəniyyətə təsir göstərmişdir. Bunun parlaq nümunələrindən və rəmzlərindən biri də bir çox ölkələrin və xalqların minillik tarixini, Çinin qədim mədəniyyətini, avropalıların böyük coğrafi kəşflərini, orta əsr müsəlman intibahının nailiyyətlərini və bir sıra digər cəhətləri ehtiva etmiş qlobal, nadir hadisə olan Böyük İpək yoludur.

Azərbaycan əzəldən Böyük İpək yolunda mühüm məntəqə olmuş, Avropa ilə Asiya arasında özünəməxsus körpü rolu oynamışdır. Qafqaz, Xəzər dənizi və Qara dəniz hövzələri ölkələri inkişaf etmiş ticarət, qarşılıqlı mədəni zənginləşmə, dini dözümlülük zonasını təşkil edərək, Böyük İpək yolunun özgür tərkib hissələrindən biri olmuşlar.

Bəşər tarixinin ayrılmaz tərkib hissəsi kimi Böyük İpək yolu yüksəliş və tənəzzül dövrləri keçirmişdir. Müharibələr, ideoloji və coğrafi-siyasi qarşıdurmalar, ayırıcı xətlər dövrləri başlandıqdan sonra bu yol həyatımızdan yox olaraq, gözəl bir əfsanəyə çevrilmişdi.

Lakin "soyuq müharibə" qurtardı, xalqlar müstəqillik əldə etdilər, ümumbəşəri dəyərlər, demokratik normalar, inteqrasiya prosesləri dünya siyasətində üstün yer tutdu və Böyük İpək yolu ideyasını tarixin gedişinin özü yenidən zəruri etdi.

Avropa Birliyi Komissiyasının uzaqgörən qərarını lazımınca qiymətləndirmək gərəkdir. Bu komissiyanın təşəbbüsü ilə 1993-cü ilin mayında Brüsseldə Qafqaz və Mərkəzi Asiya dövlətlərinin milli və beynəlxalq nəqliyyat, ticarət kommunikasiyalarının inkişafı strategiyasının müzakirəsinə həsr edilmiş xüsusi görüşü oldu.

Həmin görüşdə təsis edilmiş "Avropa-Qafqaz-Asiya (TRASEKA) nəqliyyat dəhlizi" proqramı Avrasiya məkanında həyata keçirilən ən dinamik, iqtisadi cəhətdən ən səmərəli layihələrdən biri oldu.

Proqramın iştirakçısı olan ölkələrin sıx əməkdaşlığı, Avropa Birliyi Komissiyasının fəal köməyi sayəsində ötən beş ildə kommunikasiya obyektlərinin modernləşdirilməsi və tikintisi müvafiq qanunların və məcəllələrin işlənib hazırlanması, kadrlar hazırlanması, gömrük və tarif siyasətlərinin təkmilləşdirilməsi sahəsində böyük iş görülmüşdür.

Azərbaycan, Gürcüstan, Türkmənistan və Özbəkistan arasında tranzit daşımala-

rın tənzimlənməsi haqqında 1996-cı ilin mayında Türkmənistanın Sərəxs şəhərində saziş imzalanması bu proqramın inkişafı üçün mühüm hadisə oldu. Sonralar bu sazişə başqa dövlətlər də qoşuldular. Həmin saziş sayəsində tariflər 50 faiz azaldılmış, gömrük qaydaları sadələşdirilmiş, daşımaların təhlükəsizliyi və qorunması təmin edilmişdir. Bunun nəticəsində son illərdə Transqafqaz dəhlizi vasitəsilə Avropa və Asiya arasında mal mübadiləsinin həcmi, demək olar, on dəfə artmışdır.

TRASEKA proqramının uğurla həyata keçirilməsi əməkdaşlığımızı daha yüksək səviyyəyə qaldırmaq üçün, yəni tarixi Böyük İpək yolunun bərpasına dair proqram qəbul etmək üçün zəmin yaratmışdır və konfransımız da buna həsr olunmuşdur.

TRASEKA-nın işçi qrupunun hazırladığı “Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında əsas çoxtərəfli saziş”, onun texniki əlavələri, Bakı bəyannaməsi çox böyük iqtisadi, siyasi, tarixi əhəmiyyətə malikdir.

Onların qəbul olunması Avropa, Qara dəniz, Qafqaz, Xəzər dənizi və Asiya regionlarında ticarətin inkişafına, təbii ehtiyatlardan istifadəyə və onların nəqlinə, qarşılıqlı surətdə faydalı əməkdaşlığa kömək edəcəkdir.

Tarixi İpək yolunun bərpası, yeni-yeni ölkələrin və regionların ona cəlb edilməsi xalqlarımızın yaxınlaşması və qarşılıqlı surətdə zənginləşməsi, yeni müstəqil dövlətlərin istiqlaliyyətinin və suverenliyinin möhkəmlənməsi, bu dövlətlərdə demokratik islahatların, bazar islahatlarının uğurla aparılması üçün güclü təkan verəcək, hamı üçün sülhün, sabitliyin və təhlükəsizliyin təmin olunmasına kömək göstərəcəkdir.

Böyük İpək yolu keçmişdə başlansa da, gələcəyə doğru gedən yoldur. Mən inanıram ki, əgər biz əməkdaşlıq edə-edə, bir-birimizə hörmət bəsləyərək və bir-birimizi dəstəkləyərək bu yolla birlikdə getsək, o, xalqlarımızı firavanlığa və tərəqqiyə gətirib çıxaracaqdır.

Diqqətinizə görə təşəkkür edirəm.

# Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Tarixi İpək Yolunun bərpası üzrə Bakıda keçirilmiş beynəlxalq konfransda yekun nitqi

8 sentyabr 1998-ci il

Hörmətli dövlət başçıları, nümayəndə heyətlərinin rəhbərləri, konfrans iştirakçıları!

Tarixi Böyük İpək yolunun bərpası üzrə Bakı beynəlxalq konfransı öz işini başa çatdırdı.

Konfransın işinin başa çatması və əsas sənədlərin - əsas sazişin, Bakı Bəyannaməsinin və ümumi rəsmi məlumatın imzalanması münasibətilə sizi təbrik edirəm.

Hesab edirəm, tarixi Böyük İpək yolunun bərpası üzrə Bakı beynəlxalq konfransının çox böyük tarixi əhəmiyyəti olan hadisəyə çevrildiyini desəm, yanılmaram.

Konfransda bütün nümayəndə heyətləri çıxış etdilər - 45 çıxış oldu. Bu çıxışlarda çox mühüm fikirlər söyləndi və təkliflər irəli sürüldü. Şübhəsiz ki, bunlar gələcək birgə işimizə kömək göstərəcəkdir.

Konfransın hazırlanması və onun uğurla başa çatması bizim birgə səylərimiz nəticəsində mümkün olmuşdur. Ancaq eyni zamanda Avropa Komissiyasının gördüyü böyük işi konfransın bütün iştirakçıları adından vurğulamağı zəruri hesab edirəm. Beş il bundan öncə 1993-cü ilin may ayında Qafqaz və Mərkəzi Asiyanın səkkiz dövlətinin nümayəndələri Avropa Birliyi Komissiyasının təşəbbüsü ilə Brüsseldə görüşdülər və nəqliyyatın, Avropanı, Qafqazı və Asiyanı birləşdirən bütün kommunikasiya növlərinin inkişaf etdirilməsinə dair əməkdaşlığın başlanğıcını qoydular.

O vaxtdan beş il keçmişdir. Bu gün biz şahidi oluruq ki, həmin zəmin çox dəyərli, etibarlı olmuş və böyük beynəlxalq təşkilata çevrilmişdir. Biz bu konfransda da gördük ki, konfrans iştirakçılarının hamısı gördüyümüz işin vacibliyi, əhəmiyyəti və böyük gələcəyi haqqında necə maraqla danışdılar.

Ötən beş il ərzində Avropa Birliyi Komissiyası böyük iş görmüşdür. O, bu konfransın hazırlanması sahəsində də böyük iş görmüşdür. Ümidvarıq ki, indi, mühüm sənədlər imzalandıqdan sonra biz hamımız gələcəkdə də Avropa Birliyinin, Avropa Birliyi Komissiyasının dəstəyindən və yardımından bəhrələnəcəyik.

Konfransda dövlət başçılarının, ölkə prezidentlərinin iştirak etməsi onun işinə xüsusi əhəmiyyət verir. Konfransın hazırlanmasında da maraqla iştirak etdiklərinə görə, çox dəyərli, mühüm çıxışlarına və bizim birgə gördüyümüz böyük işə görə dövlət başçılarına, prezidentlərə minnətdarlığımı bildirmək istəyirəm.

Gün ərzində konfransın bütün iştirakçıları öz səylərini birləşdirdilər və bu salon-

da qarşılıqlı hörmət, dostluq və əməkdaşlıq mühiti hökm sürürdü. Bu onu göstərir ki, tarixi Böyük İpək yolunun bərpa və inkişafının zəruriliyi məsələsində biz hamımız yekdilik.

Zənnimcə, konfransımızın səciyyəvi xüsusiyyəti odur ki, Avropa-Qafqaz-Asiya transqafqaz magistralı əsasında Avropa ilə Asiya arasında sıx əməkdaşlıq, əlaqə son dövrdə ilk dəfə olaraq bu konfransda xüsusi xarakter kəsb edir. Avrasiya məkanı nümayəndələrinin burada iştirakı da Avropa və Asiyanın sıx inteqrasiyasını səciyyələndirən çox ciddi dəyişikliklərdən xəbər verir.

Bu konfrans bizim üçün, Azərbaycan üçün xüsusi əhəmiyyətə malikdir. Azərbaycana belə böyük şərəf göstərildiyinə və belə mühüm beynəlxalq konfransın Azərbaycanda, Bakıda keçirilməsinə görə Avropa Birliyi Komissiyasına, konfransın işində iştirak edən dövlətlərin prezidentlərinə, başçılarına, bütün ölkələrə təşəkkür etmək istəyirəm.

Hamınızı əmin etmək istəyirəm ki, sizin bu etimadınızı biz yüksək qiymətləndiririk və Avropa ilə Asiya arasında körpünün həqiqətən çox səmərəli olması üçün, tarixi Böyük İpək yolunun bərpası proqramının həyata keçirilməsində öz borcumuzu yerinə yetirmək üçün hər şeyi edəcəyik.

İqamətgahı Azərbaycanda olmaqla tarixi Böyük İpək yolunun bərpası üzrə təşkilatımızın katibliyinin təsis olunması haqqında qəbul edilmiş qərara görə hamınıza təşəkkür edirəm. Hesab edirəm ki, biz bu gün imzalanmış sənədləri ümumi səylərimizlə reallaşdıracağıq və şübhəsiz, katiblik ümumi vahid orqanımızı təmsil edəcək, öz vəzifələrini layiqincə yerinə yetirəcəkdir.

Bu gün Azərbaycanda, bəlkə də, onun tarixində, daha dəqiq desək, dövlət müstəqilliyi qazandıqdan sonra ilk dəfə olaraq belə bir beynəlxalq konfrans keçirilmiş, 32 ölkənin və 13 beynəlxalq təşkilatın nümayəndələri burada, Bakıda toplaşmışlar. Biz bunu müstəqil, suveren Azərbaycana, ölkəmizə böyük hörmət kimi qəbul edirik və bu etimada, hörmətə layiq olmaq üçün bütün tədbirləri görəcəyik.

Bugünkü konfrans bizim hamımızı daha da yaxınlaşdırdı, bizi daha çox əməkdaşlığa, qarşılıqlı anlaşmaya, dostluğa çağırır. İnanıram ki, daha fəal əməkdaşlıq edə bilməyimiz, hər bir ölkədə və bütün Avrasiya məkanında sülhü, firavanlığı və əmin-amanlığı təmin edə bilməyimiz üçün bu konfrans öz rolunu oynayacaqdır.

Hörmətli dövlət başçıları, indi isə sizi xatirə şəkli çəkdirməyə dəvət edirəm.

Tarixi Böyük İpək yolunun bərpası üzrə Bakı beynəlxalq konfransını bağlı elan edirəm.



www.aliyevheritage.org

# Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Tarixi İpək yolunun bərpası ilə əlaqədar Bakıda keçirilmiş konfransın yekunlarına həsr olunmuş müşavirədə nitqi

Bakı, 10 sentyabr 1998-ci il

Hörmətli xanımlar və cənablar!

Bu gün mən sizi buraya sentyabrın 7-8-də Bakıda, Azərbaycanda keçirilmiş beynəlxalq konfransın yekunları ilə əlaqədar dəvət etmişəm. Şübhəsiz ki, beynəlxalq konfransın yekunları bundan sonra çox ətraflı müzakirə olunmalıdır. Xüsusən onun qəbul etdiyi qərarlar, yəni imzalanmış müqavilələr həyata keçirilməlidir. Amma bu gün mən, sadəcə, bu konfransla bağlı görülmüş hazırlıq işində və, konfransın keçirilməsində iştirak edənləri buraya dəvət etmişəm ki, konfransın hazırlanması, gedişi və onun işinin sona çatması ilə əlaqədar öz müşahidələrimi bildirim.

İndi respublika və dünya ictimaiyyətinə də artıq məlumdur ki, Bakıda keçirilmiş, qədim tarixi İpək yolunun bərpasına həsr olunmuş beynəlxalq konfrans nə qədər böyük əhəmiyyətə malikdir. Vaxtilə biz belə bir konfransın keçirilməsi ilə əlaqədar Avropa Birliyinin Komissiyası ilə danışıqlar aparmışdıq. Hələ xeyli vaxt bundan əvvəl belə bir konfransın keçirilməsi zərurəti meydana çıxmışdı. Ancaq bu konfransın keçirilməsi və ya keçirilməməsi, harada keçirilməsi məsələləri xeyli müzakirə olunmuşdur. Çünki məlumdur ki, Avropa Birliyi Komissiyası və ümumiyyətlə, Avropa Birliyi həm 1991-ci ildə TASİS proqramını qəbul edərkən, həm də 1993-cü ildə TRASEKA proqramını qəbul edərkən birinci növbədə, yeni müstəqillik qazanmış ölkələrlə əlaqələr yaratmaq və inkişaf etdirmək, həm də Avropa-Qafqaz-Asiya nəqliyyat xətlərinin yaradılması və inkişaf etdirilməsi məqsədi daşımışdır.

Bu gün tam əsasla demək olar ki, Avropa Birliyi hələ Sovetlər İttifaqı dağılmamışdan, yəni həmin ittifaqın dağılmasını görərək və artıq bunu proqnozlaşdıraraq bu məsələyə həm münasibətini bildirmiş, həm də bu barədə tədbirlər görmüşdür. 1991-ci ildə, hələ Sovetlər İttifaqı mövcud olduğu bir zaman TASİS proqramının - müstəqillik əldə edən ölkələrə iqtisadi yardım göstərilməsi ilə əlaqədar proqramın qəbul olunması buna əyani sübutdur.

SSRİ dağılandan - Şərqi Avropa ölkələrində böyük dəyişikliklər baş verəndən, keçmiş Sovetlər İttifaqına mənsub olmuş ölkələr dövlət müstəqilliyini əldə edəndən sonra Avropa ilə Asiya arasında iqtisadi əlaqələri inkişaf etdirmək üçün, şübhəsiz ki, iqtisadi əlaqələr vasitəsilə başqa əlaqələri də inkişaf etdirmək üçün TASİS proqramının qəbul olunması zərurəti meydana çıxmışdır.

Avropa Birliyinin İqtisadi Komissiyası bu proqrama Qafqaz və Mərkəzi Asiya ölkələrini cəlb etmiş, 1993-cü ilin may ayında TRASEKA proqramı qəbul olunmuşdur. O illər, bəlkə də son vaxtlara qədər həmin TRASEKA proqramının yerinə

yetirilməsi ilə əlaqədar ayrı-ayrı ölkələrdə tədbirlər keçirilibdir. O cümlədən biz Avropa Birliyi ilə daim əməkdaşlıq etmişik. Ancaq bu TRASEKA proqramının belə böyük gələcəyə malik olduğu hələ hamı tərəfindən o qədər də dərk edilmirdi. Nəhayət, 1996-cı ildə, xüsusən 1997-ci ildə qədim, Böyük Tarixi İpək yolunun bərpa olunması məsələsi ümumi, dünyəvi, qlobal bir məsələ kimi meydana çıxmışdır. Bu, yeni kommunikasiya, nəqliyyat xətləri yaratmaq, Avropanı Asiya ilə daha yaxın, əlverişli, təhlükəsiz və daha ucuz yollarla bağlamaq və bu vasitə ilə də ölkələr arasında iqtisadi əməkdaşlıq yaratmaq, onu inkişaf etdirmək və Avropa Birliyinin bu ölkələrə təsirini artırmaq məqsədi daşımışdır.

Tarixi İpək yolunun bərpa edilməsi məsələsi həm elmi tədqiqat, həm də praktiki nöqteyi-nəzərdən böyük maraq doğurmuşdur. Ayrı-ayrı ölkələrdə bu mövzu həm dövri mətbuatda, həm də elmi kitablarda, jurnallarda, konfranslarda, simpoziumlarda müzakirə olunmuşdur. Böyük Tarixi İpək yoluna diqqət və maraq get-gedə artmışdır. Təsadüfi deyildir ki, hətta böyük İpək yolundan çox uzaqda olan Amerika Birləşmiş Ştatlarında qədim İpək yolunun bərpasına ciddi maraq göstərilmişdir və bu barədə indiyə qədər müzakirələr gedir. Yaxud, Yer kürəsinin tamamilə başqa bir uzaq hissəsində yerləşən Yaponiyada Böyük Tarixi İpək yoluna maraq göstərilmiş və bu İpək yolunun bərpası ilə əlaqədar təkliflər irəli sürülmüşdür. Məlumdur ki, keçən ilin əvvəlində Yaponiyanın Baş naziri Haşimoto Böyük Tarixi İpək yolu haqqında öz hökumətinin konsepsiyasını, bu məsələyə baxışını, təklifini irəli sürmüşdür və bu məsələ Yaponiyanın da ardıcıl surətdə diqqət mərkəzində olmuşdur.

Böyük İpək yolu üzərində yerləşən ölkələrin əksəriyyəti tərəfindən qədim İpək yolunun bərpası, yəni bu İpək yolu əsasında yeni, müasir nəqliyyat xəttinin yaranması məsələsi zəruri hal kimi tədricən irəliyə sürülmüşdür.

Azərbaycan bu proseslərdə daim iştirak etmiş, Avropa Birliyi ilə sıx əməkdaşlıq etmişdir. Biz Avropa Birliyinin İqtisadi Komissiyası ilə Azərbaycanın bir çox sahələr üzrə əməkdaşlığını çox əhəmiyyətli hesab etmişik və bunun müsbət nəticələrini də görmüşük.

Bilirsiniz ki, ümumiyyətlə, Avropa Birliyi çox mütəşəkkil beynəlxalq bir təşkilatdır. Avropanın böyük olmasına baxmayaraq, bu təşkilatda ancaq 15 ölkə təmsil edilibdir. Bu təşkilata daxil olan ölkələr arasında yüksək səviyyəli, müasir tələblərə uyğun iqtisadi əməkdaşlıq prosesi gedir. Bu əməkdaşlığın çox səmərəli olduğu aydın görünür. Çünki Avropa Birliyinə daxil olan ölkələr bu təşkilatın fəaliyyətinə və işinə, bu təşkilata məxsus olduqlarına yüksək qiymət verirlər. Ona görə də bu təşkilat böyük nüfuza malikdir. Avropa Birliyi Təşkilatı Avropa və Asiya ölkələri ilə öz əlaqələrini genişləndirir.

Bildiyiniz kimi, biz 1996-cı ilin aprel ayında Lüksemburqda Avropa Birliyi ilə Azərbaycan arasında tərəfdaşlıq haqqında saziş imzalamışıq və Avropa Birliyinin strukturlarında iştirak etməyə çalışırıq. Biz keçən illərdə Avropa Birliyindən

müəyyən maliyyə və yardımlar almışıq və indi də bəzi proqramların həyata keçirilməsində Avropa Birliyi Komissiyasının yardımlarından istifadə edirik.

Avropa Birliyi Komissiyası ilə əməkdaşlığımız uğurludur və biz bu əməkdaşlıqda da özümüzü çox etibarlı tərəfdaş kimi göstərmişik. Bir faktı qeyd etmək istəyirəm. Biz 1994-cü ildə, doğrusu, Avropa Birliyinin Komissiyası ilə əməkdaşlığımızın detallarını o qədər də dərindən bilmədiyimiz bir zaman Azərbaycanla Avropa Birliyi arasında müqavilələr imzalanmışdı. Avropa Birliyi Azərbaycana müəyyən yardımlar etmişdi. O vaxt Azərbaycanda qıtlıq olduğu zaman biz Avropa Birliyindən xeyli miqdarda taxıl alıb respublikamızın əhalisini çörəklə təmin etmək məsələlərini həll edirdik. Avropa Birliyi o vaxt Azərbaycana bununla bərabər kredit də vermişdir.

Mən bu gün etiraf etməliyəm ki, o vaxt həmin kreditin verilməsi şəxsən mənə o qədər də dəqiq məlum olmamışdır. Nazirlər Kabineti mənimlə razılaşmamış, həmin kreditlərin alınması ilə əlaqədar sazişlər imzalamışdı. Mən bu məsələni biləndən sonra həm Nazirlər Kabineti, həm də bizim maliyyə orqanlarımız mənə belə bildirdilər ki, bu kredit elə kredit adı ilə verilir, amma bu, Avropa Birliyi Komissiyasının Azərbaycana olan yardımıdır. Sonra da dedilər ki, biz onsuz da bu kreditləri hələ üç ildən sonra qaytaracağıq, ona görə də bunun üçün narahat olmaq lazım deyildir.

Bilirsiniz ki, təəssüf ki, həmin illərdə Azərbaycanın rəhbərliyində vəziyyət gərgin idi. 1994-cü ildə Nazirlər Kabinetinə kim tərəfindən rəhbərlik edildiyi də sizə məlumdur. Bütün bunlara görə bu gün mən hesab edirəm ki, o vaxt səhvlər buraxılmışdır. Doğrudur, o vaxt Azərbaycanın həm maliyyə kreditinə, həm də maddi yardıma ehtiyacı böyük idi. Ancaq biz həmişə bilməliyik ki, krediti nə üçün alırıq və bunu necə qaytaracağıq. Amma o vaxt çoxları, o cümlədən həmin kreditin alınmasına imza atanlar da bu haqda düşünməmişdilər.

Kreditlər Azərbaycana guya ərzaq gətirilməsi və həmin ərzağın da ancaq Avropa ölkələrindən alınması üçün bağlanıbdır. İndi məlum olur ki, həmin kreditlərdən istifadə olunmasında da səhvlərə yol verilmişdir. Nəhayət, vaxt gəldi çatdı və alınmış həmin kreditlərin qaytarılması keçən il - 1997-ci ildə bizdən tələb olundu.

Həmin kreditlər təkcə bizə yox, Gürcüstana da verilmişdi. Hətta Gürcüstana Azərbaycandan da çox verilmişdi. Ermənistana da, başqa ölkələrə də verilmişdi. Ancaq Avropa Birliyi və xüsusən İqtisadi Komissiya bu kreditlərin qaytarılmasını Azərbaycandan qətiyyətlə tələb etdi. Biz onun vaxtının artırılmasına çalışdıq. Çalışdıq sübut edək ki, biz bu krediti alanda səhvlər olubdur və bəziləri bunun qaytarılacağını anlamayıblar. Ancaq bunlar heç bir nəticə vermədi. Biz keçən il həmin bu kreditlərin əvəzinə Avropa Birliyinin İqtisadi Komissiyasına 57 milyon dollar qaytarmağa məcbur olduq.

Olan-olub, keçən-keçib, 1993-cü, 1994-cü illərdə hətta 1995-ci ildə Azərbaycanda iqtisadiyyata rəhbərlik edən və xüsusən də iqtisadiyyatla məşğul olan Nazirlər

Kabinetində normal bir rəhbərlik yox idi. Ona görə də belə bir səhv buraxılmışdı.

Bu məsələni mənə məruzə edərkən dəfələrlə təkidlə soruşurdum ki, bəs nə üçün, niyə belə olubdur? Ola bilərdi ki, o vaxt biz həmin kreditləri almayaydıq. Onsuz da çətin yaşayırdıq, yaşayacaqdıq. Amma indi biz 57 milyon dollar dəyərində məbləği qaytardıq. Yəni Avropa Birliyi ilə bizim belə bir münasibətimiz də olubdur.

Doğrudur, Avropa Birliyi bizim vəziyyətimizi anlayaraq və verilən həmin krediti qaytardığımıza görə qərar qəbul edibdir ki, belə saf əməkdaşlıq etdiyimiz üçün Azərbaycana 30 milyon ekyu məbləğində yardım göstərsinlər. Bu da 1998, 1999 və 2000-ci illərdə olacaqdır. Şübhəsiz ki, bu, 57 milyon dolların yerini vermir. Ancaq hesab edirəm ki, biz bunu da qiymətləndirməliyik. Avropa Birliyi Azərbaycana xoş münasibət göstərir, Azərbaycanın krediti qaytarması ilə əlaqədar atdığı addımı qiymətləndiribdir. Amma onu da bilirik ki, bizə qonşu olan ölkələr aldıqları kreditləri qaytarmayıblar, həmin kreditlərin vaxtları uzadılıbdır.

Bizə izah edirlər ki, krediti qaytarmağa Azərbaycanın iqtisadi imkanları var, amma o biri ölkələrin iqtisadi imkanları yoxdur. Bu da bir tərəfdən Azərbaycanın həqiqətən öz iqtisadiyyatını öz imkanları ilə idarə etməsini göstərir. Çünki 907-ci düzəlişə görə Amerika Birləşmiş Ştatları müstəqil dövlətlərə göstərdiyi yardımdan Azərbaycanı məhrum edibdir. Məsələn, qonşu ölkələr - Ermənistan, Gürcüstan və başqaları Amerika Birləşmiş Ştatlarından ildə 100 milyon dollar birbaşa yardım alırlar. Biz bu yardımdan məhrumuq.

1994-cü ildə Avropa Birliyi bizə ayırdığı kreditdən də çox o biri ölkələrə yardım etmişdi. Biz bu krediti qaytardıq, amma onlara güzəşt ediblər, vaxtını uzadıblar.

Mən bunu sadəcə bir məlumat kimi bildirmək istədim. Çünki lazımdır ki, Siz də, ictimaiyyətimiz də hər bir şeyi bilsin. Bizim iqtisadiyyatımızda görülən hər bir iş və aparılan tədbirlərin hamısı göz qabağındadır. Hesab edirəm, gördüyümüz işləri də çox peşəkar səviyyədə aparırıq.

Bu, Avropa Birliyi və İqtisadi Komissiya ilə bizim əməkdaşlığımızın bir hissəsidir. Ancaq TRASEKA proqramı əsasında Avropa Birliyinin yardımı ilə Azərbaycanda bir çox işlər görülübdür və bundan sonra da görülür. Bu, təkcə Azərbaycan üçün deyildir. Bu, Azərbaycandan keçən nəqliyyat xəttinin TRASEKA proqramının keçirilməsindən ötrü lazımi səviyyəyə gətirilməsi üçündür. Məsələn, Poylu körpüsü Avropa Birliyindən alınmış 2 milyon dollar vəsait hesabına bərpa olundu. Dəmir yolunda da müəyyən işlər görülür. Yəni bunlar kredit deyildir, bu işlərin görülməsi üçündür. İşğaldan azad olunmuş ərazilərdə, - Füzuli rayonunun işğaldan azad edilmiş qəsəbə və kəndlərində bərpa işləri aparılmasına da Avropa Birliyi yardım edir. Baş nazirin müavini Abid Şərifov buradadır, Avropa Birliyi nə qədər yardım edir?

***Abid Şərifov:*** 7 milyon ekyu məbləğində. Onun 4 milyonunu veriblər, 3 milyonunu da ayıracaqlar. Bu, Ağdam və Füzuli rayonlarında işğaldan azad olunmuş

kəndlərin bərpasına sərf edilir.

***Artur Rasizadə:*** Ümumiyyətlə, Avropa Birliyi tərəfindən indiyə qədər Azərbaycana 225 milyon dollar yardım edilibdir.

***Heydər Əliyev:*** Qaytarılan kredit də buraya daxildir?

***Artur Rasizadə:*** Xeyr. Bunlar Azərbaycana birbaşa edilmiş yardımdır.

***Abbas Abbasov:*** Avropa Birliyi respublikamızın təkcə aqrar sahəsinə 16 milyon dollar yardım edibdir.

***Artur Rasizadə:*** Bəli, bütün bunlar hamısı 225 milyon dollardır.

***Abid Şərifov:*** Cənab prezident, Avropa Birliyi TRASEKA proqramı çərçivəsində Azərbaycana qrant şəklində 7 milyon 650 min ekyu məbləğində investisiya qoymuşdur. Bu vəsaitin 6 milyondan çoxu respublikamızda körpülərin, sərhəd postlarının tikilməsinə, bərpasına və Bakı limanında bir sıra yenidənqurma işləri aparılmasına xərclənibdir.

***Heydər Əliyev:*** Beləliklə, yenə də deyirəm, Avropa Birliyi ilə bizim əməkdaşlığımız uğurludur və bu yardımlar Azərbaycanın problemlərinin həll edilməsinə sərf olunur və bundan sonra da sərf olunacaqdır. Bizim əməkdaşlığımızın məhz belə - həm səmimi, həm də uğurlu olması nəticəsində də TRASEKA proqramının inkişaf etdirilməsi və Böyük Tarixi İpək yolunun bərpa edilməsi mövzusu Avropa Birliyinin İqtisadi Komissiyasında bir neçə dəfə müzakirə olunmuş və belə bir konfransın keçirilməsinin zəruriliyi bildirilmişdir.

Mən bunu konfransda demişəm. TRASEKA proqramı qəbul ediləndən sonra işçi qrupları bir neçə dəfə görüşüblər və bu proqramın həyata keçirilməsi hər dəfə müzakirə olunubdur. Ancaq bu konfrans TRASEKA proqramının təkcə həyata keçirilməsi yox, onun yeni bir proqrama çevrilməsi, yəni TRASEKA proqramı əsasında yeni böyük bir proqramın qəbul olunması zərurətindən meydana çıxmışdır. Bunun üçün də bir çox hazırlıq işləri görülmüşdür və belə bir konfransın harada keçirilməsi də müzakirə olunmuşdur.

Bütün bu hazırlıq işlərində Azərbaycan çox fəal iştirak etmişdir. İmzalanan əsas sənəd, saziş - "Avropa-Qafqaz-Asiya" dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında əsas çoxtərəfli saziş" və onun texniki əlavələri bir neçə ay, bəlkə də bir il müddətində hazırlanmışdır.

Belə bir konfransın keçirilməsi zərurəti meydana gəldiyi zaman onun harada keçirilməsi də müzakirə olunmuşdur.

TRASEKA proqramında iştirak edən ölkələrin, şübhəsiz ki, hər biri belə bir konfransın öz ölkəsində keçirilməsinin arzusunda olmuş və namizədliyini vermişdi. Biz də belə bir konfransın Azərbaycanda keçirilməsi təklifini irəli sürmüşük.

Şübhəsiz ki, Biz belə bir təklif irəli sürərkən dərk edirdik ki, bu, çox məsuliyyətli, çətin işdir. İndi, Azərbaycanın problemlərlə rastlaşdığı, Ermənistan-Azərbaycan münaqişəsi mövcud olduğu zaman belə böyük beynəlxalq konfransın Azərbaycan-

da keçirilməsi bizim üzərimizə həm çox vəzifələr və həm də böyük məsuliyyət qoyur. Biz bunları dərk edərək Azərbaycanın namizədliyini irəli sürdük. Başqa ölkələr də öz namizədliklərini irəli sürmüşdülər. Bu məsələlər bir neçə dəfə müzakirə olunmuşdu, ancaq həm Avropa Birliyinin Komissiyası, həm də TRASEKA proqramında fəal iştirak edən ölkələrin əksəriyyəti bu konfransın Azərbaycanda keçirilməsinə razılıq vermişdilər. Yenə də deyirəm, qərar qəbul olunanadək hələ mübahisələr gedirdi ki, bu beynəlxalq konfrans Azərbaycanda, Bakıda, yaxud Qafqazın, Asiyanın başqa bir ölkəsində keçirilsin.

Nəhayət, bizim təklifimiz qəbul olundu və beynəlxalq konfransın Azərbaycanda, Bakıda keçirilməsi qərara alındı. Bununla əlaqədar biz əməli işə başladıq. Bu əməli iş xeyli zaman idi ki, gedirdi. Ancaq bu işi daha da mütəşəkkil aparmaq üçün mən iyun ayında xüsusi sərəncam qəbul etdim və konfransın hazırlanması, keçirilməsi üçün komissiya təşkil etdim. Bu komissiyaya Baş nazir Artur Rasizadə başçılıq edirdi və axıra qədər də başçılıq etdi. Komissiyanın tərkibində bugünkü müşavirədə iştirak edənlərin bir çoxu vardır.

Qeyd etməliyəm ki, komissiya çox iş görmüşdür və beynəlxalq konfrans yaxşı hazırlanmışdır. Konfransı keçirmək üçün Avropa Birliyinin Komissiyası ilə məsləhətləşərək mən, Azərbaycanın prezidenti bu konfransda iştirak etmələri zəruri olan ölkələrin dövlət və hökumət başçılarına xüsusi məktublar göndərdim və bu ölkələri konfransda iştirak etməyə dəvət etdim.

Şübhəsiz ki, həmin ölkələr İpək yolunun bərpası ilə əlaqədar olan ölkələrdir. Bu ölkələrin tərkibi Avropa Birliyinin Komissiyası ilə razılaşdırılmışdır. Ancaq dəvəti Azərbaycan prezidenti göndərmişdir. İndi artıq görünür ki, bizim dəvətimiz qəbul olunmuşdur və 32 dövlət, ölkə beynəlxalq konfransda iştirak etmişdir. Biz dövlətlərlə, ölkələrlə bərabər, beynəlxalq təşkilatlara da dəvətlər göndərmişik. Dəvət olunan beynəlxalq təşkilatların - 13 beynəlxalq təşkilatın hamısının nümayəndə heyətləri konfransda iştirak etmişdir.

Beləliklə, konfrans həqiqətən böyük, beynəlxalq bir konfrans oldu. Konfransın iştirakçıları həm İpək yolunun bilavasitə xətti üzərində yerləşən, həm də bu İpək yoluna böyük maraq göstərən ölkələrin nümayəndələri idilər. Konfransda Amerika Birləşmiş Ştatlarından, Yaponiyadan, Çindən, Avropa ölkələrinin demək olar ki, əksəriyyətindən nümayəndə heyətləri, Qafqaz, Mərkəzi Asiya, Monqolustan və Asiyanı təmsil edən digər ölkələr iştirak edirdilər.

Siz bilirsiniz, nümayəndə heyətləri yüksək səviyyəli idi. Konfransda 9 ölkə dövlət başçıları - prezidentlərlə təmsil olunmuşdu, bir ölkədən nümayəndə heyətinə Baş nazir rəhbərlik edirdi. Digər nümayəndə heyətlərinə nazirlər, Baş nazirin müavini və başqa yüksək vəzifəli şəxslər rəhbərlik edirdilər. Təkcə nümayəndə heyətləri üzvlərinin sayı 180 nəfər idi. Ancaq bilirsiniz ki, hər ölkədən gələn nümayəndə heyətini müşayiət edən çoxsaylı şəxslər də var idi.

Konfransda 20 ölkədən 210 mətbuat nümayəndəsi - jurnalistlər, kütləvi informasiya orqanlarının nümayəndələri iştirak etmişlər. Bu konfransda dünyanın böyük agentliklərinin, televiziyalarının nümayəndələri iştirak etmişlər.

Beynəlxalq təşkilatların demək olar ki, hamısı konfransda təmsil olunmuşdur. Birləşmiş Millətlər Təşkilatının, ATƏT-in, Avropa Birliyinin, Müstəqil Dövlətlər Birliyinin, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının, İqtisadi Əməkdaşlıq Təşkilatının nümayəndə heyətləri, dünyanın böyük banklarının - Dünya Bankının, Avropa Yenidənqurma və İnkişaf Bankının, İslam Bankının, bir çox beynəlxalq nəqliyyat təşkilatlarının nümayəndələri, yəni dünyanın əsas beynəlxalq təşkilatlarının hamısı bu konfransda təmsil olunmuşdur.

Həmin nümayəndə heyətlərinin konfransda təkcə təmsil edilməsi deyil, hər bir nümayəndə heyəti beynəlxalq konfransın işində fəal iştirak etmişdir. Çünki 32 ölkəni, dövləti təmsil edən nümayəndə heyətləri başçılarının hamısı konfransda nitq söyləmişdir.

13 beynəlxalq təşkilatı təmsil edən nümayəndə heyətlərinin başçıları konfransda çıxış etmişlər. Bütün bu danışıqların, nitqlərin, konfransların işinin məzmunu sizə məlumdur. Konfransın işi əvvəldən axıradək Azərbaycan televiziyası vasitəsilə canlı yayılıbdır. Güman edirəm ki, siz bunları seyr etmisiniz, dinləmisiniz, bilirsiniz. Bizim qəzetlər də konfransın demək olar ki, stenoqramını dərc etdilər.

Ancaq qısaca olaraq onu deyə bilərəm ki, konfransda gedən bütün danışıqların məzmunu ondan ibarət olmuşdur ki, hamı eyni fikirdədir: Tarixi Böyük İpək yolunu bərpa etmək lazımdır. Bunu bərpa etmək üçün hər bir ölkə lazımi kommunikasiya xətləri yaratmalıdır. Avropa Birliyi Komissiyası bunu indiyədək himayə etdiyi kimi, bundan sonra da himayə edəcəkdir. Yəni konfransın bütün iştirakçıları həm Avropa Birliyi ilə Azərbaycanın təşəbbüsünü - bizim bu təşəbbüsümüzə Gürcüstan prezidenti Eduard Şevardnadze də qoşulmuşdur - yüksək qiymətləndirmişdir, həm də konfransın əhəmiyyətini və orada müzakirə olunan məsələlərin gələcək üçün çox böyük əhəmiyyətini qeyd etmişlər.

Bilirsiniz ki, bəzi ölkə və dövlət başçıları konfransla əlaqədar mənim ünvanıma xüsusi məktublar göndərmişlər. Çin Xalq Respublikasının sədri cənab Szyan Szemin, Yaponiyanın Baş naziri cənab Obuti, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri cənab Toni Bleyer, Qazaxıstanın prezidenti cənab Nazarbayev özləri iştirak edə bilmədiklərinə görə məktublar göndərmişlər. Bu məktublar mənə təqdim olunubdur. Onlar mətbuatda dərc ediləcəkdir.

Başqa nümayəndə heyətləri, hansılar ki, dövlət, hökumət başçıları tərəfindən təmsil olunmurdular, onların da hər biri çıxışlarında öz dövlət və hökumət başçılarının konfransa münasibətini, fikrini və təkliflərini bəyan etdilər.

Beləliklə, mən hesab edirəm ki, konfrans qarşıya qoyulan vəzifəni layiqincə həyata keçirdi və beynəlxalq aləmdə tarixi bir hadisəyə çevrildi. Konfransda çıxış

edən natiqlərin demək olar ki, hamısı bunu qeyd etdilər.

Məlumdur ki, bu konfransda üç sənəd imzalandı. Birincisi - "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında əsas çoxtərəfli saziş" və onun texniki əlavələri, ikincisi - Bakı bəyannaməsi, üçüncüsü - tarixi İpək yolunun bərpası üzrə beynəlxalq konfransın yekun rəsmi məlumatıdır. Bildirmək istəyirəm ki, bu sənədlər cürbəcür imzalanıbdır. Birinci sənəd 14 dövlət tərəfindən imzalanıbdır. Bakı bəyannaməsi çox dövlətlər tərəfindən imzalanıbdır. Üçüncü sənəd - yekun rəsmi məlumatı 29 dövlətin və Avropa Birliyinin nümayəndə heyətləri tərəfindən imzalanıbdır.

Beləliklə, bu sənədlər artıq böyük əhəmiyyət kəsb edir. Biz bu sənədlərin həyata keçirilməsi ilə əlaqədar lazımi tədbirlər görəcəyik. Konfransın yekunları, Azərbaycan Respublikasının üzərinə düşən vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar mənim fərmanım artıq hazırlanır. Həmin fərmanda respublikamızın, ölkəmizin hökumət, dövlət orqanları tərəfindən görüləcək işlərin hamısı müəyyən ediləcəkdir. Mən bu fərmanı yaxın günlərdə imzalayacağam.

Mən bu gün iftixar hissi ilə deyə bilərəm ki, biz, Azərbaycan müstəqil dövlət kimi böyük bir beynəlxalq konfransın təşkilatçısı olduq, belə bir konfransın Azərbaycanda, Bakıda yüksək səviyyədə keçirilməsini təmin etdik.

Mən konfransın işini yekunlaşdırarkən bunu bəyan etmişdim. Bu gün bir də bəyan edirəm ki, konfransın Bakıda keçirilməsi Avropa Birliyi və TRASEKA proqramının iştirakçıları tərəfindən Azərbaycana göstərilən etimaddır və böyük diqqətdir. Biz bunu yüksək qiymətləndirməliyik. Bunun əhəmiyyəti ondan ibarətdir ki, Avropa Birliyi kimi yüksək səviyyəli beynəlxalq təşkilat Azərbaycan ilə ötən illər etdiyi əməkdaşlığın nəticəsində Azərbaycanın bir müstəqil, demokratik, azad ölkə kimi böyük beynəlxalq konfrans keçirmək hüququna malik olduğunu nümayiş etdirib və belə bir konfransın Azərbaycanda keçirilməsi haqqında qərar qəbul edibdir. Konfransın iştirakçıları da bu konfransın birinci Azərbaycanda keçirilməsinin zəruri olduğunu qəbul ediblər və bu konfransda fəal iştirak ediblər.

Dediyim kimi, konfransda Azərbaycan da daxil olmaqla 9 ölkə dövlət başçıları ilə, bir ölkə isə baş nazirlə təmsil olunmuşdu. Beləliklə, 32 nümayəndə heyətindən onu dövlət və hökumət başçıları tərəfindən təmsil edilmişdi. Bunun özü də böyük hadisədir və konfransa bu ölkələr tərəfindən çox yüksək əhəmiyyət verilməsinin təzahürüdür, eyni zamanda bu ölkələrin dövlət başçılarının Azərbaycana göstərdikləri münasibətin təzahürüdür.

Biz çalışırdıq ki, konfransın keçirilməsi bütün parametrlərinə görə beynəlxalq standartlar səviyyəsində olsun. Bu gün məmnuniyyət hissi ilə deyə bilərəm ki, biz buna nail olduq. Çünki mən və mənimlə bərabər Azərbaycanın bir neçə rəhbər vəzifəli şəxsləri son illər, Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra bir çox beynəlxalq toplantılarda, sammitlərdə, konfranslarda iştirak etmişik. Bu konf-

ransı hazırlayarkən biz birinci növbədə çalışmışdıq ki, gördüklərimizdən və bu beynəlxalq konfransların hazırlanması, xüsusən həyata keçirilməsi təcrübəsindən səmərəli istifadə edək və Bakıda keçirilən konfrans da gördüyümüz konfranslar səviyyəsində olsun. Mən bu gün deyə bilərəm ki, biz buna nail olmuşuq.

Həqiqətən, nümayəndə heyətlərinin Bakıya endikləri vaxtdan Bakı hava limanından ayrıldıqları zamana qədər onların səmərəli işinin təmin olunması və ümumiyyətlə, konfransın mütəşəkkil aparılması hamının gözü qabağındadır. Demək olar ki, bütün nümayəndə heyətləri, onların başçıları, üzvləri konfransın işinin təşkilinə, gələn qonaqların yerləşdirilməsinə, onlara göstərilən xidmətə və konfransın çox mütəşəkkil aparılmasına, müasir texniki vasitələrdən istifadə olunmasına yüksək qiymət verdilər.

Təbiidir, bu, asanlıqla olmamışdır. Biz çox hazırlıq işləri gördük və birincisi, gələn nümayəndə heyətlərinin münasib şəraitdə yerləşdirilməsi, onların burada olduqları müddətdə fəaliyyətlərinə lazımi şərait yaradılması üçün, ikincisi də konfransın keçiriləcəyi yerdə beynəlxalq standartlara uyğun şəraitin yaradılması üçün çox iş gördük.

Bu baxımdan bizim "Gülüstan" sarayı Azərbaycanın bu günü üçün də çox gərəkli oldu. "Gülüstan" sarayı 1980-ci ildə tikilib istifadəyə verilibdir, 18 ildir ki, Azərbaycana xidmət edir. Ancaq mən, bu "Gülüstan" sarayının tikilməsinin, inşa edilməsinin, yaranmasının təşəbbüskarı kimi və bu işi o illər bilavasitə həyata keçirən adam kimi, böyük iftixar hissi keçirirəm ki, bu saray Azərbaycanın dövlət müstəqilliyinə çox dəyərli xidmətlər göstərir. Tək bu konfransda yox, ona qədər də. Ancaq bu konfransın keçirilməsi üçün "Gülüstan" sarayı əsaslı təmir olundu. Bu da lazım idi, çünki 18 il bundan öncə tikilmiş binanın təmirə ehtiyacı var idi. Təmir olundu və müasir səviyyəyə çatdırıldı. Bununla bərabər, konfransın keçirilməsi üçün orada əlavə ayrı-ayrı otaqlar, bölmələr yaradıldı. Bunların da sayəsində həm konfrans iştirakçılarının, yəni nümayəndə heyətlərinin, onların üzvlərinin orada normal şəraitdə fəaliyyət göstərməsi üçün, həm nümayəndə heyətlərini müşayiət edənlər üçün, həm də çoxsaylı jurnalistlər üçün bütün imkanlar yaradıldı.

Mən bu gün tam əsasla deyə bilərəm ki, "Gülüstan" sarayının o böyük salonu dünyanın bir çox ölkələrində keçirilmiş konfransların salonlarından nəinki fərqlənmirdi, bəlkə də bəzilərinə nisbətən daha da görkəmli, daha da münasib görünürdü. Bu, tarixi bir hadisədir.

Ancaq bir "Gülüstan" sarayı deyildir. Artıq bizim Bakıda çoxsaylı qonaqların yerləşdirilməsi üçün müasir tələblərə uyğun otel imkanlarımız vardır. Bunlar da çox xeyirli oldu.

Bilirsiniz ki, bu konfransın keçirilməsi ilə əlaqədar biz bir çox avtonəqliyyat vasitələri - avtobuslar, müasir tələblərə cavab verən minik avtomobilləri aldıq və bunlardan da istifadə olundu. Bütün bunların hamısı Azərbaycanın bu günü-

nü nümayiş etdirirdi. Hətta bizim hava limanının binasındakı, Azərbaycan dilində desək, o şərəf salonu - və yaxud beynəlxalq termində bir "vip" sözü vardır, - müasirləşdirildiyinə görə o da çox böyük təəccüb doğurdu ki, bu necə də yaxşıdır. Baxmayaraq ki, mənim özüm istərdim ondan da yaxşı olsun.

Bizim dostumuz, Türkiyənin prezidenti cənab Süleyman Dəmirəl mən onu yola salarkən çox şeydən razılığını bildirdi və dedi ki, buranı da çox gözəl etmisiniz. Mən əvvəllər buranı belə görməmişdim, indi müasir tələblərə uyğun olan şərəf salonudur. Mən ona dedim ki, biz başqa bir hava limanı tikirik və onu gələn il istifadəyə verəcəyik. Dedim ki, açılışa sizi dəvət edəcəyəm və orada hər şey, o cümlədən şərəf salonu bundan da yaxşı olacaqdır.

Orada tikilən hava limanını hamı görür. Mən ona dedim ki, 1981-ci ildə biz o hava limanının əsasını qoyduq. Mən o illər Azərbaycanda müasir tələblərə uyğun yeni bir hava limanının tikilməsinə çalışırdım və mənim qərarım əsasında Moskvada layihələr hazırlandı, bizim memarlar işlədilər. O layihələrə bir neçə dəfə baxdıq. 1981-ci ildə onun əsasını qoyduq. Ancaq baxın, neçə illər keçdi, o tikilmədi. Görünür ki, onun əsasını mən qoyduğumu görə, böyük bir fasilədən sonra onu mən də axıra çatdırmalıyam. 1999-cu ildə biz onu mütləq istifadəyə verəcəyik.

İndi Azərbaycan bütün dünya ilə hava xətləri ilə birləşibdir. Lazımdır ki, bu hava xətlərindən, hava yollarından istifadə edən hər bir şəxs - Azərbaycan vətəndaşı, ya başqa hər bir ölkənin vətəndaşı bizim hava limanında yaxşı, müasir şəraitə uyğun olan imkanlardan istifadə edə bilsin. Ancaq bu gün üçün də bizim o şərəf salonunun təmir olunması və müasirləşdirilməsi qonaqlara müsbət təsir bağışladı.

Siz nümayəndə heyətlərinin çıxışlarını televiziya ilə izləyirdiniz, dinləyirdiniz. Sizə məlumdur ki, çıxış edənlərin əksəriyyəti həm Azərbaycanın bu konfransın keçirilməsi barədə təşəbbüsünü çox yüksək qiymətləndirmişlər, həm də konfransın işinin yaxşı təşkil olunmasını dəyərləndirmişlər. Bu, onların rəsmi bəyanatları idi. Ancaq şəxsi, mənimlə olan danışıqlarda, Azərbaycanın konfransda iştirak edən başqa nümayəndələri ilə danışıqlarda, o cümlədən nümayəndə heyətlərinə təhkim olunmuş Azərbaycan Nazirlər Kabinetinin, Prezident Aparatının, nazirliklərin işçiləri ilə danışıqlarda hamısı çox böyük razılıq hissi ilə konfransın yaxşı təşkil olunmasını və keçirilməsini qeyd edirdilər. Bu da özü-özlüyündə bizim üçün çox əhəmiyyətlidir.

Beləliklə, biz böyük bir imtahan verdik. Azərbaycanda 1998-ci ilin sentyabr ayında yüksək səviyyəli beynəlxalq konfrans keçirildi. Burada iştirak edənlər və iştirak etməyənlərin çoxu, bütün bu işlərə cəlb olunmuş insanlar - kiçik işçidən başlayaraq ayrı-ayrı məmurlara qədər hamı, şübhəsiz ki, Azərbaycanda belə bir konfransın keçirilməsi üçün səylərini qoymuşlar, hərə öz xidmətini, vətənpərvərliyini göstərmişdir, beləliklə də konfrans uğurla keçmiş, başa çatmışdır.

Şübhəsiz ki, bu işlərin bilavasitə rəhbərləri var idi. Mən qeyd etdim ki, komis-

siya təşkil olunmuşdu. Mənim sərəncamımla hələ iyun ayında yaradılmış komissiyaya Baş nazir Artur Rasizadə rəhbərlik edirdi. Komissiya sədrinin başçılığı ilə komissiya üzvlərinin hamısı çox iş görüblər. Ona görə də mən komissiyanın sədri, Baş nazir Artur Rasizadəyə və komissiyanın bütün üzvlərinə təşəkkür edirəm. Komissiyanın üzvlərindən Abid Şərifovun da xidmətini xüsusi qeyd edirəm. Çünki Baş nazirdən əlavə, TRASEKA proqramı ilə bizim Nazirlər Kabinetində o məşğul olmuşdur, bütün işçi qrupunun keçən görüşlərində iştirak etmişdir və Avropa Birliyi ilə bilavasitə əlaqələr saxlamışdır. Mən Abid Şərifovun xidmətini xüsusi qeyd edirəm.

Təbiidir, bu komissiyanın üzvlərinin hərəsi öz sahəsini təmin edibdir və hər biri mənim təşəkkürümü alır. Amma komissiyanın üzvlərindən başqa, Prezident Aparatının işçiləri də çox işlər görmüşlər. Komissiyanın üzvü olaraq şəhər icra hakimiyyəti aparatı çox işlər görmüşdür. Bizim hüquq-mühafizə orqanları bu konfransın işinin təhlükəsizliyini və ictimai asayişi təmin etmək üçün çox işlər görmüşlər. Nümayəndə heyətlərinə təhkim olunmuş şəxslər də öz vəzifəsini yerinə yetirmişlər.

Bu gün buraya dəvət olunanların hər biri bu və ya digər miqdarda, səviyyədə bu işlərdə iştirak etmişdir. Ona görə də mən konfransın hazırlanmasında, keçirilməsində iştirak etmiş bütün şəxslərə təşəkkür edirəm və hamını bu konfransın uğurlu keçməsi münasibətilə təbrik edirəm.

Konfransın Azərbaycanda keçirilməsi ölkəmiz üçün tarixi bir hadisədir. Biz tariximizi yaxşı bilirik və ona görə də cəsarətlə demək olar ki, Azərbaycanın çoxəsrlik tarixində belə böyük beynəlxalq konfransın keçirilməsi ilk hadisədir. Doğrudur, keçmiş illərdə, xüsusən 60-70-80-ci illərdə Azərbaycanda bir çox böyük tədbirlər keçirilibdir. Onların əksəriyyəti Sovet İttifaqı respublikaları çərçivəsində olubdur. Respublikamızda bəzi beynəlxalq tədbirlər də keçirilibdir. Onlar da ya bəzi sosialist ölkələrinin iştirakı ilə, ya da bəzi beynəlxalq fəhlə hərəkatı, yaxud kommunist hərəkatı təşkilatlarının iştirakı ilə keçirilibdir. Onların heç biri yüksək dövlət səviyyəsində olmayıbdır.

Mən bir də deyirəm və qətiyyətlə, cəsarətlə deyirəm ki, tarixə nəzər salarkən Azərbaycan Respublikasının, dövlətinin, ölkəsinin tarixində bu, ilk böyük beynəlxalq konfransdır. Biz bunu yüksək qiymətləndirməliyik və bu, Azərbaycan xalqının, dövlətinin böyük nailiyyəti kimi qiymətləndirilməlidir.

Beynəlxalq konfransın Azərbaycanda keçirilməsi Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsini, inkişaf etməsini və beynəlxalq aləmdə tamamilə tanınmasını nümayiş etdirir. Bu bizim müstəqilliyimizin, suverenliyimizin rəmzidir. Biz müstəqil dövlət kimi Bakıda 32 dövlətin nümayəndə heyətlərini qəbul etdik və dünyanın böyük bir hissəsini əhatə edən əraziyə məxsus böyük bir proqramın - Tarixi İpək yolunun bərpası proqramının əsasını qoyduq. Bu, böyük tarixi hadisədir.

Vətənini, torpağını, millətini, ölkəsini sevən hər bir azərbaycanlının, Azərbaycan vətəndaşının bu hadisə ilə fəxr etməyə əsası vardır və bununla hər bir adam fəxr edə bilər. Çünki bu, bizim millətimizin, ölkəmizin, dövlətimizin adıdır.

Biz Azərbaycanda dövlət müstəqilliyi əldə edəndən sonra ağır yollar keçmişik və yolumuz bu gün də asan deyildir. Bizim ən birinci vəzifəmiz o olubdur ki, Azərbaycanı dünyada olduğu kimi tanıdaq. Bu, müstəqilliyini əldə edən hər bir ölkə üçün əsas vəzifədir. Amma bu, bizim üçün qat-qat mühüm vəzifə idi. Ona görə ki, Azərbaycan dövlət müstəqilliyini əldə edərkən artıq Ermənistanla Azərbaycan arasında üç ildən artıq idi münaqişə gedirdi. Ermənistan və ermənilərin dünyadakı diasporu, lobbisi bu münaqişədə Azərbaycanı günahlandırmışdı. Azərbaycan haqqında demək olar ki, dünyanın bütün ölkələrində çox mənfi fikir yaranmışdı. Təkcə bütün ölkələrdə deyil, Sovetlər İttifaqında da, Moskvada da, yəni biz o vaxtlar tərkibində olduğumuz ölkədə də belə bir əhval-ruhiyyə var idi ki, guya Qarabağ münaqişəsinin yaranmasında günahkar Azərbaycandır.

Xatırlayın, hətta bizim özümüzün içimizdə olan bəzi azərbaycanlılar da ermənilərin bu fikrini gücləndirirdilər. 1988-ci ildə Moskvada nə yazılar gedirdi? Bu münaqişə nə üçün başlandı? Çünki Azərbaycan rəhbərliyi və xüsusən, o vaxtlar təqib altında olan, təcrid vəziyyətində yaşayan Heydər Əliyev, Azərbaycanın keçmiş rəhbəri guya erməniləri Azərbaycanda əzibdir və Dağlıq Qarabağa ögey münasibət göstərilibdir. Guya Dağlıq Qarabağ Azərbaycanın tərkibində olarkən inkişaf edə bilməyibdir, ona görə də ermənilər boğaza yığılıblar və indi Azərbaycanın tərkibindən çıxıb Ermənistanın tərkibinə keçmək istəyirlər. Guya bunların da əsası var, çünki bunlara ögey münasibət göstərilibdir, guya bunun da günahkarı Heydər Əliyevdir.

Siz bu yazıları, sözləri xatırlayırsınız. Bunu Moskvada təkcə Azərbaycana düşmən olan adamlar demirdilər, bunu burada bəzi azərbaycanlılar da deyirdilər. Azərbaycanın o vaxtkı rəhbərləri bunu Moskvada tribunalardan deyirdilər. Onlar kimə xidmət ediblər? Öz şəxsi ambisiyalarını həyata keçirmək üçün, şəxsi mənfur məqsədlərinə nail olmaq üçün xalqı, milləti ləkələyirdilər.

Mən o vaxt bir neçə yerə məlumat verdim ki, bunlar yalandır. Sənədlər çıxardım ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibində ümumazərbaycan səviyyəsindən üç dəfə artıq inkişaf edibdir. Bütün illərdə, elə 20-ci illərdən başlayaraq, o cümlədən 70-ci illərdə. Rəqəmlər var idi, statistika var idi. Amma o statistikaya baxan yox idi. Həmin vaxt onlara lazım idi ki, Azərbaycanı günahlandırsınlar və Azərbaycanı günahlandırdılar, ləkələdilər. Beləliklə, həm Sovetlər İttifaqında, Moskvada belə bir fikir yarandı və həm də erməni diasporu bütün dünyada bu fikri yaratdı ki, guya bü münaqişədə Azərbaycan günahkardır.

Ona görə də mən deyirəm ki, Azərbaycan dövlət müstəqilliyini əldə edəndən biz çalışmışıq, məqsədimiz ondan ibarət olub ki, bax, bu mənfi fikri dağıdaq,

Azərbaycanı azad, müstəqil, sivilizasiyalı bir ölkə kimi göstərək. Erməni diasporunun dediyi kimi yox. Onlar deyirlər ki, "Azərbaycanlılar vəhşidirlər, köçəridirlər, bu, millət deyil" və sairə. Siz bunları unutmusunuzmu? Bu yazılar hər yerdə yazılırdı. Bizi, azərbaycanlıları təhqir edirdilər. Bu fikir beynəlxalq aləmdə çoxlarının beyninə girmişdi.

Son beş ildə bizim apardığımız siyasət, görülən işlər, saysız-hesabsız görüşlər, xarici ölkələrə səfərlər, Azərbaycana gələn nümayəndələrlə görüşlər, beynəlxalq təşkilatlarda gur sözlər deməyimiz nəticəsində Azərbaycan haqqında fikir dəyişilmişdir.

Mən konfransdan sonra, sentyabrın 8-də qonaqları yola salandan sonra axşam saat təxminən 8-9 idi. Gəldim Prezident sarayında Yaponiyanın nümayəndəsini qəbul etdim. O, çox xahiş edirdi ki, mən onu qəbul edim, çünki o, gecə vətəninə yola düşəcəkdi. Yaponiyanın Baş naziri cənab Obutinin məktubunu mənə təqdim etmək istəyirdi. O, fevral ayında mən Yaponiyada rəsmi səfərdə olduğum zaman keçirilən görüşlərdə iştirak etmişdi. Öz təəssüratlarını söyləyir və Yaponiya ictimaiyyətinin Azərbaycan haqqında fikirləri barəsində danışırdı. Deyirdi siz Yaponiyada olduğunuz zaman o qədər görüşlər keçirdiniz, danışıqlar apardınız ki, ölkəmizdə belə təəssürat yarandı ki, Yaponiyaya gəlmiş heç bir dövlət başçısı öz ölkəsini bu qədər geniş açmamış, təbliğ etməmişdir. Bu, onun dediyi sözlərdir. Siz məni düzgün başa düşün, mən bunu deyirəm ona görə yox ki, sizə özüm haqqında bir şey çatdırım. Mənim buna ehtiyacım yoxdur.

Bilirsiniz, ona görə ki, bəli, Yaponiyada, bizi tanımırdılar. Biz Azərbaycanı Yaponiyada da tanıtdıq və çox yaxşı tanıtdıq. İndi nə qədər Yaponiya şirkətləri gəlib Azərbaycanda işləyirlər və nə qədəri də gəlmək istəyir. Sentyabrın 8-də axşam həmin nümayəndə heyətinin başçısı bu sözləri mənə dedi.

Beləliklə, bu beynəlxalq konfrans indiyə qədər görülən işlərə demək olar ki, yekun vurdu. O mənada ki, ayrı-ayrı ölkələrə səfərlər zamanı gördüyümüz işlərlə, yaxud ayrı-ayrı ölkə başçılarının, nümayəndələrin Azərbaycana gəldiyi zaman gördüyümüz işlərlə, bizim nümayəndələrin ayrı-ayrı ölkələrə, beynəlxalq təşkilatlara getdiyi zaman gördüyümüz işlərlə bərabər və onların məntiqi nəticəsi olaraq indi 32 dövlətin nümayəndələri, 13 beynəlxalq təşkilatın nümayəndələri bir gündə, bir zamanda, bir yerdə Azərbaycanda toplaşıb respublikamızın bu gününü gördülər. Bu, Azərbaycanı tanıtmaq, müstəqil dövlət kimi göstərmək üçün ən gözəl bir vasitə idi və biz bunu göstərdik. Bu, Azərbaycanın müstəqilliyinə xidmət edən və onu daha da təsdiq edən bir tədbir idi və biz bu tədbiri həyata keçirməyə nail olduq.

Şübhəsiz ki, hər bir təəssürat yayılır və yayılacaqdır. Mən dedim, - konfransda 20 ölkənin kütləvi informasiya orqanlarının 210 nümayəndəsi iştirak etmişdir. Yazılar yazılacaqdır. Bunlar artıq yazılır. Bir çox ölkələrin qəzetlərində məqalələr dərc olunur. Bunlar davam edəcəkdir. Beləliklə Azərbaycan dünyaya müstəqil dövlət,

azad, demokratik ölkə kimi göstərilir.

Mən bir faktı da sizə demək istəyirəm. Biz bazar iqtisadiyyatını inkişaf etdiririk. Bakıya gələn prezidentlər şəhərin mərkəzində tikilmiş ofis-otel kompleksində yaşadılar. Biz Türkiyə Cümhuriyyətinin prezidenti hörmətli Süleyman Dəmirəl ilə bərabər həmin ofis-otel kompleksinin açılış mərasimini keçirdik. Bu, şəxsi biznesin meydana gətirdiyi bir kompleksdir. Bu, bazar iqtisadiyyatının real nəticəsidir, Azərbaycanda azad sahibkarlığın real nəticəsidir.

Sentyabrın 7-də mən dövlət başçılarına və nümayəndə heyətlərinin rəhbərlərinə qəbul verdim. O qəbul yenə də özəl sektor tərəfindən “Ramstor”un yanında tikilmiş Bakı Əyləncə Mərkəzində verildi. O da özəl sektorun, sahibkarlığın Azərbaycanda verdiyi nəticədir. Siz bunu bilirsiniz. Ancaq mən sizə deməliyəm ki, məsələn, Bakıya gələn ölkə prezidentləri ilə birlikdə idim. Onlar bu oteldə qaldılar. Onlara deyəndə ki, bu otel dövlətin deyildir, özəl sektora məxsusdur, həmin o qəbul verdiyim yer də dövlətin, hökumətin deyildir, özəl sektora məxsusdur, onlar məəttəl qaldılar. Yəni mən Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələrin prezidentlərini deyirəm. Şübhəsiz ki, bizim dostumuz Süleyman Dəmirəl də buna çox sevindi ki, burada həm özəl sektor yaranır və artıq yaranıbdır, həm də bu özəl sektorun yaranmasında Türkiyənin inşaat şirkətləri də iştirak edirlər. Bunun özü də böyük bir təsir bağışlayır ki, həqiqətən Azərbaycan bazar iqtisadiyyatı yolu ilə gedir.

Bilirsiniz, bu, adi bir hal deyildir. Şəhərin mərkəzində 16 mərtəbəli ofis-otel kompleksi tikilibdir. Bunu da özəl sektor yaradıbdır. Demək, bu, bazar iqtisadiyyatının əməli nəticəsidir və bunun dönməzliyidir. Bəli, bu, xarici sərmayə üçün inandırıcı bir haldır ki, Azərbaycanda şərait yaranıbdır. Hər bir sahibkar, sərmayədar gəlib sərmayə qoyub, iş görüb onun nəticəsini görə bilər. Bu da nümayiş olundu.

Ən nəhayət, Bakının bugünkü görünüşü, əhval-ruhiyyəsi, insanların vəziyyəti. Mən yenə də dostum Süleyman Dəmirəlin sözlərini xatırlatmaq istəyirəm. Deyəsən o, 16-cı mərtəbədə yaşayırdı. Bakı, Xəzər dənizi oradan çox gözəl görünür. Deyir, mən səhər durub baxdım ki, insanlar gedirlər. Hələ səhər erkən adamlar az idi. Sonra yavaş-yavaş insanlar, uşaqlar çoxaldı və oradakı parka gəlib, oturub istirahət edirdilər. Deyir ki, mən yanımda olan adamlara söylədim ki, baxın, Heydər Əliyevin Azərbaycanda yaratdığı sakitlik, sabitlik budur, - insanlar rahat gəzirlər, istirahət edirlər. O, oradan bunların hamısını müşahidə etmişdi, görmüşdü, öz təəssüratlarını mənə deyirdi.

Amma bu, yeganə təəssürat deyildir. Belə bir təəssürat hamısında var idi. Yəni bu gün Azərbaycan demokratik yolla, sərbəst iqtisadiyyat yolu ilə gedən azad bir ölkə kimi göz qabağındadır və Azərbaycanın, Bakının bugünkü mənzərəsi, görünüşü respublikamıza gələn həm dövlət başçıları, həm başqa nümayəndələr, həm də nümayəndə heyətlərinin üzvləri üçün açıq-aydındır.

Beləliklə, biz Azərbaycanı göstərdik. Yəni beş-altı il bundan öncə Azərbaycan

haqqında olan fikri və bu gün Azərbaycan haqqında olan fikri göstərdik. Əgər o fikir kənarda Azərbaycan haqqında cürbəcür böhtanlar əsasında yaranmışdısa, bu fikir isə Azərbaycanın bugünkü gerçəkliyi və görünüşü əsasında yaranır. Həm ictimai-siyasi vəziyyət, sabitlik, həm də qurulmuş infrastruktur zəminində yaranır.

Bilirsiniz ki, Bakı həmişə gözəl şəhər olubdur. Mən yenə də Süleyman Dəmirəlin sözünə qayıdıram. O deyir ki, nümayəndə heyətimizə bildirdim ki, xatirinizdədirmi, mən 1991-ci ildə Bakıya gələndə nələr var idi. İndi görün, Azərbaycan nə yerdədir, nə vəziyyətdədir. Bəli, 1991-ci ildə buraya gələn adam o vaxt gördüyü ilə indi gördüyü arasında nə qədər fərq olduğunu söyləyir. Bunu dərhal görmək mümkün olur.

Beləliklə, bu konfrans bizə belə bir böyük imkan da verdi və biz bundan istifadə edərək bundan sonra da Azərbaycanın həqiqətlərini, bugünkü reallığını, gerçəkliyini hər yerdə, hər ölkədə göstərməliyik, yaymalıyıq, təbliğ etməliyik. Bu, ona görə lazımdır ki, bizi daha da tanısınlar. Bir də ona görə lazımdır ki, Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar Azərbaycan haqqında yaranmış mənfi fikirləri biz gərək tamamilə ləğv edək və konfransın keçirilməsi bunun üçün çox böyük vasitə olmuşdur.

Konfransın işi, onun nəticələri, hesab edirəm ki, bundan sonra da təhlil və təbliğ olunmalıdır. Konfransa hazırlığın Azərbaycan ictimaiyyəti üçün bir əhəmiyyəti də ondan ibarətdir ki, Azərbaycanda ictimaiyyət Tarixi İpək yolunun nə olduğunu bildi. Bəlkə də ayrı-ayrı insanlarda İpək yolu haqqında çox az məlumat var idi, amma indi İpək yolu ictimaiyyətimiz üçün açıldı.

Məsələn, təsəvvür edin, bu konfransın hazırlanması Azərbaycanda İpək yoluna həsr olunmuş nə qədər elmi konfransların keçirilməsinə səbəb oldu. Elmi araşdırmalar aparılır, kitablar yazılır. Artıq "İpək yolu" jurnalı çıxır, gərək ki, onun iki nömrəsi çıxıbdır. Qəzet nəşr olunur. Onlar ingilis dilində də çap olundu, nümayəndə heyətlərinə də verildi. Yaxud, bizim Prezident Aparatının humanitar siyasət şöbəsi İpək yoluna həsr olunmuş bir yaxşı kitab hazırladı. Orada çox gözəl tarixi xəritələr, materiallar toplandı və gələn nümayəndələrin hamısına verildi.

Mən sizə demişdim, o kitabın tirajını artırmaq lazımdır və ümumiyyətlə, yaymaq lazımdır. Çünki o kitabda Azərbaycanın və İpək yolunun keçmiş, tarixi xəritələri vardır. Onları, ola bilsin ki, ayrı-ayrı alimlər, tədqiqatçılar bilirlər. Amma bizim ictimaiyyət bilmir. Ancaq bunu bilmək lazımdır. Çünki artıq yeni proqram meydana çıxıbdır və o proqram da bundan sonra illər boyu həyata keçiriləcəkdir.

Yəni konfransa qədər çox işlər görülmüşdür. Amma hesab edirəm ki, indi, konfransdan sonra bizim alimlərimiz, tədqiqatçılarımız bu sahədə daha çox işlər görə bilərlər, kitablar, elmi əsərlər yaza bilərlər, bu məsələni dərindən tədqiq edə bilərlər və konfransın nəticələrini təhlil edə bilərlər. Ona görə də konfransın nəticələri, imzalanmış sənədlər geniş təbliğ olunmalıdır, onun mahiyyəti, mənası ictimaiyyətə çatdırılmalıdır və bu barədə mütəmadi iş aparılmalıdır. Güman edirəm ki, bu tədbirlər

hazırlanan sənədlərdə öz əksini tapacaqdır. Ancaq mən indidən bunu deyirəm ki, bizim müvafiq elmi təşkilatlar, dövlət orqanları bu məsələlərlə ciddi məşğul olsunlar.

Tarixi İpək yolunun bərpası ilə əlaqədar keçirilmiş Bakı beynəlxalq konfransı XXI əsr üçün yeni böyük bir proqram açdı. İndi dünyada son 10 ildə baş vermiş dəyişikliklərlə əlaqədar bir neçə proqram yaranıbdır. Bu proqramların bəzisi regional xarakter daşıyır, bəzisi bir neçə regionu birləşdirir. Hər birinin özünəməxsus əhəmiyyəti vardır.

Biz Avropa Birliyi ilə birgə yeni böyük bir proqram irəli sürdük. Bu proqram isə Avropanın Asiya ilə birləşməsi və burada Qafqazın, o cümlədən xüsusən Azərbaycanın rolu və əhəmiyyətidir. Güman edirəm ki, XXI əsrdə bu proqram genişlənəcək, inkişaf edəcəkdir. Ancaq biz XXI əsrə doğru gedərək həm ölkəmiz, həm regionumuz, həm də bəşəriyyət üçün yeni bir proqramın irəli sürülməsinin iştirakçısıyıq və bununla əlaqədar keçirilən konfransın təşkilatçısıyıq. Biz çalışmalıyıq ki, bundan sonra da öz rolumuzu göstərə bilək.

Konfransın yekunlarından biri də ondan ibarətdir ki, proqramın həyata keçirilməsi üçün daimi katiblik yaradılıb və daimi katibliyin də Bakıda yerləşməsi qərara alınıbdır. Mən deməliyəm ki, bu qərar da asanlıqla qəbul olunmayıbdır. Çünki bu proqramda iştirak edən bir neçə başqa ölkə də arzu edirdilər ki, katiblik onların ölkəsində yerləşsin. Bu qərarın da əhəmiyyətinin nədən ibarət olduğunu izah etməyə ehtiyac yoxdur. Ancaq bizim gördüyümüz işə qiymət verildiyinə görə və bizim səylərimiz nəticəsində sazişi imzalayan əsas ölkələrin hamısı razı oldular ki, birincisi, katiblik təsis olunsun, ikincisi də bu katiblik Bakıda, Azərbaycanda yerləşsin. Bu, konfransın yekunu olaraq bizə göstərilən böyük etimaddır, qayğıdır. Beləliklə, biz bu proqramın həyata keçirilməsi barəsində öz üzərimizə böyük məsuliyyət götürmüşük.

Təsəvvür edin, indi dünyada belə proqramlar çoxdur. Məsələn, Qara dəniz hövzəsi dövlətlərinin İqtisadi Əməkdaşlıq Təşkilatı vardır, onun katibliyi İstanbulda yerləşir. Bu da təbiidir. Çünki vaxtilə, 1992-ci ildə Türkiyənin Baş naziri Süleyman Dəmirəlin təşəbbüsü ilə belə bir təşkilat yaranıbdır. Yaxud İqtisadi Əməkdaşlıq Təşkilatı vardır, onun katibliyi Tehranda yerləşir. Bu da məlumdur. Başqa belə təşkilatlar vardır və onların katibliyi ayrı-ayrı ölkələrdə yerləşir. Ancaq Böyük İpək yolu, Avropanı və Asiyanı bir-birinə bağlayan, birləşdirən proqramı həyata keçirən təşkilatın katibliyi Azərbaycanda yerləşir. Bir də qeyd edirəm, bu, bizə göstərilən böyük etimaddır və bizə bu proqramın həyata keçirilməsi sahəsində səy göstərmək üçün imkanlar yaradıbdır. Biz bunu da qiymətləndirməliyik və bu etimadı doğrultmağa çalışmalıyıq.

Beləliklə, bizim Avropa Birliyi ilə uğurlu əməkdaşlığımızın nəticəsində, TRASEKA proqramına qəbul olunmuş ölkələrlə əməkdaşlığımızın nəticəsində və bu sahədə göstərdiyimiz təşəbbüslərin nəticəsində Azərbaycanda böyük beynəlxalq

konfrans keçirildi və biz də bu gün bunun nəticələrini görürük.

Mən sizi və bütün Azərbaycan xalqını, vətəndaşlarını bu böyük və tarixi hadisə münasibətilə bir daha təbrik edirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, biz bu proqramın həyata keçirilməsi üçün dəyərli işlər görəcəyik və bu vasitə ilə Avropa ilə Asiya arasında olan inteqrasiya prosesinə öz xidmətlərimizi göstərəcəyik, Azərbaycanın Avropa-Asiya əməkdaşlığında daha da əhəmiyyətli rolunu təsdiq edəcəyik.

Mən əminəm ki, biz bundan sonra da beynəlxalq aləmdə Azərbaycanın dövlət müstəqilliyinin və suverenliyinin, Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinin əhəmiyyətini nümayiş etdirəcək və respublikamızı azad, sərbəst, müstəqil ölkə, dövlət kimi bundan sonra da irəliyə aparacağıq.

Mənim sizə çatdıracağım sözlər bundan ibarətdir. Bugünkü müşavirənin də məqsədi beynəlxalq konfransın yekunları haqqında mülahizələrimi sizə çatdırmaqdan ibarətdir. Sizin mənə bir sözünüz varmı? Varsa, buyurun. Sualınız, başa düşülməyən heç bir məsələ yoxdur ki? Hər şey aydındırmı?

## Avropa Komissiyasının sədri zati-aliləri cənab Romano Prodiyə

7 may 1999-cu il

Hörmətli Romano Prodi,

Avropa Komissiyasının sədri seçilməyiniz münasibətilə sizi ürəkdən təbrik edirəm.

Biz Avropa İttifaqının strukturları ilə əlaqələrin genişlənməsinə və sıx əməkdaşlığa böyük əhəmiyyət veririk.

Əminəm ki, yaxın vaxtlarda qüvvəyə minəcək tərəfdaşlıq və əməkdaşlıq haqqında Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında saziş əlaqələrimizin hüquqi bazasını təşkil etməklə onların möhkəm təməl üzərində inkişafını təmin edəcəkdir.

Respublikamıza çoxsaylı humanitar və texniki yardımlarına görə Avropa İttifaqına bir daha minnətdarlığımı bildirirəm. Ümidvaram ki, rəhbərlik etdiyiniz Avropa Komissiyası Azərbaycanın Dünya Birliyi ilə inteqrasiyası proseslərinin güclənməsində, regionumuzda sülhün və sabitliyin bərqərar edilməsində bundan sonra da mühüm rol oynayacaqdır.

Sizə işlərinizdə uğurlar diləyir və ən xoş arzularımı yetirirəm.

Hörmətlə,
Heydər Əliyev,
Azərbaycan Respublikasının Prezidenti

## Avropa Birliyinin xarici siyasət və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Birliyi Şurasının Baş katibi cənab Xavyer Solanaya

Bakı şəhəri, 22 oktyabr 1999-cu il

Hörmətli cənab Solana!

Avropa Birliyinin xarici siyasət və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi və Avropa Birliyi Şurasının Baş katibi vəzifələrinə təyin olunmağınız münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan Respublikası Avropa Birliyi ilə əməkdaşlığa böyük əhəmiyyət verir. Bu yaxınlarda qüvvəyə minmiş tərəfdaşlıq və əməkdaşlıq haqqında saziş ölkəmiz ilə Avropa Birliyi arasında əlaqələrin genişlənməsi üçün yeni perspektivlər açır.

NATO-nun Baş katibi kimi keçmiş vəzifənizdəki fəaliyyətinizi yüksək qiymətləndirir və Sizinlə görüşlərimizi məmnuniyyətlə xatırlayıram. Ümidvaram ki, yeni vəzifənizdə dialoqumuz uğurla davam edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar arzulayır və Sizi münasib bildiyiniz vaxtda Azərbaycana səfərə dəvət edirəm.

Hörmətlə,
Heydər Əliyev,
Azərbaycan Respublikasının Prezidenti

## Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Avropa Komissiyasının sədri Romano Prodi ilə görüşdəki söhbətindən

İstanbul, "Çırağan sarayı", 19 noyabr 1999-cu il

***Heydər Əliyev:*** Hörmətli cənab Prodi, Sizinlə bir daha görüşməyimə çox şadam. Sizi Avropa Komissiyasının sədri seçilməniz münasibətilə ürəkdən təbrik edirəm. Avropa Birliyinin strukturları ilə Azərbaycan arasında əlaqələrin genişlənməsinə və sıx əməkdaşlığa böyük əhəmiyyət verirəm. Tarixi İpək yolunun bərpası və TRASEKA proqramları üzrə əməkdaşlığın genişlənməsi çox mühüm hadisədir. Əminəm ki, Avropa ilə Asiya arasında nəqliyyat kommunikasiyalarının inkişafında bu layihələr xüsusi rol oynayacaqdır.

Avropa Birliyinin ölkəmizə humanitar və texniki yardımlarını minnətdarlıqla qeyd etmək istərdim. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində işğaldan azad edilmiş rayonlarımızın bərpasında Avropa Komissiyasının TASİS proqramı çərçivəsində köməyini yüksək qiymətləndirir və cənab Romano Prodi, Sizin rəhbərliyinizlə bu proqramların müvəffəqiyyətlə davam etdiriləcəyinə əmin olduğumu bildirirəm.

***Romano Prodi:*** Hörmətli cənab prezident! Avropa Komissiyasının sədri seçilməyim münasibətilə səmimi təbriklərinizə görə Sizə təşəkkür edirəm. Avropa Birliyi ölkənizlə əməkdaşlığa böyük əhəmiyyət verir. Avropa strukturları Cənubi Qafqaz regionu ilə təkcə iqtisadi əlaqələrə deyil, bütün sahələrdə hərtərəfli əməkdaşlığa maraq göstərir.

Böyük Tarixi İpək yolunun bərpasına dair 1998-ci ilin sentyabrında Bakıda keçirilmiş beynəlxalq konfrans yüksək qiymətə layiqdir. Regionun inkişaf strategiyasının müəyyən edilməsində bu tədbir böyük əhəmiyyət daşıdığını xüsusi qeyd etmək istərdim.

***Heydər Əliyev:*** Bu həqiqətən də belədir, cənab Prodi. Onu da deməliyəm ki, müstəqillik yolu ilə inamla irəliləyən Azərbaycan Respublikasında demokratikləşmə prosesi və islahatlar uğurla həyata keçirilir. Xəzərin enerji ehtiyatlarının istifadəyə verilməsi və nəqli sahəsində görülən işlər də uğurla həyata keçirilir. Bildiyiniz kimi, ölkəmiz bu layihələrin təşəbbüskarıdır. 1994-cü ildə Bakıda böyük səylər hesabına imzalanmış "Əsrin müqaviləsi" adlanan ilk neft müqaviləsi sonrakı genişmiqyaslı neft layihələrinin həyata keçirilməsində böyük əhəmiyyət daşıyır.

Xəzər neftinin dünya bazarlarına çıxarılması üçün Bakı-Novorossiysk kəməri ilə yanaşı, bu ilin aprel ayında Bakı-Supsa boru xətti də istifadəyə verilmişdir. Neft nəqlinin etibarlılığının təmin edilməsi üçün əsas ixrac boru kəməri kimi Bakı-Tbilisi-Ceyhan xəttinin inşası üçün İstanbulda imzalanmış sənədlərin böyük tarixi


www.aliyevheritage.org

əhəmiyyətini xüsusi vurğulardım. Bu yolda bizim qarşımıza çox maneələr çıxıb. Ölkəmizə təzyiqlər göstərilib, region dövlətlərində qeyri-sabitlik yaratmaq cəhdləri olub. Bütün bu çətinliklərə baxmayaraq Bakı-Tbilisi-Ceyhan kəmərinin inşasının reallaşması məndə məmnunluq duyğusu yaradır.

Onu da deyim ki, Xəzərin zəngin enerji ehtiyatlarının hasilatında ölkəmizin xarici şirkətlərlə geniş əməkdaşlığı karbohidrogen yataqlarının işlənilməsində İtaliyanın “ENİ-ACİP” Şirkəti də fəal iştirak edib.

Müstəqillik yolu ilə irəliləyən Azərbaycan dövlətinin qarşılaşdığı ən böyük problem olan Dağlıq Qarabağ münaqişəsi 12 ildən bəri davam edir, erməni silahlı qüvvələrinin təcavüzü nəticəsində torpaqlarımızın beşdə bir hissəsi işğal olunub, bir milyon soydaşımız qaçqın vəziyyətinə düşərək çadır şəhərciklərində ağır şəraitdə yaşayır.

Bütün bunlara baxmayaraq ölkəmiz Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həllinə tərəfdardır. Beş ildən bəri atəşkəs rejiminə əməl edilir. Münaqişənin həlli ilə məşğul olan ATƏT-in Minsk qrupu 1992-ci ildən fəaliyyət göstərir, lakin arzu etdiyimiz nəticələr hələ də əldə olunmayıb.

Azərbaycan və Ermənistan prezidentləri arasında son vaxtlar bir neçə görüş keçirilib. Münaqişəni nizamasalma prosesi, eyni zamanda ATƏT-in Minsk qrupu çərçivəsində davam etdirilməsi olduqca zəruridir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində və onun nəticələrinin aradan qaldırılmasında ölkəmiz beynəlxalq birliyin köməyinə ümid bəsləyir.

***Romano Prodi:*** Hörmətli cənab prezident! Mən Xəzər dənizinin enerji ehtiyatlarının hasilatının və dünya bazarlarına nəqlinin əhəmiyyətini yüksək dəyərləndirirəm. Bakı-Ceyhan əsas ixrac boru kəmərinin inşası ilə bağlı sənədlərin və digər layihələrin imzalanması münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Avropa Birliyi arasında tərəfdaşlığın və əməkdaşlığın inkişafı üçün geniş perspektivlər açılıb. Mənim rəhbərlik etdiyim təşkilat bölgədə sülh və sabitlik yaranmasına hər cür kömək göstərməyə hazırdır.

Hörmətli cənab prezident! İcazə versəniz mən bu görüşdən və maraqlı söhbətdən məmnun qaldığımı bildirərdim.

## Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Avropa Birliyinin Azərbaycandakı xüsusi elçisi Renato Battini və Avropa Komissiyasının Azərbaycan üzrə əlaqələndiricisi Robin Lideli qəbul edərkən söhbətindən

Prezident sarayı, 5 fevral 2000-ci il

***Heydər Əliyev:*** Azərbaycana xoş gəlmisiniz! Sizin Azərbaycana gəlməyinizdən çox məmnunam. Biz Avropa Birliyi ilə əməkdaşlığımıza daim çox böyük əhəmiyyət veririk və mən bu əməkdaşlığın çox müsbət nəticələrini də qeyd edirəm. Amma eyni zamanda mən bizim əməkdaşlığımızın daha da gözəl perspektivlərini hiss edirəm.

Mənə Baş nazir məlumat verdi ki, siz çox məsələləri ətraflı müzakirə etmisiniz. Mən də sizi dinləməyə hazıram.

***Renato Batti:*** Cənab prezident, bu gün bizi qəbul etdiyinizə görə çox sağ olun. Bu gün Sizinlə görüşmək bizim üçün həm xoşdur, həm də böyük şərəfdir. Həqiqətən də, biz hökumət üzvləri ilə çoxlu müzakirələr aparmışıq, görüşlər keçirmişik və bu görüşlərdə ikitərəfli münasibətləri müzakirə etmişik. Bizim Azərbaycanla olan əməkdaşlığımız regionda ən başlıca əməkdaşlıqdır. Avropa Birliyi Azərbaycana ən birinci donor olan təşkilatdır. Heç şübhəsiz ki, biz işimizi bu yönümdə davam etdiririk və gələcəkdə də Azərbaycanın bütün səylərini dəstəkləməkdə davam edəcəyik. Regionda sülh əldə olunan kimi, biz bütün dəstəyimizi daha da artırmağa hazırıq. Avropa icması beynəlxalq icma ilə birlikdə sülh əldə olunandan sonra reabilitasiya və yenidənqurmaya yönəlmiş bütün işləri dəstəkləməyə hazır olduğunu bildirir.

Biz burada olduğumuz müddətdə bir neçə layihəni müzakirə etmişik. Noyabr ayında burada olduğumuz zaman Naxçıvana aid bir layihəni nəzərdən keçirmişik və bu gün də işləməyə hazırıq. Bu da bizim maliyyə üzrə ikinci tranşımızdan ayrılan layihədir.

Bu imkandan istifadə edərək, bizim görüşlər zamanı təmasda olduğumuz bütün şəxslərə minnətdarlığımı bildirmək istəyirəm. Xüsusilə Azərbaycanın Baş nazirinin müavininə minnətdarlığımı bildirmək istəyirəm. O, bütün görüşlər zamanı bizimlə birlikdə idi və razılığın müddəalarını birlikdə həyata keçirməyə yardımçı olmuşdur.

Məlumdur ki, Avropa Birliyi ilə Azərbaycan razılıq əsasında bir sıra layihələri həyata keçirirlər və bu, tərəfdaşlıq və əməkdaşlıq haqqında olan razılıqdır. Bu razılıq əldə olunduqdan sonra biz ilk görüşümüzü noyabrda keçirmişik və mart ayında Brüssel şəhərində ikinci görüşümüz olacaqdır. Fevralın 24-dən martın 1-dək Avropa Parlamentinin üzvləri Qafqaz regionuna gələcəklər və bu səfər zamanı Azərbaycana da xüsusi diqqət yetiriləcəkdir. Mart ayında isə, bir qədər əvvəl qeyd etdiyim kimi, Azərbaycan nümayəndə heyəti əməkdaşlıq və tərəfdaşlıq razılığı çərçivəsində Brüsselə gələcəkdir. Sağ olun, cənab prezident.

***Heydər Əliyev:*** Çox gözəl. Mən sizin verdiyiniz məlumatdan çox məmnunam. Mən təşəkkür edirəm ki, Avropa Birliyi regionda Azərbaycana xüsusi diqqət yetirir. Biz çalışacağıq ki, həmişə bunu, belə bir münasibəti doğruldaq.

İşğal altında olan ərazimizin bərpa edilməsi haqqında Avropa Birliyinin planları bizi çox sevindirir. Son zamanlar aparılan danışıqlar - həm Minsk qrupu çərçivəsində, həm də Azərbaycan prezidenti ilə Ermənistan prezidenti arasında aparılan bilavasitə danışıqlar ümid verir ki, biz sülhə nail olacağıq və işğal edilmiş torpaqlarımız işğaldan azad olunacaqdır. O torpaqlarda çox iş görmək lazım olacaqdır. Əgər Avropa Birliyinin, dünya birliyinin bu işdə iştirakı olmasa, biz burada heç bir şey edə bilmərik. Çünki orada olan bütün şəhərlər, qəsəbələr, kəndlər, hər bir şey - hansını ki, insanlar istifadə edirdi - dağıdılıbdır, viran edilibdir.

Bir müddət öncə Dünya Bankının, sonra Valyuta Fondunun, gərək ki, bir də Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının nümayəndələri Ermənistanda olmuş, Dağlıq Qarabağda olmuş, sonra Azərbaycanın işğal edilmiş Ağdam bölgəsində olmuşlar. Onlar sonra öz təəssüratlarını dedilər və öz gözləri ilə görmüşlər ki, hər şey dağılıbdır. Hər şey yenidən qurulmalıdır. Bu baxımdan sizin bugünkü bəyanatınız mənim üçün çox əhəmiyyətlidir.

Mən İstanbulda olarkən Avropa Komissiyasının sədri cənab Prodi ilə görüşmüşdüm. Biz bu barədə ətraflı söhbət etmişik, danışmışıq. Onunla danışanda da bu məsələ, demək olar ki, bizim müzakirəmizin mərkəzində idi. Bir daha ümidvar olduğumu bildirmək istəyirəm ki, biz onunla birlikdə məşğul olacağıq.

Mən sizin tranşlarınıza görə və müxtəlif layihələrin həyata keçirilməsində iştirakınıza görə təşəkkür edirəm. Bunların hər biri bizim üçün çox əhəmiyyətlidir.

Beləliklə, münasibətlərimiz genişlənir. Avropa Birliyinin Azərbaycanda daimi nümayəndəliyi lazımdır və Azərbaycanın da Brüsseldə daimi nümayəndəliyi lazımdır. Bu məsələləri də biz həll etməliyik.

Bir sözlə, geriyə baxarkən Avropa Birliyi ilə əməkdaşlığımızın bizim üçün nə qədər əhəmiyyətli olduğunu görürük və qiymətləndiririk. Amma irəlidə hələ daha çox işlər var. Ümidvaram ki, bizim əldə etdiyimiz təcrübə və əməkdaşlığımızın mütəşəkkilliyi gələcəkdə daha da çox nailiyyətlər əldə etməyə imkan verəcəkdir. Biz bunu istəyirik və bunu qəbul edirik.

## Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Avropa Parlamentinin nümayəndə heyətini qəbul edərkən söhbətindən

Prezident sarayı, 29 fevral 2000-ci il

***Heydər Əliyev:*** Hörmətli qonaqlar, mən sizi salamlayıram. Bu, Avropa Birliyinin parlamentindən Azərbaycana gələn ilk nümayəndə heyətidir. Biz Avropa Birliyi ilə çoxdandır əməkdaşlıq edirik. Amma əməkdaşlığımız əsasən iqtisadi komissiya ilə həyata keçirilir və bu əməkdaşlıqdan çox məmnunuq. Avropa Birliyinin iqtisadi komissiyası ilə əməkdaşlığımız nəticəsində çox işlər görmüşük və onlardan yardımlar da almışıq. Gələcək üçün də yaxşı planlarımız var.

Sizinlə görüşmək isə onu göstərir ki, biz Avropa Birliyinin bütün strukturları ilə əməkdaşlığı genişləndiririk. Ona görə çox məmnunam ki, Siz Azərbaycana gəlmisiniz. Ölkəmizlə, xalqımızla tanış olarsınız. Ən əsası odur ki, bizim əməkdaşlığımız başlanır. Buyurun, sizi dinləyirəm.

***Per Qharton:*** Zənnimcə, bu görüş Avropa Birliyi ilə Azərbaycan arasında əməkdaşlığın gələcəyi üçün çox vacibdir. Mən Avropa Parlamentinə Cənubi Qafqaz ölkələri haqqında raport yazıram. Sonra bu raport Avropa Parlamentində müzakirə ediləcək və çox güman ki, qəbul olunacaqdır. Qəbul olunduqdan sonra isə Avropa Parlamentinin bu ölkələr barəsində əsas xətti, strategiyası müəyyən ediləcəkdir. Ona görə də biz bu missiyamızı "fakt axtarışı missiyası" adlandırmışıq. Gördüyünüz kimi, mənimlə birlikdə nümayəndə heyətində müxtəlif parlamentləri təmsil edən şəxslər var. Bu o deməkdir ki, Azərbaycanı daha çox adam müşahidə edəcək və ölkəniz haqqında fikirlər də çox olacaqdır. Lakin, əlbəttə ki, son nəticə raport şəklində hazırlanacaq və mən onu Avropa Parlamentinə təqdim edəcəyəm.

Cənab prezident, mən bəri başdan Sizə iki sualla müraciət etmək istəyirəm. Birinci sualım Azərbaycanla Avropa Birliyi arasında olan münasibətlərə aiddir. Məlumdur ki, Avropa Birliyi ilə Azərbaycan arasında müəyyən əlaqələr, əməkdaşlıqlar vardır. Ümumiyyətlə, biz bilirik ki, Siz Avropa Birliyi ilə Azərbaycan arasında əlaqələri inkişaf etdirmək əzmindəsiniz. Biz Sizin bu əzminizi bəyənir və dəstəkləyirik.

O da məlumdur ki, Azərbaycan çox tezliklə Avropa Şurasının üzvü olacaqdır. Bu gün uzaqda deyildir. Avropa Birliyi də Avropanın digər bir təsisatıdır. Lakin o da məlumdur ki, buradan Strasburqa olan məsafə Brüsselə olan məsafədən bir qədər yaxındır. Ona görə də biz istərdik ki, Avropa Birliyi ilə Azərbaycan arasında olan münasibətlərlə bağlı Sizin fikrinizi eşidək. Sizin planlarınız nə qədər uzağa gedəndir? Ümumiyyətlə, bu əlaqələr barəsində nə düşünürsünüz?

İkinci sualım isə Ermənistan-Azərbaycan münaqişəsinə aiddir. Bu faciəli münaqişə haqqında çox deyilib və biz də burada olduğumuz müddətdə onun


www.aliyevheritage.org

barəsində çoxlu məlumat əldə etmişik. Buraya gəlməzdən əvvəl də kifayət qədər məlumat toplamışdıq. Onu da bilirdik ki, Siz bu məsələnin sülh yolu ilə həll olunması üçün addımlar atırsınız. Bilmək istərdik ki, məsələnin həlli nə qədər yaxındır və Siz onu necə görürsünüz?

***Heydər Əliyev:*** Əvvəla, onu bildirmək istəyirəm ki, Azərbaycan Avropa qitəsinə daxildir, yəni Avropa ölkəsidir. Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra öz quruluşunu demokratik, hüquqi, dünyəvi dövlət quruluşu kimi müəyyən edibdir. Siyasi, iqtisadi islahatlar həyata keçirərək, keçmiş iqtisadi, siyasi formalardan imtina edib və bazar iqtisadiyyatı yolu ilə gedir, sona qədər də gedəcəkdir.

Qeyd etdim ki, Azərbaycan həm demokratik, həm də dünyəvi dövlətdir. Belə olan halda, təbiidir ki, Azərbaycan Avropa dəyərlərindən bəhrələnmək istəyir və Avropa dəyərlərindən istifadə edərək həm dövlət quruculuğu prosesində, həm cəmiyyətin formalaşmasında, həm də sosial-iqtisadi sahədə və bütün başqa sahələrdə Avropa standartlarına yaxınlaşmaq və nəhayət, o standartlar səviyyəsinə çatmaq istəyir.

Təbiidir, bu, prosesdir. Ancaq bu prosesin sürəti həm dövlətin, hökumətin onu həyata keçirmək əzmindən asılıdır, - bu, Azərbaycanda var - həm də Avropa strukturları ilə əməkdaşlıq edərək, Avropa strukturlarının Azərbaycanı Avropa ölkəsi kimi tanımaq və bu strukturlara qəbul etmək qərarına gəlməsindən asılıdır. Biz dərk edirik ki, bu yolu keçməliyik. Bu yolu keçmək üçün həm Konstitusiyamızla, həm də Avropa dəyərləri ilə, beynəlxalq mütərəqqi dəyərlərlə əlaqədar olaraq öz üzərimizə götürdüyümüz öhdəlikləri yerinə yetirməliyik. Biz bunu istəyirik, bunun üçün çalışırıq. Siz qeyd etdiniz ki, biz Avropa Şurası ilə üç ildən çoxdur əməkdaşlıq edirik.

Belə güman etmək olar ki, biz artıq imtahan dövrünü keçmişik. Düşünürəm ki, biz bu il Avropa Şurasına qəbul olunacağıq.

Avropa Birliyi ilə isə, mən dediyim kimi, əməkdaşlığı birinci növbədə iqtisadi komissiya vasitəsilə həyata keçiririk. Bu sahədə çox işlər görmüşük. Avropa Birliyinin iqtisadi komissiyası ilə imzaladığımız sənədlər var. Bu sənədlər əsasında çox yaxşı əməkdaşlıq edirik. Avropa Birliyi iqtisadi komissiyasının TRASEKA, İNOGEYT proqramlarının həyata keçirilməsində Azərbaycan xüsusi rol oynayır.

Güman edirəm ki, siz bilirsiniz, - TRASEKA proqramının həyata keçirilməsi, qədim böyük İpək yolunun bərpası ilə əlaqədar 1998-ci ilin sentyabr ayında Azərbaycanda beynəlxalq konfrans keçirildi. Bu konfransın təşəbbüskarı Azərbaycan idi, ancaq onu Avropa Birliyinin iqtisadi komissiyası ilə birlikdə keçirdik. Bu beynəlxalq konfransda 32 dövlətin nümayəndə heyətləri, 13 beynəlxalq təşkilatın nümayəndələri iştirak edirdilər. 9 ölkənin nümayəndə heyətlərinə prezidentlər başçılıq edirdilər.

Biz çox ətraflı müzakirə apardıq və TRASEKA proqramının həyata keçirilməsini, İpək yolunun bərpa edilməsini Şərqlə Qərb arasında çox zəruri proqram kimi

qiymətləndiririk. Biz lazımi sənəd imzaladıq və təşkilat komitəsi yaratdıq. Onun ofisi, yəni katibliyi də Azərbaycanda yerləşir. Bir də qeyd edirəm, bunlar Avropa Birliyinin iqtisadi komissiyası ilə əməkdaşlığımızın nəticəsidir.

Düşünürəm, indi vaxt gəlib çatıbdır ki, Avropa Birliyinin parlamenti ilə də əməkdaşlıq edək. Ona görə də siz Azərbaycana gəlmisiniz. Mən bunu bir daha məmnuniyyətlə qəbul edirəm. Keçmiş təcrübəni nəzərə alaraq, hesab edirəm ki, biz sizinlə çox səmərəli əməkdaşlıq edə bilərik. Biz dərk edirik ki, sizin parlamentin də çox sərt şərtləri var. Avropanın, demək olar, bütün ölkələri Avropa Şurasının üzvləridir. Amma Avropa Birliyində isə üzvlərin sayı məhduddur. Mən bilirəm, keçmişdə sosialist sistemində olan bir çox Şərqi Avropa ölkələri indi çalışırlar ki, Avropa Birliyinə daxil olsunlar. Amma şərtləri həyata keçirməlidirlər. Düşünürəm ki, bu şərtləri həyata keçirmək üçün o ölkələrə də vaxt lazımdır. Bunun üçün əməkdaşlıq lazımdır. Bu sahədə biz sizinlə əməkdaşlığa hazırıq.

İkinci sualınız haqqında onu deyə bilərəm ki, güman edirəm, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi haqqında məlumatınız var. Bu, ola bilər ki, keçmiş Sovetlər İttifaqı məkanında ən köhnə və ən ağır münaqişədir. O, 1988-ci ildə başlayıbdır və təşəbbüskarı Ermənistandır. Ermənistan Azərbaycanın tərkibində olan Dağlıq Qarabağ vilayətini Azərbaycandan qoparıb özünə birləşdirmək məqsədi güdərək belə bir münaqişəyə başlayıbdır. Bu münaqişə sonra böyük bir müharibəyə çevrilibdir. Çox qanlar tökülüb, insanlar tələf olubdur.

Müxtəlif səbəblərə görə, bəzi ölkələrin bilavasitə göstərdiyi yardımdan istifadə edərək Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağı, sonra isə Azərbaycanın onun ətrafındakı bir neçə böyük rayonunu işğal ediblər. Bunların nəticəsində indi Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. İşğal olunmuş torpaqlardan bir milyondan artıq Azərbaycan vətəndaşı, azərbaycanlı zorla öz yerlərindən-yurdlarından çıxarılmışdır və indi çadırlarda ağır vəziyyətdə yaşayırlar. İşğal edilmiş rayonlarda Azərbaycanın, demək olar, bütün varidatı dağıdılıbdır.

Bütün bunlara baxmayaraq, biz hələ 1994-cü ilin may ayında atəşin dayandırılması haqqında Ermənistanla saziş imzalamışıq və ona indiyə qədər riayət edirik. Bütün bu illər ərzində biz məsələni sülh yolu ilə həll etməyə çalışmışıq. Güman edirəm ki, bilirsiniz, - məsələnin sülh yolu ilə həll edilməsi üçün 1992-ci ildə ATƏT Minsk qrupu yaradıbdır. Minsk qrupuna üç dövlət - Rusiya, Amerika Birləşmiş Ştatları, Fransa başçılıq edir. Biz ötən illər onlarla çox görüşlər keçirmişik, çox müzakirələr aparmışıq, müxtəlif təkliflər irəli sürülübdür. Ancaq hələ ki, bir nəticəyə gələ bilməmişik.

1996-cı ilin dekabr ayında - ATƏT-in Lissabon görüşündə həm Ermənistan üçün, həm də Azərbaycan üçün məqbul olan bir qərar qəbul edildi. Hesab edirəm ki, əgər biz onu həyata keçirə bilsəydik, münaqişə çoxdan bitmiş olardı. Amma Azərbaycan

bunu qəbul etdi, Ermənistan isə bundan imtina etdi.

Minsk qrupunun həmsədrləri indi yenə fəaliyyət göstərirlər. Amma bununla yanaşı, 1999-cu ildə Ermənistan prezidenti ilə Azərbaycan prezidentinin bir neçə bilavasitə görüşləri və danışıqları olmuşdur. Güman edirəm ki, Minsk qrupunun gördüyü işə əlavə olaraq bu görüşlər, danışıqlar çox əhəmiyyətlidir, məsələnin sülh yolu ilə həll olunmasına kömək edir. Əgər oktyabr ayının 27-də Ermənistanda böyük terror hadisəsi baş verməsəydi, biz bəlkə də bunu həll edə bilərdik. Güman edirəm, parlamentdə olan terror hadisəsi barədə sizin məlumatımız var.

Mən bu gün də hesab edirəm ki, iki prezident arasında danışıqlar davam etməlidir. Minsk qrupunun həmsədrləri bu işlə daha fəal məşğul olmalıdır və biz məsələnin sülh yolu ilə həllinə nail olmalıyıq. Bizim fikrimiz bundan ibarətdir. Güman edirəm ki, elə bu da Avropa Birliyinin tələblərinə uyğundur.

***Per Qharton:*** Əlbəttə, ümid yeri varsa, hesab edirəm ki, birbaşa görüşlər çox vacibdir. Mən elə bilirəm ki, ümid yeri var.

***Marie-Anne-İsler Bekuin:*** Cənab prezident, mən Sizə hər şeydən əvvəl yaxşı səhhət arzulamaq istəyirəm. Mən də Avropa Parlamentində Azərbaycana, eləcə də digər iki Cənubi Qafqaz ölkəsinə nümayəndə kimi göndərilmişəm. Ümid edirəm ki, beş illik mandatım dövründə Azərbaycanla bizim təşkilatımız arasında yaxşı əlaqələr yaranacaqdır. Bu gün Sizə xüsusi sual vermək istəyirəm. Mən ətraf mühit məsələləri ilə yaxından məşğul olduğuma görə bu barədə sual verirəm. Bizim parlamentdə ətraf mühit, ekologiya məsələləri həmişə ön plana çəkilir. Biz istəyirik ki, Tbilisidə üç ölkəyə aid olan regional mərkəz yaradaq. Başa düşürük ki, Azərbaycan Ermənistanla münaqişədə olduğuna görə bəlkə də bu təşəbbüsə qatılmaq istəməz. Lakin elə bilirik ki, bu cür mərkəzin yaradılması həm siyasi, həm iqtisadi, həm də ekoloji baxımdan Azərbaycan üçün yararlı olar. Bu barədə Sizin fikirlərinizi öyrənmək istəyirik.

***Heydər Əliyev:*** Əvvəla, sizə təşəkkür edirəm ki, mənə yaxşı səhhət arzulayırsınız. Səhhətim yaxşıdır. Amma yəqin ki, sizin arzunuz mənim səhhətimi daha da yaxşılaşdıracaq.

Sizin qaldırdığınız məsələ çox mühümdür. Təbiidir ki, ekologiya, təbii mühitin çirklənməsinin qarşısının alınması nəinki başa çatdırdığımız XX əsrin, həm də XXI əsrin əsas problemlərindən biridir.

Bizim üçün - Azərbaycan üçün, Cənubi Qafqaz üçün bu xüsusən lazımdır. Bilməlisiniz ki, bu barədə Azərbaycan daha da əlverişsiz vəziyyətdədir. Ətraf mühitin qorunması, ekologiya məsələləri, təbiidir ki, hər bir ölkədə bu işə münasibətdən, ətraf mühiti çirkləndirən amillərin qarşısının alınmasından asılıdır. Bu sahədə bizim imkanlarımız o qədər də geniş deyildir. Azərbaycan böyük sənaye ölkəsi, xüsusən Bakı iri sənaye şəhəridir. Keçmişdə bizdə kimya sənayesi, neftlə, qazla bağlı olan başqa sənaye sahələri çox inkişaf etmişdi. Təbiidir ki, bu da ətraf mühitin

çirkləndirilməsi baxımından daha çox təsir göstərirdi.

Doğrudur, indi bu sənaye müəssisələrinin bir qismi işləmir. Bəlkə bu, istehsalda bizə zərər verirsə də, ətraf mühitin qorunmasında xeyir verir.

Amma ekologiya elə məsələdir ki, o, bir ölkənin çərçivəsində, onun sərhədləri daxilində məhdudlaşmır. Bu, bütün dünyaya aid problemdir. Onun dövlətlərin sərhədi kimi sərhədi yoxdur. Məsələn, Azərbaycana gələn böyük çaylar Araz çayı və Kür çayıdır. Onların ikisi də mənbəyini Türkiyədən götürür, ancaq Azərbaycana Ermənistanın və Gürcüstanın ərazisindən keçib gəlir. Biz bu çaylardan bütün məqsədlər üçün istifadə edirik, çünki Azərbaycanın əsas su mənbələridir. İçməli suyun çoxunu bu çaylardan götürürük. Sizə deyə bilərəm ki, Bakının su təchizatının təxminən 70 faizi Kür çayından götürülən suyun hesabınadır. Kür çayı Arazla birləşəndən sonra bir çay olur. Keçmişdə, Sovetlər İttifaqı zamanı biz bir dövlət daxilində olduğumuza görə, məsələn, Ermənistandan gələn Araz çayına tökülən zəhərli tullantıların nə qədər olduğunu bilir və bunun qarşısını almağa çalışırdıq. Eləcə də Gürcüstandan gələn Kür çayında. Amma indi buna imkanımız yoxdur. Biz bilmirik ki, Ermənistan ərazisində Araz çayına nə qədər zəhərli tullantılar atılır. Yəni harada, nə cür atılır - onu bilmirik. Amma burada suyu analiz edərkən onun tərkibində zəhərli maddələrin olduğunu müşahidə edirik.

Ona görə də Cənubi Qafqaz çərçivəsində ekologiya sahəsində əməkdaşlıq etmək bizim üçün vacibdir. Sizin təşəbbüsünüz yaxşı təşəbbüsdür. Amma iş bundadır ki, Ermənistanla Azərbaycan arasında heç bir əlaqə yoxdur. Yəni biz münaqişə şəraitindəyik. Belə bir halda hansısa formada bizim əməkdaşlıq etməyimiz mümkün deyildir. Amma buna baxmayaraq, biz o təklifi hələ diqqətlə öyrənirik. Çünki bizdə bu təklifi qəbul etməyin tərəfdarları da var, amma ona etiraz edənlər də çoxdur. Ona görə də mən hələ son fikrimi deyə bilmərəm. Amma eyni zamanda, hesab edirəm ki, sizin təşəbbüsünüz dəyərlidir. Biz də son nəticəyə gələndə bu barədə sizə məlumat verərik.

***Joot Lagenduk:*** Cənab prezident, yəqin Sizə məlumdur ki, biz buraya gəlməzdən əvvəl Gürcüstanda olmuşuq və burada olduğumuz müddətdə ayırd etmişik ki, iki ölkənin çox oxşar problemləri vardır. Elə problemlər vardır ki, hər iki ölkəyə bunu şamil etmək olar. Bu da korrupsiya problemidir. Bildiyiniz kim, Avropa Birliyi də korrupsiya probleminə çox həssas yanaşır. Əgər Siz ölkənizdə iqtisadi artıma nail olmaq istəyirsinizsə, ölkənizdə həm siyasətdə, həm cəmiyyətdə demokratik təsisatları inkişaf etdirmək əzmindəsinizsə, bu, əlbəttə ki, Avropa Birliyinin ən çox fikir verdiyi sahə olacaqdır. Avropa Birliyində bu, üstün sahələrdən sayılır. Biz Gürcüstanda olarkən sizin prezident həmkarınız cənab Şevardnadze ilə bu məsələni müzakirə etmişik və istərdik Sizin də fikrinizi öyrənək ki, korrupsiya ilə mübarizə aparmaqda hansı şərtləri əsas götürəcəksiniz?

***Heydər Əliyev:*** Siz düşünürsünüz ki, bu problem bir Gürcüstandadır, bir də

Azərbaycandadır? Siz belə düşünürsünüz?

***Joot Lagenduk:*** Xeyr, belə düşünmürəm. Amma bilirəm ki, bu problem Sizin ölkələrdə var.

***Heydər Əliyev:*** Bu problem bizim ölkələrdə var. Amma sizin ölkələrdə də var.

***Joot Lagenduk:*** Mən Hollandiyadanam, o isə İtaliyadan. Xahiş edirəm, ona aid edin.

***Heydər Əliyev:*** İtaliyada, Hollandiyada yoxdur?

***Joot Lagenduk:*** Bizdə var. Çalışırıq ona qarşı mübarizə aparaq.

***Heydər Əliyev:*** Mən sizə deyim, Hollandiyada da var. Avropa Birliyinin İqtisadi Komissiyasında korrupsiya meydana çıxdı. Bundan xəbəriniz var? Onların hamısı istefaya getdilər. Bundan xəbəriniz var? Jak Santer, Van Den Bruk və başqaları.

***Joot Lagenduk:*** Cənab prezident, Sizə onu da deyim ki, bizim qrupumuz əsas təşəbbüskar oldu ki, onlar istefaya getsinlər. Biz onlardan da soruşduq və Sizə də bu sualla müraciət edirik.

***Heydər Əliyev:*** Onda sizə alqış. Mən sizi tərifləyirəm. Onda siz verdiyiniz sualı gərək düzgün qoyaydınız. Gürcüstanda, Azərbaycanda korrupsiya var. Korrupsiya hər yerdə var. Əgər Avropa Birliyinin İqtisadi Komissiyasının əksəriyyəti korrupsiyaya bulaşmış oldularsa və deyirsiniz, sizin təşəbbüsünüzlə onlar cəzalandılar, istefa verdilərsə, demək, bu bəla təkcə Azərbaycana, Gürcüstana və başqa ölkələrə aid deyil, bütün ölkələrə aiddir.

Mən bunu niyə deyirəm? Çünki bəzi ölkələrdə öz ölkələrində olan vəziyyəti, nöqsanları görmürlər, ancaq yeni müstəqillik əldə etmiş ölkələrdə - Azərbaycanda, Gürcüstanda, yaxud başqa ölkələrdə - bunu görürlər və bunu da şişirdirlər. Ona görə xahiş edirəm, gələcəkdə bunu nəzərə alasınız, öz nöqsanlarınızı da görəsiniz.

Amma indi mən sizin sualınıza cavab verirəm. Korrupsiya Azərbaycanda var və bu korrupsiya bir indi deyil, 30 il bundan öncə də var idi, 40 il bundan öncə də var idi. Məsələn, mən vaxtilə bu məsələni çox dərindən öyrənmişəm. İnsan cəmiyyəti, dövlət yaranandan korrupsiya olubdur. Ancaq onunla mübarizə də olubdur. Bu mübarizə, əlbəttə ki, korrupsiyanı müəyyən qədər azaldıb, amma təəssüf ki, onun tamamilə kökünü kəsə bilmir.

Mən 30 il bundan öncə Azərbaycana başçı seçilmişdim. Məndən üç il sonra dostum Şevardnadze Gürcüstana başçı seçildi. SSRİ-yə daxil olan 15 müttəfiq respublikadan iki ölkədə - öncə Azərbaycanda, ondan sonra Gürcüstanda Heydər Əliyev və Şevardnazdenin təşəbbüsü ilə korrupsiyaya qarşı güclü mübarizə başlandı. Biz Şevardnadze ilə həm dostuq, həm də bu barədə eyni əqidəyə malik insanlarıq. Azərbaycanda mən korrupsiya ilə apardığım mübarizəyə görə özümə çox düşmənlər qazandım. Amma bu məni narahat etmir.

Doğrudur, biz yeni iqtisadi sistem qururuq. Belçika səviyyəsinə, İtaliya səviyyəsinə, Fransa səviyyəsinə bizim gəlib çatmağımız üçün hələ illər, bəlkə də on

illər var. Ancaq biz bu yol ilə gedirik.

Keçid dövründə, bəzi strukturların dəyişilməsi prosesində, təbii ki, korrupsiya üçün daha da əlverişli şərait yaranır.

Siz bunu bilməlisiniz ki, bəlkə korrupsiyadan mənim qədər narahat olan ikinci adam Azərbaycanda tapa bilməzsiniz. Çünki mən həyatım boyu bununla mübarizə aparmışam. Bu gün də aparıram, gələcəkdə də aparacağam. Bunun müxtəlif formaları var. Bilirsiniz, bəziləri illüziyaya qapılırlar ki, bazar iqtisadiyyatı olandan sonra korrupsiya olmayacaqdır. Yaponiyada bazar iqtisadiyyatı var. Nə üçün korrupsiya var? Orada neçə Baş nazir korrupsiyaya görə istefa verdi. İtaliyada baş nazirlər korrupsiyaya görə istefa verdilər. Başqa ölkələrdə də. Elədir?

***Joot Lagenduk:*** Çox doğru deyirsiniz.

***Heydər Əliyev:*** Doğru deyirəm. Demək ki, guya biz bazar iqtisadiyyatına keçəndən sona, bütün iqtisadiyyat özəlləşdiriləndən sonra korrupsiya olmayacaq - bu, xülyadır.

Hər məsələnin bir nəzəri cəhəti var, bir də praktiki cəhəti var. Bəziləri bu işə ancaq nəzəri cəhətdən yanaşırlar. Onlar ya həyatı bilmirlər, ya da çox zəif bilirlər. Amma həyatı, onun dərinliklərini bilən adam yaxşı dərk edir ki, bu, ağır problemdir, çətin problemdir, xalq üçün, cəmiyyət üçün, dövlət üçün böyük zərbələr gətirən problemdir. Bununla mübarizə aparmaq lazımdır. Amma illüziyaya da qapılmaq lazım deyil ki, guya haradasa hər şey düzəlibdir, korrupsiya yoxdur.

Bəzən ayrı-ayrı ölkələrdə, Avropada, yaxud dünyada ictimai təşkilatlar götürüb siyahı düzəldirlər ki, korrupsiya üzrə hansı ölkə neçənci yerdədir - birinci yerdədir, üçüncü yerdədir, beşinci yerdədir. Hansı qanunun əsasında, hansı prinsip əsasında? Bunlar hamısı subyektiv fikirlər əsasındadır. Biri hesab edir ki, onun ölkəsində korrupsiya yoxdur, amma korrupsiya həqiqətən var. Bu birisi hesab edir ki, onun ölkəsində korrupsiya var. Ona görə o məlumatlarda da hamısı qeyri-obyektiv, subyektiv xarakter daşıyır.

Mən sizə bildirirəm ki, biz Azərbaycanda korrupsiyanın mövcud olmasını bilirik və bunu bizə deyəndə heç kəs "Amerika açmır". Bu, bizim üçün məlum şeydir. Mübarizə də aparırıq, ancaq mübarizəmiz hələ istədiyimiz nəticəni vermir. Amma bu, bizi ruhdan salmır. Biz mübarizəmizi bundan sonra da aparacağıq.

Bəlkə də biz bu islahatları tamamilə həyata keçirəndən sonra həqiqətən də korrupsiya azalacaqdır. Amma güman edəsiniz ki, tamam yox olacaqdır, - bilmirəm, bəlkə sizin ölkənizdə olsun. Mən istərdim ki, hələ ki sağam, öz həyatımda onu görüm.

***Joot Lagenduk:*** Cənab prezident, Sizi ölkəmizə dəvət edirəm.

***Heydər Əliyev:*** Gəlim sizə nə deyim? Gəlim sizə korrupsiyanı göstərim? Yaxşı, gələrəm. Amma faktları da gətirib göstərərəm ki, sizdə də korrupsiya var. Məni düzgün başa düşün. Mən sizinlə çox səmimi danışıram. Amma ciddi olaraq si-

zin sualınıza cavab verirəm ki, bəli, Azərbaycanda korrupsiya var və biz onunla mübarizə aparırıq. Əgər bizim imkanımız olsaydı, onun kökünü bir ayda, bir ildə, iki ildə kəsərdik. Xalqımız da rahat olardı, prezident də rahat olardı.

***Patsu Sorensen:*** Cənab prezident, mən həqiqətən Sizi anlayıram. Hər ölkənin, hər bir dövlət başçısının, hökumətin, dövlətin borcudur ki, korrupsiyaya qarşı, "Çirkli pulların yuyulmasına" qarşı, mütəşəkkil cinayətkarlığa qarşı, ümumiyyətlə, cinayətin hər bir növünə qarşı və insan hüquqlarının pozulmasına qarşı mübarizə aparsın. Biz Sizi çox güclü bir diplomat kimi tanıyırıq. Siz çox diplomatik bir prezidentsiniz və ölkənizdə yaxşı tarazlığa nail olmusunuz.

Burada olduğumuz müddətdə isə mən yekun olaraq onu demək istəyirəm ki, Sizin çox güclü xalqınız vardır. Çünki bu güclü xalqınız ölkənizin son dövrlərdəki əziyyətlərinə baxmayaraq tab gətirir, dözür, bu çətinliklərə sinə gərir. Eyni zamanda müşahidə etmişəm ki, Sizin ölkənizin çox qədim mədəniyyəti, gözəl incəsənət xadimləri, əlbəttə, dadlı yeməkləri vardır. Burada olduğumuz müddətdə bizə çox yaxşı dostluq münasibəti göstərilibdir. Amma eyni zamanda bizə qaçqınları da göstəriblər, biz onların həyatının ağırlığını da görmüşük.

Cənab prezident, bir diplomat kimi Sizə müraciət edərək xahiş etmək istəyirəm ki, bəlkə Siz digər ölkələrin prezidentləri, kralları ilə işinizi daha yaxından qurasınız, onlarla daha çox söhbət edəsiniz, onları bu problemə daha çox yönəldəsiniz. Çünki qaçqınların bu cür əziyyət çəkməyini görmək, qaçqınların bu cür problemin içərisində olduğunu görmək çox çətindir və bizim borcumuzdur ki, onların yaxşı gələcəyini təmin edək. Bəlkə bu haqda biz sizinlə birlikdə düşünək?

***Heydər Əliyev:*** Çox sağ olun. Azərbaycan haqqında, bizim xalqımız haqqında, o cümlədən mənim haqqında dediyiniz xoş sözlərə görə təşəkkür edirəm.

Bizi narahat edən nədir? Səkkiz ildən artıqdır ki, yerindən-yurdundan çıxarılmış insanlar çadırlarda yaşayırlar. Dünyada bəlkə ikinci bir ölkə tapa bilməzsiniz ki, səkkiz milyonluq əhalisindən bir milyonu çadırlarda yaşasın. Bilmirəm, siz çadır şəhərciklərində oldunuz, gördünüz, yoxsa yox? Ya buradakı qaçqınları görmüsünüz? Siz şəhərdə görmüsünüz, amma o çadır düşərgələrinə getsəniz, oradan gözləriniz yaşarmadan çıxa bilməzsiniz.

Bəzən bizim qonaqlar o çadır şəhərciklərinə gedirlər. Qayıdıb gələndən sonra mən onlarla görüşəndə görürəm ki, nə qədər həyəcanlıdırlar, onlara nə qədər təsir edibdir.

Mənim bir böyük musiqiçi dostum var. Yəqin ki siz Avropada onu tanıyırsınız - Mstislav Rastropoviç. Eyni zamanda prezident Jak Şirakın dostudur. Jak Şirak ona Slava deyir. Mstislav demir, Slava deyir. Mən də ona Slava deyirəm. O, buraya gəlmişdi və arzu etdi ki, getsin qaçqınları görsün. Biz vertolyotla onu bir düşərgəyə göndərdik. Geri qayıdandan sonra mən onunla axşam görüşdüm. Göz yaşı tökürdü, deyirdi insan belə vəziyyətdə yaşaya bilərmi? O, mədəniyyət xadimidir.

İkinci misal deyim. Zbiqnev Bjezinskini tanıyırsınız? Yox? Amerikanın keçmiş prezidentinin təhlükəsizlik məsələləri üzrə müşaviri, köməkçisi olubdur. Çox böyük siyasət xadimidir. O, vəzifədə olduğu zaman Amerika prezidentinin göstərişi ilə Əfqanıstanda olubdur, Afrikada olubdur, Hindistanda olubdur, qaçqınların düşərgələrində olubdur. O da bura ziyarətə gəlmişdi. Arzu etdi, biz də onu yenə vertolyotla həmin şəhərciklərə göndərdik. Geri gələndə mən onunla axşam görüşdüm. Hissiyyatları o qədər idi ki, özünə gələ bilmirdi. O deyirdi ki, mən indiyə qədər bir çox qaçqın düşərgələrində olmuşam. Bir də deyirəm, - Əfqanıstanda, Hindistanda, Afrikada. Deyir, beləsini mən görməmişdim. Həqiqətən, beləsi yoxdur.

Siz çox düzgün deyirsiniz ki, mən başqa ölkələrin başçıları ilə bu barədə danışsam bəlkə onlar bizə kömək etdilər. Hamısı ilə danışmışam, özü də bir dəfə yox.

Bir neçə gün bundan öncə, ayın 15-də mən Ağ evdə prezident Bill Klinton ilə görüşdüm. Bəlkə son 5-6 il içərisində bu, mənim prezident Klintonla 10-cu görüşümdür. Bu problemi hər dəfə ona deyirəm.

Prezident cənab Şirak ilə mən tez-tez görüşürəm. Onu dəvət etmişdim, bura gəlməliydi. Sonra gələ bilmədi. Amma planlaşdırır, gələcəkdir. Real vəziyyəti - kitablardır, fotoşəkillərdir, kassetlərdir - bunların hamısını biz onlara veririk, göstəririk. İsveçrənin prezidentlərindən neçəsi ilə görüşmüşəm, onlara da danışıram.

1997-ci ildə prezident Skalfaronun dəvəti ilə İtaliyada rəsmi səfərdə idim. Bir neçə gün orada oldum. Ona da, o vaxt Baş nazir Prodi idi, - ona da bu barədə hamısını bildirdim.

Mən sizə bu prezidentlər, krallar, - hansılarla ki, danışıqlar aparmışam, - həddindən çox deyə bilərəm: Almaniyanın keçmiş prezidenti ilə, Kansler Kol ilə, başqaları ilə, Böyük Britaniyanın keçmiş Baş naziri ilə, xarici işlər nazirləri ilə. Sonra bu ölkələrin bizdə səfirlikləri var - Fransanın səfiri var, İtaliyanın səfiri var, Almaniyanın, İngiltərənin, Amerikanın və başqa ölkələrin burada səfirləri çoxdur. Səfirlər gedib qaçqınları görürlər. Yəni demək istəyirəm ki, biz bu barədə dövlət başçılarına, dünyanın siyasi xadimlərinə, beynəlxalq təşkilatlarda olan insanlara ətraflı məlumatlar veririk, xahiş edirik. Onlar məsələni anlayırlar, ancaq həll olunması üçün bir təsirli tədbirlər görmürlər. Problem bundadır.

***Per Qharton:*** Cənab prezident, bu görüşə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm. Çox sağ olun, bizə imkan verdiniz ki, Sizə sual verək. Görürəm ki, Avropa Birliyi haqqında, onun komissarları haqqında Sizin çox yaxşı məlumatınız var. Bilirsiniz ki, onlar vəzifələrini nəyə görə və hansı səhvlərə görə tərk ediblər. İstərdik, biz də Azərbaycan haqqında bu qədər məlumatlı olaq.

Beləliklə, Azərbaycana bizim səfərimiz Sizinlə keçirdiyimiz bu görüşlə yekunlaşır. Elə bilirəm ki, yığdığımız faktlara Sizin bizə verdiyiniz faktlar da əlavə olunacaqdır və bundan sonra biz Sizinlə çox faydalı əməkdaşlıq edəcəyik.


www.aliyevheritage.org

***Heydər Əliyev:*** Təşəkkür edirəm. Mən sizinlə görüşümdən məmnun olduğumu bir daha bildirirəm. Sizin Azərbaycana səfərinizi, demək, ölkəmizə, xalqımıza göstərdiyiniz diqqəti qiymətləndirirəm. Hörmətli xanımın Azərbaycan xalqı haqqında, bizim mədəniyyətimiz haqqında, hətta yeməklərimiz haqqında dediyi xoş sözlərə görə təşəkkür edirəm. Ümid edirəm ki, biz Avropa Birliyi ilə bundan sonra daha da sıx əməkdaşlıq edəcəyik. Biz bu əməkdaşlığa hazırıq. Amma bilirik ki, bu, asan məsələ deyildir. Sizin dediyiniz çox çətindir. Şərtləriniz də çətindir. Amma mən həmişə belə düşünmüşəm ki, insan gərək ən ağır şərtləri götürsün, ən ağır şəraitdə çalışsın ki, nailiyyət əldə etsin. Sizə uğurlar arzulayıram. Sağ olun.

# Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Bakıda TRASEKA-nın daimi katibliyi ofisinin açılışı mərasimində nitqi

21 fevral 2001-ci il

Hörmətli İsveçin xarici işlər naziri!
Hörmətli cənab Baş katib!
Hörmətli cənab komissar!
Hörmətli xanımlar və cənablar!

Mən sizi Azərbaycanda səmimi qəlbdən salamlayıram və bizim ölkəmizə "Xoş gəlmisiniz!" deyirəm.

Avropa İttifaqının yüksək səviyyəli və hörmətli şəxslərindən ibarət olan nümayəndə heyətinin Cənubi Qafqaz ölkələrinə, o cümlədən Azərbaycana bu səfəri Avropa İttifaqının bizim bölgəyə, eləcə də Azərbaycana olan marağının və təbiidir ki, əlaqələrin inkişaf etdirilməsinin təzahürüdür. Bu səfərinizə görə təşəkkür edirəm. Baxmayaraq ki, siz Azərbaycanda olmaq üçün çox az vaxt ayırmısınız, ancaq bunun özü də kifayət edər ki, Azərbaycanda TRASEKA proqramına olan münasibəti bir daha hiss edə biləsiniz.

Avropa İttifaqının çoxşaxəli, çoxtərəfli fəaliyyəti vardır. Birinci növbədə, Avropa İttifaqı ona daxil olan ölkələrin daha da sıx əlaqə qurması və inkişaf etməsi problemləri ilə məşğuldur. Eyni zamanda, Avropa İttifaqı onun tərkibində olan ölkələrdən kənara çıxaraq, dünyanın başqa hissələrinə də öz marağını göstərir. Bu baxımdan təxminən 1992-1993-cü illərdə yaranmış TRASEKA proqramının böyük əhəmiyyəti vardır.

İndiyə qədər Avropa İttifaqı tərəfindən TRASEKA proqramının həyata keçirilməsi ilə əlaqədar tədbirləri biz yüksək qiymətləndiririk. Ancaq eyni zamanda bu, bizim tərəfimizdən böyük işin başlanğıcı kimi qəbul olunur. Məhz bu işi daha da gücləndirmək məqsədi ilə 1998-ci ilin sentyabr ayında Avropa İttifaqının və TRASEKA proqramında iştirak edən dövlətlərin təşəbbüsü ilə, bizim təşəbbüsümüzlə Bakıda bu proqramın həyata keçirilməsinə, böyük İpək yolunun bərpasına həsr olunmuş beynəlxalq konfrans keçirildi və bunun nəticəsində sənəd imzalandı. Konfrans TRASEKA proqramının katibliyini yaratdı və onun Azərbaycanda yerləşməsi haqqında qərar qəbul etdi. Biz bunu böyük məmnuniyyət və minnətdarlıq hissi ilə qarşıladıq və Bakının ən qədim binalarından birinin bu katibliyin sərəncamına verilməsi haqqında qərar qəbul etdik.

Bizim qonaqlarımız bu binanın gözəlliyi haqqında və indiki vəziyyəti barədə yüksək fikirlər söylədilər. Bu binanın Avropa İttifaqının TRASEKA proqramına və İpək yolunun bərpası üçün görülən işlərə görə ayrılması təsadüfi deyildir.

Bu bina Azərbaycanın, Bakının memarlıq abidələrindən biridir. Vaxtilə, XX əsrin əvvəllərində Azərbaycanın böyük şəxsiyyəti, böyük sahibkarı Hacı Zeynalabdin Tağıyev bu binanı yaradıb və burada da uzun müddət işləyibdir.

Azərbaycan xalqı təkcə indi yox, hələ o vaxtlarda da ümumbəşəri dəyərlərlə, Avropa dəyərləri ilə Azərbaycanın milli-mənəvi dəyərlərinin inteqrasiyasına çalışmışdır. Məhz bu binanın 100 il bundan öncə Avropa üslubunda tikilməsi, onun həm xarici görünüşünün, həm də daxili görünüşünün Avropa memarlıq üslubuna mənsub olması bunu əyani sübut edir.

Təbiidir ki, indi çox yerdə modern üslubda binalar tikmək və ofisləri modern binalarda yerləşdirmək dəb olubdur. Amma biz bu yol ilə getmədik. Biz məhz klassik Avropa üslubunda tikilmiş binanı verdik ki, Avropa İttifaqı buraya daha da doğma gözlə baxsın. Özü də görürsünüz, keçmişdə nə qədər gözəl tikirdilər.

Məsələn, burada xalçalar üstünü örtübdür, görmürəm, amma orada, Baş katibin ofisində biz döşəməyə nəzər saldıq. 100 il bundan öncə döşəmə elə bil ki, bu gün yaranıbdır. Keyfiyyətə çox fikir verirdilər. Baxın, divarlar nə qədər enlidir. İndi hər şeyə qənaət edirlər, nazik divarlar qoyurlar. Onlar da qısa bir zamanda xarab olur.

Mən sadəcə, Azərbaycanın Avropa memarlığından götürdüyü abidələrdən biri haqqında danışıram. Amma Azərbaycanda belələri çoxdur. Bu da onu göstərir ki, Azərbaycan Avropaya, Avropa dəyərlərinə, Avropa ölkələrinə hələ çox qədim zamanlardan maraq göstərmişdir.

Biz eyni zamanda TRASEKA proqramını qədim böyük İpək yolunun bərpası ilə bağlayırıq. Əslində, TRASEKA proqramı irəli sürüləndə, güman edirəm, həqiqətən nəzərə alınıbdır ki, bu, təkcə TRASEKA proqramını əhatə edən ölkələr üçün deyil, böyük İpək yolunun bərpası üçündür və çox vacibdir. Biz konfransda açıq-aydın müəyyən etdik ki, Asiya ilə Avropanı, Şərq ilə Qərbi bağlayan qədim İpək yolu bu gün də öz aktuallığını saxlayıbdır və Şərqlə Qərb arasındakı başqa yollara nisbətən daha qısadır. Yüklərin daşınması daha sürətlə, qısa bir zamanda olur və daha ucuz başa gəlir. Ona görə biz hesab edirik ki, 1998-ci ildə Bakı konfransında qəbul olunmuş qərarlar həyata keçirilməlidir.

Mənə belə gəlir ki, Avropa İttifaqı son vaxtlar TRASEKA proqramının həyata keçirilməsinə bir az soyuyubdur. Mən bu həqiqəti deməliyəm. Əgər bir neçə il bundan əvvəlki dövrlə indiki dövrü müqayisə etsək, bu, göz qabağındadır. Ancaq mən bunu düzgün hesab etmirəm və düşünürəm, yəqin ki, belə böyük nümayəndə heyətinin Cənubi Qafqaz ölkələrinə gəlməsi TRASEKA proqramına münasibətin soyumasına son qoyacaq və bu proqram yenidən böyük sürətlə həyata keçiriləcəkdir.

Mən sizə müraciət edərək demək istəyirəm ki, siz TRASEKA proqramına vəsait ayrılmasında xəsislik etməyin. Çünki bu, nə sizə, nə də bizə xeyir verəcəkdir. Sizin cibinizdə pul çoxdur, burada qoyduğunuz pulun əvəzini iki-üç qat götürəcəksiniz. İndi artıq sizdə də, bizdə də - hamıda qəti bir fikir var ki, TRASEKA proqramı, bö-


wap.aliyevheritage.org

yük İpək yolunun bərpa edilməsi bu gün üçün və XXI əsr üçün ən böyük proqramlardan biridir. Bu proqramın hərtərəfli inkişafını nə qədər təmin edə bilsək, Cənubi Qafqaz, Orta Asiya, Mərkəzi Asiya ölkələrinin Avropa ilə inteqrasiyası o qədər də sürətli olacaqdır.

Artıq indi ofis yaranıbdır. Bu bina boş qalmamalıdır ki? Burada işləmək lazımdır. Əgər vəsait olmasa, burada nə cür işləyəcəksən? Bu gözəl binada yaxşı-yaxşı layihələrə baxıb, müzakirə edib, onları həyata keçirmək lazımdır. Belə layihələr vardır. Azərbaycanda bir xalq sözü var: "Səndən hərəkət, məndən bərəkət". Başa düşürəm, bunu tərcümə etmək bir az çətindir.

Mən sizə bir daha təşəkkür edirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, bu görüş bizim hamımızın istəklərimizin həyata keçirilməsi üçün çox əhəmiyyətli olacaqdır. Sağ olun.

# Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Avropa İttifaqının nümayəndə heyətini qəbul edərkən söhbətindən

Bakı, 21 fevral 2001-ci il

***Heydər Əliyev:*** Hörmətli xanım nazir!

Hörmətli Baş katib!

Hörmətli komissar!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Mən sizi bir daha salamlayıram. Azərbaycana xoş gəlmisiniz. Mən sizinlə bu görüşümüzdən çox məmnunam.

Biz bu gün sizinlə Avropa İttifaqının TRASEKA proqramının həyata keçirilməsi ilə əlaqədar burada yaradılmış katibliyin binasını açdıq. Bu, əlamətdar bir hadisədir. Ancaq Avropa İttifaqı ilə bizim əlaqələrimiz təkcə TRASEKA proqramı çərçivəsində ola bilməz. TRASEKA proqramı əməkdaşlığımızın bir hissəsidir. Ona görə də biz Avropa İttifaqı ilə artıq bir neçə ildir ki, genişmiqyaslı əməkdaşlıq edirik və bu əlaqələrimizi daha da genişləndirmək istəyirik.

Biz Avropa İttifaqının indi Avropada və bütün dünyada oynadığı müsbət rolu yüksək qiymətləndiririk. Biz Avropa İttifaqı ilə daha yaxından inteqrasiyada olmaq istəyirik. Biz artıq Avropa Şurasının üzvüyük. Fürsətdən istifadə edərək, Azərbaycanın Avropa Şurasına üzv qəbul olunmasında etdiyiniz köməyə görə sizə təşəkkür edirəm. Bu, birinci mərhələdir. Bundan sonra isə Avropa İttifaqına yol açılır. Biz bilirik ki, bu asan yol deyildir. Avropa İttifaqının bu təşkilata üzv olan ölkələr qarşısında qoyduğu tələblər təbiidir ki, Avropa Şurasının üzvü olan ölkələr qarşısında irəli sürülən tələblərə nisbətən daha da ciddidir. Ancaq Avropa ilə inteqrasiya bizim strateji yolumuzdur. Ona görə də biz bu yolla irəliləmək istəyirik. Hansı sürətlə, nə qədər vaxta buna nail ola bilərik, təbii ki, bunu demək olmaz. Bir daha qeyd edirəm, biz bilirik ki, sizin bu barədə tələbləriniz çox ciddidir. Ancaq biz öz istəyimizi, arzumuzu bildiririk. Eyni zamanda, tərəfdaşlıq və əməkdaşlıq proqramı əsasında indiyə qədər apardığımız işlərə görə hesab edirik ki, biz bu yolla gedə bilərik.

Bizim bölgə Avropa İttifaqı üçün, ümumiyyətlə, Avropa üçün çox əhəmiyyətli bir bölgədir. Biz artıq görürük ki, Cənubi Qafqaz ölkələrinin Avropa üçün nə qədər əhəmiyyətli rol oynadığını Avropada, o cümlədən Avropa İttifaqında görürlər və bilirlər.

Yəqin siz də təsdiq edərsiniz ki, bu sırada Azərbaycan xüsusi yer tutur. Çünki Azərbaycan Avropa və Asiyanın, qərblə Şərqin qovuşuğunda yerləşir, Qərb və Şərq ənənələrini özündə əks etdirən bir ölkədir. Azərbaycanın Xəzər dənizindəki böyük

təbii sərvətləri, təkcə Xəzər dənizindəki yox, ümumiyyətlə, ölkəmizin müxtəlif yerlərində mövcud olan zəngin sərvətlər əməkdaşlığımız üçün əsas yaradır. Lakin bu sərvətlərin birgə işlənilməsi üçün beynəlxalq təşkilatlar qarşısında, o cümlədən Cənubi Qafqaz ölkələri ilə əməkdaşlıq edən Avropa İttifaqı qarşısında mühüm bir məsələ durur. Bu da hərbi münaqişələrin ləğv olunması, bölgədə sülhün bərqərar edilməsi və Cənubi Qafqazda təhlükəsizlik paktı yaranmasıdır. Biz bunları öz qarşımıza məqsəd kimi qoyuruq və hesab edirik ki, Avropa İttifaqının bu sahədə yardımını ala bilərik. Buyurun.

***Anna Lind:*** Cənab prezident, çox sağ olun. Sizin ölkənizi ziyarət etməkdən çox məmnunuq. Bildirmək istəyirəm ki, bizim üçün də bu səfər çox önəmlidir.

Cənubi Qafqaz Avropa İttifaqı üçün çox önəmli bir regiondur. Çünki Avropa İttifaqı genişləndikdən sonra Cənubi Qafqaz regionu artıq Avropa İttifaqının qonşu regionu olacaqdır. Ona görə də Avropa İttifaqının təmsilçiləri olaraq biz Cənubi Qafqaz regionunda sülhün və sabitliyin bərqərar olunmasını, bu regionun iqtisadi inkişafı və regionda yaşayan xalqların maddi rifah halının yüksəlməsi üçün ən əsas amillərdən hesab edirik.

Biz Azərbaycan, Gürcüstan və Ermənistan ilə əməkdaşlığımızı genişləndirmək və beləliklə də bu regionda Avropa İttifaqının mövcudluğunu artırmaq fikrindəyik. Şübhəsiz ki, belə bir əməkdaşlığın inkişafının asan olması, daha da genişlənməsi üçün bu regionda mövcud olan hərbi münaqişələrin həll olunması vacibdir. Ona görə də bizim hamımız belə bir fikrə tərəfdarıq ki, regiondakı əməkdaşlığı genişləndirmək üçün biz də münaqişələrin həll olunması üçün çalışmalıyıq, bu işə öz töhfəmizi verməliyik. Avropa İttifaqı münaqişənin dinc yolla aradan qaldırılması üçün öz yardımını mümkün olan hər hansı çərçivədə etməyə hazırdır, amma şübhəsiz ki, bu münaqişənin həll olunması əsasən münaqişə edən tərəflər arasında axtarılmalıdır. Münaqişənin həlli daha çox onlardan asılı olacaqdır. Biz eyni zamanda, regional əməkdaşlığın genişləndirilməsinin tərəfdarıyıq, bunda maraqlıyıq. Hesab edirik ki, münaqişələrin həlli ilə paralel olaraq regional əməkdaşlıq genişləndirilməlidir. Buna görə biz istəyərdik ki, regiondakı mövcud durumu necə qiymətləndirdiyinizi, dəyərləndirdiyinizi, Azərbaycan-Ermənistan münaqişəsinin həlli yolunda hansı addımlar atıldığını Sizdən eşidək. Bu münaqişənin həll olnuması üçün Avropa İttifaqı nə edə bilər - bu barədə tövsiyələrinizi də eşitmək istərdik.

***Heydər Əliyev:*** Bu uzun bir mövzudur. Əgər bu barədə hər şeyi desəm, gərək məni iki saat dinləyəsiz.

Cənubi Qafqazda olan münaqişələr sizə məlumdur. Birincisi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. İkincisi, gürcü-abxaz münaqişəsi, müəyyən mənada gürcü-osetin münaqişəsidir. Amma onların hamısından çətini Ermənistan-Azərbaycan münaqişəsidir. Bu münaqişənin artıq 12 yaşı vardır.

12 il müddətində bu münaqişənin həlli üçün çox səylər göstərilibdir. Ancaq


www.aliyevheritage.org

nəticə əldə olunmayıbdır.

Hər şeyi dərk etmək üçün məsələnin kökünə baxmaq lazımdır. Münaqişə nə üçün başlayıbdır? Ermənistan Azərbaycanın ayrılmaz bir hissəsi, qədim Azərbaycanın torpağı olan Dağlıq Qarabağa ərazi iddiası ilə çıxış edibdir. Bu, hələ Azərbaycanın və Ermənistanın Sovet İttifaqına mənsub olduğu vaxt - 1988-ci ildə olubdur. Təəssüflər olsun ki, vaxtında bunun qarşısı alınmayıb, bu münaqişə həqiqətən hərbi münaqişəyə çevrilibdir. İllərlə müharibə gedib və bəzi səbəblərdən Ermənistanın silahlı qüvvələri həm Dağlıq Qarabağı, həm də sonra onun ətrafında Azərbaycanın 7 rayonunu işğal ediblər. Beləliklə, Azərbaycan ərazisinin 20 faizi Ermənistanın silahlı qüvvələrinin işğalı altındadır. Bu ərazidən bir milyona qədər Azərbaycan vətəndaşı yerindən-yurdundan didərgin düşüb və çadırlarda yaşayır.

O rayonlardan köçmüş insanların əksəriyyəti çadırlarda yaşayır.

Mən bu gün səhər evdən çıxıb işə gələrkən gördüm ki, güclü küləklə qar yağır. Evimdən gəlib avtomobilə oturana qədər qar məni vurdu. Siz Bakıya təyyarə ilə enəndə burada həm qar, həm də külək vardır. Mən gəlib sizinlə görüşən zaman siz də, mən də bu qarın, yağışın altında idik. Amma hamımız çalışdıq ki, tez binaya daxil olaq. İndi təsəvvür edin, insanlar qışda da, yayda da bir il yox, iki il yox, yeddi-səkkiz il çadırlarda yaşayırlar, qızmar istiyə də dözürlər nə etməliyik? Onların başqa yaşayış yeri yoxdur. Onların evləri, bütün varidatı işğal olunub, dağılıbdır. Amma buna baxmayaraq, yenə də onlar arzu edirlər ki, öz torpaqlarına qayıtsınlar və ilk illərdə, əlbəttə, çadırlarda öz torpaqlarında yaşasınlar. Amma biz buna nail ola bilmirik. Ermənistan silahlı qüvvələri işğal olunmuş torpaqlardan çıxmır.

1994-cü ilin may ayında biz Ermənistan-Azərbaycan müharibəsini dayandırdıq, yəni atəşkəs haqqında saziş imzaladıq. Məsələnin sülh yolu ilə həll olunması üçün danışıqlar aparırıq. 6 ildən çoxdur ki, bu danışıqlar gedir. Birləşmiş Millətlər Təşkilatının 4 qətnaməsi vardır ki, Ermənistanın silahlı qüvvələri Azərbaycanın işğal olunmuş rayonlarından qeyd-şərtsiz çıxmalıdır. Amma Ermənistan buna riayət etmir. Ondan sonra bu məsələlərlə ATƏT-in Minsk qrupu məşğul olur. Minsk qrupunun həmsədrləri Rusiya, Amerika Birləşmiş Ştatları və Fransadır. Onlar son illərdə bir neçə təklif veriblər. Amma Ermənistan həmin təklifləri qəbul etməyibdir. 1998-ci ilin sonunda yeni bir təklif verilmişdir.

Bunu isə Azərbaycan qəbul edə bilmədi. Çünki o təklif Azərbaycan üçün heç cür qəbul oluna bilməz.

Bilirsiniz ki, son vaxtlar Ermənistan prezidenti və Azərbaycan prezidenti arasında bilavasitə danışıqlar aparılır. Bu danışıqlar zamanı biz qarşılıqlı kompromislər axtarırıq. Amma burada da biz irəliləyə bilmirik. Əsas səbəb ondan ibarətdir ki, Ermənistan Dağlıq Qarabağın ya müstəqilliyini tələb edir, yaxud da ki, onun Ermənistanla birləşməsini tələb edir. Bu, Azərbaycanın ərazisidir. Deməli, beləliklə, Azərbaycanın ərazi bütövlüyünün pozulmasına biz gərək imza ataq. Bu,

beynəlxalq hüquq normalarına tam ziddir. Biz bunu edə bilmərik. Ancaq Minsk qrupunun təklifləri olmuşdur ki, Dağlıq Qarabağa Azərbaycan dövlətinin tərkibində ən yüksək dərəcəli özünüidarəetmə hüququ verilsin. Ermənistan bununla razı deyil. Təəssüf ki, dünya ictimaiyyəti də, Birləşmiş Millətlər Təşkilatı da, ATƏT də, başqa böyük ölkələr də, elə Avropa İttifaqı da bu cür ədalətsizliyə qarşı göz yumurlar.

Zaman keçir, münaqişə aradan götürülmür. Bir-biri ilə qonşu olan iki ölkə arasında sülh yaranmayıbdır. Mən hesab etmirəm ki, bu, ancaq Azərbaycana zərər vurur. Doğrudur, onların ərazisinin heç bir metri də Azərbaycan tərəfindən işğal olunmayıbdır. Amma buna baxmayaraq, onlar da bu münaqişədən zərər çəkirlər. Ona görə məsələnin həll olunması Ermənistandan asılıdır. Ermənistan isə bunun həll olunmasına getmir. Bu da Cənubi Qafqazda, ümumiyyətlə, sülhün yaranmasına nəinki mane olur, qətiyyən imkan verə bilməz.

Siz Cənubi Qafqaz ölkələrinin iqtisadi əməkdaşlığı haqqında dediniz, biz də hesab edirik ki, bu, çox vacib məsələdir. Məsələn, Gürcüstanla biz bütün sahələrdə çox səmərəli əməkdaşlıq edirik. Nəinki əməkdaşlıq edirik, hətta bizim çox səmimi, mehriban dostluq əlaqələrimiz vardır. Biz istərdik ki, Ermənistanla Azərbaycan arasında sülh olsun. Bunun üçün işğal olunmuş torpaqlar azad edilməlidir. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. Onda Cənubi Qafqazın üç ölkəsi arasında əməkdaşlıq çox surətlə inkişaf edə bilər. Bir də deyirəm, bütün məsələlərin həlli Ermənistan tərəfindən asılıdır. Biz isə sülh istəyirik. Məsələnin yalnız sülh yolu ilə həll olunmasını istəyirik. Müharibənin yenidən başlanmasını istəmirik. Eyni zamanda torpaqlarımızın da böyük bir hissəsinin Ermənistanın silahlı qüvvələrinin işğalı altında qalmasına dözə bilmərik.

Avropa İttifaqı da çox böyük və mötəbər təşkilatdır. Bu barədə o öz sözünü deyə bilər. Amma biz bunu da eşitmirik. Bu qədər.

***Anna Lind:*** Hər şeydən öncə Sizə təşəkkür edirəm və bildirmək istəyirəm ki, Avropa İttifaqı bu münaqişənin həllində oynadığı rolu əslində Minsk qrupunu dəstəkləməkdə görür. Biz hesab edirik ki, Minsk qrupu bu proseslərlə məşğul olur və çox mühüm bir strukturdur. Biz Sizinlə Ermənistan prezidenti arasında aparılan birbaşa danışıqları böyük maraqla və ümidlə izləyir, bu danışıqlara böyük əhəmiyyət veririk. Qarşılıqlı güzəşt etmək üçün liderlərdən böyük cəsarət tələb olunur və münaqişənin həlli üçün onların qarşılıqlı səy göstərməsi gərəkdir.

Biz ümidvarıq ki, yaxın bir zamanda, tezliklə bu münaqişənin həllində dönüş nöqtəsi əldə olunacaqdır və məsələ danışıqlar yolu ilə həll ediləcəkdir.

Bu münaqişənin necə və hansı şərtlərlə həll olunacağı barədə heç bir fikir söyləmədən yenidən regional əməkdaşlıq məsələsinə qayıtmaq istəyirəm. Çünki hesab edirik ki, çox gərgin keçən danışıqlar zamanı regional əməkdaşlığın həyata keçirilməsi tərəflər arasında gərginliyin aradan qaldırılmasına da xidmət etmiş olar.

Cənab prezident, bir daha bəyan edirəm ki, biz Ermənistan prezidenti ilə Si-


www.aliyevheritage.org

zin aranızda olan bu danışıqları çox müsbət qarşılayırıq. Sizi ruhlandırır və ona çağırırıq ki, bu sülh danışıqları ilə bərabər, regional əməkdaşlıq məsələlərində də əlaqələrinizi genişləndirəsiniz.

Mən istərdim ki, indi də sözü cənab Solanaya verəm.

***Heydər Əliyev:*** O, bizim köhnə dostumuzdur.

***Xavyer Solana:*** Cənab prezident, yenidən Azərbaycana qayıtmağımdan, Sizinlə görüşməyimdən, Sizi dinləməkdən çox məmnunam. Hesab edirəm ki, bizim belə bir tərkibdə sizin ölkənizə səfərimizin, regiona səfərimizin mühüm bir rəmzi mənası vardır. Bu, bizim sizin ölkəniz və region üçün hansı xoş niyyətlərimizin olmasının göstəricisidir.

Siz öz ölkəniz üçün çox böyük işlər görmüsünüz. Mən özüm bunun şahidiyəm. Mən əminəm ki, Siz bundan sonra da ölkəniz üçün böyük xidmətlər göstərəcəksiniz.

Sizin indi münaqişə ilə, sülhün əldə olunması ilə əlaqədar söylədiklərinizi mən çox diqqətlə dinlədim. Ümumiyyətlə, mən bu məsələlərə həmişə diqqətlə yanaşıram. Sizin hansı miqyaslı, hansı çəkili bir siyasətçi olduğunuzu da mən yaxşı bilirəm. Mən hesab edirəm ki, bizlərin hamımızın bu münaqişənin həlli üçün bir imkanı vardır. Eyni zamanda, bildirirəm ki, Sizin indi apardığınız birbaşa danışıqlar da xüsusilə əhəmiyyətlidir.

Mən Sizi əmin etmək istəyirəm ki, bu danışıqlar zamanı Sizə yardımçı olmaq üçün bizim imkanlarımızdan, bizim sərəncamımızda olan resurslardan istifadə etmək mümkün olarsa, əlimizdən gələn nə varsa, onlarla Sizə kömək etməyə hazırıq.

Belə bir prosesi irəli aparmaq üçün məhz Sizin kimi liderlərə və Sizin kimi cəsarətli şəxslərə ehtiyac duyuruq.

Cənab prezident, Sizinlə mən son dövrdə çox kövrək və yaddaqalan illəri birlikdə keçirmişik, böyük hadisələrin şahidi olmuşuq. İcazə verin, yadınıza Sizin qonşu otaqda ikimizin təkbətək görüşü zamanı söylədiyim bir sözü xatırladım. Xatırlayırsınızsa, Sizinlə görüşümüz zamanı Avropanın tarixinə birlikdə nəzər saldıq, o tarixi birlikdə nəzərdən keçirdik. Xatırlayırsınızsa, söhbətimiz zamanı Avropada olmuş böyük faciələrdən, münaqişələrdən və böyük müharibələrdən, onların törətdiyi, meydana gətirdiyi əzab-əziyyətlərdən danışdıq və axırda onların hamısının sülh yolu ilə həllinin tapılmasından söz açdıq. Avropa artıq münaqişələrdən bezib və münaqişələrə yol verməmək yolunu tutubdur. İndi Avropa artıq birləşmək yolunu tutubdur. Bu gün Avropanın adından onu təmsil edən bu şəxslər yəqin ki, bir neçə ildən sonra artıq birləşmiş, böyük, əhalisi bəlkə də Yaponiyadan dörd dəfə, ABŞ-dan bir neçə dəfə çox olan bir toplumu təmsil edəcəkdir. Elə bir qurumu, elə birliyi təmsil edəcəkdir ki, onun hərbi qüvvələri, hərbi gücü bəlkə də dünyada ən güclü, ən qüdrətli olacaqdır. Mən özüm şəxsən öz atama, babama və qədim əcdadlarıma minnətdaram ki, bugünkü Avropada yaşamağım üçün imkan yaradıblar. Çünki bizim əcdadlarımızın dünyaya baxışları çox açıq-aşkar olubdur. Onlar Avropanı va-

hid, sülh şəraitində yaşayan, regional əməkdaşlıqda bulunan, çiçəklənməyə, firavanlığa birlikdə addımlayan region kimi görmək istəyiblər.

İndi icazə verin, Sizə bu region üçün arzumu bildirim. Arzu edirəm ki, sizin regionunuzda da sülh bərqərar olsun, regional əməkdaşlıq inkişaf etsin, region ölkələri və xalqları firavan həyat şəraitində yaşasınlar. Özünüzü tənha hiss etməyin. Siz bu arzuların həyata keçməsi üçün çalışmağa hazır olan, bunu arzulayan çoxlu dostlarınızın əhatəsindəsiniz. İnanın ki, bu sözlər mənim ürəyimin, qəlbimin dərinliklərindən gələn sözlərdir. Sizi böyük işlərə ruhlandırmaq üçün deyirəm, xahiş edirəm ki, sülh, regional inteqrasiya naminə fəaliyyətinizi davam etdirəsiniz, genişləndirəsiniz ki, bu da son nəticədə xalqınızın layiq olduğu inkişafa, tərəqqiyə və firavanlığa gətirib çıxaracaqdır. Bir daha Sizə təşəkkürlərimi bildirirəm.

***Heydər Əliyev:*** Hörmətli cənab Solana, mənim əziz dostum! Mənim haqqımda dediyiniz xoş sözlərə görə sizə təşəkkür edirəm. Mən hesab edirəm və deyə bilərəm ki, sizinlə mənim aramda qarşılıqlı, çox yüksək səviyyəli rəğbət yaranıbdır. Həqiqətən bu illərdə biz dəfələrlə sizinlə görüşüb çox əhəmiyyətli söhbətlər aparmışıq.

Avropa haqqında dediyiniz, yəni Avropanın keçdiyi yol və bu gün qarşısında duran perspektivlər haqqında dedikləriniz, təbiidir ki, heyran edir, yəni biz də istəyirik ki, regionumuzda da elə olsun. Ancaq Avropa bu yolu asanlıqla keçməyibdir. Lakin keçib, indi buna nail olub, indi birləşir. Amma deyə bilmərəm ki, indi Avropada separatizm tamamilə götürülübdür. O cümlədən sizin vətəninizdə. Elə burada baş verən münaqişələrin də əsasında separatizm durur. Əgər biz bu separatizmin qarşısını ala bilsək, hər şey edə bilərik.

Əmin ola bilərsiniz, sizə və bütün qonaqlara deyirəm ki, mən həm bugünkü nəsillər, həm də gələcək nəsillər üçün, öz uşaqlarım, öz nəvələrim üçün və xalqımın gələcəyi üçün sülh, sülh, bir də sülh yaratmaq istəyirəm. Əgər sülh və təhlükəsizlik təmin olunmasa, nə demokratiya, nə iqtisadi inkişaf, nə də insanların rahatlığı ola bilər. Ona görə də mən ömrümün böyük bir hissəsini buna həsr etmişəm. Ömrümün qalan hissəsini də buna həsr edəcəyəm. Mən dünyada özüm üçün ən böyük xoşbəxtlik onu hesab edirəm ki, Azərbaycanda sülhün, əmin-amanlığın yaranmasına nail ola bilim. Məndən nə asılıdırsa onu edirəm.

Mən hesab edirəm ki, bəli, kompromislər olmalıdır. Amma hər şeyin bir həddi var. Sərhəd vardır, həmin sərhəddən bu tərəfə keçmək olmaz. Əgər keçsən də, bu, əks- təsir bağışlayacaqdır. Ona görə də mən çalışıram və çalışacağam da. Mən o günü arzulayıram ki, biz sülh yaradaq, işğal olunmuş torpaqlar azad edilsin. O yerlər dağılıbdır və Avropa İttifaqı milyardlarla dollar gətirib bizə yardım etsin ki, orada bərpa işləri aparaq. Mənim gözlərim qarşısında bu perspektivlər vardır. Təkcə sülh əldə etmək yox, sülhün əldə olunması birinci şərtdir. Amma dağıdılmış yaşayış evlərinin, xəstəxanaların, - hər şey viran olubdur, - insanların yaşama-

sı üçün bərpa olunması, bu, ən böyük vəzifələrdən biridir. Bunu biz özümüz edə bilməyəcəyik. Burada Avropa İttifaqının yardımı bizim üçün çox əhəmiyyətli olacaqdır. Bütün dünyanın beynəlxalq maliyyə mərkəzlərinin yardımı bizim üçün çox əhəmiyyətli olacaqdır. Mən bu günləri görürəm. Amma onun üçün sülh yaratmaq lazımdır. Bax, biz burada dayanmışıq. Əgər, bax, bu həddi keçə bilsək, ondan sonra sizinlə də əməkdaşlığımız yaxşı olacaqdır və Cənubi Qafqazda da əməkdaşlıq, sülh yaxşı təmin ediləcəkdir. Gəlin, səylərimizi birləşdirək. Hər şeyi mənim üzərimə qoymayın.

***Kristofer Patten:*** Hərçənd ki, çiyinlərinizi verdiyiniz bu qədər ağır yükün altına öz çiyinlərimizi verə bilməsək də, Sizi bu işdə əvəz edə bilməsək də hesab edirəm ki, Avropa İttifaqının da bu məsələdə müəyyən rolu ola bilər. Hesab edirəm ki, sülh əldə edildikdən sonra biz onun möhkəmləndirilməsinə yardımçı ola bilərik. Hesab edirik ki, sülh əldə olunduqdan sonra kasıb, evi olmayan insanların, təhsil, səhiyyə xidməti sahəsində vəziyyəti pis olan xalqlara yardımçı olmaqla, o insanları bizlərə qulaq asmağa və sülhü möhkəmləndirməyə sövq edə biləcəyik. Baxmayaraq, həyat bizə belə öyrədibdir ki, sülh əldə edən şəxslər Allah tərəfindən qorunan və onlara yardım edilən şəxslər olublar. Amma bəzən biz öz fəaliyyətimizlə onlara heç də axıra qədər yardımçı ola bilmirik. Mən çox böyük ruh yüksəkliyinə malik bir komissaram. Amma mən bununla bərabər, çox həvəsli, böyük şövqə malik olan bağbanam. Məsələn, mən ömrümdə heç vaxt belə gözəl qızılgülləri görməmişdim. Düşünürəm ki, qarşımızda olan bu gözəl qızılgüllər bizim Avropa İttifaqı ilə Azərbaycan arasında əməkdaşlığın rəmzidir.

Bizim münasibətlərimiz çox güclüdür və istəyirik ki, bu münasibətlər daha da genişlənsin. Biz Azərbaycanla bir çox sahələrdə geniş əməkdaşlıq edirik. Son illər ərzində biz Azərbaycana 300 milyon avro dəyərində yardım göstərmişik. Hesab edirəm ki, bizim birgə fəaliyyət göstərdiyimiz əməkdaşlıq etdiyimiz sahələrin ən mühümlərindən biri məhz elə həmin reabilitasiya layihələri olmuşdur.

Sizin çox həssaslıqla vəziyyətlərini təsvir etdiyiniz, qarda, yağışın altında insanların həyat şəraitinin yaxşılaşdırılması üçün onlara yardım göstərilməsi məqsədilə biz bir sıra layihələr həyata keçiririk. Biz Azərbaycanda həyata keçirdiyimiz reabilitasiya layihələri ilə əlaqədar hətta bir kitabça da buraxmışıq və burada təhsil, kənd təsərrüfatı sahəsində, məskunlaşmış insanlara yardım göstərilməsi sahəsində gördüyümüz işlər əksini tapıbdır. Baş nazirin müavini də bu kitabçaya çox yaxşı bir ön söz yazıbdır. Kitabçada yaxşı şəkillər də vardır. Baş nazirin müavini bu nəşrə yazdığı ön sözdə Avropa İttifaqı ilə Azərbaycan arasındakı əməkdaşlığın bundan sonra da inkişaf edəcəyinə ümid bəslədiyini bildiribdir. Əminik ki, bu, belə də olacaqdır.

Anlayırıq ki, sülh əldə edildikdən sonra bizim tərəfimizdən reabilitasiya layihələri, bərpa işləri üçün xeyli miqdarda vəsait ayrılmasına, sizə yardım göstərilməsinə ehtiyac olacaqdır. Bu regionda əməkdaşlıq çərçivəsində çoxlu birgə layihələri də

həyata keçirəcəyik.

Bundan əvvəlki görüşümüz zamanı TRASEKA layihəsi nümayəndəliyi ofisinin açılışı mərasimində Siz bu layihə barəsində çox xeyirxah sözlər söylədiniz. O sözlərlə bizi TRASEKA layihəsinə daha çox cəlb olunmağa, daha çox işlər görməyə dəvət etdiniz. İndiyə qədər Avropa İttifaqı 40 milyon avro həddində texniki yardım göstəribdir. Bundan əlavə, buraya Dünya Bankından, Avropa Bankından 400 milyon avro investisiya yönəlibdir. Anlayırıq ki, daha çox iş görməliyik. Boru kəmərlərinin çəkilişinə 25 milyon avro məbləğində investisiya qoyulması barədə layihə vardır. Hesab edirik ki, bundan sonrakı fəaliyyətimiz zamanı regiondan çəkiləcək boru kəmərlərinə verdiyimiz diqqəti daha da artırmalıyıq ki, daha çox vəsait ayırmalıyıq ki, həmin boru kəmərləri ilə nəql ediləcək məhsullar sürətlə dünya bazarlarına çatdırılsın.

Ümidvaram ki, bu layihələr regionun ümumi iqtisadi inkişafına yardımçı olacaqdır. Əminik ki, biz ölkənizdə iqtisadi və siyasi islahatların daha da genişləndirilməsi üçün Sizinlə digər sahələrdə də əməkdaşlığı genişləndirəcəyik. Ən çətin iş Sizin öhdənizə düşübdür. Amma ümidvaram ki, qısa bir zamandan sonra Siz böyük nailiyyətlər əldə edərək, bizi Sizin kimi yaxşı işləməyə, bu layihələrin müvəffəqiyyətli olması üçün səylərimizi artırmağa sövq edəcəksiniz.

***Heydər Əliyev:*** Təşəkkür edirəm, cənab komissar. Əvvələn, Avropa İttifaqı tərəfindən Azərbaycana indiyə qədər göstərilmiş yardımlara görə təşəkkür edirəm. Bəzi rayonlarımızda aparılmış bərpa işlərinə görə sizə təşəkkür edirəm. Ancaq dediniz ki, çox gözəl bir kitab yazmısınız. O kitabda da hörmətli Baş nazirin müavini çox gözəl sözlər yazıbdır. Mən istərdim ki, o sözlər həqiqətə çevrilsin. Kitab yazmaq çətin deyildir. Amma iş görmək çox çətindir. Mən çox məmnunam, siz burada bəyan edirsiniz ki, gələcəkdə, əgər biz sülh yarada bilsək, bərpa işlərində Azərbaycana çox güclü yardım edəcəksiniz. Ancaq sülh yaratmaq lazımdır.

Bağışlayın, belə bir məsəl var: siçanlar pişikdən xilas olmaq istəyirlər, qərara gəlirlər ki, pişiyin boynundan bir zınqırov assınlar ki, o, gələndə səsi eşidib qaçsınlar. Siçanların hamısı bu təkliflə razı olur. Sonra ikinci məsələ qalxır. Soruşurlar ki, pişiyin boynuna zınqırovu kim asmalıdır? İndi belə çıxır ki, bunu ancaq mən etməliyəm. Hamınız söz verirsiniz, tərifləyirsiniz və sair, amma əsas məsələni mən etməliyəm. Hörmətli qəzetçilər, müxalifətçilər, Azərbaycan prezidentini hər gün tənqid edənlər - indi gördünüzmü? Mən o zınqırovu pişiyin boynundan asanda, pişik məni yesə nə olacaq? Dərd də bundadır.

Ancaq məni yemək çətindir.

***Xavyer Solana:*** Onu bilirik.

***Heydər Əliyev:*** Amma vəziyyət bundan ibarətdir.

Mən bir daha sizə təşəkkür edirəm. Belə başa düşdüm ki, siz deyirsiniz ki, mən sülh yaradım, siz də sonra gəlib mənimlə bərabər bütün bu işləri görəsiniz. İndi ça-

lışmalıyam. Amma gərək siz də sonra sözünüzdən qaçmayasınız. Söz verirsinizmi? Bir az yavaş danışdınız.

***Kristofer Patten:*** İstəmirik ki, biz də özümüzü pişiyin boğazına zəncir asmağa məcbur olmuş siçanın gününə salaq.

***Heydər Əliyev:*** Görürsünüzmü, mən o gündəyəm.

***Anna Lind:*** Cənab prezident, amma Sizi əmin edirik ki, biz verdiyimiz sözlərə xilaf çıxmayacağıq, vədimizə sadiq olacağıq və Sizinlə keçirdiyimiz bu çox maraqlı görüşdən sonra əməkdaşlığımız daha da genişlənəcəkdir. Cənab prezident, amma mən heç vaxt cəsarət etməzdim ki, Sizi siçan ilə müqayisə edim. Amma hər halda, ən cəsarətli addım atmaq məhz Sizin boynunuza düşəcəkdir.

***Heydər Əliyev:*** Bilirsinizmi, mən özüm də özümü siçanla müqayisə etmək istəməzdim, ancaq Azərbaycan ifadəsinin bura yeri idi və ona görə də mən bunu dedim.

Mənim dostum Solanaya bir kitab bağışlamaq istəyirəm. Bu kitab NATO-nun 50 illiyinə həsr olunubdur. Xatirinizdədir, orada biz görüşürdük. Bir orada yox, başqa yerlərdə də. Biz sizinlə NATO barəsində çox danışıqlar apardıq və çox da işlər gördük. Bu da NATO-ya aid kitabdır. İndi mən bunu sizə bağışlayıram. Burada öz şəkillərinizi və bizim danışıqlarımız barədə yazıları görəcəksiniz. Avropa İttifaqı ilə də bizim əməkdaşlığımız yaxşı getsə, sonra bir dənə də kitab yaradacağam. Onda sizə də kitab bağışlayacağıq. Sağ olun.

***Anna Lind:*** Azərbaycan prezidenti Heydər Əliyevlə bizim görüşümüz başa çatdı. Bütün müzakirələrdən sonra sizi maraqlandıran suallar varsa, cavab verməyə hazırıq.

***Sual:*** Siz Yerevanda olarkən regionda iqtisadi əməkdaşlığın yaranması və nizamlanması barədə təklif vermisiniz. İndicə keçirdiyiniz görüşdə Azərbaycan prezidenti bildirdi ki, münaqişə həll edilməyincə, bu, mümkün deyildir. Siz bu istiqamətdə növbəti hansı addımları atmaq fikrindəsiniz? Bu ideyanı gələcəkdə də davam etdirmək fikrindəsinizmi?

***Kristofer Patten:*** Şübhəsiz ki, regional səviyyədə əməkdaşlığın aparılması məsələsində hələ də siyasi fikir müxtəlifliyi var. 1999-cu ildə Avropa İttifaqı və bu regionun iki ölkəsi arasında birgə bəyannamə qəbul olunmuşdur. Həmin bəyannamədə öz təcəssümünü tapmış əsas müddəalardan biri də ondan ibarət idi ki, əməkdaşlığın müəyyən formaya gətirilməsi üçün bir təkanverici qüvvə olsun və lazımi tədbirlər həyata keçirilsin. Yüksək səviyyədə danışıqlarımız, görüşlərimiz və buraya səfərimiz zamanı aydın oldu ki, ölkəniz münaqişəni sülh yolu ilə həll olunması barəsində verdiyi sözə sadiqdir. Sülhün bərqərar olması naminə biz də çalışacağıq ki, əlimizdən gələni əsirgəməyək.

***Sual:*** Maastrixt müqaviləsinin imzalanmasından 9 il keçir. Bu illərdə Avropa İttifaqına yeni üzvlər qəbul edilmişdir. Yaxın gələcəkdə bu ittifaqa daha hansı ölkələr

üzv olacaqdır?

***Xavyer Solana**:* Ümumiyyətlə, siz bilirsiniz ki, genişlənmə prosesi artıq gedir. Növbədə olan ölkələrin Avropa İttifaqına qəbul olunması məsələsinə baxılması mümkündür. Siz bilirsiniz ki, Nitsa şəhərində zirvə görüşü keçirilmiş, orada çox vacib sənədlər və razılaşmalar qəbul olunmuşdur. Bunun özü də genişlənmə prosesinə təkan vermişdir. Bu problem həll olunduqdan sonra digər dövlətlərin də Avropa İttifaqına namizədliyinə baxıla bilər.

***Sual:*** Siz bu gün dediniz ki, TRASEKA proqramına böyük əhəmiyyət verirsiniz. Sizə elə gəlmirmi ki, bu proqram bir qədər ləngiyir. Əgər ləngiyirsə, səbəbi nədir?

***Kristofer Patten:*** Biz bu proqramın həyata keçirilməsi ilə əlaqədar Brüsseldə müntəzəm olaraq yığışır, müzakirələr aparırıq. Azərbaycan prezidenti ilə görüşümüzdə mən dedim ki, hazırda TRASEKA proqramı çərçivəsində boru kəmərlərinin çəkilməsi ilə əlaqədar 25 milyon avro məbləğində vəsait ayrılması barədə layihə var. Boru kəmərləri sahəsində biz daha bir sıra layihələrin həyata keçirilməsini planlaşdırırıq. Bu proqram gecikdirilirsə, gecikmə yalnız layihənin bir nöqtədən digər nöqtəyə çatdırılmasına aid ola bilər. Mən sizinlə səmimi danışıram və deyə bilərəm ki, bu, çox vacib layihədir və onun həyata keçirilməsi üçün biz bütün səylərimizi göstərəcəyik.

# Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Avropa Parlamentinin nümayəndə heyəti ilə görüşdə söhbətindən

22 may 2001-ci il

***Heydər Əliyev:*** Hörmətli qonaqlar, siz Azərbaycana xoş gəlmisiniz. Avropa Birliyinin belə mötəbər, çoxsaylı nümayəndə heyətinin Azərbaycana gəlməsini çox müsbət qiymətləndirirəm. Amma sizin qarşınızda o qədər kağız görürəm ki, əgər onların hamısına baxsaq, gərək üç saat danışaq. Bunu zarafat edirəm, nə qədər istəsəniz danışarıq.

Avropa Birliyi ilə Azərbaycanın əlaqələri 1996-cı ildə bizim əməkdaşlıq haqqında imzaladığımız sənəd əsasında qurulubdur. Mən çox məmnunam ki, biz bunu vaxtilə imzalamışıq. Gərək ki, Lüksemburqda imzaladıq. Mən orada iştirak edirdim, özüm imzaladım. Bundan sonra da bizim əməkdaşlığımız inkişaf edir. Konkret nəticə nöqteyi-nəzərindən Avropa Birliyi ilə əməkdaşlıq başqa beynəlxalq təşkilatlara nisbətən daha da nəticəlidir.

Hələ 1992-1993-cü illərdən başlayaraq Avropa Birliyinin bizim regiona, Qafqaz, Orta Asiya regionuna marağı artmışdır. Bir neçə proqramların - TASİS proqramının, TRASEKA proqramının, İNOQEYT proqramının yaranması Avropa Birliyinin, həqiqətən, bizim regiona çox diqqətlə yanaşmasını göstərir. Biz bu proqramların həyata keçirilməsində fəal iştirak edirik. Ölkəmizin coğrafi vəziyyəti, coğrafi-strateji vəziyyəti belədir ki, bu proqramlar Azərbaycansız həyata keçirilə bilməz.

Burada xeyli işlər görülübdür. Biz bu sahədə Avropa Birliyindən iqtisadiyyatımızın bəzi sahələrini inkişaf etdirmək üçün aldığımız yardımları və kreditləri də qiymətləndiririk.

Nəhayət, bilirsiniz ki, biz Avropa Birliyi ilə birlikdə 1998-ci ilin sentyabr ayında Azərbaycanda böyük bir konfrans keçirdik. Bu konfransın əsas məzmunu TRASEKA proqramı üzrə Böyük Tarixi İpək yolunun bərpa olunması məsələsi idi. Mən çox məmnunam ki, bu konfrans Azərbaycanda keçirildi. Biz burada, hesab edirəm ki, çox vacib bir saziş imzaladıq. Qədim İpək yolunun bərpası ilə əlaqədar təşkilat yaratdıq, onun katibliyi Azərbaycanda yerləşir. Bir müddət bundan öncə o katibliyə yaxşı bir bina verdik və o binanın açılışında özüm şəxsən iştirak etdim.

Biz böyük İpək yolunun bərpası proqramına çox ciddi yanaşırıq. Hesab edirik ki, bunun böyük perspektivi var. Bu, Şərqlə Qərbi, Avropa ilə Asiyanı birləşdirən, məsafəcə ən yaxın və təhlükəsizliyi təmin edən bir marşrutdur.

Ancaq biz Avropa Birliyi ilə əməkdaşlığımızı təkcə bu proqramlar çərçivəsində nəzərdə tutmuruq. Siz Avropa Birliyinin parlamentinin nümayəndələrisiniz.

Mən çox məmnunam ki, Azərbaycan parlamenti ilə sizin aranızda çox işgü-

zar əlaqələr yaranıbdır və dünən, bu gün burada çox yaxşı konfrans keçirilibdir, məsələlər müzakirə olunubdur. Biz bunları özümüz üçün çox əlamətdar hadisə hesab edirik və Azərbaycanın Avropa Birliyi ilə əməkdaşlığına böyük ümidlərlə baxırıq.

Bilirsiniz ki, biz yanvar ayında Avropa Şurasına həqiqi üzv kimi qəbul olunduq. Avropa Şurasında çox dövlət var, 43 dövlət var. Oraya daxil olmaq üçün xeyli vaxt imtahanlardan keçdik. Bəzən də "imtahan edən müəllimlər" bizə qarşı ədalətli deyildilər. Amma onlara sübut etdik ki, biz Avropa Şurasının üzvü olmağa layiqik. Bilirəm ki, Avropa Birliyinin 15 üzvü var, amma növbədə də çox ölkə var. Sizin şərtləriniz daha da ciddidir. Biz realistik. Hesab etmirik ki, biz buna tezliklə nail ola bilərik. Amma Avropa ailəsinin üzvü kimi Azərbaycan, təbiidir ki, bu istiqamətdə də irəliləmək istəyir. Ona görə parlamentlərarası əlaqələrin çox böyük əhəmiyyəti var. Güman edirəm ki, siz bu iki gündə Azərbaycanın bugünkü reallığını görürsünüz. Təbiidir ki, bizim ölkəmizdə hər şey istədiyimiz kimi deyildir. Ancaq hər halda, son beş-altı ildə Azərbaycanda iqtisadi inkişaf var və bizim yaxşı perspektivlərimiz var.

Sizə artıq bunu deyiblər ki, bizim bütün bu işlərimizə mane olan Ermənistan-Azərbaycan münaqişəsidir. Güman edirəm, bilirsiniz ki, bu münaqişənin günahkarı biz deyilik. Ermənistan Azərbaycanın torpaqlarının bir hissəsini, Dağlıq Qarabağı özünə birləşdirmək üçün bu münaqişəni başlayıbdır. Sonra bu münaqişə qanlı müharibəyə çevrilibdir və müxtəlif səbəblərdən Ermənistan silahlı qüvvələri Azərbaycan ərazisinin 20 faizini işğal etməyə nail olubdur. İşğal edilmiş torpaqlardan bir milyon insan zorla yerindən çıxarılıb və indi artıq yeddi-səkkiz ildir ki, qaçqın vəziyyətində, əksəriyyəti çadırlarda yaşayır.

Təbiidir ki, XXI əsrin əvvəlində dünyada, Qafqaz bölgəsində belə bir münaqişənin olması özlüyündə indi gedən proseslərə uyğun deyildir. Amma təəssüf ki, biz beynəlxalq ictimaiyyəti bu münaqişənin sülh yolu ilə həll olunması üçün fəal cəlb edə bilməmişik. Müharibənin yenidən başlanması nə Ermənistan üçün, nə də Azərbaycan üçün heç də xeyirli ola bilməz. Amma eyni zamanda, Azərbaycanın torpaqlarının bir qisminin işğal olunmasına və oradan Azərbaycan vətəndaşlarının zorla çıxarılmasına, onların ağır vəziyyətdə yaşamasına biz dözə bilmərik. Ona görə də biz məsələni sülh yolu ilə həll etmək istəyirik. Güman edirəm ki, Avropa Birliyi də bu məsələlərə öz münasibətini bildirməli və öz fəaliyyətini göstərməlidir.

Düşünürəm ki, bizim şəhərimizlə də tanış oldunuz. Hər halda, şəhər pis deyildir. Brüssel də yaxşı şəhərdir, amma Bakı, Azərbaycan da pis deyildir. Buyurun.

***Ursula Şvayser (Avropa İttifaqı - Azərbaycan Parlament Əməkdaşlığı Komitəsinin həmsədri):*** Cənab Prezident, hər şeydən öncə, icazə verin, bu gün bizi qəbul etdiyinizə görə nümayəndə heyətinin adından Sizə təşəkkürümü bildirim. Bu görüşün və bizim səfərimizin uğurlu təşkil olunmasında göstərdikləri xidmətə görə xüsusi olaraq Avropa Birliyinin buradakı səfirlərinə də təşəkkürümü bildirirəm.

Son dövrlər Azərbaycan tarixi günlərini yaşayır. Burada olduqca mühüm hadisələr baş verir. Siz doğru qeyd etdiniz, bu ilin əvvəlində Azərbaycan Avropa Şurasında üzvlüyə başlayıbdır. Bu da Sizin həyatınızda tarixi hadisə olubdur. Bilirik ki, qeyd etdiyiniz münaqişənin dinc yolla aradan qaldırılması üçün son dövrdə intensiv danışıqlar aparılır. Ermənistan prezidenti ilə danışıqlarınızdan da xəbərimiz var. Hesab edirik ki, bu bölgədə hələlik tərəfdaş olmayan iki ölkənin rəhbərləri arasında sülh danışıqlarının davam etdirilməsinin özü də mühüm hadisədir və biz bu danışıqların aparılmasını alqışlayırıq.

Biz burada olduğumuz dövrdə sizin parlamentin nümayəndələri ilə işgüzar danışıqlar aparmışıq. Bilirik, danışıqlarda da duymuşuq ki, sizin iki əsas probleminiz var. Birincisi, şübhəsiz ki, Qarabağ problemidir. Biz arzu edirik ki, bu münaqişə, bu problem tezliklə dinc yollarla həll olunsun.

Düşünürəm ki, bu münaqişənin dinc yolla aradan qaldırılması üçün Sizin kimi şəxsiyyətlərə böyük ehtiyac var. Məhz böyük şəxsiyyətlərin iradəsi sayəsində bu problemi aradan qaldırmaq mümkün ola bilər.

Hesab edirik ki, sizin xalqınız dövlətinizin hansı inkişaf mərhələsinin başlanğıcında olduğunu yaxşı anlayır. Bu baxımdan biz Azərbaycanda gördüklərimizi nikbinliklə qarşıladıq. Azərbaycanın böyük gələcəyin başlanğıcında olduğunu gördük.

Şübhəsiz ki, bizim nümayəndə heyətimizin üzvlərinin Sizə ünvanlamaq istədikləri bəzi suallar olacaqdır. Mən istərdim, öncə nümayəndə heyətinin üzvlərini Sizə təqdim edim. Cənab Stefano Zappala Avropa Parlamentinin üzvüdür. O, İtaliyanı təmsil edir. Avropa Parlamentində Ətraf Mühitin Qorunması Komitəsinin üzvüdür. Cənab Olivyer Dupui də İtaliyanın təmsilçisidir. O, Avropa Parlamentində mənim də fəaliyyət göstərdiyim Konstitusiya Komitəsinin üzvüdür. Xanım Mari-Ann İsler Bequin Fransanı təmsil edir. Cənab Zappala kimi, o da Ətraf Mühitin Qorunması Komitəsinin üzvüdür. Cənab Dmitrios Kulurianos isə Yunanıstanı təmsil edir. O, Avropa Parlamentində - Kənd Təsərrüfat Komitəsinin üzvüdür.

Çox məmnunam ki, bizim bugünkü nümayəndə heyətimizdə cənab Per Qarton da iştirak edir. O, Avropa Parlamentinin Xarici Əlaqələr və İnsan Haqları Komissiyasının üzvüdür. Bundan əlavə, o, Avropa Parlamentində Cənubi Qafqaz üzrə məruzəçi qrupunun rəhbəridir. Cənab Qarton Avropa Parlamentinin Xarici Əlaqələr və İnsan Haqları Komissiyasında Azərbaycana və Cənubi Qafqaza aid məruzə ilə çıxış etdikdən, orada müzakirələr aparıldıqdan sonra biz bu ilin sentyabr-oktyabr aylarında Avropa Parlamentində ümumi müzakirələrin keçirilməsini planlaşdırırıq.

Hesab edirik ki, bu müzakirələr Avropa Birliyi ilə Azərbaycan arasında əməkdaşlıqda mühüm rol oynayacaqdır. Bildirmək istəyirəm ki, biz bu payız keçiriləcək müzakirələrdən çox şey gözləyirik. Çünki bu yaxınlarda Avropa Birliyinin üçlüyü regionda olmuşdur. Yunanıstandan olan səfirimizin verdiyi məlumatlara

əsasən bilirik ki, son həftələr burada sülh danışıqları ilə əlaqədar intensiv işlər aparılıbdır. Bundan əlavə, son dövrlər sizin ölkənizi çoxlu nümayəndə heyətləri, o cümlədən mənim təmsil etdiyim Almaniyanın da böyük nümayəndə heyəti ziyarət edibdir. Hesab edirik ki, payızda müzakirələrə çıxarmaq üçün çoxlu məsələlərimiz olacaqdır.

Hesab edirəm ki, nümayəndə heyətinin səfəri zamanı biz Azərbaycan ilə əməkdaşlığımızın çoxtərəfli qaydada aparılması üçün bütün sahələrə nəzər salmaq imkanı əldə etdik. Burada müxtəlif mövzular ətrafında müzakirələr apardıq. Hesab edirəm ki, Sizin dəstəyinizlə biz Azərbaycan ilə əməkdaşlığımızın yeni mərhələsini başlaya bilərik.

***Heydər Əliyev:*** Mən belə başa düşdüm ki, suallar verəcəksiniz. Onda bunu belə başa düşürəm ki, siz Avropa Birliyinə bizim yaxınlaşmağımız üçün imtahana gəlmisiniz. Buyurun.

***Olivyer Dupui (Avropa Parlamentinin üzvü, İtaliya):*** Cənab Prezident, hesab edirəm, tamam əksinə olacaqdır. Yəni imtahanı Sizin özünüzün aparmağınıza ehtiyac olacaqdır. Çünki Avropa çox ləng işləyir. Bu gün Avropanın özündə belə inteqrasiya prosesləri heç də böyük sürətlə getmir. Təəssüflər ki, Avropada, Brüsseldə heç də hamı sizin ölkənizin nə qədər böyük əhəmiyyət kəsb etdiyini anlamır.

***Heydər Əliyev:*** Bunu çox düz deyirsiniz.

***Olivyer Dupui:*** Ona görə də biz məhz Sizdən, eyni zamanda sizin müttəfiqiniz olan Gürcüstandan daha ciddi siqnallar gözləyirik. Yəni Avropa Birliyinə və Brüsselə ünvanlanmış siqnal ki, onun nəticəsində orada oturan insanlar sizin regionun nə qədər mühüm əhəmiyyət kəsb etdiyini daha yaxşı anlasınlar. Hesab edirəm ki, Avropa Birliyinə üzv qəbul olunmağın özü böyük bir prosesdir. Amma biz həm Azərbaycandan, həm də sizin müttəfiqiniz Gürcüstandan gözləyirik ki, sizin hökumətlər Avropa Birliyinə rəsmi surətdə üzv olmaq üçün prosesə və danışıqlara başlamaqla əlaqədar müraciət qəbul etsinlər. Düşünürəm ki, əgər Sizin tərəfinizdən və Gürcüstanın rəhbərliyi tərəfindən Avropa Birliyinə üzvlük üçün Polşa, Bolqarıstan kimi ölkələrin keçdiyi uzun bir prosesə başlamaq müraciəti olsa, onda Brüsseldə sizin regionun - Azərbaycanın və Gürcüstanın nə qədər böyük əhəmiyyət daşıdığını daha aydın dərk edə bilərlər. Hər halda bu, regionunuzun əhəmiyyətinin başa düşülməsində mühüm elementlərdən biri ola bilər. Ona görə də gərək Siz bir az bizə dərs verəsiniz. Biz gərək Sizdən bəzi dərsləri alaq.

***Heydər Əliyev:*** Hörmətli qonağımız, təşəkkür edirəm. Mən məmnunam ki, siz bizim regiona, xüsusən Azərbaycan və dostumuz olan qonşu Gürcüstana bu qədər əhəmiyyət verirsiniz.

Mən sizin fikirlərinizlə razıyam ki, Brüsseldə, Avropa Birliyində bizim regionun və bizim ölkələrimizin, Azərbaycanın və Gürcüstanın Avropa üçün nə qədər vacib ölkələr olduğunu hələ indiyə qədər tam dərk edə bilmirlər.

Ancaq düzü, Avropa Birliyi haqqında belə bir təsəvvür var ki, ölkələr bir neçə il çalışırlar Avropa Birliyinə daxil olsunlar, ola bilmirlər.

Biz Avropa Şurasına daxil olanda bizi o qədər o tərəfə-bu tərəfə çəkdilər ki, gözümüz qorxub. Ona görə cəsarət etmirik. Amma siz bu cür bəyanat verəndən sonra, əlbəttə ki, bizdə də daha çox cəsarət əmələ gələcəkdir.

Mən deyə bilmərəm ki, Azərbaycan, ya Gürcüstan Avropa Birliyinə müəyyən bir nümunə ola bilər, yaxud dərs verə bilər. Çünki bu birliyin tərkibində Avropanın ən inkişaf etmiş ölkələri var. Biz hələ inkişaf mərhələsindəyik. Amma gələcəyimizə çox nikbin baxırıq. Ona görə də mən sizin bu məsləhətinizi məmnuniyyətlə qəbul edirəm. Təşəkkür edirəm.

***Dmitrios Kulurianos (Avropa Parlamentinin üzvü, Yunanıstan):*** Biz hamımız Yer kürəsi adlanan bir məkanda yaşayırıq. XXI əsr ideologiyaların sonu kimi deyil, amma ehkamçı fikirlərin sonu kimi başladı. Avropa təkcə xəritə deyil, o bir ideyadır, ideologiyaların məzmunudur və Ümumavropa mədəniyyəti deməkdir. Biz də Avropada yaşayan xalqların seçilmiş nümayəndələriyik, onları təmsil edirik. Biz Ümumavropa ideyasını, Ümumavropa mədəniyyətini və ideologiyasını bütün dünyaya yaymağı çox istəyirik. Biz coğrafiyaların qurbanı olmaqla razılaşmaq istəmirik. O baxımdan tam əmin ola bilərsiniz ki, sizin ölkənizdə və regionunuzda da Avropa ideologiyasının və Avropa mədəniyyətinin geniş yayılması üçün əlimizdən gələni edəcəyik.

***Heydər Əliyev:*** Hörmətli deputat, təşəkkür edirəm. Mən sizin fikirlərinizlə razıyam. Sizinlə bizim aramızda böyük fərq vardır. O da ondan ibarətdir ki, XX əsrdə biz 70 il ehkamın təsiri altında yaşamışıq. Sizin ölkələrdə də ehkamlar olubdur. Sizin ölkələr də böyük mərhələlərdən keçibdir. Məsələn, İkinci dünya müharibəsini götürsək, faşizm həm Almaniyada idi, həm İtaliyada idi, həm də Avropanın başqa ölkələrində idi. Bu da sizin ölkələrə məxsus olan ehkam idi. Yəni bizim öz ehkamımız olub, sizin də öz ehkamınız olubdur. Amma siz İkinci dünya müharibəsindən sonra bu ehkamlardan tezliklə xilas ola bildiniz. Avropa, sizin ölkələriniz İkinci dünya müharibəsindən sonra böyük yol keçiblər və böyük tərəqqi əldə ediblər.

Ancaq biz cəmisi 10 il bundan öncə ehkamdan xilas olmuşuq. Bu on il də bizim üçün rahat illər olmayıbdır. Buna görə də siz, təbiidir ki, bütün sahələrdə bizdən irəlidəsiniz. Bizim Avropa ailəsində olmaq arzumuz da məhz tezliklə sizin dəyərlərinizə daha da yaxınlaşmaqla bağlıdır. Amma bunun təkcə bizim üçün yox, sizin üçün də, Avropa üçün də çox böyük faydası olacaqdır.

Bizim kimi ölkələrin Avropa Birliyinə daxil olması, hesab edirəm ki, Avropanın mənəviyyat, ənənələr cəhətindən zənginləşdirilməsinə gətirib çıxaracaqdır. Azərbaycanın bugünkü reallığı Avropa və Şərq milli dəyərlərinin sintezindən ibarətdir. Hesab edirəm ki, Avropa dəyərlərinin üzərinə bunu əlavə etsək, bu da oraya qatılsa, Avropa dəyərləri daha da zəngin olacaqdır. Buna görə biz əməkdaşlıq

edirik. Siz də gərək bizə yardım edəsiniz. Çünki 1945-1946-cı illərdə sizin atdığınız addımları biz indi - XX əsrin sonunda, XXI əsrin əvvəlində atırıq. Təbiidir ki, biz sizdən sürətlə gedəcəyik. Çünki elə olmasa, biz gəlib sizə çata bilmərik. Amma buna baxmayaraq, bizə sizin yardımlarınız çox lazımdır.

***Dmitrios Kulurianos:*** Cənab prezident, bir söz demək olar? O içkiləri ki qatışdırıb içirlər, onlar daha ləzzətli olur.

***Heydər Əliyev:*** Mən buna razıyam.

***Dmitrios Kulurianos:*** Marafon yarışında kimin qaçışa birinci başlaması o qədər önəm kəsb etmir. Kimin finişə birinci çatması əhəmiyyətli olur.

***Heydər Əliyev:*** Doğrudur. Amma eyni zamanda, birisi marafona bir saat əvvəl başlayırsa, o biri marafonçu nə qədər güclü olsa da, gəlib ona çata bilməz. Amma içkilər haqqında dediyinizlə razıyam. İtaliyada bunu mən çox yoxlamışam. Yunanıstanda da yaxşı içkilər var. Doğrudur, səfir məni hələ oraya aparmayıbdır. Amma bilirəm ki, orada çox yaxşı içkilər var.

***Merkurios Karafotias (Yunanıstanın Bakıdakı səfiri):*** Zati-aliləri, Siz bizə razılıq verdiyiniz an biz Sizi orada salamlamaqdan, qarşılamaqdan məmnun olarıq. Biz bunu özümüzə yalnız şərəf bilərik.

***Heydər Əliyev:*** Mən bunu bilirəm. Təşəkkür edirəm.

***Xanım Mari-Ann İsler Bequin (Avropa Parlamentinin üzvü, Fransa):*** Cənab prezident, icazə versəydiniz, mən fransızca danışardım.

Cənab prezident, artıq ikinci dəfədir ki, biz Azərbaycana gəlmək və Sizinlə görüşmək şərəfinə nail oluruq. Elə buna görə də Sizə dərin minnətdarlığımı bildirirəm. Sizinlə elə əvvəlki görüşlərimizdə də razılaşmışdıq və belə bir fikir irəli sürmüşdük ki, Azərbaycanda bir xartiya, regional ətraf mühit xartiyası imzalayaq.

Cənab prezident, biz artıq bununla bağlı müxtəlif yerlərdə müzakirələr aparmışıq, fikir mübadiləsi etmişik. Ümumiyyətlə, biz sizin Cənubi Qafqaz regionunun ekologiyası, ətraf mühitin çirklənməsi problemləri haqqında geniş danışmışıq. Zənnimcə, bu, hamımızın marağına cavab verərdi ki, biz doğrudan da belə mərkəzin yaradılmasına gəlib çıxaq.

Cənab prezident, o vaxt bununla bağlı Sizinlə söhbət aparanda, qəti cavab verməsəniz də, bu mövzuya çox maraq göstərdiniz. Böyüklüyünüz bir də ondan ibarət oldu ki, həmin görüşümüzdən sonra Brüsselə qayıtdıqdan yalnız bir neçə gün keçmiş xəbər tutduq ki, Siz həmin xartiyanı imzalamısınız.

Cənab prezident, elə buna görə də mən indi artıq bu büroda - mərkəzdə işləyənlərin hamısının adından Sizə öz dərin minnətdarlığımı bildirirəm. Mən Sizin nəzərinizə çatdırmaq istəyirəm ki, bu gün artıq Tbilisidə ekologiya, ətraf mühitin çirklənməsi problemləri ilə məşğul olan belə bir mərkəz fəaliyyət göstərir. Sizinlə bu görüşümüzdən istifadə edərək xahiş edirəm ki, bəlkə bu mərkəzin Azərbaycanda, yəni Bakıda da ofisinin açılmasına razılıq verəsiniz. Mənə elə gəlir ki, ekologiya,

ətraf mühitin çirklənməsi məsələləri Azərbaycan üçün də çox böyük aktuallıq kəsb edir və biz də sizinlə birlikdə bu sahədə fəallıq göstərərdik. Ümumiyyətlə, müəyyən proqramlar hazırlayarıq, müəyyən texniki kömək edərik. Zənnimcə, bununla biz yaxşı nəticələrə gəlib çıxa bilərik.

Cənab prezident, o vaxt Siz qeyd etmişdiniz ki, ümumiyyətlə, Azərbaycan regional proqramları imzalamaq məsələsinə yalnız Ermənistan-Azərbaycan münaqişəsinin həllindən sonra baxa bilər, yəni belə bir addım ata bilər. Lakin biz Sizin böyüklüyünüzü bir daha gördük, hiss etdik. Çünki doğrudan da həyatda, bizim indiki dövrümüzdə elə məsələlər vardır ki, onlar bəlkə daha təcili, daha vacib məsələlərdir. Ona görə də Siz bu siyasi məsələnin həll olunmamasına baxmayaraq, belə bir addım atıb bu proqramı, xartiyanı imzaladınız.

***Heydər Əliyev:*** Hörmətli xanım, təşəkkür edirəm. Sizin bu fikirləriniz çox əhəmiyyətlidir. İndi ətraf mühitin qorunması bütün bəşəriyyət üçün bir nömrəli məsələdir.

O cümlədən, Azərbaycanın buna çox böyük ehtiyacı var. Burada, həm Azərbaycanın ərazisində ətraf mühitin qorunması məsələsi durur, həm də başlanğıcını Türkiyədən götürən, Gürcüstan və Ermənistan torpaqlarından keçərək Azərbaycana gələn Kür, Araz çayları həmin ölkələrdə çox çirklənir. Biz isə o çayların sularından insanların su təchizatında istifadə edirik. Həm də ki, kənd təsərrüfatı sahəsində bu sulara böyük ehtiyacımız vardır. Mən sülh yaranana qədər Ermənistanla bütün başqa sahələrdə əməkdaşlıq etməyin əleyhinəyəm. Amma bu sahədə əməkdaşlıq etməyə hazıram. Hələ keçmişdə, Sovetlər İttifaqı zamanı Ermənistan öz ərazisindən keçən Araz çayını çox çirkləndirirdi. Onların ərazisində kiçik qızıl yataqları tapılmışdı. Orada qızıl mədənindən çıxarılan filizin yuyulması üçün Arazın qırağında zavod yaratmışdılar. Çünki bu proses zamanı çoxlu su lazımdır və filiz yuyularkən yaranan su ən zəhərli sudur.

O vaxt biz bir dövlətin tərkibində olduğumuza görə, mən çox səylər göstərdim. SSRİ Nazirlər Soveti bu işə qarışdı və müəyyən tədbirlər gördük. İndi isə mən bilmirəm ki, orada nə vardır. Amma əməkdaşlıq etsək, qarşılıqlı inspeksiya keçirə, çox məsələləri aradan qaldıra bilərik.

Yaxud da Xəzər dənizinin çirklənməsi məsələsi… Xəzər dənizi 5 Xəzəryanı dövlətə mənsubdur. Bu dövlətlər arasında indiyə qədər həm ekologiya barəsində, həm neft-qaz hasilatı barəsində heç bir müqavilə olmadığına görə, hərə öz ərazisindən çirkab sularını dənizə axıdır. Eyni zamanda Xəzər dənizində dünyada çox nadir hesab olunan balıqlar məhv olmaq təhlükəsi altındadır.

Mən bilirəm ki, Qərbdə balıq kürüsünü çox sevirlər. Amma işlər belə getsə, bunun qarşısını almasaq, 5-6 ildən sonra balıq kürüsü olmayacaqdır. Ona görə də bu, böyük bir problemdir. İndi bütün bəşəriyyət qarşısında duran bir nömrəli problemdir. Neçə xartiya istəyirsinizsə, mən imzalayım. Ancaq əməli iş görmək lazımdır.

Amma gərək bir təşəbbüskar mərkəz olsun. Biz Azərbaycanda bu mərkəzi mütləq yaradarıq. Amma Tbilisidə olan mərkəz, Azərbaycanda olan mərkəz, başqa yerlərdə olan mərkəzlər - gərək bunların işləri əlaqələndirilsin.

Əgər Avropa Birliyi bu məsələ ilə konkret, əməli surətdə məşğul olsa, bu, bəşər tarixində Avropa Birliyinin böyük xidməti olacaqdır.

***Per Qharton (Avropa Parlamentinin üzvü, İsveç):*** Cənab prezident, mən öz həmkarlarımla tam razıyam ki, bu region bizim üçün önəmli əhəmiyyət daşıyan bir regiondur. Sizin fikrinizlə razıyam ki, sizin regionunuz Avropada kifayət qədər tanınmayıbdır. Ona görə də mən Avropa Birliyi, Avropa Parlamenti üçün hazırlayacağım məruzədə bu regionun nə qədər böyük əhəmiyyət daşıdığına xüsusi diqqət yetirəcəyəm.

Avropada bu regionla əlaqədar daha çox geniş yayılmış məlumat bu regionda uzun müddətdən bəri davam edən, təəssüf ki, hələ də tam sülhlə nəticələnməyən və çox mürəkkəb bir münaqişənin davam etməsi barədədir. Ondan da xəbərimiz vardır ki, son dövrlər Siz şəxsən çoxlu səylər göstərirsiniz, Ermənistan prezidenti ilə birlikdə bu münaqişənin dinc yolla, sülh yolu ilə aradan qaldırılması üçün çoxsaylı görüşlər keçirmisiniz və sonuncu görüşünüz Floridada olmuşdur. Bildiyimizə görə, Ermənistan prezidenti ilə sülh danışıqlarını davam etdirmək üçün Cenevrədə də növbəti görüşünüz gözlənilir.

Cənab prezident, mən bu çoxsaylı sülh görüşləri barədə - həm Ermənistan prezidenti ilə Sizin keçirdiyiniz birbaşa görüşlər, həm də ümumiyyətlə, sülh səyləri barədə çoxlu hesabatlar oxuyuram. Bu hesabatlardan belə duyulur və bir fikir formalaşır ki, münaqişənin sülh yolu ilə aradan qaldırılmasına çox nikbin yanaşırlar. Hətta belə fikirlər də səslənir ki, Ermənistan prezidenti ilə Siz sülhün əldə edilməsi üçün olduqca yaxınlaşmısınız. Bununla birlikdə, belə bir fikir də mövcuddur ki, Ermənistan prezidenti ilə sülhə nə qədər yaxınlaşsanız da, hər iki ölkədə onun həyata keçirilməsinə maneçilik törədə biləcək, ona etiraz edən ciddi və güclü qruplar vardır. Onlar bu sülh prosesinin, əldə oluna biləcək hər hansı sazişin həyata keçirilməsinə etiraz edə bilərlər. Beləliklə də Sizi və Ermənistan prezidentini çıxılmaz, çətin bir vəziyyətə sala bilərlər. Şübhəsiz ki, mən sülh danışıqlarının müfəssəl təfərrüatı barədə danışmağınızı istəmirəm. Bilirəm ki, bu, məxfi görüşlərdir, məxfi danışıqlardır. Amma hesab edirəm ki, əgər bizə Ermənistan prezidenti ilə apardığınız danışıqların, ümumiyyətlə, sülh prosesinin indiki durumu barədə məlumat versəydiniz, bu, vəziyyəti daha dolğun dərk etməkdə bizə çox yardımçı olardı.

***Heydər Əliyev:*** Bilirsinizmi, mən bu gün görüşümüzün əvvəlində bildirdim ki, bu münaqişəni Ermənistan başlayıbdır, Azərbaycan başlamayıbdır. Nəticədə Ermənistan həm Dağlıq Qarabağı, həm də onun ətrafında olan digər əraziləri - Azərbaycan torpaqlarının 20 faizini işğal edibdir. Orada yaşayan insanları həmin torpaqlardan zorla çıxardıbdır. Müharibə zamanı, döyüşlər gedərkən çoxlu qan

tökülübdür. 1994-cü ilin may ayında biz atəşin dayandırılması haqqında razılığa gəlmişik. O vaxtdan indiyə qədər, artıq 7 ildir ki, biz atəşkəs şəraitində yaşayırıq. Onu da qeyd etmək istəyirəm ki, bizim aramızda başqa ölkələrin sülhməramlı qüvvələri yoxdur. Atəşkəsi biz, yəni Azərbaycan və Ermənistan qoruyub saxlayırıq. Bütün bu 7 ildə biz ATƏT-in Minsk qrupu vasitəsilə məsələnin sülh yolu ilə həll olunması üçün danışıqlar aparırıq. Nəhayət, 1999-cu ildən Ermənistan prezidenti ilə Azərbaycan prezidenti arasında vaxtaşırı bilavasitə görüşlər keçirilir və danışıqlar aparılır. Son görüşümüz Amerika Birləşmiş Ştatlarında, Floridada Minsk qrupunun həmsədrləri olan Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa nümayəndələrinin iştirakı ilə olmuşdur.

Ermənistan prezidenti ilə biz danışıqlara başlayanda belə fikirdə olduq ki, sülh əldə etmək üçün qarşılıqlı kompromislərə getmək lazımdır. Əgər belə bir razılıq əldə olundusa və biz buna nail ola bilməmişiksə, deməli, hansı tərəfin kompromisə nə qədər getməsini biz müəyyən edə bilməmişik. Ermənistan öz üstünlüyündən istifadə edərək, - yəni Azərbaycanın torpaqlarını işğal edibdir, onun silahlı qüvvələri orada oturubdur, Azərbaycanın əhalisi öz yerindən-yurdundan olubdur, - çox böyük tələblər ortaya qoyur. Azərbaycan isə, əlbəttə ki, bu şərtlərlə razı ola bilmir. Ona görə də biz bu məsələni indiyə qədər həll edə bilməmişik.

1999-cu ilin sonunda biz bir variantda çox yaxınlaşmışdıq. Ancaq sonra Ermənistan bu variantdan imtina etdi. Məsələ bu qədər uzandığına görə və Azərbaycan əhalisi, bir milyondan çox insan ağır vəziyyətdə yaşadığına görə, təbiidir ki, bizim cəmiyyətdə narazılıq artır.

Ermənistanın torpağı işğal olunmayıbdır. Əhalisi qovulmayıbdır. Doğrudur, Azərbaycandan köçüb gedən bəzi ermənilər Ermənistan üçün müəyyən problemlər yaradıblar. Amma əsas zərər Azərbaycana dəyibdir. Ona görə də bu, nəzərə alınmalıdır.

Nəzərə alınmır, məsələ uzanır. Azərbaycanda da böyük narazılıq get-gedə artır. İnsanlarda yenidən müharibə etmək, işğal olunmuş torpaqları müharibə yolu ilə azad etmək əhval-ruhiyyəsi genişlənir.

Bizim müxalifət, təbiidir ki, bundan istifadə edir. Bizi sağdan da, soldan da tənqid edir. Hətta ittiham edir ki, nə üçün bu münaqişəni indiyə qədər həll etmirsiniz. Gəlin, müharibəni başlayaq, gedək torpaqları işğaldan azad edək. Bu isə cəmiyyətin bəzi təbəqələrinə sirayət edir. Ona görə də təhlükəli bir vəziyyət yaranıbdır. Mətbuatdan görünür ki, Ermənistanda da bəzi qüvvələr hətta Ermənistanın kiçik bir kompromisə getməsinə razı deyillər. Buna görə də vəziyyət belədir.

Əgər biz həqiqətən tarazlı kompromisə gələ bilsək, onu həyata keçirmək yenə də çox çətin olacaqdır. Amma onda əldə olunmuş razılığı həyata keçirmək üçün mübarizə aparmaq olar. Əgər belə olmasa, onda prezident kimi mən də, - baxmayaraq ki, mənə çox böyük ümidlər bəsləyirlər, çox hörmət edirlər, - bu vəziyyətdə

heç bir şey edə bilmərəm və etmərəm də. Ona görə də müharibə amili get-gedə artacaqdır.

Ona görə də mən Minsk qrupunun həmsədrlərindən, - bunlar böyük dövlətlərdir, Rusiyadır, Amerika Birləşmiş Ştatlarıdır, Fransadır, bunların Ermənistana təsir etmək imkanları vardır, - həmişə xahiş edirəm ki, onlar öz imkanlarından istifadə etsinlər. Onlar isə deyirlər ki, iki prezident hansı razılığa gələrsə, biz onu qəbul edəcəyik.

Belə olan halda onda 1992-ci ildə nə üçün ATƏT-in Minsk qrupu yaradılırdı? Belə olan halda nə üçün üç böyük dövlət - Rusiya, Fransa, Amerika Birləşmiş Ştatları öz üzərinə bu vəzifəni götürüblər?

Ona görə də çox çətin vəziyyət yaranıbdır. Hər halda mən bunları deməklə sizdə belə bir təsəvvür yaratmaq istəmirəm ki, daha hər şey tükənibdir. Sizin sualınıza cavab verərək mən real vəziyyəti bildirirəm. Ancaq hesab edirəm ki, məsələnin sülh yolu ilə həll olunması üçün bundan sonra da çalışmaq lazımdır.

***Per Qharton:*** Üzr istəyirəm, bir əlavə sual da vermək istəyirəm. Sizin sülh səylərinizin dəstəklənməsi üçün indiyə qədər gördüyümüz işlərdən əlavə, Avropa Birliyindən hansı işlərin görülməsini istərdiniz?

***Heydər Əliyev:*** İşləri biz görmüşük. Siz bizə kömək edin ki, sülh yaransın. Azərbaycanın ərazi bütövlüyü bərpa olunsun. Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş torpaqlar azad edilsin və bir milyon azərbaycanlı öz yerinə-yurduna qayıtsın. Baxmayaraq ki, onların yaşadıqları yerlərdə hər şey dağıdılıb, hər şey viran olubdur. Ancaq onlar, sadəcə, öz torpaqlarına qayıtmaq istəyirlər. Mənim sizdən istədiyim budur.

***Ursula Şvayser:*** Çox sağ olun. Hesab edirəm ki, bu gün çox səmərəli müzakirələrimiz və danışıqlarımız oldu. Bizim üçün olduqca əhəmiyyətli idi ki, mövcud hazırkı vəziyyətin dəyərləndirilməsini bilavasitə Sizdən eşidək, mövcud reallıqları Sizin necə qiymətləndirdiyinizi bilək. Bundan sonra biz öz aramızda əlavə müzakirələr aparacağıq. Sizin səylərinizin və arzularınızın həyata keçirilməsi üçün hansı işləri görə biləcəyimiz barədə əlavə müzakirələr aparacağıq.

Mən çox məmnunam ki, cənab Qartonun hazırlayacağı məruzə çox ətraflı olacaqdır. Beləliklə, bu, təkcə Avropa Parlamenti, Avropa Birliyi üçün hazırlanmış məruzə olmayacaq, bu, mövcud vəziyyətin bütün dünyaya aydınlaşdırılmasında, açıqlanmasında rol oynayacaqdır. Sizə təşəkkür edirik.

***Heydər Əliyev:*** Cənab Qarton, mən sizin əsas sualınıza cavab verdim - Avropa Birliyi nə edə bilər? Xahiş edirəm, buna çox ciddi yanaşasınız. Sağ olun.

## Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Avropa Birliyinin nümayəndə heyətinin rəhbəri, İtaliyanın xarici işlər nazirinin müavini xanım Marqarita Boniveri və onu müşayiət edən şəxsləri qəbul edərkən söhbətindən

Prezident sarayı, 8 iyul 2003-cü il

***Heydər Əliyev:*** Hörmətli xanım Marqarita Boniver!

Hörmətli nümayəndə heyətinin üzvləri!

Mən sizi səmimi qəlbdən salamlayıram və Azərbaycanın Avropa Birliyi ilə əməkdaşlığını, əldə edilmiş nailiyyətləri çox yüksək qiymətləndirirəm. Avropa ilə əməkdaşlıq bizim üçün strateji əhəmiyyət daşıyır. Bu bizim xarici siyasətin prioritetlərindən biridir. Bu prinsiplər əsasında biz Avropa Birliyi ilə əlaqə saxlayırıq və onun inkişaf etməsinə çalışırıq, bunu arzu edirik.

Biz Avropa Birliyi ilə təxminən 1993-1994-cü illərdən əməkdaşlıq edirik. Ancaq 1996-cı ildə Avropa Birliyi ilə tərəfdaşlıq haqqında saziş imzalanandan sonra bu əməkdaşlıq daha da sürətlə inkişaf edir. Avropa Birliyi yarandığı dövrdən indiyə qədər çox işlər görüb və dünya birliyinə çox gözəl töhfələr veribdir. Biz bununla əlaqədar sizin Azərbaycana səfərinizi çox əhəmiyyətli hesab edirik. Güman edirəm ki, siz bu səfəriniz vaxtı və bundan sonra da Azərbaycana daha da çox diqqət yetirəcəksiniz.

***Marqarita Boniver:*** Cənab prezident. Çox sağ olun ki, məni nümayəndə heyəti ilə birlikdə qəbul edirsiniz. Bu, həqiqətən bizim üçün çox xoş olan bir görüşdür. Sizinlə bundan əvvəlki görüşdən xoş xatirələri hələ də yaddaşımda saxlayıram. Mənim üçün böyük başucalığıdır ki, nümayəndə heyətinə rəhbərlik edirəm. Çünki nümayəndə heyətimizdə görkəmli adamlar təmsil olunmuşlar. Məndən sağ tərəfdə Avropa Birliyinin Cənubi Qafqaz ölkələri üzrə xüsusi nümayəndəsi təyin olunmuş cənab Heyki Talvitye əyləşmişdir.

***Heydər Əliyev:*** O, keçmişdə də bizimlə işləyibdir.

***Marqarita Boniver:*** Bəli, indi onu Cənubi Qafqaz ölkələri üzrə səfir simasında görürsünüz.

***Heydər Əliyev:*** Çox gözəl, təbrik edirəm.

***Heyki Talvitye:*** Cənab prezident, çox sağ olun.

***Marqarita Boniver:*** Məndən sol tərəfdə isə Avropa Komissiyasının Xarici Əlaqələr üzrə Baş Direktorluğunun müavini cənab Maykl Leq və Irlandiya XİN-in Şərqi Avropa, ATƏT və Avropa Şurası İdarəsinin rəisi xanım Barbara Cons əyləşmişdir. Cənab Ştefan Lehne Avropa Birliyinin Şura Katibliyinin MDB və Qərbi Balkan məsələləri üzrə direktoru, cənab Maykl Svan isə Avropa Birliyinin Şura Katibliyinin Cənubi Qafqaz və Mərkəzi Asiya məsələləri üzrə inzibatçısıdır.

Cənab prezident, bizim bu dəfəki gəlişimizin məqsədi Sizə belə bir siyasi məlumatı çatdırmaqdır ki, biz Avropa Birliyi olaraq Sizin təsisatlarla bütün mümkün sahələrdə

işləməyə hazırıq. Biz bütün mümkün yollarla ölkənizin inkişaf etməsinə yardımçı olacağıq.

***Heydər Əliyev:*** Siz xanım Marqarita Kostanı heç təqdim etmədiniz.

***Marqarita Boniver:*** Cənab prezident, bilirəm ki, Siz onu yaxşı tanıyırsınız. Bizim üçün böyük başucalığıdır və biz çox fəxr edirik ki, Bakıda belə bir səfirimiz vardır.

***Heydər Əliyev:*** O, sonra inciyər ki, siz onun adını çəkmədiniz. Buyurun.

***Marqarita Boniver:*** Dediyim kimi, bizim əsas məqsədimiz yardımçı olmaqdır. Biz iqtisadi və siyasi islahatlar sahəsində Sizin ölkəyə yardımçı olmaq istəyirik. Siz siyasi və iqtisadi islahatları uğurla həyata keçirirsiniz. Ümumiyyətlə, biz demokratikləşmə prosesinə yardımçı olmaq istəyirik. İnsan haqlarının qorunması, qanunun aliliyinin təmin olunması sahələrində bütün mümkün yollarla Sizə kömək etmək istəyirik.

Bundan başqa, bizim çatdıracağımız bir neçə sözümüz də vardır. Həm Azərbaycanda, həm də Azərbaycandan sonra səfər edəcəyimiz Gürcüstanda və Ermənistanda da bu sözləri təkrarlayacağıq. Biz Avropa Birliyi olaraq istəyirik ki, regional münaqişələr yalnız sülh yolu ilə həll olunsun. İstəyirik ki, seçkilər burada demokratik əsaslarla keçirilsin.

***Heydər Əliyev:*** Siz buna tamamilə əmin ola bilərsiniz. Baxmayaraq ki, bizim torpaqlarımızın 20 faizi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır və biz 1994-cü ilin may ayında atəşkəs haqqında saziş imzalamışıq və indiyədək bu sazişə sadiqik.

İndi Azərbaycanda müxtəlif fikirlər var. Bir çoxları tələb edirlər ki, torpaqlarımızı müharibə, hərb yolu ilə geri alaq. Bu, təbiidir. Çünki 9 ildir ki, atəşkəs haqqında saziş bağlanıbdır. Ancaq məsələ həll olunmayıbdır. Müsbət cəhət odur ki, Ermənistan da, Azərbaycan da bu sazişi saxlayırıq, qoruyuruq və o sazişin pozulmasına yol vermirik. Ancaq insanlar dözə bilmirlər. Çünki yerlərindən-yurdlarından olublar, çadırlarda yaşayırlar, vətənlərini görmək istəyirlər, onlar çox çətin maddi və başqa şəraitlərdə yaşayırlar. Ona görə onların bu cür fikirlərinin ortaya çıxması təbiidir.

Ancaq mən çox məmnunam ki, hətta qaçqınlar da, bizim ölkədə çox əziyyət çəkən insanlar təbəqəsi də mənim siyasətimi qəbul edirlər, mənim siyasətimi anlayırlar və atəşkəs sazişini qoruyub saxlayırlar. Biz belə düşünürük ki, Avropa Birliyi gərək bu məsələyə daha da ciddi yanaşsın və öz imkanlarından istifadə edərək Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunmasında bizə yardım etsin.

Başqa məsələlərdə siz arxayın ola bilərsiniz. Azərbaycanda demokratiya qurulub, hökm sürür. Biz bazar iqtisadiyyatı yolu ilə gedirik. Çox böyük islahatlar həyata keçirmişik və onların nəticəsi olaraq bizim iqtisadi inkişafımız, insan haqlarının qorunması, söz azadlığı, mətbuat azadlığı - bunlar tamamilə təmin olunub. Bir sözlə, Azərbaycan demokratik ölkədir. Ancaq bu demokratik ölkənin hələ çox problemləri var.

Biz onları da ardıcıl surətdə həll edirik. Biz çox sevinirik ki, bu illərdə - Azərbaycanda çox ağır proseslər getdiyi bir dövrdə iqtisadiyyatımızı ardıcıl surətdə inkişaf etdirmişik. Bizim iqtisadiyyatımız bu gün inkişaf edir və əgər MDB-nin başqa respublikaları ilə müqayisə etsəniz, görərsiniz ki, biz irəlidəyik.

Qarşıda seçkilər var. Azərbaycanda prezident seçkiləri olacaqdır. Siz əmin ola bilərsiniz ki, bu seçkilər tam şəffaflıq şəraitində, ədalət prinsipi əsasında, demokratik prinsipləri qoruyaraq keçiriləcəkdir və biz bu seçkilərin nəticəsi ilə Azərbaycanda demokratiyanın yüksəlməsini bir daha nümayiş etdirəcəyik. İndi bizdə, Azərbaycanda ictimai-siyasi vəziyyət tam sabitdir. Mən son günlərdə büdcədən maliyyələşən bütün təşkilatların işçilərinin əmək haqlarını 50 faiz artırmışam. Keçirilən sorğular onu göstərir ki, xalqın tam əksəriyyəti Azərbaycan iqtidarını dəstəkləyir və şübhə yoxdur ki, bu iqtidarın seçilməsinə də səs verəcəklər.

Mən başqa məsələlərə toxunmaq istəmirəm. Çünki mən bilirəm, siz bizim vəzifəli şəxslərin hamısı ilə görüşmüsünüz. Xüsusilə Baş nazir Rasizadə ilə görüşmüsünüz. O, sizin görüşünüzü, söhbətinizi mənə söylədi. Güman edirəm ki, siz burada özünüz üçün lazımi təəssürat əldə edə bilmisiniz.

***Marqarita Boniver:*** Cənab prezident, çox sağ olun. Həqiqətən çox düz deyirsiniz. Bütün gün ərzində gündəlikdə olan məsələləri Sizin rəsmilərlə müzakirə etdik. Lap çətin məsələlərdən ən sadə məsələlərə qədər hamısına toxunduq. Mən nümayəndə heyətinin adından desəm yanılmaram, ümumiyyətlə, biz keçirdiyimiz görüşlərdən, burada aldığımız təəssüratlardan tamamilə məmnunuq. Elə bilirəm ki, bu yüksək əhval-ruhiyyə ilə regionun digər ölkələrinə də səfərə çıxa bilərik.

***Heydər Əliyev:*** Çox gözəl.

***Marqarita Boniver:*** Bundan sonra Avropa Birliyinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Heyki Talvitye bu regiona tez-tez səfərlərə çıxacaqdır. Düşünürəm ki, ona tapşırılmış mandatı o, uğurla həyata keçirəcəkdir.

***Heydər Əliyev:*** Mən də belə düşünürəm.

***Marqarita Boniver:*** Cənab prezident, icazə versəydiniz, Sizinlə sağollaşmazdan əvvəl mən bir məsələyə də toxunardım. Bu da genişlənmiş Avropa haqqındadır. Ümidvar olduğumu bildirmək istəyirəm ki, ölkələr arasında ümumi sərhədin olması heç də lazım deyildir. İnsanları birləşdirən onların sülhü sevməsi və demokratiyaya yaxınlaşmasıdır. Çox sağ olun.

***Heydər Əliyev:*** Elədir. Genişlənən Avropanı biz dəstəkləmişik, bu gün də dəstəkləyirik. Sağ olun.

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa Birliyinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsini qəbul etmişdir

22 mart 2004-cü il

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 22-də Prezident sarayında Avropa Birliyinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Heyki Talvityenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları səmimiyyətlə salamlayan dövlətimizin başçısı İlham Əliyev onlarla bir neçə dəfə keçirilən görüşlərdə mühüm məsələləri müzakirə etdiklərini xatırlatdı və Avropa Birliyi ilə Azərbaycan arasında əməkdaşlığın dərinləşməsindən və inkişaf etməsindən məmnunluğunu bildirdi. O dedi ki, Avropa strukturlarına inteqrasiya siyasəti bizim strateji seçimimizdir və Azərbaycan bu siyasətə sadiqdir. Son illər ərzində Avropa Birliyi ilə Azərbaycanın həyata keçirdikləri və gələcəkdə reallaşdıracaqları birgə proqramlar deməyə əsas verir ki, biz bu istiqamətdə bir-birimizə daha da yaxınlaşacağıq.

Prezident İlham Əliyev bir neçə gün əvvəl Bratislavada keçirilmiş konfransda Azərbaycanın mövqeyinin bir daha təsdiqini tapdığını, tədbir zamanı keçirdiyi görüşləri, o cümlədən Avropa Birliyinin komissarı Günter Verhögen ilə görüşünü müsbət qiymətləndirdi.

Son zamanlar Avropa Birliyinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə böyük diqqət göstərdiyini nəzərə çatdıran respublikamızın rəhbəri söylədi ki, bu, bizi çox sevindirir. Bir halda ki, Cənubi Qafqazda yerləşən ölkələr Avropa üçün yeni qonşulardır, əlbəttə, Avropa Birliyinin bu məsələ ilə ciddi məşğul olması təqdirəlayiq haldır. Bu istiqamətdə artıq atılan ilk addımlar ümidvericidir, biz bunları dəstəkləyirik və çox istərdik ki, Avropa Birliyi bu məsələ ilə daha da yaxından məşğul olsun.

Ermənistan silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan çıxmaq istəmədiyini və beləliklə, münaqişənin həllinə mane olduğunu vurğulayan Prezident İlham Əliyev dedi ki, Azərbaycan bu münaqişənin həllini yalnız və yalnız beynəlxalq hüquq normalarına əməl olunmasında görür və ümid edir ki, dünya ictimaiyyəti məsələyə məhz bu nöqteyi-nəzərdən yanaşacaqdır. Düzdür, artıq hiss olunur ki, Ermənistanda da bunu etiraf etməyə başlayıblar və Bratislava konfransında Ermənistan tərəfindən səslənən bəzi fikirlər bunu təsdiqləyir. Özünə məxsus olmayan torpaqlar gərək qaytarılsın. Bu, zamanın tələbidir.

Biz XXI əsrdə yaşayırıq və əlbəttə, bütün beynəlxalq hüquq normaları, dövlətlər, xalqlar arasında mövcud olan münasibətlər gərək məhz bu müstəvidə - beynəlxalq hüquq normalarına uyğun şəkildə öz həllini tapsın. Mən ümid edirəm ki, bundan


www.aliyevheritage.org

sonra da birgə səylərimiz səmərəli olacaq və bizə kömək edəcək ki, münaqişə tezliklə öz həllini tapsın. Əlbəttə, bizim aramızda mövcud olan digər məsələlər də böyük əhəmiyyət kəsb edir, dəfələrlə bu barədə fikir mübadiləmiz olubdur. Hesab edirəm ki, energetika sahəsində dialoqun başlanması çox vacibdir və biz də buna hazırıq.

Prezident İlham Əliyev xüsusi vurğuladı ki, bir neçə ildən sonra Azərbaycan Avropa istehlakçıları üçün çox mühüm ölkəyə çevriləcəkdir. Azərbaycanda hasil ediləcək qaz Avropaya göndəriləcək və bu baxımdan da enerji dialoqunun başlanması çox mühümdür. Müzakirələr üçün digər məsələlərin də olduğunu bildirən dövlətimizin başçısı bir daha Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsinə qayıdaraq dedi ki, bu münaqişə region üçün təhlükədir. Regional əməkdaşlığın, Cənubi Qafqaz ölkələrinin Avropaya daha sürətlə inteqrasiyasının qarşısını alır. Çünki bir ölkə digər ölkənin torpaqlarını işğal edib və özünün də etiraf etdiyi kimi, ona məxsus olmayan torpaqlardan çıxmaq istəmir. Gərək hər bir ölkə beynəlxalq hüquqları tanısın.

Ümid edirəm ki, beynəlxalq ictimaiyyət bu məsələ ilə əlaqədar öz ədalətli mövqeyini bildirəcək və bu münaqişə öz həllini tapacaqdır. Səmimi qəbula görə Azərbaycan Prezidentinə dərin minnətdarlığını bildirən cənab Heyki Talvitye paytaxtımızda Şəhidər xiyabanında olduğunu, Fəxri xiyabana gedərək, ölkəmizin ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etdiyini bildirdi və dedi ki, mən onu uzun müddətdir tanıyırdım. Xüsusilə 1995-1996-cı illərdən onunla görüşlərim olmuşdur və bunlar məndə daim dərin hisslər oyadıbdır. Onun əziz xatirəsi qəlbimdə daim qalacaqdır. Keçən il Minsk qrupunun həmsədrləri burada olarkən biz mərhum Prezidentlə görüşmüşdük. Hesab edirəm ki, bu böyük şəxsiyyətin itkisini biz heç zaman unuda bilməyəcəyik. O, Prezident İlham Əliyev tərəfindən təsdiq olunmuş sosial-iqtisadi inkişaf proqramının Avropada böyük əks-səda doğurduğunu, Avropa strukturlarının bununla yaxından maraqlandığını və elə bu məqsədlə Azərbaycana indiki səfəri zamanı Şəkiyə səfər etdiyini, orada yerli hakimiyyət orqanlarının həmin proqramı necə həyata keçirməsi ilə yaxından tanış olduğunu nəzərə çarpdırdı. Heyki Talvitye dedi ki, Novruz bayramı zamanı Şəkidəki Olimpiya İdman Kompleksinə də baş çəkdik. Biz bilirik ki, kompleks Sizin birbaşa iştirakınız və təşəbbüsünüzlə tikilmişdir.

Xoşagələn haldır ki, indi gənclər idmanla məşğul olurlar və özlərini ölkənin gələcəyinə həsr edirlər. Qonaq Azərbaycanla Avropa Birliyi arasındakı münasibətlərə toxunaraq, Prezident İlham Əliyevin Bratislavada Avropa Birliyinin komissarı ilə görüşünün çox böyük əhəmiyyət daşıdığını vurğuladı. O dedi ki, gələcəkdə bu görüşlərin sayı daha da artmalıdır və görüşlərin Brüsseldə, yaxud Bakıda keçirilməsindən asılı olmayaraq, Azərbaycanın Avropanın qonşuları sırasına daxil olması bir qədər də sürətlənəcəkdir. Ermənistan-Azərbaycan, Dağlıq

Qarabağ münaqişəsinin həlli məsələsindən danışan cənab Heyki Talvitye dedi ki, mənim mandatıma bu işdə həm Azərbaycana və Ermənistana, həm də Minsk qrupuna yardımçı olmaq daxildir və bu prosesdə iştirak edəcəyəm. Sizə deyirəm ki, mən ehtiyatlı olacağam, amma passiv olmayacağam. Düşünürəm ki, Avropa Birliyi bu vasitə ilə məsələnin həllində rol oynaya bilər və bu, müsbət rol olacaqdır.

Qəbulda Azərbaycanın Avropa Birliyi yanında nümayəndəliyinin başçısı səfir Arif Məmmədov, Almaniyanın Bakıdakı səfiri Klaus Qrevlix və digər rəsmi şəxslər iştirak edirdilər.

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa Birliyi Şurasının Baş katibi Xavyer Solana ilə görüşü

18 may 2004-cü il

Azərbaycan Prezidenti İlham Əliyev mayın 18-də Brüsseldə Avropa Birliyinin iqamətgahına gəldi. Binada Azərbaycan Respublikasının dövlət bayrağı asılmışdı.

AB Şurasının baş katibi, AB-nin ümumi xarici və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Xavyer Solana Azərbaycan Prezidenti İlham Əliyevi binanın önündə böyük hörmət və ehtiramla qarşıladı.

Sonra Avropa Birliyinin iqamətgahında "Avropa Birliyinə yeni 10 ölkənin qoşulmasını nəzərdə tutan Avropa Birliyi ilə Azərbaycan arasında tərəfdaşlıq və əməkdaşlıq sazişinə protokol"un imzalanma mərasimi oldu. Sənədi AB tərəfindən İrlandiyanın AB yanında daimi nümayəndəsi xanım Ann Anderson və Avropa Komissiyasının xarici əlaqələr üzrə baş direktorunun müavini Maykl Li, Azərbaycan tərəfindən ölkəmizin AB yanında daimi nümayəndəliyinin başçısı səfir Arif Məmmədov imzaladılar.

Sənədin imzalanmasından sonra Avropa Birliyinin iqamətgahında Azərbaycan Prezidenti İlham Əliyev ilə AB Şurasının Baş katibi Xavyer Solana arasında görüş oldu.

Prezident İlham Əliyev ölkəmizdə gedən proseslərdən, əldə edilmiş nailiyyətlərdən danışdı, Azərbaycanda sabitliyin tam bərqərar olduğunu, sosial-iqtisadi inkişafın sürətləndiyini bildirdi. Dövlət başçısı seçildiyi vaxtdan ötən yeddi ay ərzində üçüncü əfv fərmanı imzaladığını xatırladan Prezident İlham Əliyev cəmiyyətdə dialoqun tərəfdarı olduğunu vurğuladı.

Azərbaycanda gedən proseslərdən məmnunluğunu söyləyən cənab Solana Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin tikintisi ilə də maraqlandı. Prezident İlham Əliyev bu barədə ətraflı məlumat verərək bildirdi ki, hazırda inşaat işləri uğurla davam edir. Dövlətimizin başçısı Avropa Birliyinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndə təyin etməsindən məmnunluğunu bildirdi.

Söhbət zamanı regional və beynəlxalq məsələlər, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli barədə ətraflı fikir mübadiləsi aparıldı.

Görüşdən sonra mətbuat nümayəndələri üçün brifinq keçirildi.

Cənab Xavyer Solana və Prezident İlham Əliyev qısa bəyanatlarla çıxış etdilər.

***Xavyer Solana:*** Hər vaxtınız xeyir. İcazə verin, görüşümüz haqqında qısaca deyim. Mənim üçün doğrudan da, burada, Brüsseldə ilk dəfə olaraq, Prezident İlham Əliyevi qəbul etmək, həqiqətən, çox xoş oldu. Onunla bir müddət əvvəl, o, hələ digər məsul vəzifəni icra edərkən görüşmək imkanım olmuşdur. Mən siyasi həyatım

boyu bir neçə dəfə Azərbaycana səfər etmişəm. Ölkəni, Bakını görə bilmişəm və o gözəl şəhərə, o füsunkar ölkəyə səfərlərimi ürəyimə çox yaxın ülvi xatirələrdə saxlayıram. Bu gün Prezidentlə Avropa Birliyi və Azərbaycan arasındakı münasibətləri təhlil etdik. Eyni zamanda, son müddət ərzində baş verən inkişafa daha çox təsir etmək, münasibətləri daha da irəli aparmaq yollarını nəzərdən keçirdik. Ölkədəki müsbət iqtisadi proseslər bizi valeh edir, mən energetika layihələrini nəzərdə tuturam. Möhkəm ikitərəfli münasibətləri davam etdirmək təkcə siyasi baxımdan deyil, iqtisadi baxımdan da bizim üçün həmişə maraqlı olacaqdır. Beləliklə, mən istərdim ki, Prezidentə bu səfərə görə minnətdarlığımı bildirim və Sizə, cənab Prezident, həm siyasi, həm şəxsi həyatınızda ən xoş arzularımı yetirirəm. Ölkənizə xoşbəxtlik arzulayıram.

***İlham Əliyev:*** Çox sağ olun, cənab Baş katib. Bəli, biz Bakıda bir neçə dəfə görüşmüşük. Cənab Baş katib ölkəmizi bir neçə dəfə ziyarət edib və məmnunuq ki, Azərbaycanda gedən proseslər barədə xoş təəssüratı var. Bu gün burada, Avropa Birliyində Prezident kimi Baş katiblə görüşməyim mənim üçün böyük şərəfdir.

Bugünkü günüm çox səmərəli oldu. Səhər lap tezdən keçirdiyim bütün görüşlər, cənab baş katiblə bu görüş də daxil olmaqla, bir daha göstərdi ki, bizim Avropa strukturlarına inteqrasiya siyasətimiz uğurla davam edir. Bu, bizim strateji seçimimizdir. Azərbaycan gələcəyini Avropa ailəsində görür. Əlbəttə ki, biz əlimizdən gələni edəcəyik ki, Avropanın bütün meyarlarına cavab verək.

Bizim müxtəlif sahələrdə - həm nəqliyyatda, həm energetika sahəsində, ümumiyyətlə, iqtisadiyyatda əməkdaşlığımız olduqca uğurludur və biz bu münasibətləri qətiyyətlə davam etdirmək əzmindəyik. Biz Avropa Birliyinin ölkəmizə, ümumiyyətlə, bütün Cənubi Qafqaza yetirdiyi diqqətə çox hörmətlə yanaşırıq. Avropa Birliyinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsinin təyin olunması və Cənubi Qafqaz ölkələri ilə yeni qonşuluq proqramı göstərir ki, bizim bölgə yaddan çıxmayıbdır, maraq dairəsindədir. Bölgəmizdəki ölkələrlə Avropa Birliyinin münasibətləri olduqca böyük əhəmiyyət kəsb edir. Mən Azərbaycanın adından çıxış edirəm və şübhə olmasın ki, bizim ölkəmiz bu istiqamətdə siyasətini davam etdirəcəkdir. Daha möhkəm münasibətlərə, daha yüksək səviyyəli əməkdaşlığa və daha sıx inteqrasiyaya çalışacaqdır.

Mən qonaqpərvərliyə görə cənab Solanaya şəxsən minnətdarlığımı bildirmək istəyirəm. Çox gözəl söhbətimiz oldu. Bir çox məsələləri əhatə etdik. Əminəm ki, gələcək görüşlərimiz, Bakıda keçirəcəyimiz görüşlər də bu görüş kimi səmərəli olacaqdır. Sağ olun.

***Sual:*** Dağlıq Qarabağ mövzusunu müzakirə etdinizmi? Belə görünür ki, ATƏT məsələnin həlli ilə bağlı uğur əldə edə bilmir. Avropa Birliyi ATƏT-dən fərqli addım ata bilərmi?

İkinci sual. Azərbaycanın uğrunda çalışdığı yeni qonşuluq proqramının Dağlıq

Qarabağ məsələsinə təsiri necə ola bilər?

***Xavyer Solana:*** Əlbəttə, biz Dağlıq Qarabağ mövzusunu müzakirə etdik. Bu, bizi uzun müddətdir narahat edən mövzudur. Doğrudur ki, bu məsələdə tərəqqinin əldə olunması nəzərə çarpmır. Biz istərdik ki, danışıqların irəliyə getməsini görək. Ümid edirik ki, son vaxtlar keçirilən görüşlər, təkcə prezidentlərin görüşləri yox, xarici işlər nazirlərinin də ünsiyyətləri prosesə töhfə verəcək, bu prosesi yerindən tərpətməyə başlayacaqdır. Prezidentə bunu söz vermişəm, əlimizdən nə gəlirsə, çalışacağıq edək.

Doğrudur ki, ölkələrə təklif etdiyimiz yeni qonşuluq layihəsi Avropa Birliyinin prosesə qatıla bilməsinə yardım edəcəkdir. Amma o da doğrudur ki, proseslə ATƏT-in Minsk qrupu məşğul olur. Biz kömək edə, biz əməkdaşlıq edə bilərik. Amma bu işlə birbaşa Minsk qrupu məşğuldur.

***Sual:*** Cənab Prezident və cənab Solana, Avropa Birliyi ilə Azərbaycan arasındakı siyasi və iqtisadi münasibətləri qənaətbəxş hesab edirsinizmi?

İkinci sualım. Cənab Solana, üç Qafqaz ölkəsindən hansı Sizə daha yaxındır?

***Xavyer Solana:*** Siz istəyirsiniz ki, mən üçündən birini seçim. Bilirsiniz ki, mən çox qəliz siyasətçiyəm, bunu etməyəcəyəm.

İcazə verin, deyim ki, Azərbaycanla münasibətlərimiz çox yaxşıdır. Yaxın gələcəkdə Azərbaycanın iqtisadi perspektivi çox-çox ümidvericidir, çox parlaqdır, olduqca gözəldir. Ona görə də əlaqələr artacaqdır. Buna şübhə ola bilməz. Ölkənin irəliləyişi, enerji ehtiyatlarının nəzərə alınması ilə nəqliyyat sistemlərinin inkişafı, infrastrukturun şaxələnməsi, Türkiyə, Yunanıstan vasitəsilə Avropa ölkələrinə daşımaların həcminin artması ümidvericidir. Ona görə də münasibətlərdə inkişaf olacaqdır. Bu gün yaxşıdır. Amma daha vacibi sabah bundan da yaxşı olmasıdır.

Əvvəl dediyim kimi, ikinci sualınıza cavab verməyəcəyəm.

***İlham Əliyev:*** Mən istərdim əlavə edim ki, Avropa Birliyi ilə münasibətlərimiz, iqtisadi münasibətlərimiz uğurla inkişaf edir. Təkcə 2003-cü ildə ticarət əlaqələrimiz 40 faiz artmışdır. Bu, yaxşı dinamikanın göstəricisidir. Azərbaycan iqtisadiyyatı artan ölkədir. İqtisadi potensialımız artır. Əlbəttə, bunun nəzərə alınması ilə gələcəkdə daha geniş, daha fəal iqtisadi əməkdaşlıqdan danışmaq olar.

Mən həm də istərdim ki, birinci sualla - Dağlıq Qarabağla bağlı şərhimi verim. Biz hesab edirik ki, Avropa Birliyi bu yöndə çox vacib rol oynayır. Əlbəttə ki, məsələ ilə bağlı ATƏT-in Minsk qrupunun mandatı var. Biz bu mandatı əvəz etmək fikrində deyilik. Amma eyni zamanda, Azərbaycan qəti inanır ki, daha geniş beynəlxalq diqqət, Avropa strukturlarının diqqəti və Avropa ictimaiyyətinin rəyi münaqişənin sülh yolu ilə və tezliklə həll olunması istiqamətində kömək etmiş olar.

Fürsətdən istifadə edərək, bu problemlə bağlı fəal iştirakına görə Avropa Birliyinin rəhbərliyinə bir daha minnətdarlığımı bildirirəm. Çox sağ olun.

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa Komissiyasının sədri Romano Prodi ilə görüşü

18 may 2004-cü il

Belçika Krallığında işgüzar səfərdə olan Azərbaycan Prezidenti İlham Əliyev mayın 18-də Brüsseldə Avropa Komissiyasının sədri Romano Prodi ilə görüşmüşdür.

Cənab Romano Prodi Azərbaycan Prezidenti İlham Əliyevi binanın önündə böyük səmimiyyətlə qarşıladı, onunla ilk dəfə görüşmək imkanından məmnun olduğunu vurğuladı. Onlar Azərbaycan Respublikasının və Avropa Komissiyasının bayraqları önündə xatirə şəkli çəkdirdilər.

Söhbət zamanı, əsasən, "Avropa qonşuluq siyasəti" proqramı və Azərbaycanın ona cəlb edilməsi ətrafında fikir mübadiləsi oldu. Romano Prodi dedi ki, bu gündən etibarən Avropa Komissiyası ilə Azərbaycan arasında geniş əməkdaşlıq başlayır və biz bu ölkənin Dünya Ticarət Təşkilatına üzv qəbul olunmasını, Azərbaycanda aparılan iqtisadi islahatları dəstəkləyirik. O, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunaraq, bu problemin hələ də həll olunmamasından Avropa Komissiyasının narahatlığını söylədi və bildirdi ki, biz münaqişənin ədalətlə aradan qaldırılması üçün Minsk qrupunun fəaliyyətinin nəticələr verməsini istəyirik.

Azərbaycan Prezidenti İlham Əliyev Avropaya inteqrasiyanın ölkəmizin xarici siyasətinin əsas istiqamətlərindən olduğunu xatırlatdı və bu sahədə görülən məqsədyönlü tədbirlərdən danışdı. Dövlətimizin başçısı bildirdi ki, Avropa Birliyi Cənubi Qafqazda öz nümayəndəsini təyin etmişdir. Həmin nümayəndə Azərbaycanın "Avropa qonşuluq siyasəti" proqramına qoşulmasını tövsiyə edib və biz bunu yüksək qiymətləndiririk. Prezident İlham Əliyev Azərbaycanda aparılan sosial-iqtisadi islahatlar və onların uğurlu nəticələri barədə də məlumat verdi. Azərbaycan rəhbəri Dağlıq Qarabağ problemindən söhbət açaraq dedi ki, biz öz ərazi bütövlüyümüzü bərpa etmək əzmindəyik. Məsələnin ədalətli həllində Minsk qrupu daha fəal olmalıdır, Azərbaycan bu istiqamətdə Avropa Birliyinin, Avropa Şurasının və digər təşkilatların kömək göstərməsini arzulayır. Avropanın bir hissəsi olan, "Avropada qonşuluq siyasəti"nə qoşulan Azərbaycana qarşı Ermənistanın təcavüzünə dözmək olmaz.

Sonra görüş iştirakçıları mətbuat nümayəndələri üçün brifinq keçirdilər. Cənab Romano Prodi və Prezident İlham Əliyev əvvəlcə jurnalistlər qarşısında çıxış etdilər.

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa Komissiyası sədrinin müavini Loyola De Palasio ilə görüşü

18 may 2004-cü il

Azərbaycan Prezidenti İlham Əliyev mayın 18-də Brüsseldə Avropa Komissiyası sədrinin müavini, energetika, nəqliyyat və Avropa Parlamenti ilə əlaqələr üzrə üzvü xanım Loyola De Palasio ilə görüşmüşdür.

Prezident İlham Əliyev ilə görüşmək imkanından məmnun olduğunu bildirən xanım Loyola De Palasio son illərdə Azərbaycanda həyata keçirilən mühüm işləri vurğuladı, bunların Avropa Komissiyası tərəfindən yüksək qiymətləndirildiyini, dövlətimizin başçısının demokratiyanın inkişafı və insan hüquqlarının qorunması sahəsindəki fəaliyyətinin faydalı olacağını söylədi.

Görüşdə TRACEKA proqramının, Xəzərin enerji ehtiyatlarının işlənilməsinə dair imzalanmış müqavilələrin həyata keçirilməsi, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin tikintisi barədə söhbət getdi. “Şahdəniz” yatağından çıxarılacaq qazın Avropaya nəqli məsələsi diqqət mərkəzində oldu. Xanım Loyola De Palasio dedi ki, biz bu layihəyə böyük əhəmiyyət veririk və Avropa Komissiyası Azərbaycan qazının Türkiyə və Yunanıstan vasitəsilə Avropaya çatdırılması üçün öz köməyini əsirgəməyəcəkdir. O, bunu da bildirdi ki, Avropa Komissiyası “Avropada qonşuluq siyasəti” strateji sənədini bu il mayın 12-də hazırlamış və Avropa Birliyinə göndərmişdir. İyunun sonunda həmin sənəd Avropa Parlamentində müzakirə olunacaqdır.

Prezident İlham Əliyev ölkəmizdə aparılan iqtisadi islahatların müsbət nəticələrindən, əsas ixrac boru kəmərinin tikintisinin gedişindən danışdı, Azərbaycanın TRACEKA layihəsinə böyük əhəmiyyət verdiyini vurğuladı. Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan “Şahdəniz” yatağından hasil ediləcək qazın tezliklə Avropa bazarlarına çatdırılmasında maraqlıdır. Azərbaycan Prezidenti dedi ki, ölkəmiz Avropa strukturlarına inteqrasiyanı öz siyasətinin mühüm istiqamətlərindən biri hesab edir.

Azərbaycan Prezidenti İlham Əliyev Avropa Komissiyası sədrinin müavini ilə görüşdən sonra Dünya Gömrük Təşkilatının (DGT) iqamətgahı qarşısında “Dədə Qorqud” abidəsinin təntənəli açılış mərasimində iştirak etdi.

Abidənin açılışından sonra Dünya Gömrük Təşkilatının binasında DGT ilə Azərbaycan Respublikasının Dövlət Gömrük Təşkilatı arasında niyyət protokolunun imzalanma mərasimi oldu.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak edirdi.

Sənədi DGT-nin baş katibi Mişel Dane və Azərbaycan Dövlət Gömrük

Komitəsinin sədri Kəmaləddin Heydərov imzaladılar.

Mayın 18-də Azərbaycan Prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda - "Conrad" mehmanxanasında Küveytin xarici işlər naziri şeyx Məhəmməd əs-Sabahı qəbul etdi.

Həmin gün Azərbaycan Prezidenti İlham Əliyev Belçika Krallığının Baş naziri Gi Verhofstadt ilə görüşdü.

Görüş başa çatdıqdan sonra Prezident İlham Əliyev və Baş nazir Gi Verhofstadt Azərbaycan Respublikası ilə Belçika Krallığı arasında üç sənəd - ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında konvensiya, sərmayələrin qarşılıqlı qorunması və təşviqi haqqında saziş və gömrük məsələləri üzrə qarşılıqlı inzibati yardım göstərilməsi haqqında ikitərəfli saziş imzaladılar.

Azərbaycan Prezidenti İlham Əliyev sonra Avropa Birliyinin iqamətgahında AB Şurasının Baş katibi, AB-nin ümumi xarici və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Xavyer Solana ilə görüşdü.

Görüşdən sonra mətbuat nümayəndələri üçün brifinq keçirildi.

Mayın 18-də Avropa Birliyinin iqamətgahında "Avropa Birliyinə yeni 10 ölkənin qoşulmasını nəzərdə tutan Avropa Birliyi ilə Azərbaycan arasında tərəfdaşlıq və əməkdaşlıq sazişinə protokol"un imzalanma mərasimi oldu. Prezident İlham Əliyev mərasimdə iştirak edirdi. Sənədi AB tərəfindən Finlandiyanın AB yanında daimi nümayəndəsi xanım Ann Anderson və Avropa Komissiyasının xarici əlaqələr üzrə baş direktorunun müavini Maykl Li, Azərbaycan tərəfindən ölkəmizin AB yanında daimi nümayəndəliyinin başçısı səfir Arif Məmmədov imzaladılar.

Mayın 18-də Azərbaycan Prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda - "Conrad" mehmanxanasında "Euronews" telekanalına müsahibə verdi. Prezident İlham Əliyev Brüsselə səfərinin ikinci gününün sonunda Türkiyə Baş nazirinin müavini, xarici işlər naziri Abdullah Gülü qəbul etdi.

Azərbaycan Prezidenti İlham Əliyevin Belçika Krallığına işgüzar səfəri davam edir.

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa Komissiyasının genişlənmə üzrə üzvü Günter Verhogen ilə görüşü

18 may 2004-cü il

Azərbaycan Prezidenti İlham Əliyev mayın 18-də Brüsseldə Avropa Komissiyasının genişlənmə üzrə üzvü Günter Verhogen ilə görüşmüşdür.

Cənab Günter Verhogen dövlətimizin başçısını Avropa Komissiyasının iqamətgahı önündə böyük hörmət və ehtiramla qarşıladı. Prezident İlham Əliyev və cənab Günter Verhogen binanın foyesində, Azərbaycan Respublikasının və Avropa Komissiyasının bayraqları önündə xatirə şəkli çəkdirdilər.

Sonra təkbətək görüş keçirildi. Söhbət zamanı Azərbaycan-Avropa Komissiyası əməkdaşlığı və onun perspektivlərinə dair müzakirələr aparıldı. Cənab Günter Verhogen bildirdi ki, Avropa Komissiyası özünün yeni proqramı olan "Avropa qonşuluq siyasəti"nə Azərbaycanı da cəlb etmək niyyətindədir və bu, Azərbaycanın iqtisadi və digər sahələrdə inkişafı üçün faydalı ola bilər.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına dair danışıqlar prosesinin gedişi, Cənubi Qafqaz regionunda vəziyyət və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi edildi.

Cənab Günter Verhogen dövlətimizin başçısı ilə görüşməkdən şərəf duyduğunu vurğuladı və Prezident Heydər Əliyevin Azərbaycanın inkişafı sahəsində göstərdiyi xidmətləri vaxtilə yaxından izlədiyini bildirdi.

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa Birliyinin nümayəndə heyətini qəbul etmişdir

7 iyul 2004-cü il

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 7-də Prezident sarayında Avropa Birliyinin genişlənmə məsələləri üzrə komissarı Yaneş Potoçnikin başçılığı ilə bu təşkilatın nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları səmimiyyətlə salamlayan Prezident İlham Əliyev Brüsseldə Yaneş Potoçnik ilə keçirdiyi görüşü və apardığı danışıqları məmnunluqla xatırladı. Azərbaycanın Avropa Birliyinin yeni qonşuluq siyasətinin bir hissəsi olduğunu vurğulayan dövlətimizin başçısı, bu təşkilatın ölkəmizə və regiona olan marağını xüsusilə qeyd etdi. O, əmin olduğunu vurğuladı ki, ölkəmizin bu proqram çərçivəsində əməkdaşlığı daha uğurlu olacaqdır.

Prezident İlham Əliyev Azərbaycanın Avropa strukturlarına inteqrasiyasının siyasətimizin əsas istiqamətlərindən biri olduğunu vurğulayaraq, bu siyasətin gələcəkdə də davam edəcəyini söylədi.

Azərbaycan Prezidenti Avropa Birliyinə daxil olan ölkələrlə təkcə enerji sahəsində deyil, digər sahələrdə də işbirliyinin davam etdiriləcəyini bildirdi, enerji sahəsində əməkdaşlığa dair məsələlərin bu yaxınlarda Bakıda səfərdə olan Yunanıstanın Prezidenti və NATO sammiti zamanı Türkiyənin Prezidenti və Baş naziri ilə səmərəli şəkildə müzakirə olunduğunu diqqətə çatdırdı. Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan sürətlə inkişaf edən ölkədir və hazırda sənayenin bir çox sahələrində böyük uğurlar əldə edilmişdir.

Dövlətimizin başçısı görüşdə iştirak edən Avropa Birliyinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Heyki Talvitiyenin də fəaliyyətini yüksək qiymətləndirirdi, Yaneş Potoçnikə Azərbaycana ilk səfərində uğurlar dilədi.

Cənab Yaneş Potoçnik ölkəmizdə səmərəli görüşlər keçirdiyini bildirərək dedi ki, Avropa Birliyi Azərbaycanın potensialını yüksək qiymətləndirir. Avropa Birliyinin genişlənməsindən sonra baş verən proseslər barədə Prezident İlham Əliyevə məlumat verən qonaq Türkiyənin Avropa ailəsinə yaxınlaşması üçün məsləhətləşmələr aparıldığını da söylədi. Onun sözlərinə görə, Avropa Birliyinin genişlənməsi reallıqlarla hesablaşmağı və qonşularla siyasəti yeni əsaslarda qurmağı tələb edir. Hazırladıqları hesabatda Cənubi Qafqaz ölkələri, xüsusilə mühüm coğrafi-siyasi əhəmiyyətə malik olan Azərbaycanla əməkdaşlığın inkişaf etdirilməsinə geniş yer ayrılmışdır. Bu ilin sentyabr ayında Avropa Birliyi yeni qonşuluq siyasəti proqramı çərçivəsində əməkdaşlığa dair sənədlər paketini də müzakirə edəcəkdir. Bu sənədlərdə enerji sahəsində əməkdaşlıq məsələləri də öz əksini tapmışdır. Bundan başqa, terrorizmə qarşı mübarizə, yoxsulluğun azaldılması və Avropa Birliyinin

öz qonşuları ilə siyasətinin bir sıra ümumi cəhətləri də müzakirə olunacaqdır.

Görüşdə Azərbaycanla Avropa Birliyi arasında əməkdaşlığın perspektivlərinə dair ətraflı fikir mübadiləsi aparıldı.

Baş nazirin müavini Abid Şərifov, Azərbaycanın Avropa Birliyi yanında nümayəndəliyinin başçısı səfir Arif Məmmədov görüşdə iştirak edirdilər.


wap.aliyevheritage.org

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa Komissiyasının sədri Romano Prodinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

17 sentyabr 2004-cü il

Sentyabrın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Prezident sarayında Avropa Birliyi Komissiyasının sədri Romano Prodinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı İlham Əliyev cənab Romano Prodi ilə Belçikada keçirdiyi görüşü məmnunluqla xatırlatdı və həmin görüşün çox səmərəli olduğunu nəzərə çarpdırdı. Prezident İlham Əliyev dedi ki, Azərbaycan-Avropa Birliyi əlaqələri çox uğurla inkişaf edir, ölkəmiz bu əməkdaşlığın daha da inkişaf etdirilməsinə böyük əhəmiyyət verir. Dövlətimizin başçısı bildirdi ki, Avropa Birliyi ilə əlaqələr Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən birini təşkil edir və bu sahədə yeni-yeni uğurlar əldə olunur.

Avropa Birliyinin yeni qonşuluq siyasətinin böyük əhəmiyyət daşıdığını vurğulayan Prezident İlham Əliyev bu siyasətin Azərbaycan-Avropa Birliyi münasibətlərində çox önəmli istiqamətlərdən biri olduğunu nəzərə çatdırdı. Dövlətimizin başçısı Avropa Birliyinin Cənubi Qafqaz üzrə nümayəndəsinin təyin olunmasının əlaqələrimizin daha da inkişaf etdirilməsi işinə xidmət göstərdiyini vurğuladı.

Azərbaycan ilə Avropa Birliyi arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlığın uğurla inkişaf etdiyini bildirən Prezident İlham Əliyev bu əlaqələrin gələcəkdə daha da möhkəmlənəcəyinə əmin olduğunu nəzərə çatdırdı. Azərbaycanın Avropanın bir hissəsi olduğunu xatırladan dövlətimizin başçısı ölkəmizin Avropa strukturlarına inteqrasiyasının xarici siyasətimizin prioritetlərindən biri olduğunu bildirdi.

Azərbaycan ilə Avropa Birliyi arasında iqtisadi sahədə, xüsusilə energetika sahəsində çox uğurlu əməkdaşlıq həyata keçirildiyini bildirən Prezident İlham Əliyev siyasi sahədə dialoqun yüksək səviyyədə olduğunu vurğuladı.

Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, Romano Prodinin Azərbaycana səfəri əlaqələrimizin daha da inkişaf etməsi və möhkəmləndirilməsi işinə kömək göstərəcəkdir.

Səmimi qəbula və Avropa Birliyi ilə münasibətlərə dair söylədiyi fikirlərə görə Prezident İlham Əliyevə təşəkkür edən qonaq Azərbaycana səfərindən çox böyük məmnunluq duyduğunu vurğuladı. Siyasi, iqtisadi və digər sahələrdə əməkdaşlığın yeni qonşuluq siyasətinin tərkib hissələrindən biri olduğunu nəzərə çatdıran qonaq dedi ki, bu siyasətin həyata keçirilməsi Azərbaycan ilə Avropa Komissiyası

arasında əməkdaşlığın daha da gücləndirilməsi, qarşıda duran problemlərin həlli baxımından böyük əhəmiyyət daşıyır. Bu siyasətin həyata keçirilməsi istiqamətində Avropa Birliyi qarşısında mühüm vəzifələr durduğunu bildirən cənab Prodi yeni qonşuluq siyasətinə yanaşmada təmsil etdiyi təşkilatın ədalətli mövqe tutduğunu vurğuladı.

Qonaq Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə sülh yolu ilə həll edilməsinin yeni qonşuluq siyasətinin uğurla həyata keçirilməsi üçün vacib olduğunu söylədi.

Cənab Romano Prodi dedi ki, 500 milyon əhalinin yaşadığı geniş bir ərazini əhatə edən Avropa Birliyi bölgədə mühüm rol oynayan Azərbaycan ilə əməkdaşlığın genişləndirilməsinə böyük əhəmiyyət verir. O, əmin olduğunu söylədi ki, bu əlaqələr bundan sonra da durmadan inkişaf edəcəkdir.

Qəbulda Prezidentin İcra Aparatının xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov və Azərbaycanın Avropa Birliyi yanında nümayəndəliyinin başçısı Arif Məmmədov iştirak edirdilər.

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa Komissiyasının nəqliyyat və energetika üzrə Baş direktoru Fransua Lamurunun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

13 noyabr 2004-cü il

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də Prezident sarayında Avropa Komissiyasının nəqliyyat və energetika üzrə baş direktoru Fransua Lamurunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları səmimiyyətlə salamlayan dövlətimizin başçısı Avropa Komissiyasının nümayəndə heyəti ilə görüşdən məmnunluq duyduğunu bildirdi.

Prezident İlham Əliyev Avropa Komissiyasının təşəbbüsü ilə Azərbaycanda 11 dövlətin energetika nazirinin və 14 dövlətin nəqliyyat nazirinin iştirakı ilə iki konfransın keçirilməsinin çox böyük əhəmiyyət daşıdığını vurğuladı. Dövlətimizin başçısı qeyd etdi ki, bu tədbirlərdə müzakirə olunan məsələlər həm Azərbaycan, həm də region üçün xüsusi əhəmiyyət daşıyır.

Energetika və nəqliyyat sahələrinin Azərbaycanın gələcək iqtisadi inkişafı üçün əsas istiqamətlərdən biri olduğunu nəzərə çarpdıran Prezident İlham Əliyev dedi ki, bu sahələrdə ölkəmiz son illər böyük uğurlar əldə etmişdir. Dövlətimizin başçısı bildirdi ki, Azərbaycanda həyata keçirilən, böyük həcmdə xarici sərmayələrin cəlb edildiyi qlobal enerji layihələrinin, o cümlədən ixrac boru kəmərləri layihələrinin gerçəkləşməsi regional əməkdaşlıq baxımından yaxşı nümunə olmaqla bərabər, eyni zamanda, müxtəlif ölkələrin səyləri birləşdirilərkən regional əməkdaşlığın uğurlu nəticələr verdiyini göstərir.

Azərbaycanın bu sahədə əldə olunmuş uğurlarla fəxr etdiyini vurğulayan Prezident İlham Əliyev dedi ki, ölkəmizdə bu cür mühüm tədbirlərin həyata keçirilməsi həm gündəlikdə duran vacib iqtisadi məsələlərin geniş müzakirə edilməsi üçün imkan yaradır, həm də Azərbaycanda enerji və nəqliyyat infrastrukturunun daha da möhkəmləndirilməsi işinə xidmət edir.

Son illər Azərbaycanda nəqliyyat sahəsində, o cümlədən aviasiya, gəmiçilik, dəmir yolu və digər sahələrdə böyük inkişafa nail olunduğunu nəzərə çarpdıran dövlətimizin başçısı bildirdi ki, ölkəmiz üçün müasir tipli sərnişin təyyarələrinin, neft tankerlərinin alınması, İpək Yolu üzərindəki avtomobil magistralının yenidən qurulması və sair işlər Azərbaycanda dünya standartlarına uyğun nəqliyyat infrastrukturunun olması üçün yaxşı əsaslar yaradır.

Azərbaycan ərazisindən tranzit daşımalar üçün mühüm dəhliz kimi fəal surətdə istifadə olunduğunu vurğulayan Prezident İlham Əliyev bu baxımdan ölkəmizin Şərq-Qərb nəqliyyat dəhlizində əhəmiyyətinin gündən-günə artdığını nəzərə çarp-

dırdı. Avropa Birliyi ilə əlaqələrimizin sürətlə inkişaf etməsindən məmnunluqla söhbət açan dövlətimizin başçısı ölkəmizin bu təşkilatın yeni qonşuluq siyasətinin fəal iştirakçılarından birinə çevrildiyini bildirdi. Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, ölkəmizin bu siyasətdə fəal iştirakı Azərbaycanın Avropa Birliyi ilə əməkdaşlığı çərçivəsində yaxın zamanda yeni konkret layihələrin və proqramların gerçəkləşməsi işinə xidmət edəcəkdir.

Dövlətimizin başçısı bildirdi ki, Avropa Birliyinin Azərbaycana, xüsusilə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli və torpaqlarımızın işğaldan azad edilməsi məsələsinə diqqətinin artması çox müsbət haldır. Təşkilatın Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsinin təyin edilməsi bunu bir daha sübut edir.

Prezident İlham Əliyev dedi ki, Avropa strukturlarına, ümumiyyətlə, Avropa ailəsinə inteqrasiya Azərbaycanın xarici siyasətinin ən prioritet istiqamətlərindən biridir. Bizim ümumi inkişaf strategiyamız daim bu prinsiplərə əsaslanır. Çox məmnunam ki, ölkəmiz Avropa Komissiyasının təşəbbüsü ilə mühüm tədbirlərin keçirildiyi yer kimi seçilmişdir. Əminəm ki, bu tədbir uğurla başa çatacaq, Azərbaycanın Avropa Komissiyası ilə əməkdaşlığı bundan sonra da inkişaf edəcəkdir.

Səmimi qəbula və xoş sözlərə görə dövlətimizin başçısına minnətdarlığını bildirən Fransua Lamuru əvvəllər müxtəlif vəzifələrdə çalışarkən Prezident Heydər Əliyevlə keçirdiyi çox səmərəli görüşləri böyük məmnunluqla xatırladığını söylədi.

Prezident İlham Əliyevin Belçikaya səfəri zamanı Brüsseldə olmadığı üçün dövlətimizin başçısı ilə görüşə bilməməsindən təəssüfləndiyini bildirən qonaq dedi ki, Avropa Komissiyasının təşəbbüsü ilə Bakıda keçirilən tədbirlər öz mahiyyəti baxımından çox əhəmiyyətli hadisələrdir və bu cür tədbirlərin keçirilməsi Avropa Birliyinin Qafqazda və daha geniş məkanda regional əməkdaşlığı möhkəmləndirməsi işinə xidmət edir.

Azərbaycan ilə nəqliyyat və energetika sahəsində TRASEKA və İNOQEYT kimi mühüm proqramların həyata keçirildiyini nəzərə çarpdıran cənab Fransua Lamuru dedi ki, Avropa Birliyi regionun enerji daşıyıcılarının təhlükəsiz ixracında birbaşa maraqlıdır.

Enerji daşıyıcılarının Avropaya ixracının çoxşaxəliliyinin təmin edilməsi baxımından Avropa Birliyinin Azərbaycan ilə əməkdaşlığa xüsusi maraq göstərdiyini vurğulayan qonaq bildirdi ki, Avropa Birliyinin məqsədi regionla uzunmüddətli əməkdaşlığın həyata keçirilməsindən ibarətdir. Bu işdə isə əsas təminatın regionda sabitliyin təmin edilməsindən ibarət olduğunu nəzərə çarpdıran cənab Fransua Lamuru Ermənistan-Azərbaycan münaqişəsinin yaxın zamanlarda həll olunacağına böyük ümidlər bəslədiklərini söylədi.

Görüşdə Baş nazirin müavini Abid Şərifov iştirak edirdi.

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa Birliyinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Heyki Talvitiyenin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

9 fevral 2005-ci il

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 9-da Prezident sarayında Avropa Birliyinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Heyki Talvitiyenin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev Azərbaycanla Avropa Birliyi arasında əməkdaşlığın sürətlə inkişafından, ölkəmizin bu təşkilatın yeni qonşuluq siyasətində fəal iştirakından məmnunluq ifadə etmişdir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsinə toxunan Prezident İlham Əliyev qeyd etmişdir ki, Azərbaycanın bu münaqişənin həlli ilə bağlı mövqeyi yalnız və yalnız beynəlxalq hüquq normaları və prinsiplərinə - ölkələrin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsiplərinə əsaslanır. O bildirmişdir ki, keçmiş sovet məkanında mövcud olan və təcavüzkar separatizmlə müşayiət olunan münaqişələr bölgələrdə sülhün və təhlükəsizliyin təmin olunması işinə böyük xələl gətirir. Bu baxımdan Avropa Şurasının və digər beynəlxalq təşkilatların sənədlərində erməni separatizminin və Ermənistanın ölkəmizə qarşı təcavüzünün pislənilməsi ilə bağlı ifadə olunan obyektiv mövqe böyük əhəmiyyət daşıyır. Prezident İlham Əliyev Azərbaycan-Avropa Birliyi əməkdaşlığının bundan sonra da inkişaf edəcəyinə əminliyini vurğulamışdır.

Cənab Talvitiye Avropa Birliyinin Azərbaycanla əlaqələrinin genişlənməsini yüksək qiymətləndirmiş və əmin olduğunu bildirmişdir ki, bu əlaqələr bundan sonra da daim möhkəmlənəcəkdir.

Görüşdə Azərbaycan-Avropa Birliyi əməkdaşlığının müxtəlif sahələri, regional məsələlər və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilmişdir.

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa Birliyinin xarici əlaqələr və yeni qonşuluq siyasəti üzrə komissarı Benita Ferrero-Valdner ilə görüşü

16 may 2005-ci il

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Varşavada Kral sarayında Avropa Birliyinin xarici əlaqələr və yeni qonşuluq siyasəti üzrə komissarı xanım Benita Ferrero-Valdner ilə görüşmüşdür.

Xanım Benita Ferrero-Valdner Prezident İlham Əliyev ilə əvvəlki görüşlərini məmnunluqla xatırlatdı, Azərbaycanın Avropa qonşuluq siyasətində fəal iştirakını yüksək qiymətləndirdi, ölkəmizlə Avropa Birliyi arasında müxtəlif sahələrdə əməkdaşlığın yaxşı inkişaf etdiyini vurğuladı. Azərbaycanın Avropa ailəsinə daha da yaxınlaşması planı üzərində konkret işlər görüldüyünü bildirən Benita Ferrero-Valdner Azərbaycanı strateji əhəmiyyəti olan ölkə kimi səciyyələndirdi.

Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən danışaraq, bu problemin bölgənin Avropaya inteqrasiyasına, Cənubi Qafqazda və ümumən regionda sabitliyin, təhükəsizliyin bərqərar olmasına böyük zərbə vurduğunu bildirdi. Azərbaycan dövlətinin başçısı ölkəmizdə həyata keçirilən iqtisadi islahatlardan, nəhəng enerji layihələrində Azərbaycanın rolundan da söhbət açdı.

Xanım Benita Ferrero-Valdner Azərbaycanda aparılan uğurlu islahatlardan xəbərdar olduğunu söyləyərək dedi ki, Avropa Birliyi bu islahatların daha da geniş formada həyata keçirilməsində yardım göstərməyə hazırdır.

Görüşdə Avropa Birliyi ilə Azərbaycan arasında əməkdaşlığın daha da genişləndirilməsinin əhəmiyyətli olduğu vurğulandı.

Prezident İlham Əliyev Azərbaycanda keçiriləcək qarşıdakı parlament seçkiləri ilə bağlı bu günlərdə imzaladığı sərəncamı xatırlatdı, ölkəmizin Avropaya inteqrasiya prosesinə sadiq qaldığını, yeni qonşuluq siyasətində daha da fəal iştirak edəcəyini bildirdi.

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa Komissiyasının enerji məsələləri üzrə komissarı Andris Pibalqsı qəbul etmişdir

25 may 2005-ci il

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 25-də Prezident sarayında Avropa Komissiyasının enerji məsələləri üzrə komissarı Andris Pibalqsı qəbul etmişdir.

Azərbaycanın Avropa strukturlarına sürətlə inteqrasiya olunduğunu vurğulayan Prezident İlham Əliyev ölkəmizin nüfuzlu beynəlxalq təşkilatlarla, xüsusən Avropa Birliyi ilə müxtəlif sahələrdə, o cümlədən enerji sahəsində əməkdaşlığının möhkəmləndiyini bildirdi.

Prezident İlham Əliyev Azərbaycanın Avropa Birliyinin yeni qonşuluq siyasətində fəal iştirak etdiyini xatırlatdı və əmin olduğunu bildirdi ki, ölkəmizin Avropa Birliyi ilə əlaqələri bundan sonra da daim möhkəmlənəcəkdir.

Azərbaycan ilə Avropa Birliyi arasında əməkdaşlığın gündən-günə genişləndiyini nəzərə çarpdıran cənab Andris Pibalqs Avropa Birliyinin yeni qonşuluq siyasətində Azərbaycanın misli görünməmiş irəliləyişə nail olduğunu vurğuladı. O, əmin olduğunu bildirdi ki, Azərbaycan ilə Avropa Birliyi arasındakı əməkdaşlıq bundan sonra da genişlənəcək və möhkəmlənəcəkdir.

Cənab Andris Pibalqs Azərbaycan Prezidenti İlham Əliyevə xatirə hədiyyəsi təqdim etdi.

Prezident İlham Əliyev isə cənab Andris Pibalqsa Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin açılışı münasibətilə hazırlanmış xatirə medalı təqdim etdi.

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa Birliyinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Heyki Talvitiyenin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

14 sentyabr 2005-ci il

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Prezident sarayında Avropa Birliyinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Heyki Talvitiyenin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüş zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli, Azərbaycanda qarşıdan gələn parlament seçkiləri, Azərbaycan-Avropa Birliyi əməkdaşlığı və qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər müzakirə olunmuşdur.

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa Birliyi "Üçlüyü"nün (Troyka) nümayəndə heyətini qəbul etmişdir

3 oktyabr 2006-cı il

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Prezident sarayında Avropa Birliyi "Üçlüyü"nün (Troyka) nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev qonaqları salamlayaraq dedi ki, sizin ölkəmizə səfəriniz çox əhəmiyyətlidir və Avropa Birliyi ilə Azərbaycan arasında əməkdaşlığın inkişafında yeni mərhələnin başlanğıcı deməkdir. Azərbaycanın Avropa Birliyi ilə əlaqələrinin səviyyəsinin yüksək olduğunu vurğulayan Prezident İlham Əliyev dedi ki, biz müxtəlif sahələrdə əməkdaşlığımızı genişləndirmək niyyətindəyik. Qonşuluq siyasəti bütün regiona sülh və inkişaf gətirəcəkdir. Ümid edirəm ki, aparılan müzakirələr Avropa Birliyi ilə Cənubi Qafqaz münasibətlərinin inkişafında faydalı olacaqdır.

Prezident İlham Əliyevin fikirləri ilə şərik olduqlarını söyləyən Finlandiyanın xarici işlər naziri Erkki Tuomioya Azərbaycanda qonşuluq siyasətinin fəaliyyəti barədə müzakirələr apardıqlarını bildirdi. Bakıya səfərin çox səmərəli olduğunu vurğulayan qonaq ümidvar olduğunu bildirdi ki, qonşuluq siyasəti regionda münaqişələrin həllinə töhfələr verə biləcəkdir. O dedi ki, biz münasibətlərimizin təkcə iqtisadi baxımdan deyil, həm də davamlı siyasi dialoq və əməkdaşlıq çərçivəsində dərinləşəcəyinə ümid edirik.

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa Birliyi Şurasının Baş katibi, Xarici Siyasət və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəsi Xavyer Solana ilə görüşü

7 noyabr 2006-cı il

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də Brüsseldə Avropa Birliyinin iqamətgahına gəlmişdir.

Binada Azərbaycan Respublikasının dövlət bayrağı asılmışdı.

Prezident İlham Əliyevi binanın önündə Avropa Birliyi Şurasının Baş katibi, xarici siyasət və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Xavyer Solana böyük hörmət və ehtiramla qarşıladı.

Sonra Azərbaycan Prezidenti İlham Əliyevin Avropa Birliyi Şurasının Baş katibi Xavyer Solana ilə təkbətək görüşü oldu.

Prezident İlham Əliyev Azərbaycanda gedən siyasi-iqtisadi inkişaf proseslərindən və müxtəlif sahələrdə qazanılan uğurlardan danışdı.

Avropa Birliyinin Azərbaycanla əlaqələrə böyük əhəmiyyət verdiyini bildirən Xavyer Solana bunun müxtəlif sahələrdə, o cümlədən enerji sahəsində əməkdaşlığın inkişafına təkan verəcəyini vurğuladı. O, yeni qonşuluq siyasətindən danışaraq, bunu Azərbaycan-Avropa Birliyi əməkdaşlığının yeni mərhələsi adlandırdı. Xavyer Solana Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli və regional məsələlərlə də maraqlandı.

Prezident İlham Əliyev ölkəmizin Avropa Birliyi ilə münasibətlərə çox böyük önəm verdiyini vurğuladı, "Yeni qonşuluq siyasətinə dair fəaliyyət planı"nın əhəmiyyətindən danışdı və əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminliyini söylədi. Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesinin hazırki vəziyyəti barədə ətraflı bəhs edərək dedi ki, bu məsələ yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü prinsipinə əməl olunmaqla həll edilə bilər.

Xavyer Solana Azərbaycanı regionda çox əhəmiyyətli rol oynayan dövlət kimi səciyyələndirdi və ümumiyyətlə, Avropa Birliyinin regionla əlaqələrində ölkəmizlə əməkdaşlığın çox mühüm yeri olduğunu vurğuladı.

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa Komissiyasının sədri Joze Manuel Barrozu ilə görüşü

7 noyabr 2006-cı il

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də Brüsseldə Avropa Komissiyasının sədri Joze Manuel Barrozu ilə görüşmüşdür.

Cənab Barrozu Azərbaycan ilə əməkdaşlığın səviyyəsinin yaxşı olduğunu bildirərək dedi ki, əlaqələrin daha da genişləndirilməsi üçün potensial böyükdür. O, Azərbaycan Respublikası ilə Avropa Birliyi arasında imzalanacaq enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumunun əhəmiyyətini vurğuladı, Azərbaycanın Avropaya inteqrasiyasının Avropa Birliyi üçün də vacibliyini bildirdi. Cənab Barrozu dedi ki, biz Azərbaycanın Avropa Birliyi ilə əlaqələrini yüksək qiymətləndiririk, qonşuluq siyasəti çərçivəsində işbirliyindən məmnunuq, əlaqələrimizdə iqtisadi, o cümlədən enerji sahəsində əməkdaşlıq mühüm yer tutur. Bununla yanaşı, demokratik dəyərlər baxımından da əməkdaşlığımız faydalıdır. Elə etməliyik ki, həm Azərbaycan əhalisi, həm də Avropa Birliyi ölkələrinin əhalisi bunun əməli nəticələrini görsün.

Avropa Birliyi ilə əməkdaşlığı yüksək qiymətləndirən Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizdə gedən iqtisadi inkişaf proseslərindən, yoxsulluğun azaldılması, yeni iş yerlərinin açılması və demokratik islahatlar barədə ətraflı söhbət açdı və bildirdi ki, bütün sahələrdə Avropa dəyərlərinə qovuşmağın bizim üçün böyük əhəmiyyəti var. Prezident İlham Əliyev Azərbaycanın Avropa Birliyinə töhfəsindən də danışaraq, ölkəmizin əlverişli coğrafi mövqeyi, zəngin təbii sərvətləri və geniş nəqliyyat infrastrukturu olduğunu vurğuladı və dedi ki, bu baxımdan Azərbaycan da Avropa üçün böyük əhəmiyyət daşıyır.

Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsinə də toxunuldu. Prezident İlham Əliyev danışıqlar prosesinin hazırkı mərhələsi, eləcə də Azərbaycanın bu məsələdə mövqeyi barədə məlumat verdi.

Avropa Komissiyasının sədri dedi ki, biz yalnız enerji sahəsində deyil, digər sahələrdə də Azərbaycanla əməkdaşlığın genişləndirilməsində maraqlıyıq.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər də müzakirə olundu.

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Avropa Komissiyasının Sədri Joze Manuel Barrozunun birgə brifinqi

7 noyabr 2006-cı il

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa Komissiyasının sədri Joze Manuel Barrozu noyabrın 7-də Brüsseldə Azərbaycan Respublikası və Avropa İttifaqı arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumu imzalamışlar.

Sənədin imzalanmasından sonra mətbuat nümayəndələri üçün keçirilən brifinqdə Avropa Komissiyasının sədri Joze Manuel Barrozu və Azərbaycan Prezidenti İlham Əliyev bəyanatlarla çıxış etdilər.

## Avropa Komissiyasinin Sədri Joze Manuel Barrozunun bəyanatı

Xanımlar və cənablar, xoş gördük!

Prezident İlham Əliyevi Brüsseldə salamlamaqdan böyük məmnunluq hissi duyuram. Biz indicə Prezident İlham Əliyevlə birlikdə Azərbaycan və Avropa İttifaqı arasında enerji tərəfdaşlığına dair anlaşma memorandumunu imzaladıq. Bu memorandum Komissiyanın davamlı enerji təhlükəsizliyinin təminatı strategiyasının bir nəticəsidir. Bu strategiyada enerji sektorunda əsas neft ixrac edən və tranzit ölkələr arasında əlaqələrin genişləndirilməsinə xüsusi diqqət verilir. Bu anlaşma memorandumunun icrası Azərbaycanın Avropa İttifaqının enerji bazarlarına daha tez inteqrasiyasına kömək edəcəkdir. Xəzər hövzəsindən enerji daşıyıcılarının nəqli nəticəsində Avropa İttifaqının enerji təhlükəsizliyi daha da güclənəcəkdir. Eləcə də bu, Azərbaycanda enerjiyə olan tələbatın daha səmərəli şəkildə idarəedilməsi sisteminin yaradılmasına və təcrübə mübadiləsinə imkan verəcəkdir.

Mən bir fikri xüsusi vurğulamaq istəyirəm ki, Avropa İttifaqının enerji təhlükəsizliyinin təmin edilməsində Xəzər hövzəsindən nəql olunacaq enerji daşıyıcıları böyük rol oynayacaqdır. Biz buna görə Azərbaycana minnətdarıq. Yəni Azərbaycan enerji sahəsində Avropa İttifaqı ilə daha yaxından əməkdaşlıq edəcəkdir.

Eləcə də məmnunluq hissi ilə qeyd edirik ki, Azərbaycan Avropa İttifaqının qonşuluq siyasətinə daxil olub və bu, ölkədə sabitliyə və rifaha öz töhfəsini verəcəkdir.

Təbii ki, enerji və iqtisadi sahədə əməkdaşlıq çox vacib məsələlərdir.

Lakin Azərbaycan ilə Avropa İttifaqı arasındakı əməkdaşlıq təkcə bununla məhdudlaşmır. Avropanın yeni qonşuluq siyasəti daha genişdir. Biz demokratiya, idarəçilik, azadlıq və insan hüquqlarının qorunması kimi ümumi dəyərlərə əsaslanaraq irəli getmək niyyətindəyik. Mən bu məsələlərlə, o cümlədən

Azərbaycan mətbuatında söz azadlığı ilə bağlı bəzi məlumatları Azərbaycan Prezidenti ilə hərtərəfli müzakirə etdim. Əminəm ki, cənab Prezident bu barədə sizə əlavə məlumat verəcəkdir.

Biz Azərbaycanla güclü və hərtərəfli münasibətlərin yaradılmasında maraqlıyıq. Təbii ki, islahatlar sahəsində Azərbaycana yardım etməyə hazırıq və bu barədə də fikir mübadiləsi apardıq. Mən çox məmnunluq hissi ilə vurğulamaq istəyirəm ki, Azərbaycan Prezidentinin fikrincə, islahatlar yalnız iqtisadi yox, siyasi sahədə də aparılmalıdır.

Biz Azərbaycana neft və qaz hasilatından gələn gəlirlərin şəffaf şəkildə idarə olunması və iqtisadiyyatın davamlı şəkildə inkişaf etdirilməsi sahəsində də yardım göstərməyə hazırıq. Azərbaycan çətin dövrlərini yaşayarkən Avropa Birliyi ona 400 milyon avrodan artıq məbləğdə yardım göstərmişdir. Amma indi Azərbaycan dünyanın ən sürətlə inkişaf edən ölkələrindən biridir. Mən böyük məmnunluq hissi ilə demək istəyirəm ki, bu gün Azərbaycan və Azərbaycan Prezidenti Avropa İttifaqı ilə qarşılıqlı maraqlara və ümumi dəyərlərə əsaslanan münasibətlərin inkişaf etməsini istəyir.

Cənab Prezident, Brüsselə gəldiyinizə görə, təşəkkür edirəm.

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bəyanatı

Çox sağ olun, cənab sədr!

Xanımlar və cənablar!

Mən bu gün Brüsseldə olmağımdan və cənab sədr Barrozu ilə ikitərəfli münasibətlərimizlə və regional inkişafla bağlı məsələləri müzakirə etməkdən çox şadam.

Əlaqələrimizin uzun tarixi var. Azərbaycan öz müstəqilliyini əldə etdiyi vaxtdan etibarən biz hər zaman Avropa İttifaqının dəstəyini hiss etmişik. Xüsusilə də, Azərbaycanın tarixində ən çətin anlarda biz Avropa İttifaqından həm güclü maliyyə dəstəyi, həm də siyasi dəstək almışıq. Azərbaycanın 15 illik müstəqilliyi dövründə ölkəmizin Avropa İttifaqı ilə münasibətləri uğurla inkişaf edir. Bu gün biz münasibətlərimizin yeni bir mərhələsinə qədəm qoyuruq. Avropa İttifaqının Cənubi Qafqazda yeni qonşuluq siyasəti və enerji məsələləri üzrə strateji tərəfdaşlığı çərçivəsində uzunmüddətli tərəfdaşlığa başlayırıq. Hər iki məsələ, əlbəttə ki, Azərbaycan üçün böyük əhəmiyyət kəsb edir və əminəm ki, qarşıdan gələn illər ərzində bu əməkdaşlıqda daha böyük inkişafa nail olacağıq.

Azərbaycanda siyasi və iqtisadi islahatlar paralel şəkildə aparılır və biz demokratik cəmiyyət qururuq. Qanunun aliliyi və insan hüquqlarının qorunması prinsipləri əsas tutulur. Yəni bu iki məsələni biri-birindən ayırmaq olmaz. Bir sözlə, bu məsələlərin Azərbaycan və ümumiyyətlə regional əməkdaşlıq üçün bö-

yük əhəmiyyəti var. Xüsusən də, ölkədəki böyük neft və qaz ehtiyatlarını və parlaq gələcəyimizi nəzərə alaraq, bu məsələlərin ölkə üçün nə qədər vacib olduğunu anlaya bilərik. İndi biz bu məsələyə müxtəlif formada baxırıq. Ona görə Avropa İttifaqı ilə əməkdaşlıq bizim üçün nəinki iqtisadi göstəricilərimizi təkmilləşdirmək, eyni zamanda, gələcək illər ərzində ölkəmizdəki meyarları Avropa İttifaqının meyarlarına daha da yaxınlaşdırmaq imkanı yaradır.

Biz ümumi dəyərləri bölüşürük. Azərbaycanda getdiyimiz yol, qarşımızda duran vəzifələr aydın şəkildə anlaşılır və bu cür məsələlər bizim üçün prioritet xarakter daşıyır. Görüşlərimiz zamanı həmin vacib məsələləri müzakirə etdik və əminəm ki, gələcək illər ərzində Avropa İttifaqı ilə Azərbaycan arasındakı əməkdaşlıq davam etdiriləcək və genişlənəcəkdir. Biz bu əməkdaşlığa qarşılıqlı maraq doğuran və fayda verən yeni elementlər gətirəcəyik.

Azərbaycan olduqca mühüm neft və qaz hasilatçısına çevrilir. Azərbaycanda neft və qaz gəlirlərinin idarə edilməsinin olduqca müasir sistemi var. Azərbaycan hasilat sənayesində gəlirlərin şəffaf şəkildə idarə edilməsi təşəbbüsünə qoşulmuşdur və bu, digər ölkələr üçün nümunə ola bilər. Bu, beynəlxalq maliyyə təsisatları tərəfindən də bildirilmişdir.

Bir sözlə, ölkəmizin iqtisadi göstəriciləri və siyasi inkişafı bu imkanları yaradacaq və Avropa İttifaqı ilə əməkdaşlıq bu çərçivədə aparılır. Siyasi əməkdaşlıq, siyasi və iqtisadi islahatlar, enerji təhlükəsizliyi məsələləri - bunlar hamısı bu baxımdan bizim tərəfimizdən nəzərdən keçirilir. Avropa İttifaqı ilə bütün bu məsələlərdə və ümumiyyətlə əməkdaşlığımız bu istiqamətdə gedir.

Mən xoş qəbula görə minnətdaram və apardığımız müzakirələrdən çox məmnunam və demək istəyirəm ki, gələcək əməkdaşlığımıza böyük maraqla baxırıq. Çox sağ olun.

Sonra mətbuat nümayəndələrinin suallarına cavab verildi.

***Dmitri Şkurko (Ukrinform):*** Mənim sualım Prezident İlham Əliyevədir. Avropa İttifaqı ilə enerji dialoqu çərçivəsində Azərbaycan Odessa-Brodı-Qdansk kəmərinin istifadəsində nə dərəcədə maraqlıdır və Azərbaycan neftinin bu boru kəməri ilə nəqli nə vaxt gözlənilir?

***İlham Əliyev:*** Bu məsələ Ukrayna Prezidenti ilə görüşlərimiz zamanı bir neçə dəfə müzakirə olunub və biz bununla bağlı Azərbaycan-Ukrayna birgə işçi qrupu yaratmışıq. Hazırda həmin boru kəmərinin kommersiya tərəfinin, digər iqtisadi amillərin və istismarın müəyyən edilməsi mexanizmləri qiymətləndirilir. Biz görüşlərimiz zamanı Azərbaycanın yalnız boru kəmərinin neftlə doldurulmasında yox, eyni zamanda, neftin nəql olunduğu ölkələrdə neft məhsullarının emalı və paylanmasında da iştirakını müzakirə etdik. Mən bilirəm ki, Avropa İttifaqı bu layihəyə maraq göstərir və bunu da müzakirə etdik. Bu, məsələnin həlli üçün yaxşı bir çərçivədir. Gələcəkdə regionumuzda neft hasilatının həcmi çox böyük olacaq və

bu, digər boru kəmərlərinin istifadəsi üçün də kifayət edəcəkdir. Alternativ marşrutların olması bizim üçün də böyük əhəmiyyət kəsb edir. Bu gün Azərbaycandan Avropa və dünya bazarlarına neftin nəqli üçün 3 boru kəməri var və əlavə bir boru kəmərinin olması faydalı ola bilərdi.

***"The Observer" qəzeti (Böyük Britaniya):*** İnsan hüquqlarına dair hesabatlarda Azərbaycanın adı Belarusla yanaşı çəkilir. Siz dekabr ayında burada Qazaxıstan Prezidentini qəbul edəcəksiniz. Siz Avropa İttifaqının ölkələrlə yaxşı əlaqələri enerji ehtiyatlarına əsasən yaratdığını deyən tənqidçilərə nə deyə bilərsiniz?

***Joze Manuel Barrozu:*** Hər şeydən əvvəl gəlin, onu qeyd edək ki, Azərbaycanda müşahidə olunan təkamül müsbət istiqamətdədir. Gəlin, yaddan çıxarmayaq ki, Azərbaycan bu yaxınlarda öz müstəqilliyini qazanıb və demokratik ölkə qurmağa başlayıbdır. Azərbaycanda hazırda siyasi və iqtisadi islahatların aparılması üçün səylər göstərilir. Bu gün bizim apardığımız iş, həm də Azərbaycanda demokratiyanın inkişaf etdirilməsi və qanunun aliliyi ilə bağlıdır. Bu gün mən bu məsələni cənab Prezidentlə görüşüm zamanı qaldırdım və o, vəziyyətlə bağlı öz fikir və təhlillərini söylədi. Biz Azərbaycanla müsbət əlaqələr qururuq və onun çətin regionda yerləşdiyini anlayırıq. Avropa İttifaqının Azərbaycanla əməkdaşlığının ən əhəmiyyətli bir hissəsini siyasi və demokratik islahatlar təşkil edir. Bu, Avropa İttifaqının qonşuluq siyasətinin çox mühüm bir hissəsidir. Azərbaycanla əlaqələrimiz, sadəcə, enerji sahəsi ilə məhdudlaşmır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələr ümumi dəyərlərə əsaslanmalıdır və biz bu dəyərləri dəstəkləmək üçün, azərbaycanlı dostlarımızla birgə işləmək üçün bu gün buradayıq.

***Aleksandr Miniyev (Rusiya):*** Mənim sualım Prezident İlham Əliyevədir. Gürcüstanla Rusiya əlaqələri barədə Sizin fikirlərinizi bilmək istərdik. Qafqaz Sizin regionunuzdur. MDB-nin gələcəyi haqqında da nə deyə bilərsiniz?

***İlham Əliyev:*** Adətən, Azərbaycanda biz hər zaman çalışırıq ki, qonşularımızın daxili işlərinə və hökumətlərarası münasibətlərə müdaxilə etməyək. Bizim Gürcüstan və Rusiya ilə yaxşı əlaqələrimiz var. Hər ikisi qonşumuz və tərəfdaşımızdır. Hər ikisi ilə strateji tərəfdaşlıq münasibətlərimiz var. Bu sahədə əldə etdiyimiz müsbət təcrübəmiz haqqında çox danışa bilərdim, lakin vaxtınızı almaq istəmirəm. Hesab edirəm ki, qonşularımız arasındakı normal münasibətlər regional əməkdaşlığa xidmət edəcəkdir. Azərbaycan özünün daxili məsələlərinin həllindən əlavə, regional əməkdaşlığa, enerji sahəsindəki əlaqələrimizə də xüsusi önəm verir. Ona görə potensial risklərin minimum həddə endirilməsi bizim üçün prioritet əhəmiyyət daşıyır. Bu baxımdan da biz öz dostlarımız və qonşularımız arasındakı münasibətləri əsil dostlar arasındakı münasibətlər kimi görmək istəyirik.

***"Euro Politiks" qəzeti (Belçika):*** Mənim sualım Prezident İlham Əliyevədir. 2005-ci ilin mart ayında qətlə yetirilmiş jurnalist Elmar Hüseynovla bağlı sual

vermək istərdim. Məlum olduğu kimi, o, Sizin haqqınızda və hökumətiniz haqqında tənqidi yazılar yazırdı. Həmin qətl hadisəsinin lazımi qaydada araşdırılması ölkənizdə mətbuat azadlığına dəstək verməyiniz kimi qəbul edilə bilərdi. Xahiş edirik, bu məsələ ilə bağlı məlumat verəsiniz.

***İlham Əliyev:*** Bu qətl hadisəsi Azərbaycana ağır zərbə oldu və həmin hadisənin nəticələri hələ bu gün də bizim gözümüz qarşısındadır. Çünki Azərbaycanda birinci dəfə idi ki, jurnalist bu cür qəddarlıqla qətlə yetirilmişdi. Bilirsiniz, onun yazdığı məqalələri bir yana qoysaq, - çünki o, müxtəlif siyasi dairələrlə bağlı tənqidi yazılar yazırdı, - bu hadisə onu göstərdi ki, Azərbaycandakı daxili sabitliyin pozulmasında maraqlı olan qüvvələr var. Bu hadisə baş verdikdən dərhal sonra biz geniş təhqiqat apardıq, ABŞ-ın, Britaniyanın və Avropadakı təhlükəsizlik orqanlarına da müraciət etdik ki, cinayətkarların tapılmasında bizə yardım etsinlər. Birgə səylər nəticəsində, öz təhqiqatımız əsasında qətlin kimin tərəfindən törədildiyi barədə məlumatı əldə edə bildik. İndi isə biz həmin şəxsləri tapmalıyıq. Biz İnterpolla müvafiq iş aparırıq, çünki hazırda həmin insanlar Azərbaycanda deyil, onun hüdudlarından kənardadır. Ölkədə olmayan cinayətkarı tapmaq bəzən çətin olur. Ona görə bütün dünyada axtarışda olan cinayətkarların tapılması və ədalət mühakiməsinə gətirilməsi bəzən çox çətin olur. Hazırda biz nə edə bilərik? Sadəcə, cinayətdə təqsirli bilinən bu şəxslərin İnterpol tərəfindən tapılmasını və ədliyyə orqanlarına təhvil verilməsini gözləyə bilərik.

***Mənim sualım cənab Barrozuyadır***. Bildiyimiz kimi, bu yaxınlarda Azərbaycan və Ermənistan ilə fərdi tədbirlər planı razılaşdırılıb. Bu planda ölkələrin ərazi bütövlüyü, suverenliyi, təhlükəsizliyi və xüsusilə də enerji təhlükəsizliyi məsələləri əks olunubdur. Bilmək istərdim ki, Ermənistanın bu plandakı prinsiplərə zidd getməsinə, yəni Azərbaycanın ərazi bütövlüyünün pozulması məsələsinə Avropa İttifaqı necə baxır?

***Joze Manuel Barrozu:*** Əvvəlcə onu demək istəyirəm ki, biz Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini tam tanıyır və dəstəkləyirik. Biz bunu tədbirlər planında qeyd etmişik. Həmin sənəddə deyilir ki, Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü Avropada sülhün və sabitliyin qorunmasına öz töhfəsini verəcəkdir. Bu, bizim fəaliyyət planımızda aydın şəkildə ifadə olunubdur.

Ermənistanla münaqişənin olması ilə yanaşı, biz Azərbaycanı Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində səyləri davam etdirməyə çağırırıq. Minsk qrupunun vasitəçilik fəaliyyətini və eləcə də Cənubi Qafqaz üzrə xüsusi nümayəndənin göstərdiyi səyləri dəstəkləyirik. Eyni zamanda, tərəflər arasında razılaşma əldə edildikdən dərhal sonra regionda bərpa və yenidənqurma prosesinə qoşulmağa hazırıq. Mən Prezident İlham Əliyevlə görüşümdə bu fikri bildirdim. Çox sağ olun.

# Azərbaycan ilə Avropa Birliyi arasında anlaşma memorandumunun imzalanması

7 noyabr 2006-cı il

Noyabrın 7-də Azərbaycan Prezidenti İlham Əliyev və Avropa Komissiyasının sədri Joze Manuel Barrozu Azərbaycan Respublikası və Avropa Birliyi arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumu imzaladılar.

İmzalanma mərasimindən sonra mətbuat nümayəndələri üçün brifinq keçirildi.

Avropa Komissiyasının sədri Joze Manuel Barrozu Azərbaycanın ən çətin dövrlərində, iqtisadiyyatın böhranlı vəziyyətində ölkəmizə 400 milyon avro dəyərində yardım göstərildiyini vurğuladı, Azərbaycanla siyasi, iqtisadi və demokratik sahədə əməkdaşlığın bundan sonra daha da genişləndiriləcəyini söylədi. O vurğuladı ki, hazırda Azərbaycanda olduqca sürətli iqtisadi inkişaf gedir.

Prezident İlham Əliyev Azərbaycan-Avropa Birliyi əlaqələrinin indiki mərhələsinin əməkdaşlığın genişləndirilməsinə yeni imkanlar açdığını bildirdi və dedi ki, bu əməkdaşlıq Azərbaycan üçün prioritet əhəmiyyət daşıyır. Azərbaycan enerji daşıyıcılarının nəqli ilə yanaşı, emalında, eləcə də, alternativ boru kəmərlərinin yaradılmasında da maraqlıdır.

Joze Manuel Barrozu bildirdi ki, Avropa Birliyi Azərbaycanla əməkdaşlığı təkcə enerji sahəsinə aid etmir, siyasi, iqtisadi, hüquqi və digər sahələrdə də əlaqələr uğurla inkişaf edir. Avropa Birliyinin həm Azərbaycan, həm də Ermənistanla yeni qonşuluq siyasətinə dair fəaliyyət planında ərazi bütövlüyü prinsipi öz əksini tapır və Avropa Birliyi Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini dəstəkləyir. Biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ATƏT çərçivəsində sülh yolu ilə həllinin tərəfdarıyıq. Sülh əldə olunduqdan sonra Avropa Birliyi bərpa işlərində yaxından iştirak edəcəkdir.

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa Parlamentinin sədri Xosep Borrell Fontelles ilə görüşü

7 noyabr 2006-cı il

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də Avropa Parlamentinin binasına gəlmişdir.

Burada Prezident İlham Əliyevin Avropa Parlamentinin sədri Xosep Borrell Fontelles ilə görüşü oldu.

Görüşdən sonra Avropa Parlamentinin sədri Xosep Borrell Fontellesin adından Azərbaycan Prezidenti İlham Əliyevin şərəfinə nahar verildi.

Naharda Avropa Parlamentinin deputatları və Avropa Birliyinin bəzi yüksək vəzifəli şəxsləri də iştirak edirdilər.

# Kral Beynəlxalq Əlaqələr İnstitutunda siyasi brifinq
7 noyabr 2006-cı il

Noyabrın 7-də Brüsseldə Kral Beynəlxalq Əlaqələr İnstitutunda siyasi brifinq keçirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyevi institutun baş direktoru Klod Mission və digər rəsmi şəxslər böyük hörmət və ehtiramla qarşıladılar.

"Avropa Birliyi - Azərbaycan: enerji və digər sahələrdə əməkdaşlıq" mövzusuna həsr olunmuş diskussiyada bir sıra ölkələrin Brüsseldə akkreditə olunmuş səfirləri, beynəlxalq təşkilatlar yanında daimi nümayəndələri, Belçikanın elm xadimləri, nüfuzlu siyasətçilər, politoloqlar, beynəlxalq təşkilatların, o cümlədən Avropa Birliyi Şurasının, Avropa Parlamentinin təmsilçiləri iştirak edirdilər.

1947-ci ildə yaradılmış və qeyri-hökumət qurumu olan Kral Beynəlxalq Əlaqələr İnstitutu Belçikanın əsas düşüncə mərkəzi sayılır, Avropa Birliyinə xüsusi diqqət yetirir, inteqrasiya, təhlükəsizlik və Yaxın Şərq məsələlərini araşdırır.

İnstitutun baş direktoru Klod Mission Azərbaycan Prezidenti İlham Əliyevə görüşə gəldiyinə görə təşəkkürünü bildirərək dedi: Çox məmnunuq ki, cavan dövlət başçısı böyük təcrübəyə, o cümlədən iqtisadiyyat sahəsində təcrübəyə malikdir.

Sonra iştirakçılara Prezident İlham Əliyevin tərcümeyi-halı barədə geniş məlumat verildi.

Prezident İlham Əliyev brifinqdə nitq söylədi. Azərbaycan Prezidenti dəvətə görə təşəkkür etdi, Brüsseldə keçirdiyi çox səmərəli görüşlər barədə məlumat verdi, Azərbaycan ilə Avropa Birliyi arasında əməkdaşlığın gələcək inkişafı üçün təməl qoyulduğunu bildirdi. Azərbaycanın Avropaya inteqrasiyaya üstünlük verdiyini vurğulayan Prezident İlham Əliyev Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü və onun ağır nəticələrindən də danışaraq dedi ki, müstəqilliyin ilk illərindəki böhranlı vəziyyətə baxmayaraq, Azərbaycan öz dövlətçiliyini qoruyub saxlaya, siyasi və iqtisadi islahatları həyata keçirə bildi. Bu işdə Avropa Birliyi də bizə kömək etdi.

Yeni qonşuluq siyasəti çərçivəsində Avropa Birliyi ilə əməkdaşlığın Azərbaycan üçün əhəmiyyətini vurğulayan Prezident İlham Əliyev həmçinin bundan Avropa Birliyinin də fayda götürəcəyini bildirdi. Azərbaycanın açıq qapı siyasəti yürütdüyünü, xarici sərmayələr üçün əlverişli şərait yaradıldığını xatırladan Prezident İlham Əliyev iqtisadiyyatın inkişaf sürətinə görə ölkəmizin dünyada ən yüksək göstəriciyə nail olduğunu, Azərbaycanın regionda lider dövlətə çevrildiyini söylədi.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən ətraflı söhbət açan Prezident İlham Əliyev bu məsələdə ölkəmizin ədalətli mövqeyini bir daha açıqladı. Eyni zamanda bildirdi ki, problemin həll olunmamasının əsas səbəbi Ermənistanın beynəlxalq hüquq normalarına riayət etməməsi, separatçılığı dəstəkləyən siyasət

yeritməsidir.

Azərbaycan Prezidenti daha sonra brifinq iştirakçılarının müxtəlif mövzularda suallarına cavab verdi.

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa Birliyinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Peter Semnebini qəbul etmişdir

17 fevral 2007-ci il

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 17-də Prezident sarayında Avropa Birliyinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Peter Semnebini qəbul etmişdir.

Görüşdə Azərbaycan-Avropa Birliyi arasında əməkdaşlığın uğurla inkişaf etdiyi vurğulanmış və qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə edilmişdir.

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Budapeştdə Avropa Komissiyasının energetika məsələləri üzrə komissarı Andris Pibalqs ilə görüşmüşdür

27 yanvar 2009-cu il

Görüşdə Nabukko layihəsinə dair sammitin əhəmiyyəti vurğulandı, Azərbaycan ilə Avropa İttifaqı arasında enerji təhlükəsizliyi sahəsində əməkdaşlığın səviyyəsindən məmnunluq ifadə olundu. Söhbət zamanı qarşılıqlı əməkdaşlığın gələcək perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Brüsseldə Avropa Komissiyasının sədri Joze Manuel Barrozu ilə görüşmüşdür

28 aprel 2009-cu il

Belçika Krallığında işgüzar səfərdə olan Azərbaycan Prezidenti İlham Əliyev Avropa Komissiyasının sədri Joze Manuel Barrozu ilə görüşmüşdür.

Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin genişlənməsinin Azərbaycanın Avropa dəyərlərinə verdiyi önəmin göstəricisi olduğunu deyən Barrozu gələcəkdə tərəflər arasında daha konkret layihələrin həyata keçirilməsinin əhəmiyyətini vurğuladı.

Prezident İlham Əliyev Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələrin müxtəlif sahələrdə inkişaf etdiyini bildirərək qeyd etdi ki, Azərbaycan bundan sonra da Avropaya inteqrasiyanı davam etdirmək əzmindədir.

Dövlət başçısı Azərbaycanın bundan sonra da Avropanın enerji təhlükəsizliyinə öz töhfəsini verməyə hazır olduğunu bildirdi.

Prezident İlham Əliyev əlaqələrimizin bundan sonra da inkişaf edəcəyinə əminliyini vurğuladı.

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Avropa Komissiyasının sədri Joze Manuel Barrozunun mətbuat üçün bəyanatları

28 aprel 2009-cu il

## Avropa Komissiyasının Sədri Joze Manuel Barrozunun bəyanatı

Xanımlar və cənablar, sizi salamlayıram.

Mən Prezident Əliyevi Brüsseldə yenidən alqışlamaqdan məmnunam. Sonuncu dəfə biz burada, Brüsseldə görüş keçirdik və enerji sahəsində əməkdaşlıq haqqında anlaşma memorandumunu imzaladıq. Bu gün bizim çox yaxşı, konstruktiv və açıq söhbətimiz oldu. Mən minnətdarlığımı bildirmək istəyirəm ki, danışıqlarımız zamanı biz, həqiqətən, həmin səmimiyyət və açıqlıq ruhunu hiss etdik. Azərbaycan Cənubi Qafqaz regionunda olduqca mühüm tərəfdaşdır. Əminəm ki, dialoq və əməkdaşlığımızın intensivləşdirilməsi hər iki tərəfə böyük fayda gətirəcəkdir. Artıq on ildir ki, həyata keçirilən Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi möhkəm bünövrədir. Avropa İttifaqı Azərbaycanın ümumi xarici ticarətində təxminən 30 faizi təşkil edərək, bu ölkənin əsas ticari tərəfdaşıdır. Son illər ərzində Azərbaycan iqtisadiyyatı mühüm artım rəqəmlərini nümayiş etdirmişdir. 2008-ci ildə ölkənin iqtisadi artımı 10,8 faiz səviyyəsində olmuşdur. Bu, əsasən neft və qaz sektoru ilə bağlıdır. Lakin hazırkı maliyyə və iqtisadi böhran həmin inkişafa ciddi təhlükədir. Bu böhran, həmçinin bizə də aiddir. Bu baxımdan, əlbəttə ki, iqtisadiyyatın şaxələndirilməsi Azərbaycanın uzunmüddətli inkişafı üçün mühüm əhəmiyyət kəsb edir. Biz etiraf edirik ki, münasibətlərimizi irəliyə doğru aparmaq istəyirik və bunu edə bilərik. Bu məsələ Prezident Əliyevin mənimlə görüşündə vurğulanmışdır. Bir neçə gündən sonra Praqada təqdim olunacaq "Şərq tərəfdaşlığı" isə fürsəti təmin edir.

Mən, həmçinin regional sabitlik sahəsində əlavə irəliləyişin vacibliyini qeyd etdim. Həmin məsələ ilə bağlı özümün və Avropa İttifaqının fikirlərini bölüşdüm. Biz hesab edirik ki, enerji Avropa İttifaqı ilə Azərbaycan arasında daha sıx münasibətlər üçün çox mühüm amildir. Əməkdaşlığımızın gücləndirilməsi ilə bağlı fikirlərdə yekdilik.

Bildiyiniz kimi, təhlükəsizlik Avropa İttifaqı üçün ən vacib prioritetdir. Azərbaycan həm hasilatçı, həm tranzit ölkə baxımından əhəmiyyətli tərəfdaşdır. Vəziyyəti təhlil etdiyinə görə mən Prezident Əliyevə öz dərin təşəkkürümü bildirmək istəyirəm. Mən Prezident Əliyev ilə xüsusi olaraq Nabukko layihəsini müzakirə etdim. Hesab edirik ki, bu layihə bütöv region və Avropa üçün önəmlidir. Azərbaycan tərəfindən enerji siyasəti sahəsində qəbul edilmiş çətin, lakin cəsarətli qərarları alqışlayıram. Fikrimizcə, bu, elə bir mühüm sahədir ki, Azərbaycan ilə

Avropa İttifaqı konkret fayda əldə edə bilərlər. Bir sözlə, göndərəcəyimiz mesaj müsbətdir. Biz Azərbaycan ilə bir çox sahələrdə birgə işləmək arzusundayıq. Biz Avropa ilə daha sıx əməkdaşlığın aparılması məqsədilə Azərbaycan tərəfindən atılmış bütün addımları alqışlayırıq. Hesab edirəm ki, bu, həm Azərbaycanın, həm də bütövlükdə Avropa İttifaqının marağındadır.

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bəyanatı**

Hörmətli xanımlar və cənablar,

İlk öncə, mən Brüsselə yenidən səfər etmək məqsədi ilə göndərdiyi dəvətinə görə cənab Sədrə minnətdarlığımı bildirmək istəyirəm. Xatirimdədir ki, sonuncu səfərim zamanı biz strateji enerji tərəfdaşlığı haqqında Memorandum imzaladıq. Həmin vaxtdan etibarən, Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlər uğurla inkişaf etmişdir. Biz münasibətlərimizə çox mühüm əhəmiyyət veririk. Bugünkü söhbət bir daha göstərdi ki, həmin münasibətlər hər iki tərəf üçün necə inkişaf etməlidir. Mən ölkəmizin iqtisadi inkişafı ilə bağlı söylədiyi sözlərə görə cənab Sədrə dərin minnətdarlığımı bildirirəm. Faktiki olaraq, son beş il ərzində, ölkəmizdə görünməmiş iqtisadi artım müşahidə olunmuşdur. Ümumi daxili məhsul 2,6 dəfə, sənaye istehsalı 2,5 dəfə, büdcə xərcləri isə, 10 dəfə artmışdır. Bu il, iqtisadi böhrana və neftin qiymətlərinin gözəçarpan dərəcədə bir neçə dəfə aşağı düşməsinə baxmayaraq, biz artımı davam etdirəcəyik. Cari ilin birinci rübündə iqtisadiyyatımız 4 faizdən çox artmışdır. Ən vacibi isə ondan ibarətdir ki, qeyri-neft iqtisadiyyatı 14 faiz artmışdır. Bu, aydın şəkildə onu göstərir ki, bizim iqtisadi inkişafın şaxələndirilməsi, sərmayələr və iqtisadi islahatlar siyasətimiz onunla nəticələnmişdir ki, biz artıq neft və qazdan asılı deyilik. Neft və qaz iqtisadiyyatımızda əvvəl olduğu kimi həlledici rol oynamır. Biz iqtisadi islahatları davam etdiririk. Ötən il, Dünya Bankı özünün "Doing Business" hesabatında Azərbaycanı bir nömrəli islahatçı ölkə elan etmişdir.

Azərbaycanda, həmçinin siyasi islahatlar aparılır. İqtisadi və siyasi islahatlar paralel şəkildə həyata keçirilir. Bizim üçün Avropa İttifaqı ilə münasibətlər vacibdir, çünki biz istəyirik ki, həyatımızın bütün meyarları Avropa İttifaqının meyarlarına uyğun olsun. Həmin əlaqələrimiz çox möhkəmdir. Onların yaxşı gələcəyi var və ikitərəfli maraqlara əsaslanır.

Enerji cənab Sədr ilə ciddi şəkildə müzakirə etdiyimiz məsələlərdən biri idi. Mən Avropada müzakirə olunan layihələrə bir daha öz dəstəyimi bildirdim. Azərbaycan Xəzərdən Qərbə gedən boru kəmərlərinin tikintisini başlayan ölkə oldu. Məhz bizim təşəbbüslərimiz və işlərimiz əsasında bu gün biz Nabukko, Türkiyə-Yunanıstan-İtaliya, Transadriatik qaz kəmərləri və digər layihələr haqqında danışa bilərik, çünki biz bütün zəruri ilkin işləri artıq yerinə yetirmişik. Bu gün, nəhəng neft və qaz ehtiyat-

ları, müasir infrastruktur, boru kəmərləri və önəmli məkanda yerləşən Azərbaycan əlbəttə ki, regional enerji təhlükəsizliyi və Avropanın enerji təhlükəsizliyində mühüm rolunu davam etdirir. Avropa Azərbaycanın böyük tərəfdaşıdır. Əminəm ki, bu səfər və gələcəkdə atılacaq addımlar həmin münasibətləri möhkəmləndirəcəkdir.

Mən dəvətə, o cümlədən məhsuldar və səmimi söhbətə görə cənab Sədrə bir daha minnətdarlığımı bildirmək istəyirəm və bu söhbət gələcəyimiz üçün çox vacibdir.

Sağ olun!

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa Komissiyasının sədri Joze Manuel Barrozunun Brüsseldə birgə mətbuat konfransı keçirilmişdir

28 aprel 2009-cu il

İşçi nahardan sonra Azərbaycan Prezidenti İlham Əliyev və Avropa Komissiyasının sədri Joze Manuel Barrozu birgə mətbuat konfransı keçirmişlər.

Cənab Joze Manuel Barrozu və Prezident İlham Əliyev əvvəlcə jurnalistlər qarşısında çıxış etdilər.

Sonra jurnalistlərin suallarına cavab verildi.

***Sual (Şahin Cəfərov, AzərTAc):*** Sualım Prezident Əliyev və cənab Barrozuyadır. Həm Azərbaycan, həm də Ermənistan "Şərq tərəfdaşlığı"nın üzvləridir. Halbuki Ermənistan Azərbaycan ərazilərini hələ də işğal altında saxlayır. Vəziyyətlə bağlı rəyinizi bilmək istərdik.

***İlham Əliyev:*** Belə suala mən Azərbaycanda tez-tez cavab verirəm, ona görə də, özüm birinci başlayım. Biz bu məsələni cənab Sədrlə müzakirə etdik. Əlbəttə ki, uzun illər ərzində Ermənistan tərəfindən torpaqlarımızın davamlı işğalı nəinki Azərbaycan, o cümlədən regional təhlükəsizlik və sabitlik üçün ən böyük təhdiddir. Bu, regionumuzda təxminən iki onillikdir ki, müşahidə etdiyimiz ən böyük ədalətsizlikdir. Azərbaycanın beynəlxalq səviyyədə tanınmış əraziləri qonşu ölkənin işğalı altındadır. Bu işğal nəticəsində bir milyon azərbaycanlı ölkə daxilində qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Azərbaycanlılara qarşı aparılmış etnik təmizləmə siyasəti nəticəsində Dağlıq Qarabağın inzibati sərhədlərinin ətrafında yerləşən yeddi rayon hazırda Ermənistan silahlı qüvvələrinin nəzarəti altındadır. Biz münaqişəni beynəlxalq hüquq normaları, o cümlədən ATƏT-in qərarları və Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin ərazimizdən qeyd-şərtsiz çıxmasını tələb edən qətnamələri əsasında həll etməyə çalışırıq. Bəzən Ermənistanın mövqeyi Dağlıq Qarabağda yaşayanların öz müqəddəratını təyin etmək hüququna əsaslanır. Bu hüquq o demək deyil ki, öz müqəddəratını təyin etmək Azərbaycanın ərazi bütövlüyünün pozulmasına gətirib çıxarmalıdır. Ermənilər bir millət kimi öz müqəddəratını artıq təyin ediblər. Onlar suveren Ermənistan dövlətinə malikdirlər. Əgər bu məntiqlə yanaşsaq, dünyada əhalisi erməni olan 20 dövlət yarana bilər. İkincisi, ermənilərin və azərbaycanlıların Dağlıq Qarabağda öz müqəddəratını təyin etməsi suveren Azərbaycan dövlətinin hüdudları çərçivəsində baş verə bilər və verməlidir. Beynəlxalq hüququn normaları bunu tələb edir. Azərbaycan bu mövqedə qətiyyətlə dayanır və əminəm ki, münaqişə yalnız bu əsaslarla həll oluna bilər.

***Joze Manuel Barrozu:*** Bəli, əlbəttə ki, sizin qeyd etdiyiniz kimi, həm


www.aliyevheritage.org

Azərbaycan, həm də Ermənistan "Şərq tərəfdaşlığı" çərçivəsində tərəfdaşlarımızdır. İcazə verin bir daha vurğulayım ki, biz Dağlıq Qarabağ münaqişəsinin həlli məqsədi ilə Ermənistan və Azərbaycan arasında danışıqların davam etdirilməsinə yönəlmiş bütün səyləri yüksək qiymətləndiririk. Ümid edirik ki, bu sahədə müəyyən irəliləyiş olacaq. Biz bu yaxınlarda həmin müzakirələrin keçirilməsinə çağırırıq. Bilirəm ki, Prezident Əliyev Praqada Ermənistan prezidenti ilə görüşəcək. Biz bu problemin həllinə yönəlmiş səyləri dəstəkləyirik, çünki bu, elə problemdir ki, konstruktiv və yaxşı münasibətlər qurmaq istədiyimiz hər iki ölkəyə təsir göstərir. Biz regionda gərginliyin azaldılması üçün atılan hər bir addımı dəstəkləyəcəyik. İnanırıq ki, regionda daha yaxşı mühit yaratmaq üçün, müəyyən irəliləyişə nail olmaqdan ötrü bir sıra konkret aspektlər vacibdir.

***Sual ("Sabah Daily" qəzeti):*** Sualım Sədr Barrozuya və Prezident Əliyevədir. Ermənistan ilə Türkiyə arasında son yaxınlaşmanı müzakirə etdinizmi? Məsələ ilə bağlı mövqeyinizi bilmək istərdik.

***Joze Manuel Barrozu:*** Bu dəfə, mən başlayım. Bəli, məsələni müzakirə etdik. Bizim çox yaxşı və səmimi söhbətimiz oldu. Dostlar arasında hər bir şey müzakirə olunur. Biz bu məsələni çox açıq şəkildə müzakirə etdik. Əvvəlcə icazə verin bildirim ki, mən məsələnin Azərbaycan üçün həssaslığını tam anlayıram. Biz bunu anlayırıq. Prezident Əliyev məsələnin Azərbaycan xalqı üçün nə olduğunu çox aydın şəkildə bildirdi. Eyni zamanda, siz anlayırsınız ki, Avropa İttifaqı kimi biz regionda istənilən vaxt gərginliyin azaldılmasından çox məmnunuq. Türkiyə ilə Ermənistan arasında gərginliyin azaldılması faktına gəldikdə isə hesab edirəm ki, biz bunu alqışlayırıq. Buna görə də biz məsələni alqışlayırıq, çünki Türkiyə ilə Ermənistan arasında ənənəvi olaraq çox mühüm problemlər var. Hesab edirik ki, bu, bütöv region üçün faydalı ola bilər. Beləliklə, biz bu müsbət hadisəni alqışlayırıq. Lakin bu, o demək deyil ki, biz Dağlıq Qarabağ məsələsinin həllini istəmirik və mən çox aydın şəkildə qeyd edirəm ki, biz ümid edirik və çox istəyirik ki, Azərbaycan və Ermənistan problemin həllinə nail olsunlar. Biz bunu əvvəlcə də rəsmən qeyd etmişik. Bu gün mən Prezident Əliyevə bunu bildirdim və məsələnin Azərbaycan xalqı üçün nə qədər həssas olduğunu onun tərəfindən çox açıq və aydın şəkildə izah edildiyinə görə, ona minnətdarlığımı bildirmək istəyirəm.

***İlham Əliyev:*** Biz Sədr Barrozu ilə çox geniş şəkildə bir çox məsələləri, o cümlədən regional inkişaf və əməkdaşlıq məsələlərini müzakirə etdik. Əlbəttə ki, biz regional əməkdaşlıqdan danışarkən, sizin də sualınızda qeyd etdiyiniz regiondakı son hadisələrdən yan keçə bilməzdik. Biz bu məsələ ilə bağlı mövqeyimizi dəfələrlə bildirmişik. Bu mövqe ondan ibarətdir ki, biz heç vaxt nə digər bir ölkənin daxili işlərinə qarışırıq, nə də ki, iki suveren ölkə arasındakı münasibətlərə. Bu, Türkiyə və Ermənistan tərəfindən qəbul edilə bilən bir qərardır. Öz aralarında münasibətləri necə davam etdirmək onların öz seçimidir. Bu məsələnin tari-

xi kökləri ilə bağlı bəzi şərhlərə gəldikdə isə, xatırlatmaq istəyirəm ki, Türkiyə ilə Ermənistan arasında sərhəd 1993-cü ildə Ermənistan tərəfindən Azərbaycan ərazilərinin işğalı nəticəsində bağlanmışdır və bu gün bu işğal davam edir. Bu gün Ermənistan Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərini hələ də işğal altında saxlamaqda davam edir. Bir daha demək istəyirəm ki, biz belə bir mövqedə deyilik ki, bu iki ölkə arasında münasibətlərin irəliyə getməsinə imkan verək və ya onun qarşısını alaq. Yalnız bir şeyi qeyd etmək istəyirəm ki, bizim də öz siyasətimizi regionda mövcud olan yeni reallığa uyğunlaşdırmaq, regionda yarana biləcək yeni vəziyyətə uyğun addımlar atmaq hüququmuz var. Bu gün biz bu məsələ ilə bağlı müxtəlif mənbələrdən bir çox ziddiyyətli şərhləri eşidirik. Bəziləri deyir ki, ilkin şərtlərlə "yol xəritəsi" tərtib edilmişdir. Digər mənbələrdən eşidirik ki, ilkin şərtlər haqqında "yol xəritəsi"ndə heç nə deyilməyib. Bu, bir növ söz oyunudur. Hesab edirəm ki, dünya, region və Azərbaycan xalqı nəyin baş verdiyini bilməlidir. Dağlıq Qarabağ münaqişəsinin nizamlanması Türkiyə ilə Ermənistan arasında yaxınlaşma kontekstindən çıxarılıb, ya yox? Bu, çox sadə cavab tələb edən sadə bir sualdır.

***Sual (Xədicə İsmaylova, "Azadlıq" radiostansiyası):*** Azərbaycanda demokratik sahədə inkişafla bağlı göstəricilərə gəldikdə nə deyə bilərsiniz? Bu baxımdan, əməkdaşlıq sazişi əsasında yeni mərhələ haqqında danışmaq olarmı?

***Joze Manuel Barrozu:*** Bu yaxınlarda biz öz hesabatımızı dərc etdik. Mənim Prezident Əliyevlə çox mehriban və açıq söhbətim oldu. Biz Azərbaycanda qanunun aliliyi ilə bağlı göstərilən səyləri çox yüksək dəyərləndiririk. Bir neçə dəfə burada qeyd edilmişdir ki, ölkədəki meyarlar Avropa İttifaqının meyarlarına uyğunlaşdırılmalıdır. Biz bu sahədə irəliləyişi görmək arzusundayıq. Cənab Əliyevin dediyi kimi, iqtisadi islahatlar, həmçinin siyasi islahatlarla müşayiət olunmalıdır. Hesab edirəm ki, demokratiya ən münasib siyasi sistemdir və Azərbaycan öz demokratik sistemi və təsisatları, qanunun aliliyi baxımından bir çox işlər görmüşdür.

***İlham Əliyev:*** Əlavə etmək istəyirəm ki, çiçəklənən davamlı cəmiyyəti qanunun aliliyi və cəmiyyətin güclü şəkildə demokratikləşməsi olmadan qurmaq mümkün deyil. İqtisadi və siyasi islahatlarımız paralel şəkildə aparılır. Onlar bir-birini tamamlayır. Mən qətiyyətlə inanıram ki, ciddi iqtisadi və sosial problemlər, o cümlədən yoxsulluq olan ölkədə əsl demokratik dövlət qurmaq çox çətin olacaq. Ona görə də səylərimiz uğurla azaltdığımız yoxsulluğun aradan qaldırılmasına yönəlib. Son beş il ərzində yoxsulluq səviyyəsi xeyli azalmışdır. Ölkəmizin demokratikləşməsi də uğurla getmişdir. Avropa İttifaqı və Avropa Şurası ilə münasibətlərimiz gündəlikdə bu məqsədi güdür. Əgər bu, Azərbaycanın məqsədi olmasaydı, biz bunu etməzdik. Xüsusən nəzərə alsaq ki, Azərbaycan güclü iqtisadi potensiala malik olan və özünü təmin edən ölkədir. Azərbaycan müstəqil ölkə kimi yaşamaq və uğurla inkişaf etmək qabiliyyətini artıq nümayiş etdirmişdir. Biz öz siyasi sistemini, sosial problemlərin həllini və iqtisadi azadlıqları Avropa İttifaqının meyarlarına uyğun-

laşdıran müasir ölkəni, müasir Azərbaycanı qurmaq istəyirik və hesab edirəm ki, Avropa İttifaqı, xüsusən də Qonşuluq Proqramı və "Şərq tərəfdaşlığı" bu müsbət meyli gücləndirəcəkdir. Sağ olun.

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Brüsseldə Avropa Siyasi Mərkəzinin nümayəndələri ilə görüşmüşdür

28 aprel 2009-cu il

Azərbaycan Prezidenti İlham Əliyevin Brüsseldə Avropa Siyasi Mərkəzinin nümayəndələri ilə "Azərbaycan: Avropa İttifaqı üçün getdikcə əhəmiyyəti artan tərəfdaş" mövzusunda görüşü olmuşdur.

Görüşü mərkəzin rəhbəri Hans Martens açdı. Azərbaycanda gedən uğurlu inkişafdan danışan natiq, ölkəmizin Avropa qurumları və Avropa İttifaqı ilə əlaqələrinin də müvəffəqiyyətlə genişləndiyini söylədi.

Prezident İlham Əliyev görüşdə çıxış etdi, suallara cavab verdi.

***Aparıcı:*** Çox sağ olun. Zənnimcə, iqtisadi inkişafla bağlı suallarımıza başlaya bilərik. Yaxşı olardı ki, deyəsiniz, ölkənizin iqtisadi inkişafı iqtisadi və maliyyə böhranı zamanı davam edirmi? Fikrimcə, hazırkı şəraitdə gördüyünüz tədbirlər ölkənizin uzunmüddətli iqtisadi inkişafının gücləndirilməsinə yönəlmişdir. Bilirik ki, ölkənizin iqtisadi inkişaf templəri çox yüksəkdir. Bir sözlə, bu gün hamımız bura toplaşmışıq ki, uğurlu işlər haqqında, o cümlədən çətin məsələlər haqqında cənab Prezidentlə fikir mübadiləsi aparaq.

***Sual:*** İcazə verin özümü təqdim edim. Mənim adım Yevgeni Kirilovdur. Mən Avropa Parlamentinin Bolqarıstandan olan üzvüyəm. Azərbaycanın bu gün iqtisadi inkişaf sahəsində əldə etdiyi nailiyyətlərdən məmnunluq hissi duyuruq. Cənab Prezident, maraqlı təqdimatınıza görə olduqca minnətdarıq. Biz verdiyiniz məlumatları qeyd etdik. Bildirmək istəyirəm ki, mən Azərbaycanda keçirilən prezident seçkilərində müşahidəçi olmuşam. Biz bir orta məktəbdə olanda orada müəllimlərin ölkənin gələcəyi və əmək haqlarının bir neçə dəfə artırılması haqqında söhbətlərini eşitdik. Zənnimcə, bu sahədə Azərbaycanın əldə etdiyi nailiyyətlər sözün əsil mənasında təqdirəlayiqdir.

Dağlıq Qarabağ münaqişəsi artıq 20 ildir ki, mövcuddur. Bu problem uzun müddətdir ki, davam edir. Bir çox səylər də göstərilib. Lakin öz dostlarımız arasında bu məsələni müzakirə edərkən qeyd edirik ki, Avropa təsisatları problemin həlli üçün kifayət dərəcədə fəal rol oynamır. Bu baxımdan təbii ki, irəliyə doğru addımlar atılmalı, xüsusi qərarlar qəbul edilməlidir. Fikrimcə, zəruri hesab edilən etimadın qurulması tədbirləri məqsədi ilə heç olmasa Dağlıq Qarabağın ətrafında yerləşən və erməni silahlı qüvvələrinin işğalı altında olan rayonlarla bağlı hər hansı addım atılmalıdır. Hesab edirəm ki, Avropa İttifaqı burada daha fəal rol oynamalıdır. Lakin fikrimcə, Rusiya da fəal olmalıdır. Bilirəm ki, Siz Rusiyaya səfər etmisiniz. İndi isə Brüsseldə səfərdəsiniz. Fikrinizcə, qeyd olunan hər iki tərəf daha fəal olarsa Dağlıq

Qarabağ münaqişəsinin həllində hansı irəliləyişi əldə etmək olar?

***Aparıcı:*** Cənab Prezident, yaxşı olardı ki, əlavə digər iki sual da verilsin, sonra hamısına birlikdə cavab verəsiniz.

***Sual:*** Sağ olun, mən TÜSİAB-ı - Türkiyə Sənayeçilər Birliyini təmsil edirəm. Xəzərdə hasil olunan qazın Avropaya nəqli üçün Avropa İttifaqının dəstəyi ilə yaradılacaq Xəzər konsorsiumu və region üçün qaz təchizatı ilə bağlı rəyinizi bilmək istərdim.

***Sual:*** Çox sağ olun, mən Aida Əliyevayam. Mən Avropadakı Azərbaycanlı Tələbələr Forumunun nümayəndəsiyəm. Brüssel Universitetində təhsil alıram.

Hörmətli cənab Prezident, Siz çıxışınızda ölkəmizin iqtisadi göstəriciləri və digər sahələrdəki inkişafı barədə məlumat verdiniz. Mən belə bir sual vermək istəyirəm. Hazırda bir çox azərbaycanlı tələbə Avropada təhsil alır və təhsillərini başa vurduqdan sonra iş yeri axtarırlar. Avropanın akademik dairələri Azərbaycan tələbələrindən çox razıdırlar. Bilmək istərdim ki, Avropada təhsil alan azərbaycanlı tələbələrin Azərbaycana qayıtdıqdan sonra işlə təmin olunma perspektivləri necədir?

***İlham Əliyev:*** İlk olaraq burada Dağlıq Qarabağ probleminin həlli ilə bağlı sual verildi. Hazırda danışıqlar ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə aparılır. Minsk qrupunun həmsədrləri 3 ölkədən – Amerika Birləşmiş Ştatları, Fransa və Rusiyadan ibarətdir. Bu ölkələr dünyanın aparıcı ölkələridir. Avropa İttifaqının üzvü kimi Fransa həmsədr ölkədir, bundan başqa Birləşmiş Ştatlar və Rusiya da var. Münaqişə artıq 20 ildir ki, davam edir. Sualınızda düzgün qeyd etdiniz ki, hazırda nəinki Dağlıq Qarabağ, o cümlədən keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati sərhədlərindən kənarda yerləşən 7 rayon da işğal altındadır. Məhz həmin 7 rayondan qovulan azərbaycanlılar məcburi köçkünlərin əksər hissəsini, yəni 700 mindən çoxunu təşkil edir. Bu gün həmin rayonlarda hər şey dağıdılıb, heç bir yaşayış yoxdur. Ermənilər hər şeyi yerlə-yeksan edib, məktəbləri, xəstəxanaları, binaları və məscidləri, hətta qəbiristanlıqları dağıdıblar. Onlar Azərbaycanla danışıqlarda bir növ mübadilə vasitəsi kimi həmin torpaqları əllərində saxlayırlar ki, günlərin bir günü Azərbaycan həmin rayonların qaytarılması müqabilində Dağlıq Qarabağın müstəqilliyinə razılıq versin. Bu, heç vaxt baş verməyəcək. Onlar bunu da yaxşı bilirlər ki, Dağlıq Qarabağ Azərbaycanın tarixi ərazisidir. Əgər tarixə nəzər salsaq görərik ki, ermənilər nə vaxt və kim tərəfindən həmin bölgəyə köçürülüblər. Bu hadisələr təxminən 200 il bundan əvvəl baş verib. Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Azərbaycan BMT-yə daxil olanda o, Dağlıq Qarabağla birlikdə qəbul edilib. Buna görə də Azərbaycanın ərazisinin bölünməsi və Dağlıq Qarabağın müstəqil olmasına razılığın verilməsi imkanından söhbət belə gedə bilməz.

Münaqişənin həlli ilə nəticələnə biləcək yeganə yol var. Əvvəlcə, Ermənistan silahlı qüvvələrini Dağlıq Qarabağ ətrafında olan rayonlardan çıxarmalıdır. Biz, eyni zamanda, razılaşırıq ki, hamı üçün təhlükəsizliyin təmin edilməsi məqsədi ilə

sülhməramlı əməliyyatlar aparıla bilər. Ermənistanla Dağlıq Qarabağ arasında torpaq əlaqəsinin olmasında da problem görmürük. Bu ona görə edilə bilər ki, bölgədə yaşayan insanlar özlərini daha təhlükəsiz hiss etsinlər. Biz, eyni zamanda, Dağlıq Qarabağa Azərbaycanın tərkibində ən yüksək muxtariyyət statusu verilməsinə də razıyıq. Avropada da bu təcrübədən istifadə edirlər. Biz dünyada muxtariyyətin ən yaxşı nümunəsini tətbiq edə bilərik.

Bundan əlavə, qeyd etmək istəyirəm ki, onların dedikləri məntiqsizdir. Onlar Dağlıq Qarabağın müstəqilliyini istəyirlər və bildirirlər ki, Dağlıq Qarabağda ermənilərin öz müqəddəratını təyin etmək hüququ var. Lakin onlar artıq öz müqəddəratını təyin ediblər və Ermənistan dövlətinə malikdirlər. Sabah onlar ABŞ, Fransa, Rusiya və yaşadıqları digər ölkələrdə öz müqəddəratını təyin etmək tələbi ilə çıxış edə bilərlər. Belə olarsa, neçə erməni dövləti yarana bilər? Bu, düzgün yanaşma deyil. Biz ümid edirik ki, hər iki tərəf Minsk qrupunun yaxından iştirakı ilə Azərbaycanın ərazi bütövlüyünün bərpasına, Dağlıq Qarabağ ermənilərinə Azərbaycanın ərazisi çərçivəsində özünüidarəetmə imkanlarının yaradılmasına yardım edəcəkdir.

Növbəti suala gəldikdə, siz Xəzərin şərq sahilində hasil olunan qazın Azərbaycan ərazisi ilə nəql edilməsi məqsədi ilə Xəzər konsorsiumunun yaradılması imkanı haqqında danışdınız. Biz bu haqda eşitmişik. Biz həmin qurumun təfərrüatlarını, onun hansı praktiki addımlar atacağını və nə vaxt atacağını bilmirik. Lakin əvvəlcədən dəfələrlə bildirmişik ki, hər bir ölkə malların öz ərazisindən daşınmasına üstünlük verir. Bu istər neft, istər qaz, istərsə də digər mallar ola bilər.

Azərbaycan əlverişli coğrafi mövqeyə malikdir və əvvəl qeyd etdiyim kimi, bu mövqe mövcud olan infrastruktura əsaslanır. Əgər şərq sahilindəki qonşularımızın bu sahədə arzusu olarsa və bizim ərazimiz vasitəsilə öz mallarını daşımaq istəyərlərsə, biz buna şərait yaradacağıq. Bu baxımdan biz istehlakçıların da səylərini dəstəkləyirik ki, onların karbohidrogen ehtiyatlarına çıxışı daha da asanlaşsın.

Azərbaycan tələbələrinə gəldikdə isə, deyə bilərəm ki, bu yaxınlarda biz gənc azərbaycanlıların xaricdə təhsil alması məqsədi ilə Dövlət Proqramının icrasına başlamışıq. Bu məqsədlər üçün vəsaitlər Dövlət Neft Fondundan ayrılır. Çox qısa müddətdə biz min tələbəyə yardım etməyi planlaşdırırıq. Planlaşdırırıq ki, onlar xaricdə yaxşı təhsil alsınlar.

O ki qaldı, onların qayıdıb işləməsinə, bilirsiniz, bu gün qloballaşan dünyada Avropadan və ABŞ-dan olan bir çox insanlar Azərbaycanda işləyirlər. Azərbaycanlılar da Avropada çalışırlar. Mən bunu normal hesab edirəm. Hər kəsin təhsil almaq hüququ var. Azərbaycan dövləti bu imkanı yaradır və bunu maliyyələşdirir. Əlbəttə ki, ölkəmizdəki inkişaf səviyyəsi dünyanın inkişaf etmiş dövlətlərinin səviyyəsi ilə müqayisə edilə bilməz. Lakin vaxt yetişəcək ki, Azərbaycan da dünyanın inkişaf

etmiş ölkələrindən birinə çevriləcəkdir. İşlə təmin olunmaya gəldikdə deyə bilərəm ki, böyük sosial bəla olan işsizlik son 5 il ərzində demək olar ki, aradan qaldırılmışdır, 760 min iş yeri açmışıq.

Bir əlavə məsələni də qeyd edim: Azərbaycanda fəaliyyət göstərən bir çox xarici və yerli şirkətlərin rəhbərləri xarici ölkə vətəndaşlarıdır. Bu, onu göstərir ki, bizim lazımi bilik və bacarıqlara malik şəxslərə ehtiyacımız var. Ümid edirəm ki, sizin təhsiliniz vətəndə müvafiq iş tapmağa yardım edəcəkdir. Mən bilirəm ki, bu, bütün azərbaycanlıların ürəyindəndir, onların hamısı öz ölkəsində yaşamaq istəyir və ölkəmiz də onların qayıtmasını arzulayır.

***Aparıcı:*** Cənab Prezident, icazə verin, öncə Sizə ünvanladığım sualı bir daha təkrarlayım. İqtisadi və maliyyə böhranı Sizin ölkənizə nə kimi təsir göstərir?

***İlham Əliyev:*** Təbii ki, biz dünya iqtisadiyyatının bir hissəsiyik. Böhranın mənfi təsirini hiss edirik. Bu, xüsusən də müvafiq bazarların olmamasından və istehsal etdiyi məhsulları kifayət qədər ixrac edə bilməməsindən əziyyət çəkən müəssisələrə aiddir.

Lakin bizim müşahidələrimizə və beynəlxalq maliyyə təsisatlarının verdiyi qiymətlərə əsasən, böhran Azərbaycana daha az təsir göstərir. Artıq qeyd etdiyim kimi, iqtisadiyyatımız yenə də inkişaf edir, milli valyuta sabitdir. Bəzən görürük ki, bizim regionda, keçmiş sovet məkanında və hətta Şərqi Avropa ölkələrində milli valyutanın dəyəri 10, 20, 50 faiz aşağı düşür. Bizim güclü maliyyə imkanlarımız var. Bu ilin əvvəlinə olan məlumata görə, Azərbaycanın valyuta ehtiyatları 18 milyard dollara bərabərdir, büdcə kəsiri yoxdur. Təbii ki, biz dövlətin maliyyələşdirdiyi layihələrə düzəliş edə bilərik. Çünki neftin qiymətinin aşağı düşməsi bizə təsir edib, lakin adi vətəndaşlara gəldikdə, onlar əziyyət çəkmirlər. Çünki istehlak mallarının qiymətləri aşağı düşüb. Ərzağın qiymətləri 20-30 faiz aşağı düşüb, bunu digər mallara da aid etmək olar. Zənnimcə, biz böhran dövrünü minimal itkilərlə yaşayacağıq.

***Sual:*** Cənab Prezident, çıxışınıza görə minnətdaram. Mən Amerikanın təhlükəsizlik araşdırmaları ilə məşğul olan qeyri-hökumət təşkilatını təmsil edirəm. Mənim sualım Azərbaycanla OPEK, qaz OPEK-i adlandırılan qurumla münasibətlərin perspektivlərinə aiddir.

***Sual:*** Cənab Prezident, Siz çıxışınızda Avropa İttifaqı ilə əməkdaşlıq və tərəfdaşlığı qeyd etdiniz. Sizin Avropa İttifaqına inteqrasiyanız seçiminizdir, yoxsa məqsədiniz? Nəzərə alsaq ki, iki qonşunuz - Ermənistan və Gürcüstan bu istiqamətdə irəliləyirlər.

***Sual:*** Mən Avropa İttifaqının Sosial və İqtisadi Komissiyasının icra şurasının nümayəndəsiyəm. Biz Avropada yeni enerji dəhlizləri məsələsi ilə məşğuluq, o cümlədən mən Cənubi Qafqazda Demokratiya və Vətəndaş Cəmiyyəti Fondunun rəhbəriyəm.

Zati-aliləri, mənim sualım sırf yeni enerji dəhlizləri ilə bağlıdır. Sizin Nabukko

ilə bağlı real və dəqiq rəyinizi bilmək istərdim. İkincisi, bir həftə sonra İstanbulda Avrasiya İqtisadi Forumu keçiriləcəkdir. Nabukko layihəsinə alternativ bir təklif də var - Qara dənizin dibindən keçməklə Zonquldağı Konstansiya ilə birləşdirən, oradan Polşaya, Baltikyanı ölkələrə və Bolqarıstanın cənubuna gedən boru xəttinin çəkilməsi gündəlikdədir. 2013-cü ildə "Şahdəniz" layihəsinin ikinci fazasının başlanması imkanlarını necə görürsünüz? Avropa İttifaqını təbii qazla təmin edəcək bu cür layihələr üçün müəyyən kvotanın zəruri olması ilə bağlı fikirlərinizi bilmək istərdik.

***İlham Əliyev:*** Bizim OPEK-lə əlaqələrimiz formalaşma mərhələsindədir. Bizim nümayəndələrimiz OPEK-in son bir neçə tədbirində iştirak etmişlər. Bu, birinci dəfə idi ki, baş verirdi. Əvvəllər OPEK-lə əlaqələrimiz olmayıb. OPEK-lə əlaqələrimiz ona görə yox idi ki, biz əvvəllər əsas neft hasilatçısı deyildik. Biz neft istehsalını son illər sürətlə artırmağa başladıq. Amma bizim əməkdaşlıq əlaqələrimizə ehtiyac duyularsa, biz bunları qura bilərik. Bundan əlavə, qeyd etmək istərdim ki, Azərbaycan çox az ölkələrdən biri olmuşdur ki, ümumi işin naminə bu il üçün nəzərdə tutulan neftin istehsal həcmini aşağı salmışdır.

Sizin qeyd etdiyiniz qaz OPEK-i ilə bağlı heç bir şərh verə bilmərəm. 2006-cı ilin sonuna qədər biz Rusiyadan qaz idxal edirdik, indi isə biz qazı Gürcüstana, Türkiyəyə ixrac edirik. Türkiyə qazımızın bir hissəsini yenidən Yunanıstana satır və eyni zamanda, biz qaz sahəsində İranla mübadilə əməliyyatı aparırıq. Eyni zamanda, Rusiyaya gedən qaz borumuz da var.

Buna görə də çıxışımda qeyd etdiyim kimi, biz özümüzü kifayət qədər təhlükəsiz hiss edirik. Avropa İttifaqı ilə münasibətlərimizə gəldikdə isə, biz bu münasibətlərimizin səviyyəsindən məmnunuq. Bu cür münasibətlərdə təşəbbüs həmişə Avropa İttifaqından gəlir. Biz Avropa İttifaqı ilə əlaqələrimizi - Avropa İttifaqı bunu nə qədər istəyirsə, o qədər qurmaq istəyirik və bu təşkilatla əməkdaşlıqda, inteqrasiyada Avropa İttifaqı nə dərəcədə hazırdısa, biz də bir o qədər irəliyə getməyə hazırıq.

Siz sualınızda qeyd etdiniz ki, Gürcüstan və Ermənistan sizin fikrinizcə bu istiqamətdə irəliləyirlər. Lakin onların bu istiqamətdə irəliləmə sürəti də Avropa İttifaqından asılıdır. Buna görə də biz realist olmalıyıq. Əgər Avropa İttifaqı bizi assosiasiya olunmuş, inteqrasiya olunmuş və ya hansısa digər şəkildə görmək istəyirsə, biz buna hazırıq. Lakin eyni zamanda, qeyd etmək istəyirəm ki, biz öz siyasətimizi populizm üzərində yox, realizm üzərində qururuq. Biz burada və ya orada olmaq istəyimizlə bağlı hər hansı bir bəyanatdan uzaq olmağa çalışırıq. Bu bir prosesdir. Buna biz də hazır olmalıyıq, Avropa da hazır olmalıdır.

Yenə də demək istəyirəm ki, bu gün bizim Avropa İttifaqı ilə əlaqələrimiz çox müsbət istiqamətdə inkişaf edir və əlbəttə ki, biz "Şərq tərəfdaşlığı"na böyük ümidlərlə baxırıq. Mən belə düşünürəm ki, bu təşəbbüs mütləq Azərbaycan ilə Av-

ropa İttifaqı arasında daha yaxın əməkdaşlığa xidmət etməlidir.

Enerji dəhlizləri və o cümlədən, Nabukko ilə əlaqədar demək istəyirəm ki, biz təşəbbüslərimizin nəticəsində meydana çıxan bütün layihələri dəstəkləyirik. Nabukko layihəsindən danışdıqda, biz bu layihənin necə meydana gəlməsinə nəzər salmalıyıq. Bu layihə irəli sürülən zaman Azərbaycan potensial təchizatçı ölkələr sırasında deyildi. Azərbaycan yalnız tranzit ölkə kimi nəzərdə tutulurdu. Potensial təchizatçılar digər ölkələr idi və onlar bu gün də Nabukko layihəsi üçün mühüm ehtiyatlara malik ölkələr sayılırlar. Lakin sonradan aydın oldu ki, Azərbaycan təkcə tranzit deyil, eyni zamanda, təchizatçı ölkə ola bilər, biz bu barədə daha ətraflı danışmağa başladıq. Biz ötən ilin noyabrında Bakıda böyük enerji sammiti keçirdik və orada Nabukko, həmçinin hazırda mövcud olan və gələcəkdə nəzərdə tutulan digər layihələrə iştirakçı ölkələr tərəfindən güclü dəstək verildi. Sammitin birgə bəyannaməsinə imza atan ölkələr sırasında Avropa İttifaqına üzv olan doqquz ölkə də var idi.

Fikrimcə, Nabukko layihəsinin reallaşmasını sürətləndirmək üçün bir neçə mühüm məsələ öz həllini tapmalıdır. Əvvəla, tranzit məsələləri. Tranzit ölkələrlə tranzit müqaviləsi yoxdur. Bu məsələ bir ildən artıqdır ki, həllini gözləyir. Bizim mövqeyimiz tamamilə beynəlxalq normalara, beynəlxalq təcrübəyə əsaslanmışdır və bu mövqe Avropa İttifaqı tərəfindən dəstəklənir. İkincisi, güclü siyasi dəstək. Belə düşünürəm ki, bunsuz Nabukko layihəsini həyata keçirmək çətin olacaqdır. Üçüncüsü, çox güclü maliyyə öhdəliyi. Əgər Nabukko layihəsi konsorsiumunda iştirak edən ölkələrin siyahısına baxsaq, görərik ki, öz hesablarına milyardlarla dollar məbləğində vəsait qoymaq onlar üçün çətin ola bilər. Beynəlxalq maliyyə yardımına, bank kreditlərinə böyük ehtiyac var. Hətta biz Bakı-Tbilisi-Ceyhan boru xəttini inşa edərkən, bp və digər şirkətlərin bu layihədə iştirakına baxmayaraq, xərclənən vəsaitin 75 faizi müxtəlif banklardan alınan vəsait idi. Bu gün biz maliyyə paketi ilə bağlı vədverici addımların atıldığını görürük. Digər mühüm məsələ bütün iştirakçı ölkələr, o cümlədən hasilatçı, istehlakçı və tranzit ölkələr arasında güclü koordinasiyanın olmasıdır. Buna görə də düşünürəm ki, bütün bu addımlar atılarsa, layihənin yaxşı gələcəyi ola bilər.

"Şahdəniz" yatağının ikinci fazası ilə bağlı sualınıza qismən cavab vermişəm. Bununla bağlı yubanma var və bu yubanma bizim səhvimiz üzündən deyil, tranzit məsələsinin həll olunmaması səbəbindən baş verir. Biz "Şahdəniz" yatağının ikinci fazası ilə bağlı azı iki il vaxt itirdik. "Şahdəniz" qazına Avropada böyük ehtiyac var.

Qaz məsələsinə bir daha qayıdaraq bildirmək istəyirəm ki, biz bu prosesi başladıq, boru kəmərlərini çəkdik. Boru kəmərlərini Türkiyəyə çəkdik, indi isə həmin kəmərlə nəql olunan qaz Yunanıstana çatdırılır. Bizim üçün bazar qıtlığı yoxdur, ətrafımızda bazarlar çoxdur. Qonşu ölkədən bizə təklif olundu ki, biz istədiyimiz qədər qazı onlara sata bilərik. Ona görə də layihəyə bilərəkdən və ya bilməyərəkdən

mane olan tərəflər bunu nəzərə almalıdır.

***Aparıcı:*** Çox sağ olun. Cənab Prezident, Siz "Şərq tərəfdaşlığı" təşəbbüsünü burada xüsusilə qeyd etdiniz. Siz Avropa İttifaqı ilə əməkdaşlıq etmək istəyirsiniz, Avropa İttifaqı da bunu istəyir. Bilmək istərdik ki, bu sahədə Sizin üçün perspektivlər nədən ibarətdir?

***Sual:*** Cənab Prezident, sovet dönəmində və hətta ondan əvvəl quruda vaxtilə hasil edilən neft yataqlarında ekoloji vəziyyətlə bağlı hökumətinizin planları haqqında bilmək istərdik. Həmin yerlərin çirklənmədən təmizlənməsi üçün hazırda Sizin hökumətiniz hansı addımları atır?

***Sual ("Ceyns Difens" jurnalının müxbiri):*** Azərbaycanla Ermənistan arasında Dağlıq Qarabağ münaqişəsi ilə bağlı aparılan danışıqlar təbii ki, müsbət haldır. Lakin bilirik ki, Ermənistan ümumi daxili məhsulun böyük bir hissəsini hərbi xərclərə yönəldir. Ermənistan hərbi baxımdan daha da güclənmək fikrindədir. Mənim Sizə iki sualım var: Bu cür addımlar iki ölkə arasında etimad tədbirlərini sual altına qoymurmu və Dağlıq Qarabağ məsələsinin sülh yolu ilə nizamlanmasını çətinləşdirmirmi? İkinci sualım, Azərbaycan Ermənistanın bu addımına qarşı hansı tədbirləri görür?

***İlham Əliyev:*** "Şərq tərəfdaşlığı" məsələsi ilə bağlı bizim bu yaxınlarda - may ayında Praqada görüşümüz olacaqdır. Təbii ki, bizim də gözləntilərimiz var. Bəlkə də indi nəyi gözlədiyimiz haqda dəqiq nəsə demək çətin olar. Lakin vacib məsələ odur ki, "Şərq tərəfdaşlığı" proqramında həm Avropaya, həm də Azərbaycana fayda gətirəcək konkret və dəqiq elementlər mövcuddur. İlk mərhələdə Avropa Qonşuluq Siyasəti proqramına start verildi və biz bunun yaxşı bir addım olduğunu başa düşdük. Bu regiona verilən önəmin göstəricisi idi. Lakin indi "Şərq tərəfdaşlığı" proqramından biz daha çox şey gözləyirik. Biz Avropaya, oradakı bəzi təhsil proqramlarına daha asanlıqla çıxış əldə etmək istəyirik. Ümumiyyətlə, məqsədimiz Avropa İttifaqının qabaqcıl təcrübələrinə çıxış əldə etmək, həyatımızın müxtəlif sahələrini Avropa İttifaqının standartlarına yaxınlaşdırmaq və gələcək illər üçün çiçəklənən və dayanıqlı ölkə qurmaqdır.

Ətraf mühitin qorunması məsələlərinə gəldikdə isə, bu istiqamətdə biz çalışmalıyıq. Çünki əfsuslar olsun ki, hələ Sovet İttifaqı, hətta Rusiya imperiyası dövründə neft və qaz sahələrinin işlənilməsi nəticəsində biz ətraf mühitin ciddi şəkildə çirklənməsinə məruz qalmışıq. 1991-ci ildə müstəqil ölkə kimi bizə qalan çirklənmiş ərazi, çürümüş infrastruktur və neft istehsalının aşağı düşməsi idi. Azərbaycan dünya neft istehsalının 50-70 faizini təmin edən bir məkan olub. 1990-cı illərdə biz hər şeyi yenidən başlamalı olduq. Xarici şirkətlər neftin hasilatı və işlənilməsi sahələrinə sərmayə qoymaqda maraqlı idi. Lakin ətraf mühit elə bir məsələ idi ki, biz onunla özümüz məşğul olmalı idik. Hətta bu məsələ ilə bağlı bizə kömək etmək üçün beynəlxalq maliyyə təsisatlarına ünvanladığımız müraciətlər

cavabsız qoyuldu. Yalnız vəsait toplayandan sonra biz sərmayə qoymağa başladıq. Ətraf mühitin qorunması ilə bağlı biz böyük bir proqrama start verdik. Bakı ətrafında ən çox çirklənmiş bəzi ərazilər artıq təmizlənmiş və onların yerində parklar salınmışdır. Keçmişin mirasından yaxa qurtarmaq və bütün çirklənmiş əraziləri münbit hala gətirmək üçün biz böyük vəsaitlər sərf etməyi planlaşdırırıq.

Ermənistanın müdafiə xərcləri məsələsinə gəldikdə isə, siz tamamilə doğru deyirsiniz. Ölkənin ümumi daxili məhsuluna (ÜDM) nisbətdə bu, yəqin ki, regionda ən yüksək göstəricidir. Əgər siz rəqəmlərə diqqət yetirsəniz görərsiniz ki, bizim iqtisadi imkanlarımız hərbi sahəyə daha çox sərmayə yatırmağa imkan verir. Hətta bəzən bəzi beynəlxalq qurumlar tərəfindən tənqid edilirik ki, biz regionu hərbiləşdiririk. Bu isə bizim işğala qarşı təbii cavabımızdır. Mən sizə sadə bir rəqəmi deyim. Bildiyimə görə, Ermənistanın dövlət büdcəsi təxminən 2 milyard dollardır. Azərbaycanın hərbi xərcləri isə 2 milyard dollar təşkil edir. Başqa sözlə desək, Azərbaycanın hərbi xərcləri Ermənistanın dövlət büdcəsinə bərabərdir. Biz hərbi xərcləri istədiyimiz qədər artıra bilirik, onlar isə imkanları çatdığı qədər. Bu, böyük bir fərqdir. Bu səbəbdən də onlar məsuliyyətli olmalı, işğala son qoymalı və bizi digər addımlar atmağa məcbur etməməlidirlər.

***Aparıcı:*** Digər suallara keçək.

***Sual:*** Cənab Prezident, maraqlı çıxışınıza görə minnətdarıq. Mən Avropa İttifaqının mülki böhranların idarə edilməsi qurumunu təmsil edirəm. 1990-cı illərdən etibarən mən Azərbaycana səfər edirdim, ölkənizdə bir çox maraqlı şəxslərlə tanış olmuşam, söhbətlərim olub, bölgədə silahlanma məsələlərini araşdırmışam. Məhz bu məsələ ilə bağlı Sizin fikirlərinizi öyrənmək istərdik. Lakin eyni zamanda, olmazmı ki, Cənubi Qafqazın üç ölkəsi Rusiya və digər tərəflərin, o cümlədən Minsk qrupunun vasitəçiliyi olmadan "Qafqaz icması" təşəbbüsü ilə taleyini öz əllərinə götürərək danışıqlar masasına əyləşib ümumi nəticəyə gəlsinlər. Zənnimcə, nəqliyyat, münaqişələrin həlli və enerji məsələləri üzrə "Qafqaz icması" qrupunun yaradılması Azərbaycanın da marağında olardı. Əslində bu, Cənubi Qafqazın üç ölkəsinin maraqlarına uyğun ola bilərdi. Sağ olun.

***Sual:*** Cənab Prezident, verilən xəbərlərdə qazın qiyməti ilə bağlı Türkiyə ilə Azərbaycan arasında problemin olduğu bildirilmişdi. Türkiyə rəsmiləri bunu inkar edir. Məsələ ilə bağlı yekun sözünüzü bilmək istərdik. İkinci sualım: Türkiyə ilə Ermənistan arasında sərhədlərin açılmasına dair razılaşma paketində Dağlıq Qarabağ məsələsi qoyulmasa Sizin reaksiyanız necə olardı? Nəhayət, sonuncu sualım: cənab Joze Manuel Barrozu Türkiyə-Ermənistan münasibətlərinin normallaşmasına hər hansı bir formada sərt reaksiya verməməyi Sizdən xahiş edibmi? Çox sağ olun.

***Sual:*** Çox sağ olun, cənab Prezident. Mən elə həmin mövzu, yəni, Türkiyə-Ermənistan yaxınlaşması və sərhədlərin açılması ilə bağlı sual vermək istəyirdim. Lakin məndən əvvəl artıq bu sual verildi. Buna görə də Sizə digər bir sual vermək

istərdim. Sizin fikrinizcə, Dağlıq Qarabağ münaqişəsinin həllindən öncə iki ölkənin xalqları arasında hər hansı təmas ola bilərmi, yaxud biz məsələnin tam həllini gözləməliyik ki, bu cür təmaslar baş tutsun?

***İlham Əliyev:*** Qeyd etdiyiniz "Qafqaz icması" təşəbbüsünə gəldikdə, bizim mövqeyimiz ondan ibarətdir ki, münaqişə sona çatmayanadək biz Ermənistanla hər hansı bir əməkdaşlıq etməyəcəyik. Hesab edirəm ki, bu, başadüşülən mövqedir. Bəzən ermənilər ictimai rəyi manipulyasiya etməyə çalışırlar. Onlar özlərini çox konstruktiv, çox dost və əməkdaşlıq edilə biləcək bir tərəf kimi qələmə verirlər. Aydındır ki, torpaqlarımızı işğal edən, yüz minlərlə vətəndaşımızın acınacaqlı vəziyyətə düşməyinə səbəb olan bir ölkə ilə əməkdaşlıq ola bilməz. Məhz bu səbəbdən münaqişə həll edilmədən hər hansı bir birgə iqtisadi əməkdaşlıqdan söhbət gedə bilməz, istər ikitərəfli olsun, istərsə də çoxtərəfli. Bu, birmənalıdır.

Qeyd etdiyiniz nəqliyyat və enerji sahəsi ilə bağlı. Biz Qafqaz regionunda qonşumuz olan Gürcüstanla bu sahələrdə əməkdaşlıq edirik. Bildiyiniz kimi, biz Gürcüstanı təbii qazla tam təmin edirik, neft məhsullarının əsas təchizatçısı sayılırıq, bizim Dövlət Neft Şirkətinin törəməsi olan "SOCAR Energy Georgia" Gürcüstanın ən iri vergi ödəyicisi və ən iri sərmayədarıdır. Bakı-Tbilisi-Qars dəmir yolunun Gürcüstan hissəsinin tikintisi üçün biz Gürcüstana bir faizlə 200 milyon dollar məbləğində kredit ayırmışıq. Bu isə bizim tərəfdaşlığımızın əyani nəticəsidir.

Ermənistan isə özünü normal apararsa, işğala son qoyarsa, o da istər enerji, istərsə də nəqliyyat sahəsində bu layihələrin bir hissəsi ola bilər. Sadəcə, onlar özlərini hər şeydən - enerji və ya nəqliyyat layihələri baxımından təcrid ediblər və zaman ötdükcə bu təcrid onların vəziyyətinə daha çox təsir edəcəkdir. Bu, bizim üçün onların işğala son qoymalarına təsir edən vasitələrdən biridir. Bunun yalnız bir mənası var. Göstərmək istəyirik ki, onların işğal siyasətinin gələcəyi yoxdur. Hesab edirəm ki, bu münaqişə həll edilmədən bizim Ermənistanla nə üçün əməkdaşlıq etməyə hazır olmadığımızı göstərən vacib bir izahdır.

Türkiyəyə satılan qazın qiymətinin qaldırılması ilə bağlı onu demək istərdim ki, bu müddət ərzində təbii qazın mövcud qiyməti Türkiyə və "Şahdəniz" konsorsiumu üzvləri arasında aparılan danışıqlar nəticəsində formalaşmışdır. Azərbaycanın Dövlət Neft Şirkəti isə "Şahdəniz" konsorsiumunun yeganə üzvü deyil. Qiymət razılaşdırılanda, - bu 2000-ci illərin əvvəlinə təsadüf edirdi, - o zaman razılaşdırılırdı ki, hər min kubmetr qaza görə 120 dollar ödəniləcək. Bu qiymət yalnız bir il üçün müəyyən edilmişdi. Bir ildən sonra isə qiymət bazara uyğun hesablanmalı idi. Həmin bir il ötən ilin aprel ayında başa çatıb və konsorsiumun bütün üzvləri tərəfindən ümumi anlaşma yaranıb ki, yeni qiymət danışılsın. Qiymətin yuxarı və ya aşağı olacağını demək çətindir. İndi neftin qiyməti aşağı düşür, ola bilər ki, qiymət də aşağı olsun. Lakin bazar qiyməti olmalıdır. Bu sahədə çalışanlar bilirlər ki, 2008-ci ildə Türkiyə təbii qazı Rusiyadan 400 dollara, bəzən isə 500 dollara

alırdı, Əlcəzairdən 300 və ya bir qədər çox. Azərbaycandan isə aldığı qazın qiyməti 120 dollar idi. 2008-ci ildə isə bazar qiyməti 400-500 dollar idi.

İndi siz özünüz hesablaya bilərsiniz, bu səbəbdən "Şahdəniz" konsorsiumunun itkiləri nə qədər idi. Lakin o da aydındır ki, hər şey müqavilə əsasında həll edilməlidir. Biz daim beynəlxalq öhdəliklərə hörmətlə yanaşmışıq. Azərbaycan heç vaxt beynəlxalq müqavilələri pozmayıb və bütün danışıqlar tərəfdaşlıq, dostluq ruhunda, qarşılıqlı maraq, ədalətli bazar qiyməti və hüquqi baza çərçivəsində aparılmalıdır. Bizim mövqeyimiz bundan ibarətdir. Ona görə hesab edirəm ki, artım və ya azalmadan danışmaq düzgün olmazdı. Biz gərək müqavilənin öhdəliklərindən və bazar qiymətlərindən danışaq. Bazar qiyməti olmasa o, nəinki iqtisadi itkilər yarada bilər, həmçinin əməkdaşlığın perspektivlərinə də təsir göstərə bilər.

Növbəti sual belə idi ki, Dağlıq Qarabağ məsələsi Türkiyə və Ermənistan razılaşmasında olmasa nə baş verər. Belədirmi?

İlk növbədə, mən bunu bu gün mətbuat konfransında da demişdim, biz heç bir ölkənin daxili işlərinə qarışmırıq. Biz heç vaxt ölkələrin ikitərəfli münasibətlərinə müdaxilə etmirik. Lakin o da aydındır ki, 1993-cü ildə Türkiyə ilə Ermənistan arasında sərhədlərin bağlanmasının səbəbi Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalı olmuşdu. Hazırda Azərbaycan torpaqları hələ də işğal altındadır.

Son illər ərzində Türkiyə rəhbərləri adından bəyanatlar verilirdi və onlarla söhbətlər zamanı bildirilirdi ki, Dağlıq Qarabağ münaqişəsi həll edilmədən sərhədlər açılmayacaq. Bu yaxınlarda Türkiyə rəhbərlərindən eyni bəyanatları eşitdik. Verdiyiniz sual tamamilə əsaslıdır. Bu sual mənə ünvanlanmamalıdır. Dağlıq Qarabağ münaqişəsinin həlli Ermənistan-Türkiyə gündəliyindən kənardadır, yoxsa yox? Bu, bir sözdən ibarət cavabı olan sadə bir sualdır. Bəli, yaxud xeyr. Ondan sonra hər şey aydın olacaqdır.

Bir daha söylədiklərimə qayıdaraq onu demək istərdim ki, əgər Türkiyə və Ermənistan arasındakı əlaqələrin normallaşdırılması Dağlıq Qarabağ münaqişəsinin həllində hər hansı irəliləyişdən öncə baş versə, o zaman bu, Azərbaycanın milli maraqlarına uyğun olmayacaqdır. Lakin bu heç də o demək deyil ki, biz bu prosesə hər hansı şəkildə müdaxilə etməyə çalışırıq. Xeyr, bu, seçim məsələsidir.

Türkiyə ilə güclü mədəni, tarixi və siyasi əlaqələrə malik olan və artıq 20 ildir ki, Ermənistanın təcavüzündən əziyyət çəkən Azərbaycan öz seçimini etmək və özünün milli maraqlarına uyğun addımları atmaq hüququna malikdir.

Fərdi təmaslara gəldikdə, biz bunun əleyhinə deyilik. Bizim ziyalılardan ibarət bir qrup Xankəndi və İrəvana, onların qrupu isə Bakıya səfər etmişdilər. Bu görüşlər bir gün ərzində keçirildi və fikrimcə, bu, danışıqlar prosesinə bir dəstək oldu. Qrup üzvləri keçirdikləri görüşlərdən razı qaldılar. Lakin məsələ elə bununla da bitdi, yəni, bu təşəbbüs hər hansı ciddi irəliləyişlə nəticələnmədi. Ona görə də əgər öz cəmiyyətlərində nüfuza malik şəxslər arasında təmasların nəticəsi olmursa, bu

görüşlərin dəyəri nədir? Zənnimcə, Dağlıq Qarabağ münaqişəsi həll edilmədən bu haqda danışmaq tezdir. Məsələ öz həllini tapmasa vəziyyəti əvvəlcədən proqnozlaşdırmaq və ya əməkdaşlıq etmək mümkün deyil.

***Aparıcı:*** Cənab Prezident Əliyev, bizimlə görüşdüyünüzə və bu cür geniş, maraqlı söhbət apardığınıza görə Sizə olduqca minnətdarıq.

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Brüsseldə Avropa İttifaqı Nazirlər Şurasının Baş katibi Xavyer Solana ilə görüşmüşdür

29 aprel 2009-cu il

Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyev Avropa İttifaqı Nazirlər Şurasının Baş katibi, ümumi xarici və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Xavyer Solana ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin perspektivlərinə, regiondakı vəziyyətə, enerji əməkdaşlığına, Ermənistan-Azərbaycan, Dağlıq Qarabaq münaqişəsinin sülh yolu ilə həllinə dair fikir mübadiləsi aparıldı.

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Avropa İttifaqı Nazirlər Şurasının Baş katibi Xavyer Solananın birgə mətbuat konfransı keçirilmişdir

29 aprel 2009-cu il

Azərbaycan Prezidenti İlham Əliyev və Avropa İttifaqı Nazirlər Şurasının Baş katibi, ümumi xarici və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Xavyer Solana görüşdən sonra mətbuat nümayəndələri qarşısında bəyanatlarla çıxış etmişlər.

Xavyer Solana Azərbaycanın Avropa İttifaqı üçün vacib ölkə olduğunu,tərəflər arasında yaxşı əməkdaşlıq münasibətlərinin mövcudluğunu və bu əməkdaşlığın Avropa Qonşuluq Siyasəti çərçivəsində inkişaf etdiyini bildirdi.

Azərbaycan Prezidenti İlham Əliyev aparılan danışıqlardan məmnunluğunu ifadə edərək bildirdi ki, biz Avropa İttifaqı ilə əməkdaşlığın səviyyəsini yüksək qiymətləndiririk. Avropa İttifaqı ilə Azərbaycanın ikitərəfli əməkdaşlıq əlaqələrinin genişləndiyini vurğulayan dövlət başçısı dedi ki, bu əlaqələrə regional inkişaf, iqtisadi əməkdaşlıq, siyasi islahatlar, enerji təhlükəsizliyi və digər sahələri əhatə edən layihələr daxildir.

Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan etibarlı tranzit və təchizatçı ölkədir, bu da Azərbaycan-Avropa İttifaqı əlaqələrinə qarşılıqlı fayda gətirir.

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Avropa İttifaqının prezidenti Herman Van Rompeyin görüşü olmuşdur

1 dekabr 2010-cu il

Astanada Azərbaycan Prezidenti İlham Əliyevin və Avropa İttifaqının prezidenti Herman Van Rompeyin görüşü olmuşdur.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması, enerji sahəsində əməkdaşlığa dair məsələlər müzakirə olundu.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminlik ifadə edildi.

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Avropa Komissiyasının sədri Joze Manuel Barrozunun təkbətək görüşü olmuşdur

13 yanvar 2011-ci il

Prezidenti İlham Əliyevin və Avropa Komissiyasının sədri Joze Manuel Barrozunun təkbətək görüşü olmuşdur.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi, enerji sahəsində əməkdaşlığın yaxşı potensialının olduğu vurğulandı. Əlaqələrin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.

Söhbət zamanı Azərbaycan-Avropa İttifaqı əlaqələrinin hazırkı vəziyyəti və perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Avropa Komissiyasının sədri Jose Manuel Barrozunun geniş tərkibdə görüşü

13 yanvar 2011-ci il

Yanvarın 13-də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Avropa Komissiyasının sədri Jose Manuel Barrozunun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur. Azərbaycan Prezidenti İlham Əliyev qonaqlara müraciətlə dedi:

- Cənab sədr, bir daha xoş gəlmisiniz! Sizi və nümayəndə heyətinizi burada salamlayıram. Sizi Azərbaycanda qəbul etməyimdən çox məmnunam. Qeyd etdiyimiz kimi, sizin səfərinizi gözləyirdik. Çox şadam ki, bu ili belə bir mühüm səfərlə başlayırıq və bu, bizim münasibətlərimizin səviyyəsinin və keçmişdə apardığımız əməkdaşlığın göstəricisidir. Əminəm ki, bu səfər Avropa təsisatları ilə Azərbaycan arasında münasibətlərin inkişafında mühüm rol oynayacaqdır. Münasibətlərimizin artıq yaxşı tarixi və səmərəli gələcək perspektivləri vardır. İkitərəfli gündəliyimiz çox genişdir və bu gün ətraflı şəkildə müzakirə etdiyimiz bir çox sahələri əhatə edir. Səmimi müzakirələrə və açıq söhbətə görə çox minnətdaram. Bu, çox faydalı və səmərəli oldu. Əminəm ki, bu ilin yaxşı başlanğıcı bütün məqsədlərimizin həyata keçirilməsinə zəmin yaradacaqdır. Bu baxımdan enerji təhlükəsizliyi, siyasi və iqtisadi islahatlar kimi məsələlər nəzərdə tutulubdur. Bildiyiniz kimi, Azərbaycanın Avropa İttifaqına üzv olan dövlətlərlə çox yaxşı münasibətləri vardır. Ona görə hesab edirik ki, bu səfər münasibətlərimizi irəliyə doğru aparacaq və gələcəkdə biz bir çox müsbət nəticələrin şahidi olacağıq. Bir daha Azərbaycana xoş gəlmisiniz!

Avropa Komissiyasının sədri Jose Manuel Barrozu dedi:

- Cənab Prezident, Bakıda olmağımdan çox məmnunam. Sizin xeyirxah dəvətinizi məmnunluqla qəbul etdim. Fikrimcə, bu səfər Azərbaycanla Avropa İttifaqı arasında yüksək səviyyədə olan münasibətlərin daha da genişləndirilməsi üçün fürsətdir. Azərbaycan bizim bu regiondakı etibarlı tərəfdaşımızdır. Biz bunu əvvəllər də bəyan etmişdik, indi isə bir daha bunu əyani şəkildə görürük. 2008-ci ildə ölkənizdə nümayəndəliyimizi, indi isə səfirliyimizi açmışıq. Azərbaycanın iqtisadiyyatı yüksək sürətlə inkişaf edir, artım tempiniz çox yüksəkdir. Deyərdim ki, bu, dünyada ən yüksək tempdir. Bilirəm ki, cəmiyyətiniz də çox dinamik cəmiyyətdir. Mən bunu alqışlayıram. Eyni zamanda, Azərbaycanın beynəlxalq məsələlərdə, xüsusən də terrorçuluğa qarşı mübarizədə oynadığı mühüm rolu yüksək dəyərləndirirəm. Azərbaycan müəyyən ölkələrdə davam edən münaqişələrin qarşısının alınmasına da öz töhfəsini verir. Sizin bu məsələlərdə tutduğunuz mövqe xüsusi əhəmiyyət kəsb edir.

Təbii ki, enerji münasibətlərimizin təməl daşıdır. Biz bu məsələləri də müzakirə edəcəyik. Lakin aydın şəkildə onu da bəyan etmək istəyirik ki, münasibətlərimiz təkcə neft və qaz sahəsi ilə məhdudlaşmır. Biz ümumi maraq doğuran məsələlərə əsaslanan daha geniş münasibətlər qurmaq əzmindəyik.

# Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Avropa Komissiyasının sədri Joze Manuel Barrozunun mətbuat konfransı olmuşdur

13 yanvar 2011-ci il

Prezident İlham Əliyev və Joze Manuel Barrozu bəyanatlarla çıxış etmişlər.

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab sədr!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

İlk növbədə, mən sizi, Avropa Komissiyasının sədri cənab Barrozunu bir daha burada salamlamaq istərdim. Eyni zamanda, dəvətimizi qəbul edib 2011-ci ilin əvvəlində ölkəmizə səfər etdiyinizə görə minnətdarlığımızı bildiririk. Bu, ilin çox yaxşı bir başlanğıcıdır və hesab edirik ki, Avropa təsisatları ilə Azərbaycan arasında olan münasibətlərin çox gözəl göstəricisidir. Bu münasibətlərin çox yaxşı tarixi var. Müstəqilliyimizin ilk günlərindən biz Avropa İttifaqının dəstəyini hiss etmişik və indi də hiss edirik.

Eyni zamanda, Avropa Komissiyası sədrinin səfəri tərəfdaşlığımızın bugünkü səviyyəsinin göstəricisidir və təbii ki, bu səfər bizim münasibətlərimizin gələcək inkişafına yönəlibdir. Biz bu münasibətləri çox yüksək dəyərləndiririk. Biz uzun illər ərzində müxtəlif formatlarda ümumi nəticələri əldə etmək üçün birgə çalışırıq. Hazırda Azərbaycanın da üzvü olduğu "Şərq tərəfdaşlığı" proqramı var. Bu da bizim əməkdaşlığımız üçün yeni üfüqlər açır. Bizim ikitərəfli münasibətlərimizə aid geniş gündəliyimiz mövcuddur və burada bir çox sahələr əhatə olunmuşdur.

Bu gün apardığımız müzakirələr, səmimi və çox mehriban söhbət zamanı biz, demək olar ki, ikitərəfli əlaqələrimizin hər bir aspektini nəzərdən keçirdik. Biz iqtisadi inkişafa, iqtisadi əməkdaşlığa aid olan məsələləri, siyasi islahatları müzakirə etdik, Azərbaycanda aparılan islahatları, demokratikləşmə prosesini nəzərdən keçirdik, regional vəziyyət və təhlükəsizliklə bağlı olan vəziyyət haqqında fikir mübadiləsi etdik. Enerji daşıyıcılarının nəqlinin şaxələndirilməsi məsələlərindən də danışdıq və eyni zamanda, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsini də müzakirə etdik. Bir sözlə, biz gördük ki, hər iki tərəfin ümumi bir istəyi, arzusu vardır ki, bu münasibətlər inkişaf etdirilsin və gələcək illərdə, onilliklərdə tərəfdaşlıq daha da güclənsin.

Bu gün söhbətimizin əsas mövzuları arasında enerji sahəsində əməkdaşlıq məsələsi dayanır. Biz elə indicə Cənub qaz dəhlizi haqqında Birgə bəyannaməyə

imza atdıq. Bu da çox məzmunlu, mühüm bir sənəddir və enerji əməkdaşlığının bütün aspektlərini, Avropa təsisatları ilə Azərbaycan arasında bu sahədə əməkdaşlığı əhatə edir.

Azərbaycan etibarlı tərəfdaşdır və Azərbaycanın neft əməliyyatlarının uzun tarixi var. Dünyada ilk dəfə Azərbaycanda neft hasil edilmiş, o cümlədən sənaye üsulu ilə dənizdə neft hasilatı dünyada ilk dəfə məhz Azərbaycanda baş vermişdir. Müstəqil ölkə olaraq biz öz enerji siyasətimizi 1990-cı illərin ortalarından bu günə qədər aparırıq və bu baxımdan Azərbaycanın siyasəti çox açıq, səmimi, şəffaf olmuşdur. Biz milyardlarla dollar xarici sərmayə cəlb edə bildik və bu gün artıq bizim müxtəlif marşrutlarımız vardır. Bizim 7 boru kəmərimiz mövcuddur. Bu infrastruktur neft və qaz yataqlarımızdan enerji resurslarımızı müxtəlif istiqamətlərdə nəql etməyə imkan yaradır. Biz çoxlu maliyyə resursları əldə etmişik və bu, bizim enerji siyasətimiz nəticəsində mümkün olmuşdur. Bu gün isə biz enerji inkişafımızın yeni bir mərhələsindəyik və Avropa təsisatları ilə münasibətlərimiz bizim üçün çox əhəmiyyətlidir. Enerji təhlükəsizliyi məsələsi, enerji təchizatının şaxələndirilməsi hasilatçılar, istehlakçılar, tranzit ölkələr üçün eyni dərəcədə vacibdir. Zənnimcə, maraqların kombinasiyası və səylərin bir araya yönəldilməsi və bunun bir növ sinxronlaşdırılması bizim planlarımızın uğurla həyata keçirilməsi üçün əsas ilkin şərtdir. Azərbaycan əvvəldən Cənub enerji dəhlizinə dəstək vermişdir. Əslində, bu, elə Azərbaycanın başladığı layihəyə yönəlir: Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz boru kəmərləri - məhz bunlar bu istiqamətdə həyata keçirilən ilk təşəbbüs olmuşdur. Bundan sonra isə biz nəql dəhlizləri üzərində işləməyə başladıq, çünki bilirik ki, bu dəhlizlər bizim prioritetlərimizdən biridir və bu istiqamətdə apardığımız ciddi bir işdir. Zənnimcə, bu gün imzaladığımız Birgə bəyannamənin yaxşı gələcəyi vardır. Əminəm ki, gələn aylar ərzində biz bir çox mühüm hadisələrin şahidi olacağıq. Bu baxımdan enerji tərəfdaşlığı, Avropa İttifaqı, Avropa təsisatları ilə Azərbaycan arasında olan bu əməkdaşlıq uğurla davam edəcəkdir.

Bu gün biz Azərbaycanda siyasi və iqtisadi islahatlara aid vəziyyəti də müzakirə etdik və bu, çox açıq, səmimi və dostluq şəraitində keçdi. Bu söhbət dostlar arasında idi və biz bir-birimizi etibarlı tərəfdaş və dost hesab edirik. Biz, eyni zamanda, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsini müzakirə etdik. Fakt ondan ibarətdir ki, artıq uzun illərdir, Azərbaycanın əraziləri Ermənistanın işğalı altındadır. Təbii ki, bu, Azərbaycanda bir çox narahatlıqlar doğurur. Bu, regional təhlükəsizliyə potensial hədədir. Biz beynəlxalq təsisatlara, xüsusən də Avropa Parlamentinə çox minnətdarıq ki, ötən il Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə aid qətnamə qəbul etdilər. Bu qətnamə əvvəl qəbul olunmuş qətnamələrə tamamilə uyğundur. BMT-nin, Avropa Şurasının və ATƏT-in qətnamələrinə uyğundur. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə həlli nəinki bizim qaçqın və məcburi köçkünlərimizi öz yerlərinə qaytara-

caq, həm də bütün dünya tərəfindən tanınmış ərazi bütövlüyümüzü bərpa etməyə gətirib çıxaracaq, habelə regiona proqnozlaşdırma, təhlükəsizlik gətirəcəkdir.

Mən bir daha qeyd etmək istəyirəm ki, bizim ikitərəfli gündəliyimiz çox genişdir. Çox şadam ki, cənab sədri Azərbaycanda qəbul edirəm. Mən çox şadam ki, 2011-ci il məhz burada, Bakıda belə mühüm səfərlə başlayır. Əminəm ki, belə tərəfdaşlıq ruhu bizim ikitərəfli münasibətlərimizdə həmişə əsas yer tutacaq və gələn aylar ərzində daha çox müsbət nəticələrimiz olacaqdır. Cənab sədr, ölkəmizə səfər etdiyinizə görə çox sağ olun və mən sizə səfərinizin yaxşı keçməsini arzulayıram.

**Avropa Komissiyasının sədri Joze Manuel Barrozunun bəyanatı**

Sağ olun, cənab Prezident. Mən də bu gün burada, Bakıda olmaqdan çox məmnunam və Sizin xeyirxah dəvətinizi, Prezident Əliyevin dəvətini qəbul etdim.

Prezident Əliyevlə görüş çox açıq və səmimi, dostluq, mehribanlıq şəraitində keçdi və biz olduqca strateji əhəmiyyət daşıyan məsələləri müzakirə etdik. Bildiyiniz kimi, bu məsələlər həm Avropa İttifaqı, həm də Azərbaycan üçün əhəmiyyətlidir. Biz Azərbaycan ilə Avropa İttifaqı arasında olan tərəfdaşlığı əhatə etdik və bir meyil kimi bu tərəfdaşlıq artıq reallıqdır. Eyni zamanda, mən bizə göstərilmiş səmimi qonaqpərvərliyə görə minnətdaram. Mən sabah da buradayam və hesab edirəm ki, çıxışlarım olacaqdır. Mən Bakı Dövlət Universitetində çıxış edəcəyəm və bilirəm ki, Azərbaycan Xalq Cümhuriyyəti müsəlman dünyasında ilk olaraq bir çox mütərəqqi işlər görmüşdür. Çox sağ olun, mənə belə bir fürsət yaratmısınız ki, səfərimi belə başlayım və eyni zamanda, sabah həmin ali təhsil ocağında çıxış edim.

Avropa İttifaqı Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən islahatları dəstəkləyir. Bu gün Prezident bildirdi ki, o, Avropa İttifaqının “Şərq tərəfdaşlığı”nda üstün tutulmuş dəyərlərini ölkəsinin inkişafı üçün bir ilhamlandırıcı amil kimi qəbul edir. Bu, əlbəttə ki, həm də bizim prinsiplərimizin aliliyini nəzərdə tutur. Biz bunu açıq şəkildə cənab Prezidentlə müzakirə etdik və bildirdik ki, demokratiya, qanunun aliliyi, insan hüquqlarına hörmətlə yanaşma - bunlar da bizim münasibətlərimizdə vacib bir məqamdır.

İkitərəfli tərəfdaşlığımıza gəldikdə, bildiyiniz kimi, yeni Assosiasiya Sazişi mövcuddur ki, bununla bağlı artıq danışıqlar başlanıbdır. Məqsəd bizim strateji əlaqələrimizi daha da dərinləşdirmək və Azərbaycanı Avropa İttifaqının bazarına daha da yaxın etməkdən ibarətdir. Eyni zamanda, mən böyük məmnunluqla bildirirəm ki, biz vizanın asanlaşdırılması sazişi üzərində də danışıqlara başlayacağıq. Bu da yaxın gələcəkdə baş verəcək, Azərbaycan vətəndaşlarının Avropa İttifaqı ölkələrinə səfərlərini daha da asanlaşdıracaqdır. Hesab edirəm ki, bu, olduqca əhəmiyyətli məsələdir ki, insanlar arasında təmaslar daha da sıx olsun.

Eyni zamanda, Avropa İttifaqı siyasi və iqtisadi islahatların aparılmasında Azərbaycanı dəstəkləməkdə əzmlidir. Hesab edirik ki, gələn illər ərzində münasibətlərimizdə bu kimi məsələlər də vacib hesab olunacaqdır. Bu baxımdan Azərbaycan öz töhfəsini verir.

Eyni zamanda, hesab edirik ki, bizim enerji sahəsində əməkdaşlığımız çox yaxşı qurulubdur. Burada, mənim nümayəndə heyətimdə cənab Günter Ottinger də var, o da xüsusi olaraq məhz həmin məsələlərlə məşğuldur. Mən Prezident İlham Əliyevlə ikitərəfli dialoq apardım. Azərbaycan bu sahədə Avropa İttifaqının etibarlı tərəfdaşıdır. Biz hesab edirik ki, Azərbaycan həm hasilatçı, həm tranzit ölkə kimi çox mühüm rol oynayır. Əslində, Azərbaycan şaxələndirmə məsələsinə ilk yol açan bir ölkə rolunu oynayır. Çünki biz bilirik ki, hələ Azərbaycan 1990-cı illərin ortalarında Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsinin həyata keçirilməsi təşəbbüsü ilə çıxış etmişdi. İndi isə artıq növbə qazındır. Elə buna görə də biz bu gün Cənub qaz dəhlizi ilə bağlı Birgə bəyannaməni imzaladıq. Bu da Avropa İttifaqının Azərbaycan qazını birbaşa almasına imkan yaradacaqdır. Bu dəhlizin yaradılması bizim müştərək strateji marağımızdan irəli gəlir.

Bu da çox vacibdir ki, bizim təhlükəsizliyimiz və enerji təchizatımızın şaxələndirilməsi olduqca vacibdir. Bu, həm də tələblə bağlıdır. Eyni zamanda, Azərbaycan istəyir ki, öz ixracını daha da şaxələndirsin və Avropa İttifaqına idxala öz töhfəsini verir. Məhz Cənub dəhlizi sayəsində Azərbaycan çox etibarlı bir çıxış olacaqdır. Bu da bizim inkişafımız üçün uzunmüddətli perspektiv açır. Eyni zamanda, biz çox istəyirik ki, "Şahdəniz" qaz yatağı da yaxın vaxtlarda işlənilsin. Ümidvaram, bu, bizə elə bir imkan verəcək bəyan edək ki, Azərbaycan XXI əsrdə bu sahədə ən ilkin addımlar atan bir ölkə olacaqdır.

Xanımlar və cənablar, biz bir çox digər məsələləri də müzakirə etdik, regional vəziyyəti nəzərdən keçirdik. Mən xüsusi olaraq Azərbaycanın bu gün Əfqanıstanda sülhün təmin edilməsində, İraq və Kosovoda oynadığı rolu yüksək dəyərləndirdim və bildirirəm ki, bunu Avropa İttifaqı da çox yüksək dəyərləndirir.

Bu regiona gəldikdə, eyni zamanda, Dağlıq Qarabağ münaqişəsində irəliləyişin olmaması ilə bağlı öz narahatlığımı yenə də sizinlə bölüşürəm. Mən həm ailələrə, həm də icmalara üzümü tutaraq deyirəm ki, bəli, siz münaqişələrdən çox əziyyət çəkmisiniz. Amma artıq vaxt çoxdan yetişib ki, bu məsələnin həlli sülh yolu ilə təmin edilsin. Buna görə də ATƏT-in Minsk qrupu öz fəaliyyətini davam etdirməlidir. Bildiyiniz kimi, Avropa İttifaqı da öz səylərini göstərir. Mən, eyni zamanda, bu fürsətdən istifadə edərək, Prezident Əliyevə və sizə demək istəyirəm: həmin münaqişədən əziyyət çəkmiş bütün ailələrə və icmalara öz narahatlığımı bildirirəm. Eyni zamanda, əmin etmək istəyirəm ki, bu baxımdan Avropa İttifaqı öz səylərini davam etdirəcəkdir. İcazə verin, onu da bildirim ki, Avropa Birliyi, əlbəttə ki, tərəfdaşlarının, o cümlədən Azərbaycanın ərazi bütövlüyü prinsipini

dəstəkləyir. Biz ATƏT-in Minsk Qrupunun səylərini tam dəstəkləyirik və etimad yaratma tədbirlərini maliyyələşdirməyə hazırıq. Bütün tərəflərin razılaşacağı və həll variantına nail olduğu halda sülh prosesinə siyasi cəhətdən dəstək verməyə və birgə yardım etməyə hazırıq.

Bildiyiniz kimi, Azərbaycan ilə Avropa İttifaqı arasında faydalı əməkdaşlıq artıq göz qabağındadır. Eyni zamanda, bu gün Azərbaycan ilə imzaladığımız sənədlər Avropa İttifaqı ilə tərəfdaşlığı daha da gücləndirəcəkdir. İndi isə daha əlavə addımlar atılmalıdır. Söhbət təkcə enerji sahəsindən getmir, digər sahələrdən də gedir. Məsələn, biz təhsil sahəsində əməkdaşlıq edə bilərik. Bu, bizim ürəyimizə çox yaxın olan bir məsələdir. Prezident Əliyev də bunu qeyd etdi ki, biz bu müasirləşdirməni birlikdə irəliyə doğru aparmalıyıq. Biz qarşısına qoyduğu məqsədlərə nail olmaqda cənab Prezidentlə birgə işləməyi ürəkdən arzulayırıq və bunu səbirsizliklə gözləyirik.

Mənə deyirdilər ki, qışın bu vaxtında bəlkə Bakıya səfər etməyim. Amma dedim ki, buna inanmıram, çünki Bakıda hava şəraiti tamamilə fərqlidir və buradakı insanlar da çox gözəl və cazibədardır. Yəni belə bir tərəfdaş ölkəni belə bir şəraitdə görəndə, həqiqətən, insanın ürəyi açılır. Eyni zamanda, mən görürəm, burada nəinki gözəl şərait yaradılıb, həm də ətrafda çox gözəl inkişaf da var.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və Avropa Komissiyasının sədri

***“Der Spiegel” jurnalının müxbiri:*** Cənab Prezident Əliyev, “Cənub qaz dəhlizi”nin ölkəniz üçün strateji əhəmiyyəti nədən ibarətdir? Cənab Barrozu, bu gün imzalanmış sənəd - bəyannamə bir növ sıçrayışdırmı, irəliləyişdirmi?

***İlham Əliyev:*** Bildiyiniz kimi, uzun illər ərzində Azərbaycan fəal surətdə çalışır ki, öz enerji resurslarını dünya bazarlarına çatdırsın. Biz neft hasilatından başladıq və beləliklə, neft kəmərini tikdik. Hazırda bizim şaxələndirilmiş nəqletmə marşrutlarımız var. İndi 3 neft kəməri var ki, bizim neftimizi Qara dənizə və Aralıq dənizinə çıxarır. Təbii ki, neft və qaz məsələsi vacib məsələdir. Amma əsas məsələ o idi ki, biz gərək bazar tapaq, bunun üçün bazar olsun. Bu yataqların ehtiyatlarına uyğun olaraq, həmin bazar müəyyən edilsin. Bu gün artıq bizim təsdiqlənmiş qaz ehtiyatlarımız 2,2 trilyon kubmetr həcmindədir və əminəm ki, potensial ehtiyatlar hətta bundan da artıqdır. Onda bizə nə lazımdır?! Bizə proqnozlaşdırılmış, uzunmüddətli, qanunvericiliklə tənzimlənən rəqabətcil bir bazar lazımdır ki, bacardığımız qədər qaz hasil edə bilək. Buna görə də “Cənub qaz dəhlizi” bizim üçün strateji əhəmiyyət daşıyır, bu, qaz potensialımızı realizə etməkdə bizə yardımçı olacaqdır.

Demək istəyirəm ki, biz uzun illər ərzində bu layihələr üzərində işləmişik, çalışmışıq. 1996-cı ildə “Şahdəniz” qaz yatağı haqqında saziş imzalananda biz bilmirdik ki, oradan nə qədər qaz çıxarılacaq. Amma indi çox məmnunluq hissi ilə demək istəyirik ki, “Şahdəniz” dünyada ən böyük qaz yataqlarından biridir. İlkin olaraq, ehtiyatlar 1,2 trilyon kubmetr deyilmişdi. Amma daha sonra isə biz yeni yataqlar

aşkar etdik. Bildiyiniz kimi, ötən ilin sonunda yeni yataq kəşf etdik. Bu, gələn illər üçün nəinki bizim təchizat potensialımızı, həm də proqnozlaşdırma imkanımızı daha da artırır. Hazırda bizim 4 qaz boru kəmərimiz vardır. Biz artıq 3 ölkəyə qaz nəql edirik. Bugünkü hasilatın həcminə uyğun olaraq, ixracımızın şaxələndirilməsinə bir növ nail olmuşuq. Amma "Şahdəniz-2" əlavə qaz hasilatını təmin edəcəkdir. Təbii ki, yeni kəşf etdiyimiz qaz yataqlarının işlənilməsinə də başlanacaqdır. Ona görə yeni bazarların tapılması, müəyyən edilməsi bizim üçün vacibdir. Bizə həm yaxın bazarlar, həm uzaq bazarlar, artan, inkişaf edən bazarlar lazımdır. Ona görə biz istərdik ki, qaz sahəsindəki əməkdaşlığımız da neft sahəsindəki əməkdaşlığımız kimi olsun.

Demək istərdim ki, bu gün bənzərsiz, nadir bir vəziyyət yaranıbdır. Çünki istehlakçıların, tranzit ölkələrin və hasilatçıların maraqları bir araya gəlib. Biz güclü tərəfdaşlıq qurmuşuq və bu tərəfdaşlıq yalnız sərbəst elementlərdən təşkil olunarsa, uğura gətirib çıxara bilər. Əminəm ki, bu gün imzalanmış sənədlər uğurla həyata keçiriləcək və Azərbaycan qaz potensialından öz xalqının rifahı, ölkəmizin gələcək inkişafı və Avropadakı dostlarımızın enerji təhlükəsizliyinin təmin edilməsi üçün istifadə edəcəkdir. Bu tərəfdaşlıq nəinki illər, onilliklər boyu olacaqdır.

***Joze Manuel Barrozu:*** Bilirsiniz, Prezident Əliyev bu məsələni o qədər aydın şəkildə təsvir etdi ki, bu şərhə nə isə bir şey əlavə etmək mənim üçün çətindir. Eyni zamanda, onu deməliyəm ki, biz bu Bəyannamənin imzalanmasını, həqiqətən, bir təkan kimi qəbul edirik. Çünki bu, sonradan böyük, vacib qərarların qəbul edilməsinə yol açacaqdır. Bu o deməkdir ki, müştərək maraqlar var, yəni burada hər bir tərəf udur, həm Azərbaycan udur, həm Avropa udur. Yəni fakt ondan ibarətdir ki, şəxsən mənim özüm burada Avropa İttifaqı adından bunu imzaladım və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də imzaladı. Biz bu Birgə bəyannaməni imzalamaqla gördük ki, onun məzmunu çox əhəmiyyətlidir, onun olduqca böyük əhəmiyyəti var. Əminəm ki, bunun müəyyən praktik nəticələri yaxın aylarda olacaqdır. Əmin edirəm ki, mən bu gün imzalanmış sənədlər üzrə fəal işləyəcəyəm və Azərbaycan tərəfi qarşısında da deyirəm ki, bundan sonra investorlar tərəfindən kommersiya qərarları qəbul edilməlidir. Amma bizim fikrimiz, bizim üçün istiqamət aydındır. Biz bilirik ki, nəyə doğru addımlayırıq.

***Cavid Bədəlov (AzərTAc):*** Mənim sualım cənab Barrozuyadır. Bildiyiniz kimi, Avropa enerji təhlükəsizliyi çərçivəsində Nabukko, Türkiyə-Yunanıstan-İtaliya, AGRİ kimi layihələr müzakirə edilir. Bu layihələrdən hansı Avropa İttifaqı üçün daha əhəmiyyətlidir?

***Joze Manuel Barrozu:*** Biz "Cənub qaz dəhlizi"ni dəstəkləyirik və sonrakı qərarlar kommersiya əsasında qəbul edilməlidir. Bu baxır həcmə, yəni ondan asılıdır ki, bu Nabukkonun və digər layihənin əlavə dəyəri nədən ibarətdir. Yəni bu, onunla bağlıdır. Bilməliyik ki, bizim fikrimizcə, hansı layihə daha qəbuledilləndir.

Bu, həmçinin Azərbaycan üçün əhəmiyyətlidir. Cənab Prezident elə indicə çox aydın şəkildə izah etdi ki, yeni yataqlar kəşf edilibdir. Mən deyərdim ki, Nabukko öz əhəmiyyəti ilə, öz ölçüsü ilə həmin ehtiyatlara daha çox cavab verir. Eyni zamanda, biz inanırıq ki, "Cənub dəhlizi"nə artıq siyasi dəstək var. Mən bu layihələri bir-biri ilə ziddiyyət təşkil etməyən layihələr kimi görürəm. Fikir verin, burada kommersiya məsələsi var, yenə də bu, həmin o qərarlarla bağlıdır. Biz hamımız bilməliyik ki, bu, həmin qərarlar əsasında müəyyən ediləcəkdir. Zənnimcə, onların arasında ən vacib əhəmiyyəti olan Nabukkodur. Bu yaxınlarda belə bir qərar qəbul olunmuşdur ki, müəyyən fondlardan bu layihənin həyata keçirilməsinə maliyyə resursları ayrılsın və ona görə də mən bir müddət əvvəl Türkiyəyə səfər etdim. Bildiyiniz kimi, Nabukko ilə bağlı hökumətlərarası saziş imzalandı. Bu da çox vacib bir addım idi və görürsünüz ki, bizim dəstəyimizin bir rəmzidir. Çox sağ olun

# TARİXİ ARAYIŞLAR

## Avropa İttifaqı

Mənzil qərargahı Brüsseldə yerləşən Avropa İttifaqı və ya Avropa Birliyi (ing. European Union) — 27 dövləti birləşdirən dövlətlərüstü və eyni zamanda dövlətlərarası iqtisadi və siyasi təşkilatdır.

Formal olaraq 1 noyabr 1993-cü ildə Maastrixt sazişi ilə təsis edilmiş bu ittifaqın təməli 18 aprel 1951-ci il tarixli Paris Müqaviləsinə əsasən, Belçika, Almaniya, Fransa, Niderland, Lüksemburq və İtaliya tərəfindən Avropa Kömür və Polad Birliyinin (AKPB) yaradılması ilə qoyulub.

Avropa İttifaqı sülh və tərəqqi üçün birlikdə işləmək öhdəliyini götürmüş demokratik Avropa ölkələrinin yığıncağıdır. Bu, mövcud ölkələri əvəz etmək niyyətində olan Dövlət deyil, lakin hər hansı beynəlxalq təşkilatdan daha artıqdır. Aİ-nın üzv dövlətləri ümumi təsisatlar yaratmış və öz suverenliklərinin bir hissəsini bu təsisatlara ötürürlər ki, ümumi maraq kəsb edən xüsusi məsələlər barəsində qərarlar Avropa səviyyəsində demokratik şəkildə qəbul edilə bilsin. Suverenliyin bu şəkildə birləşməsi həmçinin "Avropa inteqrasiyası" adlanır.

Avropa İttifaqının tarixi kökləri İkinci Dünya müharibəsinə gedib çıxır. Avropa inteqrasiyası ideyasının Avropada bu qətllərin və dağıntıların bir daha təkrarlanmasının qarşısını alacağı güman edilirdi. Bu ideya ilk dəfə olaraq, Fransanın xarici işlər naziri Robert Şumanın 9 may 1950-ci il tarixli nitqində irəli sürülmüşdür. Bu tarix hər il Avropa Günü kimi qeyd olunur.

Aİ-nın hər biri xüsusi rol oynayan beş təsisatı var:

Avropa Parlamenti (üzv dövlətlərin əhalisi tərəfindən seçilir);

Avropa İttifaqının Şurası (üzv dövlətlərin hökumətlərini təmsil edir);

Avropa Komissiyası (hərəkətverici qüvvə və icraedici orqan);

Aİ Məhkəməsi (qanuna riayət olunmasını təmin edir);

Auditorlar Məhkəməsi (Aİ büdcəsinin etibarlı və qanunauyğun şəkildə idarə olunmasına nəzarət edir).

İlkin mərhələdə, Aİ sadəcə altı ölkədən ibarət olub: Belçika, Almaniya, Fransa, İtaliya, Lüksemburq və Hollandiya. Danimarka, İrlandiya və Böyük Britaniya 1973-cü ildə, Yunanıstan 1981-ci ildə, İspaniya və Portuqaliya 1986-cı ildə, Avstriya, Finlandiya və İsveç 1995-ci ildə Aİ-na qoşulmuşdular. 2004-cü ildə Aİ-nın

tarixində ən böyük genişlənmə baş verdi və 10 yeni ölkə - Kipr, Çexiya Respublikası, Estoniya, Macarıstan, Latviya, Litva, Malta, Polşa, Slovakiya, Sloveniya, Bolqarıstan və Rumıniya 2007-ci ildə Aİ-na üzv oldular.

1 yanvar 2007-ci il tarixində Avropa İttifaqı 2004-cü ilin mayında qurumun genişlənməsi üzrə başladığı beşinci prosesi sona çatdırdı. Hazırda Aİ 27 üzv dövlətdən ibarətdir, onun təqribən 500 milyon əhalisi var və dünyada ən böyük ticarət blokudur. İnsan haqları, demokratiya və qanunun aliliyi Avropa İttifaqının təməl dəyərləridir.

Ümumdünya İnsan Haqları Bəyannaməsində tələb olunduğu və 1993-cü il Dünya Konfransında İnsan Haqlarında təsdiq olunduğu kimi Aİ, bütün insan haqlarına – istər mülki, istərsə də siyasi, iqtisadi, ictimai, yaxud mədəni – hər yerdə hörmət edilməsini təmin etməyi qarşısına məqsəd qoymuşdur. O, həmçinin qadın və uşaqların, azlıqlara mənsub şəxslərin, habelə məcburi köçkünlərin hüquqlarını təşviq edir.

Aİ üçün hüquqi və təşkilati bazanı müəyyən edən Lissabon Sazişində İttifaqın aşağıdakı prinsiplər əsasında idarə edilməsi aydın şəkildə ifadə edilmişdir: demokratiya, qanunun aliliyi, insan haqlarının və əsas azadlıqların ümumiliyi və ayrılmazlığı, insan ləyaqətinə, bərabərlik və həmrəylik prinsiplərinə hörmət, Birləşmiş Millətlər Təşkilatı Xartiyasının və beynəlxalq hüququn prinsiplərinə hörmət. Bu prinsiplər, Aİ-nın bütün bu hüquqları bir mətndə ehtiva edən Əsas Hüquqlar Xartiyası ilə möhkəmləndirilmişdir.

İttifaq irqçilik, ksenofobiya, habelə din, cins, yaş, əlillik və cinsi təmayül kimi digər diskriminasiya növləri ilə mübarizə aparır. Aİ-ni xüsusilə narahat edən sığınacaq və miqrasiya ilə bağlı insan haqlarıdır.

İttifaq insan haqlarına və demokratiyaya dəstəyi özünün xarici əlaqələr siyasətinin mərkəzi məsələsinə çevirmişdir. Bununla əlaqədar olaraq geniş miqyaslı proqramlar və fəaliyyətlər həyata keçirilir.

## Azərbaycan Respublikası – Avropa İttifaqı münasibətləri

1993-cü ildən etibarən Azərbaycan Avropa İttifaqı ilə münasibətlərdə maraqlı olduğunu bəyan etmiş və bu qurumla müxtəlif sahələrdə əlaqələr qurmağa başlamışdır. Qeyd etmək lazımdır ki, Azərbaycanın əlverişli coğrafi vəziyyəti, zəngin təbii ehtiyatları bu ölkəni Avropa İttifaqı üçün maraqlı edir. Azərbaycanın Avropa İttifaqı ilə əlaqələri əsas etibarilə müxtəlif proqramlar çərçivəsində həyata keçirilir.

Aİ hələ ötən əsrin 90-cı illərinin əvvəllərində yeni müstəqil dövlətlərlə iş aparmaq, demokratik islahatlar keçirmək, bazar iqtisadiyyatı infrastrukturu yaratmaq, ticarət, nəqliyyat, gömrük-keçid işlərini inkişaf etdirmək üçün TASİS proqramını hazırlayıb və onu maliyyələşdirir. Aİ-nin digər təşəbbüsü 1993-cü ilin mayında, Brüsseldə 5 Orta Asiya, 3 Cənubi Qafqaz ölkəsi nümayəndəsinin iştirak etdiyi konfransda irəli sürülən “Avropa-Qafqaz-Asiya Transqafqaz nəqliyyat dəhlizi” (TRASEKA) layihəsidir. Bu layihə tarixi şərq-qərb “İpək yolu” dəhlizinin yeni şəraitdə bərpası, nəqliyyat-kommunikasiya infrastrukturlarının bərpası və inkişaf etdirilməsini nəzərdə tutur. Aİ layihəyə texniki yardım proqramı hazırlayaraq kömək edir. TRASEKA layihəsinin reallaşmasında ən mühüm məqam 8-9 sentyabr 1998-ci ildə Bakıda 32 ölkə və 13 beynəlxalq təşkilat nümayəndəsinin iştirak etdiyi beynəlxalq konfrans oldu. Bu konfransda Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin həyata keçirilməsinin texniki və iqtisadi məsələlərini özündə əks etdirən “Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişaf etdirilməsi üzrə beynəlxalq nəqliyyat haqqında çoxtərəfli əsas saziş” adlanan mühüm sənəd imzalandı. TRASEKA-nın intensiv fəaliyyətinin Azərbaycanın sosial-iqtisadi həyatında əhəmiyyətli rolu olub. Bu özünü yük daşımalarından əldə olunan gəlirdə, nəqliyyat infrastrukturunun inkişaf etdirilməsində, yeni iş yerlərinin açılmasında və s. sahələrdə göstərib. TRASEKA hökumətlərarası komissiyasının daimi katibliyi 21 fevral 2001-ci ildən Bakıda fəaliyyətə başlayıb və koordinasiya funksiyasını icra edir.

Aİ ilə Azərbaycan arasında münasibətləri keyfiyyətcə yeni mərhələyə qaldıran mühüm akt 1996-cı il aprelin 22-də imzalanan “Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi” oldu. 1999-cu ildə qüvvəyə minən, qarşılıqlı münasibətlərin hüquqi-normativ əsasını təşkil edən bu sazişi prezident Heydər Əliyev “Azərbaycan dövləti üçün çox böyük əhəmiyyəti olan tarixi hadisə” kimi səciyyələndirmişdi. Bu saziş cəmiyyətin müxtəlif sferalarında - siyasi, iqtisadi, mədəni, sosial və s. qarşılıqlı münasibətlərin inkişafına yönəlmişdi. Sazişə əsasən təsis edilən tərəfdaşlığın məqsədləri belə müəyyən edilib:

Tərəflər arasında siyasi dialoqun inkişafı və bunun üçün müvafiq çərçivənin yaradılması.

Demokratiyanın möhkəmlənməsi və bazar iqtisadiyyatına keçidin başa çatdırıl-



www.aliyevheritage.org

masına yardım.

Davamlı iqtisadi inkişafa nail olmaq məqsədilə tərəflər arasında ticarətin və sərmayə qoyuluşunun inkişaf etdirilməsi.

Qanunvericilik, maliyyə, vətəndaşlıq, elm, texnologiya və mədəniyyət sahələrində əməkdaşlığın əsaslarının qurulması.

Bu sazişdən irəli gələn vəzifələrin icrası, Aİ ilə əlaqələrin genişlənməsi və tənzimlənməsi sahəsində məqsədəuyğun tədbirlərin hazırlanıb həyata keçirilməsi üçün Azərbaycan Respublikası Prezidentinin 23 noyabr 1999-cu il tarixli sərəncamı ilə dövlət komissiyası yaradılıb.

Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinin qüvvəyə minməsindən sonra Aİ və Azərbaycan münasibətlərində ortaya çıxan daha bir keyfiyyət dəyişikliyi bu münasibətlərin strukturlaşmasıdır. Yaradılan orqanların - Əməkdaşlıq Şurası, parlament əməkdaşlığı komitəsi - fəaliyyəti qarşılıqlı münasibətlərin davamlılığını, nizamlı olmasını və mümkün qədər sistemləşdirilməsini təmin etdi.

1999-cu ildən etibarən parlamentlərarası əməkdaşlıq intensiv inkişaf etməyə başladı. Bu sahədə münasibətlərin əsas istiqamətlərindən birini 2000-ci ilin aprelində ilk toplantısı keçirilən parlamentlər çərçivəsində əməkdaşlıq təşkil edir. Komitə iclaslarında "Qafqaz ölkələrinin Avropa Birliyi üzvlüyünə doğru: Avropa parlamentindən yeni çağırış" adlı sənədin müzakirəsi münasibətlərdə irəliləyişin təzahürü idi.

Əməkdaşlıq şurasının ilk iclası 10 oktyabr 1999-cu ildə keçirilib. Çoxsaylı görüş - iclaslarda aşağıdakı məsələlər müzakirə olunub: regional münaqişələrin həlli yolları, regional əməkdaşlıq məsələləri və TASİS, TRASEKA, İNOGEYT kimi beynəlxalq proqramların rolu, Azərbaycanda keçirilən islahatlar, Avropanın iqtisadi və siyasi strukturlarına inteqrasiya, təhlükəsizlik məsələləri, məhkəmə sisteminin unifikasiyası, mətbuat azadlığı.

Aİ-nin Dağlıq Qarabağ münaqişəsinə münasibəti son illərdə dəyişməkdədir. Aİ-nin 1992, 1993-cü illərdə qəbul etdiyi "Dağlıq Qarabağa dair bəyanat"larında münaqişəni yaradan işğalçı dövlətlə, işğala məruz qalan dövlət konkret olaraq göstərilmirdi. Lakin 2002-ci ilin avqustunda Dağlıq Qarabağdan oyuncaq qurumda keçirilən prezident seçkilərilə bağlı "Prezident seçkilərinə dair Aİ adından sədrliyin Bəyənnaməsi"ndə, "Dağlıq Qarabağın müstəqilliyini tanımadığı", "Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyi", Ermənistanın münaqişə tərəfi olması açıq və konkret ifadə edilib. 2010-cu ili mayın 20-də Avropa Parlamenti "Avropa İttifaqının Cənubi Qafqazda strategiyasına dair tələb" adlı qətnamə qəbul edib. Bu qətnamədə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələlərinə xüsusi yer verilib. Münaqişənin beynəlxalq hüququn norma və prinsipləri, dövlətlərin ərazi bütövlüyü çərçivəsində nizamlanmasının vacibliyi, qaçqınların və məcburi köçkünlərin hüquqlarının və onların doğma yurdlarına qa-

yıtması imkanının təmin edilməsinin zəruriliyi vurğulanıb.

Qarşılıqlı münasibətlərin inkişafında digər mühüm addım 2000-ci ilin aprelin 3-də "Aİ yanında Azərbaycan Respublikası nümayəndəliyinin fəaliyyətinin təşkilati təminatı haqqında" adlı prezident sərəncamı əsasında Azərbaycanın Aİ-də daimi nümayəndəliyinin təsis edilməsi və 2003-cü ilin iyulunda Aİ-nin Cənubi Qafqazda öz xüsusi nümayəndəsini təyin etməsi oldu. 4 fevral 2008-ci ildən etibarən isə Avropa Komissiyasının Azərbaycan Respublikasında nümayəndəliyi fəaliyyət göstərir.

2004-cü ildən başlayaraq Aİ-Azərbaycan əlaqələrində yeni bir mərhələ başladı. Azərbaycan Avropa İttifaqı ilə "Yeni Qonşuluq Siyasəti" proqramı çərçivəsində özünün bir çox iqtisadi, siyasi, hüquqi və inzibati islahatlarını həyata keçirmək imkanı qazanır, bu məqsədlə İttifaqın texniki-maliyyə dəstəyini alır. Azərbaycan həmçinin, yeni proqram çərçivəsində Aİ-dən onun daxili bazarlarına çıxış kvotası, işçi, əmtəə, xidmət, investisiya-kapital resurslarının sərbəst dövriyyəsi imkanı əldə etdi.

Prezident İlham Əliyev ölkənin "Yeni Qonşuluq Siyasəti" proqramına daxil olması nəticəsində Avropaya inteqrasiyanın keyfiyyətcə yeni mərhələyə keçidini nəzərə alaraq, Azərbaycan Respublikasının AB-nə inteqrasiyası üzrə dövlət komissiyası yaradılması haqda 1 iyun 2005-ci ildə sərəncam verdi. Sərəncamda Aİ ilə siyasi, iqtisadi, nəqliyyat və enerji, hüquq, təhlükəsizlik, insan hüquqları və demokratikləşmə, humanitar, elm-təhsil və digər əməkdaşlıq sahələri üzrə işçi qrupların yaradılması nəzərdə tutulurdu. 2006-cı ilin noyabrında Avropa qonşuluq siyasəti çərçivəsində "Azərbaycan-Aİ fəaliyyət planı" qəbul edilib. Fəaliyyət planının həyata keçirilməsi üçün Aİ 92 mln. avro vəsait ayırıb. Proqram çərçivəsində Brüsselə dəvət olunan (may 2004) ilk Cənubi Qafqaz ölkəsinin lideri İlham Əliyev idi. Bütün bu faktlar Aİ-nin Azərbaycana böyük önəm verdiyinin göstəricilərindəndir. Səfər çərçivəsində prezident İlham Əliyev bildirmişdir ki, "Avropa İttifaqına inteqrasiya bizim strateji məqsədimizdir".

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2006-cı ilin noyabr ayında Brüsselə reallaşan səfəri zamanı Azərbaycanla Avropa İttifaqı arasında enerji sahəsində sıx əməkdaşlığa dair memorandum imzalanıb. Avropa İttifaqının Cənubi Qafqaz ölkələri ilə "Yeni Qonşuluq Siyasəti" proqramı təşkilatın regiona ciddi maraq göstərdiyini bir daha təsdiqləyir.

Avropa İttifaqı tərəfindən yeni "Şərq Tərəfdaşlığı" təşəbbüsü irəli sürülüb. Bu təşəbbüsə əsasən, Avropa İttifaqı 2013-cü ilə kimi 6 ölkəyə (Azərbaycan, Belarus, Moldova, Ukrayna, Gürcüstan və Ermənistan) 600 milyon avro məbləğində yardım göstərməyi planlaşdırır.

"Şərq Tərəfdaşlığı" təşəbbüsü çərçivəsində 3 əsas məqsəd vardır: 1) Hərtərəfli İnstitusional Quruculuq proqramları; 2) Tərəfdaş ölkələr arasındakı iqtisadi qeyri-

bərabərliyin və ölkələr daxilində sosial qeyri-bərabərliyin aradan qaldırılması üçün Pilot Regional İnkişaf Proqramları; 3) Şərq Tərəfdaşlığı Çoxtərəfli Ölçüsünün yerinə yetirilməsi.

Azərbaycan Prezidenti İlham Əliyevin 2009-cu illərdə Belçika Krallığına işgüzar səfəri, Avropa İttifaqının rəhbərləri ilə görüşləri, cari ilin yanvarında Avropa Komissiyasının sədri Joze Manuel Borrozonun Bakıya səfəri, imzalanan sənədlər bir daha təsdiq etdi ki, Azərbaycanla Avropa İttifaqının əlaqələri Avropa Qonşuluq Siyasəti çərçivəsində uğurla inkişaf edir və bu əməkdaşlıq "Şərq Tərəfdaşlığı" təşəbbüsünün reallaşması ilə yeni mərhələyə daxil olmuşdur.

# MƏLUMAT - SORAQ MATERİALLARI

## *Anlayışlar*

***TACİS*** - Technical Assistance for Commonwealth of Independent States – Avropa İttifaqının Müstəqil Dövlətlər Birliyinin üzvü olan dövlətlərə texniki yardım göstərilməsini nəzərdə tutan proqramı

***Novorossiysk*** - Qara dəniz sahilində Rusiyaya məxsus liman şəhəri. Bakı-Novorossiysk neft kəmərinin son məntəqəsi

***Dağlıq Qarabağ*** - Azərbaycanın cənub-qərbində region. 7 iyul 1923-cü ildə Azərbaycan SSR-in tərkibində yaradılmış muxtar vilayətin ərazisi (Dağlıq Qarabağ Muxtar Vilayəti) nəzərdə tutulur. Tərkibinə Ağdərə, Əsgəran, Şuşa, Xocavənd, Hadrut rayonları daxil idi. Erməni separatçılarının terror və təcavüzkarlıq fəaliyyətinə görə 26 noyabr 1991-ci ildə Dağlıq Qarabağın muxtariyyət statusu ləğv olunub. Hazırda ətrafındakı Azərbaycana məxsus 7 əlavə rayon da daxil olmaqla Ermənistanın işğalı altındadır. Ermənistan Dağlıq Qarabağda əslində özünün yaratdığı separatçı erməni rejiminin idarəçiliyini bəhanə gətirərək Dağlıq Qarabağı işğal etməsi faktından boyun qaçırmağa çalışır. Azərbaycan tərəfi işğal olunmuş torpaqların azad edilməsi, ərazi bütövlüyünün bərpa olunması şərtlərilə Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək muxtariyyət statusu verməyi təklif edir.

***MDB*** - Sovet İttifaqının süqutundan sonra ittifaqa daxil olmuş 12 dövlətin (Rusiya, Azərbaycan, Ukrayna, Belorus, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan, Tacikistan, Ermənistan, Gürcüstan, Moldova) yaratdığı birlik (1991).

***ATƏT-in Minsk qrupu*** - Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üçün ATƏT-in vasitəçilik fəaliyyəti göstərən orqanı. 24 mart 1992-ci il ATƏM xarici işlər nazirlərinin birinci Helsinki əlavə görüşündə münaqişənin həlli məqsədilə Minskdə konfrans çağırılması nəzərdə tutulub. İştirakçıları Azərbaycan, Ermənistan, Belarus, Çexoslovakiya, Fransa, Almaniya, İtaliya, Rusiya, İsveç, Türkiyə və ABŞ olmalı idi. Ermənistanın təcavüzkarlığı nəticəsində Minsk konfransı baş tutmadı və həmin dövlətlərin vasitəçilik cəhdlərini davam etdirməsi ilə formalaşan qurum Minsk qrupu adlandırılmağa başladı.

***Qaçqın*** - Azərbaycan Respublikasının "Qaçqınların və məcburi köçkünlərin statusu haqqında" Qanununun 1-ci maddəsinə əsasən milliyyətinə, irqi və vətəndaşlıq əlamətinə, dini etiqadına, dilinə, habelə siyasi əqidəsinə, müəyyən sosial qrupa mənsubiyyətinə görə təqibə məruz qalması, həyatına, ailəsinə, əmlakına real təhlükə yaranması ilə əlaqədar daimi yaşadığı dövlətin onu müdafiə etməsindən

istifadə edə bilməməsi, yaxud təhlükəyə görə bu müdafiədən istifadə etmək istəməməsi üzündən yaşadığı ölkənin hüdudlarından kənarda olan, Azərbaycan Respublikasının vətəndaşı olmayan şəxslər Azərbaycan Respublikası ərazisində "qaçqın" hesab edilir.

***Neft Daşları -*** Abşeron yarımadasının 40 km-də Xəzər dənizində metal estakadalar üzərində 1949-cu ildə qurulan qəsəbə.

***Xəzər dənizi*** - Dünyada ən böyük göl. Avropayla Asiyanın kəsişməsində yerləşir.

***Transqafqaz nəqliyyat dəhlizi*** - TRASEKA proqramı çərçivəsində «Böyük İpək Yolu»nun keçdiyi ərazini əhatə edən Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi nəzərdə tutulur.

***Böyük İpək Yolu*** - Avropanı Asiya ilə birləşdirən nəqliyyat dəhlizi.

***QDİƏT***- 1992-ci ildə 11 üzv ölkə tərəfindən yaradılıb. Təşkilata daxildir: Azərbaycan, Albaniya, Ermənistan, Bolqarıstan, Yunanıstan, Gürcüstan, Moldova, Rusiya Federasiyası, Rumıniya, Türkiyə, Ukrayna. Katiblik İstanbulda yerləşir. Təşkilatın məqsədi üzv ölkələr arasında razılaşdırılmış sahələr üzrə ikitərəfli və çoxtərəfli əməkdaşlığı genişləndirməkdən ibarətdir.

***"Gülüstan" sarayı*** - Dövlət əhəmiyyətli tədbirlərin keçirildiyi saray. Heydər Əliyevin təşəbbüsü ilə, onun Azərbaycan SSR-ə rəhbərlik etdiyi dövrdə (1969-1982) Bakıda tikilib.

***"Əsrin müqaviləsi"*** - Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən karbohidrogen resurslarının işlənilməsinə dair beynəlxalq saziş. 20 sentyabr 1994-cü ildə imzalanıb.

***Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi*** - 1988-ci ildə erməni separatçılarının Azərbaycan ərazisi olan Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi istiqamətində göstərdikləri fəaliyyət nəticəsində yaradılmış süni problem.

***İşğal edilmiş rayonlar*** - Ermənistan-Azərbaycan müharibəsi nəticəsində Ermənistan silahlı qüvvələrinin işğal etdikləri Dağlıq Qarabağ və onun ətrafındakı 7 rayonun ərazisi (1991-1994).

***Laçın*** - İşğal olunmuşdur - 1992 – ci il 18 may. Sahəsi 1835 km$^2$, əh. 71 min nəfərdir.

***Kəlbəcər*** - İşğal olunmuşdur - 1993-cü il 2 aprel. Sahəsi 3054 km$^2$, əh. 74 min nəfərdir.

***Ağdam*** - İşğal olunmuşdur - 1993-cü ilin 23 iyul. Sahəsi 1150 km$^2$, əh. 165 min nəfərdir.

***Cəbrayıl*** - İşğal olunmuşdur - 1993 – cü il 23 avqust. Sahəsi 1049,8, km$^2$, əh. 66,4 min nəfərdir.

***Füzuli*** - İşğal olunmuşdur - 1993 – cü il 23 avqust. Sahəsi 1390 km$^2$, əh. 146 min nəfərdir.

***Qubadlı*** - İşğal olunmuşdur - 1993-cü il 31 avqust. Sahəsi 800 $km^2$, əh. 37 min nəfərdir.

***Zəngilan*** - İşğal olunmuşdur - 1993-çü il 29 oktyabr. Sahəsi 707 $km^2$, əh. 39 min nəfərdir.

***Araz çayı*** - Çay öz mənbəyini Türkiyə ərazisindəki Ərzurum dağlarından götürür. Azərbaycan Respublikası və Güney Azərbaycan ərazilərindən keçərək, Azərbaycan Respublikasının Sabirabad rayonunun Suqovuşan kəndi ərazisində Kür çayı ilə birləşərək Xəzər dənizinə tökülür. Uzunluğu 1,072 km.

***Kür çayı*** - Çay öz mənbəyini Türkiyə ərazisindəki Qızılgədik dağının şimal-şərq yamacından götürür. Gürcüstan ərazisindən keçərək Azərbaycan ərazisinə daxil olur. Kür-Araz ovalığı ilə axaraq Xəzər dənizinə tökülür. Uzunluğu 1515 km.

***“Şahdəniz”-*** Xəzərin Azərbaycana aid sektorunda karbohidrogen ehtiyatlarla zəngin yataq. 1999-cu ildə kəşf edilmişdir. 1 trilyon kub metr qaz ehtiyatı ilə “Şahdəniz” dünyanın ən böyük qaz-kondensat yataqlarından biridir

***Bakı-Tbilisi-Ceyhan neft kəməri*** - Azərbaycan neftinin Avropa bazarlarına nəqli kəməri. Uzunluğu 1773 kilometrdir. Azərbaycandan (449 km.), Gürcüstandan (235 km.) və Türkiyədən (1059 km.) keçir. Layihənin dəyəri 4 milyard dollara yaxındır.

***Nabukko*** - Xəzər bölgəsi və Orta Şərq təbii qaz ehtiyatlarını Avropa bazarlarına çatdırmağı nəzərdə tutan qaz kəməri layihəsi.

***OPEK*** - Neft ixracatçısı ölkələri təşkilatı. Dövlətlərarası iqtisadi-siyasi təşkilat kimi 1960-cı ildə Bağdadda təsis olunmuşdur. Hazırda OPEK-ə 12 dövlət: Əlcəzair, Venesuella, Qabon, İndoneziya, İraq, İran, Qatar, Kuveyt, Liviya, Niqeriya, Birləşmiş Ərəb Əmirlikləri və Səudiyyə Ərəbistanı daxildir.

***BMT TŞ-nin qətnamələri*** - 1993-cü ildə Ermənistan Silahlı Qüvvələri tərəfindən Azərbaycan torpaqlarının işğal olunması ilə əlaqədar BMT Təhlükəsizlik Şurası tərəfindən 822, 853, 874 və 884 saylı qətnamələr qəbul edilib. Qətnamələrdə erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarından çıxarılması tələbi səslənsə də, onlara bu günə kimi əməl olunmayıb.

## *Şəxsiyyətlər*

***Abdulla Gül*** (1950) - Türkiyə Respublikasının 11-ci prezidenti (2007-ci ildən). Türkiyə Respublikasının Baş naziri (2002- 2003) və xarici işlər naziri (2003-2007)

***Abid Şərifov*** (1940) - 1995-ci ildən Azərbaycan Respublikası Baş nazirinin müavini

***Andris Pibalqs*** (1957) - Latviyalı diplomat və siyasətçi. Avropa Komissiyasının inkişaf üzrə komissarı (2010-cu ildən). Avropa Komissiyasının enerji üzrə komissarı (2004-2010)

***Anna Lind*** (1957-2003) - İsveçin xarici işlər naziri (1998-2003)

***Artur Rasizadə*** (1935) - 1996-cı ilin may ayından Azərbaycan Respublikası Baş nazirinin birinci müavini, 1996-2003-cü illərdə Baş nazir, 2003-cü ilin avqust - noyabr aylarında Baş nazirin birinci müavini, 2003-cü ilin noyabr ayından yenidən Azərbaycan Respublikasının Baş naziri

***Benita Ferrero-Valdner*** (1948) - Avstriyalı diplomat və siyasətçi. Avropa Komissiyasının xarici əlaqələr və Avropa Qonşuluq siyasəti üzrə komissarı (2004-2009). Avropa Komissiyasının ticarət və Avropa Qonşuluq Siyasəti üzrə komissarı (2009-2010)

***Bill Klinton*** (1946) - ABŞ-ın 42-ci prezidenti (1993-2001)

***Dimitrios Kulurianos*** (1930) - Yunanıstanlı siyasətçi. Avropa parlamentinin üzvü (1999-2004). AB-Azərbaycan, AB-Gürcüstan və AB-Ermənistan parlament əməkdaşlıq komitələrinin nümayəndə heyətinin sədr müavini (2002-2004)

***Eduard Şevardnadze*** (1928) - Gürcüstan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi (1972-1985), SSRİ xarici işlər naziri (1985-1990), Gürcüstanın rəhbəri (1992-1995), Gürcüstanın Prezidenti (1995-2003)

***Fransua Lamur*** (1956) - Fransalı siyasətçi. Fransa İdman Naziri (2002-2005). Fransa Gənclər və İdman Naziri (2005-2007)

***Fuad Quliyev*** (1941) - Azərbaycan Respublikasının Baş naziri (1995 – 1996)

***Gi Verhofstad*** (1953) - Belçikalı siyasətçi. Belçikanın Baş naziri (1999-2008). Avropa Parlamentinin üzvü və parlamentdə liberal qrupun lideri (2009-cu ildən)

***Günter Verhogen*** (1944) - Almaniyalı siyasətçi. Avropa Komissiyasının müəssisə və sənaye üzrə komissarı (2004-2010). Avropa Komissiyasının genişlənmə üzrə komissarı (1999-2004)

***Hans Martens*** – Danimarkalı politoloq. Avropa Siyasi Mərkəzinin icraçı direktoru (2002-ci ildən)

***Hans Van Den Bruk*** (1936) – Niderland Krallığının Xarici İşlər Naziri (1982-1993). Avropa Komissiyasının Xarici Əlaqələr və Avropa Qonşuluq Siyasəti üzrə komissarı (1993-1999)

***Herman Van Rompey*** (1947) - Avropa Şurasının prezidenti (2009-cu ildən). Belçikanın Baş naziri (2008-2009). Belçika Deputatlar Palatasının sədri (2007-2008)

***Heyki Talvitye*** (1939) – Finlandiyalı diplomat. Finlandiyanın Belqradda (1984-1988) və Moskvada səfiri (1988-1992). Avropa Birliyinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi

***Xavyer Solona*** (1942) - Avropa Birliyi Şurasının Baş katibi, Avropa Birliyinin Ümumi Xarici və Təhlükəsizlik Siyasəti üzrə Ali nümayəndəsi və Qərbi Avropa İttifaqının Baş katibi (1999-2009). İspaniyanın Xarici İşlər Naziri (1992-1995)

***Xosep Borrell Fontelyes*** (1947) - İspaniyalı siyasətçi. Avropa Parlamentinin üzvü (2004-cü ildən). Avropa Parlamentinin prezidenti (2004-2007)

***Jak Santer*** (1937) - Avropa Komissiyasının 9-cu Sədri (1995-1999). 1984-1995-ci illərdə Lüksemburqun Baş naziri olub

***Jak Şirak*** (1932) - Fransanın görkəmli siyasi və dövlət xadimi. 1974-1976 və 1986-1988-ci illərdə Fransanın Baş naziri, 1977-1995-ci illərdə Paris şəhərinin meri. 1974-1975-ci illərdə qollistlərin Respublikanın Müdafiəsi Naminə Demokratik İttifaqı Partiyasının Baş katibi, 1976-1994-cü illərdə Respublikanın Müdafiəsi Naminə Birlik Partiyasının sədri, 1995-ci ildən Fransa Respublikasının Prezidenti (1995-2007)

***Joze Manuel Barrozu*** (1956) - Portuqaliyanın Baş naziri (2002-2004), Avropa

parlamentinin sədri (2004-2009), 2009-cu ildə yenidən bu vəzifəyə seçilib

***Klaus Kinkel*** (1936) - Alman dövlət qulluqçusu, vəkil və liberal Azad Demokratik Partiyasının (FDP) siyasətçisi. Federal Ədliyyə Naziri (1991-1992), Xarici İşlər Naziri (1992-1998) və Helmut Kol hökumətində (1993-1998) Almaniyanın vitse-kansleri

***Kristofer Patten*** (1944) - Britaniyalı siyasətçi. Böyük Britaniya parlamentinin üzvü (1979-1992), Xarici inkişaf üzrə Böyük Britaniya dövlət naziri (1986-1989), Böyük Britaniya ətraf mühit naziri (1989-1990), Honq Konq qubernatoru (1992-1997), Avropa Komissiyasının Xarici Əlaqələr üzrə komissarı (1999-2004)

***Levon Ter-Petrosyan*** (1945) - Ermənistan Respublikasının prezidenti (1991-1998), Qarabağ separatçı hərəkatının rəhbərlərindən biri

***Loyola De Palasio*** (1950-2006) - İspaniyalı siyasətçi. İspaniya kənd təsərrüfatı, balıqçılıq və ərzaq naziri (1996-1999). Avropa Birliyinin nəqliyyat üzrə komissarı və Avropa Komissiyasının vitse-prezidenti (1999-2004)

***Mari Ann İsler Bekuin*** (1956) – Fransalı siyasətçi. Avropa Parlamentinin ətraf mühit, ictimai səhiyyə və ərzaq təhlükəsizliyi komitəsinin üzvü. Avropa Parlamentinin Azərbaycan, Gürcüstan və Ermənistan üzrə nümayəndə heyətinin sədri

***Marqarita Boniver*** (1938) - İtaliyalı siyasətçi. Avropa Parlamentinin üzvü (1987-1989). İtaliya Senatının üzvü (1992-1994)

***Marqarita Costa*** (1940) - İtaliyalı diplomat. İtaliyanın Azərbaycanda fövqəladə və səlahiyyətli səfiri (2001-2005). Azərbaycanın Genuya şəhəri, Liquriya, Pyemont, Valle d`Aosta və Lombardiya vilayətlərində fəxri konsuludur (2009-cu ildən)

***Mstislav Rastropoviç*** (1927-2007) – Bakıda anadan olub. Dünya şöhrətli musiqiçi, mənəvi azadlıq, insan hüquqlarının qorunması uğrunda mübariz

***Novruz Məmmədov*** (1947) - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının xarici əlaqələr şöbəsinin müdiri (1997-ci ildən)

***Nursultan Nazarbayev*** (1940) – Qazaxıstan KP MK-nın birinci katibi (1989-1991), Qazaxıstan Respublikasının Prezidenti (1990-cı ilin aprelindən)

***Olivye Düpui*** (1958) - İtaliyalı siyasətçi. Avropa Parlamentinin üzvü (1996-2004). AB-Azərbaycan, AB-Gürcüstan və AB-Ermənistan parlament əməkdaşlıq komitələrinin nümayəndə heyətinin üzvü (2002-2004)

***Patsü Sörensen*** (1952) – Belçikalı siyasətçi. Avropa Parlamentinin üzvü (1999-2004)

***Per Qharton*** (1943) – İsveçli siyasətçi. İsveç parlamentinin üzvü (1976-1979, 1988-1991, 1994-95). Avropa parlamentinin üzvü (1995-2004)

***Piter Semnebi*** (1959) - İsveçli diplomat. Avropa Birliyinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi

***Romano Prodi*** (1939) - İtaliyanın Baş naziri (1996-1998, 2006-2008). Avropa Komissiyasının prezidenti (1999-2004)

***Süleyman Dəmirəl*** (1924) - Türkiyənin görkəmli siyasi xadimi, Türkiyə Cümhuriyyətinin prezidenti (1993-2000)

***Toni Bleyer*** (1953) – Böyük Britaniyanın 73-cü Baş naziri ( 1997 - 2007)

***Ursula Şvayser*** (1933) – Almaniyalı siyasətçi. Almaniya Parlamentinin üzvü (1972-1980). Avropa parlamentinin vitse-prezidenti (1994-1999)

***Yaneş Potoçnik*** (1958) - Sloveniyalı siyasətçi. Avropa Komissiyasının ətraf mühit üzrə komissarı (2010-cu ildən). Avropa Komissiyasının Elm və Tədqiqat üzrə komissarı (2004-2010). Avropa Komissiyasının genişlənmə üzrə komissarı (2004)

***Yoost Lagendayk*** (1957) – Holland siyasətçisi. Avropa Parlamentinin üzvü (1998-2009). Türkiyə-AB parlamentlərarası nümayəndə heyətinin həmsədri olub

***Zbiqnev Bjeziniski*** (1928) - Politoloq, ABŞ prezidenti C. Karterin milli təhlükəsizlik məsələləri üzrə köməkçisi (1977-1981)

# ƏLAVƏ SƏNƏDLƏR

## Avropa İttifaqı
## Brüssel, 22 may 1992-ci il
## Dağlıq Qarabağa dair bəyanat

Birlik və ona üzv olan dövlətlər Dağlıq Qarabağ regionunda döyüşlərin son vaxtlar intensivləşməsi ilə bağlı dərin narahatlığını bildirir və hər hansı bir tərəfdən güc tətbiq edilməsini qəti şəkildə pisləyir. Birlik və ona üzv olan dövlətlər davamlı döyüşlər nəticəsində əhalinin yenidən üzləşdiyi əzab-əziyyətdən və insan tələfatından təəssüflənir.

Dağlıq Qarabağın erməni və Azərbaycan əhalisi daxil olmaqla, Ermənistan və Azərbaycan xalqları, hər iki hökumətin ATƏM-in prinsip və öhdəliklərini qəbul etdikləri nəticəsində, eyni səviyyəli mühafizə ilə təmin olunmaq hüququna malikdirlər. Buna görə də Birlik və ona üzv olan dövlətlər qəbul edilmiş prinsip və öhdəliklərə zidd olaraq ərazi bütövlüyünə qarşı və ya, mülki əhalinin daimi yaşayış yerlərindən qovulması da daxil olmaqla, siyasi məqsədlərə nail olmaq üçün gücə əsaslanan hərəkətləri pisləyir. Azərbaycan və erməni əhalisinin fundamental hüquqları mövcud sərhədlər məzmununda tam şəkildə bərpa edilməlidir.

Birlik və ona üzv olan dövlətlər Ermənistan və Azərbaycana müraciət edərək, maksimal dərəcədə təmkinlik nümayiş etdirməyə və ATƏM prosesinə konstruktiv töhfə verməyə çağırır. Bu mənada Birlik və ona üzv olan dövlətlər bütün tərəfləri Dağlıq Qarabağ üzrə ATƏM-in Sülh Konfransının tezliklə keçirilməsi istiqa-mətində iş aparmağa və Dağlıq Qarabağ icmalarının təmsil olunmaları şərtlərinə dair razılıq əldə etməyə dəvət edir ki, onsuz davamlı sülhün bərqərar olması mümkün deyil.

**Avropa İttifaqı**
**Brüssel, 18 iyun 1992-ci il**
**Dağlıq Qarabağa dair bəyanat**

Birlik və ona üzv olan dövlətlər Dağlıq Qarabağda davam edən döyüşlər ilə bağlı dərin narahatlığını bildirir. Birlik və ona üzv olan dövlətlər böhranın həllinə qətiyyən kömək etməyən hər hansı gücün tətbiq edilməsini ciddi şəkildə pisləyir. Onlar böhrana qatılan tərəfləri təmkinliliyə dəvət edir və növbəti əzab-əziyyət və ya insan tələfatı ilə nəticələnən hərəkətlərdən çəkinməyə çağırır.

Birlik və ona üzv olan dövlətlər aidiyyəti olan hökumətləri nüfuzlarından istifadə edərək baş verən dəhşətli zorakılığa son qoymağa və davamlı atəşkəsə nail olmağa çağırır.

Birlik və ona üzv olan dövlətlər Ermənistan və Azərbaycana bir daha müraciət edərək ATƏM-ə daxil olarkən götürdükləri öhdəliklərə əsasən insan hüquqlarına hörmət etməyə çağırır. Onlar tərəfləri regionda sülhü bərpa etməyin ən yaxşı ümidini təklif edən ATƏM-in himayəsi altında Minsk Konfransının tezliklə keçirilməsinin zəruri şərtlərinin yaradılması üçün Romada ilkin fövqəladə görüş çərçivəsində göstərilən səylərə töhfə verməyə çağırır.

## Avropa İttifaqı
## Brüssel, 7 aprel 1993-cü il
## Dağlıq Qarabağa dair bəyanat

Birlik və ona üzv olan dövlətlər Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar Ermənistan Respublikası və Azərbaycan Respublikası arasında münasibətlərin son zamanlarda kəskin şəkildə pisləşməsindən dərin narahatçılıq keçirir. Birlik və ona üzv olan dövlətlər hərbi əməliyyatların Kəlbəcər və Fizuli rayonları ərazisinə yayılmasından təəssüfləndiyini bildirir. Azərbaycan ərazilərindən dərhal çıxarılması və bu ərazilərdə döyüşlərin dayandırılması məqsədilə Ermənistan hökuməti Dağlıq Qarabağın hərbi birləşmələri üzərində olan təsirindən istifadə etməyə qətiyyətlə çağırılır. Cərəyan edən son hadisələrə baxmayaraq, bütün tərəflərdən ATƏM-in Minsk qrupunda aparılan danışıqları tərk etməmək xahiş edilir.

## Avropa İttifaqı
## Brüssel, 24 iyun 1993-cü il
## Dağlıq Qarabağa dair bəyanat

Birlik və ona üzv olan dövlətlər cənab Rafaellinin təqdim etdiyi ATƏM planının Dağlıq Qarabağ mübahisəsinin bütün iştirakçıları tərəfindən qəbul edilməsini alqışlayır. Onlar inanırlar ki, sözügedən plan regionda hərtərəfli atəşkəs, BMT TŞ-nın 30 aprel 1993-cü il tarixli 822 saylı qətnaməsinin həyata keçirilməsi və Dağlıq Qarabağ münaqişəsinin danışıqlar vasitəsilə həlli istiqamətində əsil irəliləyiş üçün ən yaxşı ümiddir. Onlar Dağlıq Qarabağda erməni icması nümayəndələrinin plana razılıqlarını təmin etmək məqsədilə Ermənistan prezidenti Ter-Petrosyanın uğurlu şəxsi müdaxiləsini yüksək qiymətləndirilər.

Birlik və ona üzv olan dövlətlər ümid edirlər ki, Ermənistan hökuməti Dağlıq Qarabağda sülh planını hələ qəbul etməyən elementlər tərəfindən onu tam şəkildə qəbul etmək və Azərbaycanda Dağlıq Qarabağ və onun ətrafındakı indiki daxili çətinliklərdən sui-istifadə etməkdən çəkinmək çağırışlarını davam etdirəcəkdir. Birlik və ona üzv olan dövlətlər xəbərdarlıq edirlər ki, hazırkı vəziyyətdə hər hansı bir tərəfin hücum əməliyyatı sülh planını təhlükə altına sala bilər.

Birlik və ona üzv olan dövlətlər münaqişə tərəflərini planı tam şəkildə dəstəkləməyə çağırır ki, bu, ATƏM-in müşahidəçi missiyasının yerləşdirilməsinin ilk mərhələsini asanlaşdırar. Onlar həmçinin tərəfləri qoşunların işğal edilmiş ərazilərdən çıxarılmasını qəbul etməyə razılıq və ATƏM müşahidəçilərin ərazilərdə yerləşdirildiyi andan təhlükəsizliyinə təminat verməyə təkid edirlər.

## Avropa İttifaqı
## Brüssel, 3 sentyabr 1993-cü il
## Dağlıq Qarabağa dair bəyanat

Birlik və ona üzv olan dövlətlər Dağlıq Qarabağda getdikcə genişlənən Azərbaycan ərazisini işğal edən yerli erməni qoşunlarının hücumlarını pisləyir. Onlar təəssüf hissi ilə qeyd edirlər ki, bu hərəkətlər döyüş bölgəsini genişləndirməklə daha böyük Azərbaycan ərazisini əhatə edir, Azərbaycanda çox ciddi qaçqın problemi meydana gətirir və qonşu ölkələri qatmaqla regional təhlükəsizliyi getdikcə azaldır.

Birlik və ona üzv olan dövlətlər region dövlətlərinin ərazi bütövlüyü və suverenliyinə olan dəstəklərini bir daha bəyan edirlər.

Birlik və ona üzv olan dövlətlər Azərbaycan Hökuməti və Dağlıq Qarabağın rəhbərliyi arasında 31 avqust 1993-cü il tarixində əldə edilmiş müvəqqəti atəşkəsin davam etdirilməsi üçün ATƏM-in Minsk Qrupu çərçivəsində göstərilən səyləri tam dəstəkləyir. Birlik və ona üzv olan dövlətlər hər iki münaqişə tərəfini iyun ayının sonunda prinsip etibarı ilə razılaşdırılmış cədvəli yerinə yetirməyi mümkün edən hər hansı bir formada əlavə dialoqa başlamağa çağırırlar.

Birlik və ona üzv olan dövlətlər həmçinin Dağlıq Qarabağın yerli erməni silahlı qüvvələrinin BMT TŞ-nın 822 və 853 saylı qətnamələrinə hörmət etdiyini və Kəlbəcər, Ağdam, Fizuli və Cəbrayıl rayonlarından geri çəkiləcəklərini görəcəklərinə ümid edirlər. Birlik və ona üzv olan dövlətlərin əlində Azərbaycanın bu ərazilərdən irimiqyaslı hücumlar həyata keçirmək iqtidarında olduğuna dair heç bir dəlil yoxdur.

Birlik və ona üzv olan dövlətlər Dağlıq Qarabağ ermənilərinin BMT TŞ-nın 822 və 853 saylı qətnamələrinə və ATƏM-in Minsk Qrupunun təkliflərinə əməl etmələri üçün Ermənistan hökumətini özünün həlledici təsirindən istifadə etməyə çağırır. Birlik və ona üzv olan dövlətlər Ermənistana müraciət edərək Azərbaycan ərazisində hücumlar həyata keçirən yerli erməni hərbi birləşmələrinin bu cür hücumlarını daha da genişləndirmək üçün onlara maddi yardımın verilməməyini təmin etməyə çağırır.

## Avropa İttifaqı
## Brüssel, 9 noyabr 1993-cü il
## Dağlıq Qarabağa dair bəyanat

Avropa İttifaqı 24 oktyabr 1993-cü il tarixində Dağlıq Qarabağ regionunda əldə edilmiş atəşkəsin pozulmasını pisləyir və bütün qüvvələri son vaxtlarda işğal edilmiş ərazilərdən geri çəkilməyə çağırır. Avropa İttifaqı ATƏM prinsiplərinə uyğun olaraq Azərbaycan Respublikasının ərazi bütövlüyünə və suverenliyinə verdiyi əhəmiyyəti bir daha vurğulayır.

Avropa İttifaqını döyüşlər nəticəsində yurdlarından didərgin salınmış insanların aqibəti xüsusilə narahat edir. Bu insanların qəbul edilməsi və qorunması beynəlxalq ictimaiyyətin əsas vəzifəsi olmalıdır. Bundan əlavə qaçqınların mövcudluğu münaqişənin beynəlxalq xarakter alması təhlükəsini artırır və bütün regionun sabitliyini təhdid edir.

Avropa İttifaqı zərər çəkmiş əhaliyə göstərilən yardımı davam etdirmək əzmindədir və region dövlətlərini həmin yardımların çatdırılması prosesini asanlaşdırmağa çağırır.

Avropa İttifaqı Dağlıq Qarabağ münaqişəsinin uzun müddətli siyasi həllinə nail olmaq məqsədilə ATƏM-in Minsk Qrupu tərəfindən göstərilən səyləri tam şəkildə dəstəklədiyini bir daha bildirir. Avropa İttifaqı münaqişə tərəflərini 24 oktyabr 1993-cü il tarixində pozulmuş atəşkəsi bərpa etməyə çağırır.

Bülleten Aİ 01-1994 (fr): 1.3.7
Xarici siyasət və cəmiyyətin təhlükəsizliyi (7/20)

# Avropa İttifaqının və Ermənistan, Azərbaycan və Gürcüstan respublikalarının birgə bəyannaməsi Lüksemburq, 22 İyun, 1999-cu il

1. Avropa birlikləri, onların üzvü olan dövlətlər və Cənubi Qafqaz dövlətləri arasında tərəfdaşlıq və əməkdaşlıq haqqında sazişlər (TƏS) imzalanması üçün Avropa İttifaqının (Aİ) Ermənistan, Azərbaycan və Gürcüstanın dövlət başçıları ilə ilk görüşü 1996-cı il aprelin 22-də Lüksemburqda keçirilmişdir.

Bu gün, onların qüvvəyə minməsi ərəfəsində biz TƏS-in preambulalarında və 1-4-cü maddələrində təsbit olunmuş ümumi dəyərlər, prinsiplər və məqsədlər əsasında qarşılıqlı əlaqələrimizi möhkəmlətmək üçün bu sazişlərdən platforma kimi istifadə etmək niyyətimizi bir daha təsdiqləyirik. Biz qeyd edirik ki, TƏS-dən hər birinin preambulalarında tərəflər zəruri bildikləri elementləri irəli sürmüşlər, bu elementlərin dəstəklənməsi Avropada sülh və sabitlik üçün təminata töhfə verəcəkdir.

2. Avropa İttifaqı Cənubi Qafqaz regionuna siyasi və iqtisadi əhəmiyyət verdiyini nəzərə çarpdırır. O xatırladır ki, TƏS Çənubi Qafqaz respublikalarının Avropada və qonşu regionlarda əməkdaşlığın daha geniş sahəsinə tədricən yaxınlaşdırılmasına kömək etməyə yönəldilmişdir.

3. TƏS Avropa İttifaqı ilə siyasət, ticarət və investisiya məsələləri üzrə uzunmüddətli tərəfdaşlığın inkişafı üçün çərçivəni və zəmini təmin edir. Aİ sazişlərin yaratdığı imkanlardan tam həcmdə istifadə olunması üçün öz tərəfdaşlarını təşviq edir. Biz ümid edirik ki, TƏS-ə uyğun olaraq əməkdaşlıq üzrə ilk şuralar mümkün qədər tez keçiriləcəkdir.

4. Biz qanunun aliliyinin və yaxşı idarəetmənin vacibliyini nəzərə çarpdırırıq. Aİ demokratik təsisatların möhkəmləndirilməsi və insanın fərdi hüquqlarının müdafiəsi sahəsində Cənubi Qafqaz respublikalarının səylərini dəstəkləməyi öhdəsinə götürür.

Biz həm TƏS-in 5-ci maddəsində nəzərdə tutulmuş siyasi dialoq vasitəsilə, həm də regionun üç hökuməti ilə Aİ missiyaları arasında mövcud əlaqələr vasitəsilə bu məsələlər üzrə əməkdaşlığımızı gücləndirməyə razıyıq.

5. Biz həmçinin etiraf edirik ki, qanunun aliliyi və vətəndaş cəmiyyətinin inkişafı özəl sektorun tərəqqisi üçün mühüm amildir. Aİ dövlətləri şirkətlərin bizneslə məşğul olması və xarici sərmayələrin cəlb edilməsi üçün şəffaf və ədalətli qanunvericilik çərçivələri yaratmağa çağırır. Biz TƏS-də nəzərdə tutulduğu kimi, iqtisadi qanunvericiliyin və qaydaların Avropa normaları ilə uyğunlaşdırılmasına olduqca böyük əhəmiyyət veririk. Avropa İttifaqı bu məqsədə nail olmaqda Cənubi Qafqaz dövlətlərinə kömək göstərilməsini davam etdirəcəkdir.

6. Biz etiraf edirik ki, Cənubi Qafqazdakı münaqişələr üç dövlətin siyasi və iqtisadi inkişafına və onların əməkdaşlığına mane olur.

Biz siyasi və iqtisadi münasibətlərin normallaşdırılması və qaçqınların öz yerlərinə təhlükəsiz qayıtmasına təminat verilməsi məqsədi ilə məqbul qərarlara kömək sahəsində tərəflərin özlərinin və müvafiq təşkilatlar çərçivəsində beynəlxalq vasitəçilərin göstərdikləri bütün səyləri dəstəkləyirik.

Biz razıyıq ki, münaqişələr sülh danışıqları vasitəsilə və mövcud sazişlərə tam əməl edilməsi şərti ilə həll olunmalıdır.

7. Aİ hesab edir ki, onun yardımının səmərəliliyi regionda sülh proseslərinin inkişafı ilə bağlıdır. Buna görə də o, konkret tərəqqinin dəstəklənməsi üçün öz vasitələrindən istifadə etməyə hazırdır. O, regional əməkdaşlığa, münaqişədən sonrakı bərpa və yenidənqurma işlərinə, keçmiş münaqişə zonalarına sərmayələr cəlb edilməsinə xüsusi əhəmiyyət verir. Aİ 1992-1998-ci illərdə regiona təkcə

qrant şəklində 845 milyon avro məbləğində yardım göstərmişdir. Biz razıyıq ki, Aİ-nin gələcək yardımı bu birgə bəyannamədə şərh olunmuş məsələlərə yönəldilməli və bu bənddə istinad edilən məsələlərə xüsusi üstünlük verilməlidir.

Bundan əlavə biz qeyd edirik ki, Aİ-nin yeni əsasnamələrində müəyyənləşdirildiyi kimi, TA-SİS proqramının həyata keçirilməsi dialoq aparmaq vasitəsilə hər bir ölkənin şəraitini daha yaxşı nəzərə almaq yolu ilə yardımın təsirini artıracaqdır.

8. Biz regionun dövlətləri arasında dostluq münasibətləri yaradılması və onların iqtisadiyyatlarının sabit inkişafı üçün regional əməkdaşlığın vacibliyini nəzərə çarpdırırıq. Biz bununla əlaqədar TASİS-in əhəmiyyətini, o cümlədən TRASEKA və İNOQEYT vasitəsilə Aİ tərəfindən irəli sürülmüş təşəbbüsləri qəbul edirik.

9. Regionlarda nəqliyyat, telekommunikasiya sistemlərinin və şəbəkə infra- strukturunun müvafiq sistemlərinin, eləcə də Bakı - Naxçıvan və Yerevan - Culfa dəmir yollarının və Rusiya ilə Gürcüstan arasında şimal və cənubu birləşdirən xətlərin bərpa edilməsi etimadı möhkəmləndirməyin çox mühüm tədbiridir. Biz üç dövlət və onların qonşuları arasında bu kommunikasiya əlaqələrinin mümkün qədər tezliklə və gələcəkdə məqsədəuyğun olaraq, digər əlaqələrin yenidən açılmasına əlverişli şərait yaratmağa razıyıq.

10. Biz 1998-ci il sentyabrın 9-da Bakıda imzalanmış beynəlxalq nəqliyyat haqqında sazişi gələcəkdə yerinə yetirmək və inkişaf etdirmək barədə öhdəliyimizi bir daha təsdiqləyirik. İNOQEYT konfransı və 1999-cu il fevralın 17-də Brüsseldə paraflanmış çətir sazişi boru kəməri şəbəkəsini modernləşdirmək və genişləndirmək üçün çərçivəni təmin edir. Bu təşəbbüslər regionun bütün ölkələrinə iqtisadi fayda gətirəcəkdir. Enerji xartiyasına aid müqavilə ticarətdə, sərmayə qoyuluşunda və tranzitlə bağlı məsələlərdə, enerji sektorunda əməkdaşlıq üçün baza yaradır.

11. Biz hesab edirik ki, Xəzər nefti və qazı üçün təhlükəsiz ixrac marşrutları regionun gələcək tərəqqisi üçün, bu ehtiyatların işlənilməsinə sərmayə qoyan xarici şirkətlər üçün və beynəlxalq bazarlar üçün həyati əhəmiyyətə malik olacaqdır. Beləliklə, çoxvariantlı boru kəmərlərinin inşası məntiqi və arzuedilləndir, ona görə ki, konkret surətdə seçilmiş marşrutlar haqqında qəbul olunan qərarlar və bu qərarların qəbul edilməsi vaxtı iştirakçı şirkətlər üçün mahiyyətcə kommersiya xarakteri daşımalıdır. Biz mövcud boru kəmərləri şəbəkələrinin bərpa olunmasına da böyük əhəmiyyət veririk.

Biz etiraf edirik ki, bu cür qərarlar marşrutların keçəcəyi ölkələrlə məsləhətləşərək qəbul olunmalıdır.

12. Biz Avropa İttifaqının region ölkələri ilə tərəfdaşlıq və əməkdaşlığının və Aİ-nin vasitələrinin bu bəyannamədə əksini tapmış məqsədlərə nail olmağa necə kömək göstərə biləcəyini ətraflı şəkildə müəyyənləşdirən iş proqramları tərtib edəcəyik.

13. Biz, TƏS-in 5-ci maddəsində nəzərdə tutulduğu kimi, regional əsasda vaxtaşırı siyasi dialoq keçirilməsi üçün təşəbbüs göstərəcəyik.

14. Avropa İttifaqı Gürcüstanın Avropa Şurasına qoşulmasını alqışlayır. O, bütün Cənubi Qafqaz ölkələrini onların beynəlxalq təsisatlara, o cümlədən Avropa Şurasına və Ümumdünya Ticarət Təşkilatına mümkün qədər tezliklə qoşulmasına imkan verəcək şərait yaratmağa çağırır.

15. Bu baxımdan biz Ermənistan, Azərbaycan və Gürcüstan parlamentləri sədrlərinin 1999-cu il martın 15-də Strasburqda görüşünü və onların həmin gün qəbul etdikləri birgə bəyannaməni alqışlayırıq.

## AZƏRBAYCAN

1.3.7. Avropa İttifaqının Sədrliyi adından Azərbaycandakı vəziyyət ilə bağlı 17 yanvar tarixində Afina və Brüssel şəhərlərində yayılmış kommünike:

"Avropa İttifaqı dekabr ayının ortalarından etibarən Dağlıq Qarabağ regionunda irimiqyaslı döyüşlərin yenidən başlanması ilə bağlı dərin narahatlıq hissi keçirir. Avropa İttifaqı mövcud tərəfləri təmkinlilik nümayiş etdirməyə və artıq müharibə nəticəsində əziyyət çəkmiş insanlara yenidən əzab verməməyə çağırır. Avropa İttifaqı bir daha Azərbaycanın ərazi bütövlüyü prinsipini dəstəklədiyini bildirir və münaqişənin sülh yolu ilə nizamlanmasına dəvət edir. Məsələnin beynəlxalq xarakter alması təhlükəsini nəzərə alaraq, Avropa İttifaqı aidiyyəti olan tərəfləri döyüşləri dayandırmağa və BMT TŞ müvafiq qətnamələrinə əməl etməyə çağırır. Avropa İttifaqı tam şəkildə dəstəklədiyi, ATƏM-in MİNsk Qrupu çərçivəsində münaqişə tərəfləri arasında aparılan danışıqları ən qısa zamanda yenidən başlamağa çağırır."

Bülleten Aİ 07-1994

Xarici siyasət və cəmiyyətin təhlükəsizliyi (6/24)

## DAĞLIQ QARABAĞ

1.3.5. Avropa İttifaqının Sədrliyi adından Dağlıq Qarabağa dair 5 avqust tarixində Brüssel və Bon şəhərlərində yayılmış kommünike:

"Avropa İttifaqı 12 may 1994-cü ildən etibarən qüvvədə olan atəşkəsin Ermənistan və Azərbaycan Müdafiə Nazirləri, habelə Dağlıq Qarabağın hərbi birləşmələri tərəfindən 27 iyul 1994-cü il tarixində yazılı şəkildə təsdiq edilməsini təqdirəlayiq olduğunu bəyan edir. Münaqişə iştirakçılarının atdığı bu addım gələcəkdə məsələnin qarşılıqlı razılıq əsasında siyasi nizamlanmasına xidmət edəcəkdir.

Beləliklə, Avropa İttifaqı bu istiqamətdə tərəfləri ATƏM-in Minsk Qrupu ilə yaxından əməkdaşlıq etməyə və davamlı siyasi nizamlanmaya nail olmaq üçün üzərilərinə düşənləri yerinə yetirməyə çağırır. Fürsətdən istifadə edərək, Avropa İttifaqı bir daha Minsk Qrupunun səylərini tam şəkildə dəstəklədiyini bəyan edir. Atəşkəsin təsdiq edilməsi təkcə ilk mərhələ deyil, eyni zamanda davamlı siyasi nizamlanmanın əldə edilməsi üçün danışıqların aparılması istiqamətində mühüm səy deməkdir. Avropa İttifaqı ATƏM müşahidəçilərinin regiona göndərilməsi üçün müvafiq razılaşmanın imzalanması məqsədilə avqust ayında danışıqların sürətləndirməsinə dair tərəflərin niyyətini alqışlayır. Belə ki, Avropa İttifaqı münaqişə tərəflərini ATƏM-in müşahidə missiyasının maksimum dərəcədə həyata keçirilməsindən ibarət olan ilk mərhələni dəstəkləməyə çağırır. Bu kommünike dörd dövlətin mövqeyini bildirir.

Bülleten Aİ 09-1994
Xarici siyasət və cəmiyyətin təhlükəsizliyi (5/6)

## DAĞLIQ QARABAĞ

1.3.5. Avropa İttifaqının Sədrliyi adından Dağlıq Qarabağa dair 15 sentyabr tarixində Brüssel və Bon şəhərlərində yayılmış kommünike:

"Avropa İttifaqı son günlərdə Ermənistan, Azərbaycan və Dağlıq Qarabağ rəhbərləri tərəfindən ATƏM-in Minsk Qrupunun Sədri səfir Eliassonun regiona səfəri zamanı verilmiş bəyanatları böyük məmnuniyyətlə qarşılayır. Həmin bəyanatlarda tərəflər münaqişənin nizamlanmasına dair razılığın əldə edilməsinə qədər atəşkəsə riayət edəcəkləri ilə bağlı niyyətlərini vurğulamışlar. Bundan əlavə, Avropa İttifaqı məsələ ilə əlaqədar Ermənistan və Azərbaycan hökumətləri, habelə Stepanakert rəhbərliyi tərəfindən verilmiş rəsmi bəyanatları alqışlayır.

Avropa İttifaqı hesab edir ki, atəşkəsin gücləndirilməsi və məsələnin siyasi nizamlanması yolunda bu addım mühüm əhəmiyyətə malikdir. Avropa İttifaqı ATƏM-in Minsk Qrupuna sözügedən bəyanatlarla nəticələnən səylərinə görə minnətdarlığını bildirir və Qrupun Dağlıq Qarabağ regionunda sülhün bərqərar olunması naminə mühüm fəaliyyətini dəstəkləyir. Avropa İttifaqı Minsk Konfransının tezliklə çağırıla biləcəyinə səmimi şəkildə ümid edir.

Nəhayət, Avropa İttifaqı ümid edir ki, münaqişə tərəfləri özlərinin ictimaiyyət üçün nəzərdə tutulmuş bəyanatlarında təmkinlilik nümayiş etdiriləcəkdir. Bundan əlavə, Avropa İttifaqı danışıqlar prosesi üçün münbit və psixoloji nöqteyi nəzərdən əlverişli şəraitin yaradılması üçün tərəflər arasında təmasların davam etdirilməsini tövsiyə edir. Bu kommünike dörd dövlətin mövqeyini bildirir.

## Avropa İttifaqı Sədrliyinin Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda qondarma "prezident seçkiləri"ni pisləyən və münaqişənin sülh yolu ilə həll edilməsinin əsası kimi Azərbaycanın ərazi bütövlüyünü bir daha təsdiqləyən Bəyannaməsi.

**Dağlıq Qarabağda qarşıdan gələn "Prezident seçkiləri"nə dair Avropa İttifaqı adından Sədrliyin Bəyannaməsi**
**Brüssel, 2 avqust 2002-ci il**

Avropa İttifaqı Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini təsdiq edir və bir daha bəyan edir ki, o, Dağlıq Qarabağın müstəqilliyini tanımır. Avropa İttifaqı həmişə Dağlıq Qarabağla bağlı Azərbaycan və Ermənistan üçün məqbul sayılan sabit siyasi razılaşmanın əldə edilməsinin zəruriliyini vurğulamışdır. Avropa İttifaqı 11 avqust 2002-ci il tarixində Dağlıq Qarabağda keçirilməsi nəzərdə tutulan "Prezident seçkiləri"ni qanuni hesab edə bilməz. Avropa İttifaqı bu seçkilərin sülh prosesinə təsir edəcəyinə inanmır.

Avropa İttifaqı ilə əlaqədə olan Mərkəzi və Şərqi Avropa ölkələri, Kipr, Malta və Türkiyə, Avropa Azad Ticarət Assosiasiyasına üzv olan İslandiya, Lixtenşteyn və Norveç, Avropa İqtisadi Məkanı üzvləri olan ölkələr bu bəyannaməyə qoşulurlar.


www.aliyevheritage.org

# "Avropa İttifaqının Cənubi Qafqaz strategiyasına dair tələb" qətnaməsindən ÇIXARIŞLAR 20 may 2010-cu il

## Dağlıq Qarabağ münaqişəsi

6. Moskva Bəyannaməsinin ruhuna uyğun olaraq, Ermənistan və Azərbaycan prezidentlərinin 2009-cu il ərzində keçirdikləri altı görüşdə ifadə olunan Dağlıq-Qarabağ münaqişəsi üzrə dinamik sülh danışıqlarını alqışlayır; daha konstruktiv yanaşma göstərmək və güc yolu ilə yaradılmış və heç bir beynəlxalq legitimliyə malik olmayan və bununla da qeyri-sabitlik yaradaraq müharibədən əziyyət çəkmiş əhalinin əzablarını uzadan status-kvonu daimiləşdirməyə üstünlük verməkdən əl çəkməyi göstərmək üçün gələcək aylarda tənzimləmə məqsədilə tərəfləri sülh danışıqlarını intensivləşdirməyə çağırır; hərbi yolla həll üsulu və artıq istifadə olunmuş hərbi yolun ağır nəticələrini pisləyir və hər iki tərəfi 1994-cü il atəşkəsini pozmaqdan çəkinməyə çağırır.

7. ATƏT-in Minsk Qrupunun sülh cəhdlərini, Madrid Sənədində əks olunmuş Baza Prinsiplərini və ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrinin Akvila şəhərində Böyük Səkkizliyin (G8) sammitindəki bəyanatını tam dəstəkləyir;

8. Dağlıq-Qarabağ münaqişəsi zamanı və ya onunla əlaqədar öz yurd-yuvalarından didərgin düşmüş yüz minlərlə qaçqın və məcburi köçkünün həmin vəziyyətdə qalmasından, öz evlərinə qayıtmaq, mülkiyyət və şəxsi təhlükəsizlik hüquqları da daxil olmaqla bütün hüquqlardan məhrum edilmələrindən ciddi narahatdır; bütün tərəfləri birmənalı və qeyd-şərtsiz onların hüquqlarını tanımağa, bu hüquqları dərhal təmin etməyə və beynəlxalq hüquq normalarına uyğun olaraq, problemin dərhal həllinə çağırır;

Bununla bağlı olaraq, keçid dövründə təhlükəsizliyə zəmanət məqsədilə Dağlıq Qarabağın əhalisinin təhlükəsizliyini təmin etmək və məcburi köçkünlərə öz evlərinə qayıtmağa imkan yaratmaq və gələcək münaqişələrin qarşısını almaq üçün BMT Nizamnaməsinə uyğun olaraq, beynəlxalq qüvvələrin yerləşdirilməsi ilə erməni qoşunlarının işğal edilmiş Azərbaycan ərazilərindən çıxardılmasını tələb edir; Ermənistan və Azərbacan hakimiyyətlərini və əlaqədar icma liderlərini məcburi köçkünlərin öz yerlərinə qayıtması üçün praktiki hazırlıqlara başlamaqla xalqlararası sülhə sadiq olmalarını nümayiş etdirməyə çağırır; məcburi köçkünlərin və qaçqınların vəziyyətinin bu yaxınlarda qəbul edilmiş 1877 nömrəli "Avropanın unudulmuş xalqları: uzunmüddətli məcburi köçkünlərin hüquqlarının qorunması" adlı AŞPA Tövsiyəsi də daxil olmaqla beynəlxalq standartlara uyğun həll edilməli olduğunu hesab edir;

9. Davamlı sülh üçün real cəhdlərə ehtiyac olmasını vurğulayır; bütün əlaqədar tərəfləri provokativ siyasətdən, ritorikadan, qızışdırıcı bəyanatlardan və tarixin manipulyasiya edilməsindən çəkinməyə çağırır; Ermənistan və Azərbaycan rəhbərlərini məsuliyyətli davranmağa, çağırışların tonunu aşağı salmağa və ictimaiyyətin münaqişənin hərtərəfli tənzimlənməsinin faydasını tam anlaması və qəbul etməsi üçün zəmin yaratmağa çağırır;

10. Dağlıq-Qarabağa daxil olan və Dağlıq-Qarabağ ətrafı işğal edilmiş bütün Azərbaycan torpaqlarının dərhal boşaldılması mövqeyinə inanır; Dağlıq Qarabağ üçün keçid statusun onun yekun statusunun müəyyən edilməsinə şərait yaradacağına və bunun regionda Ermənistan və Azərbaycan əhalisinin dinc birgə yaşayışı üçün keçid çərçivəsi ola biləcəyini qeyd edir;

11. Hamı üçün təhlükəsizliyin hər bir tənzimləmə üçün zəruri element olmasını vurğulayır; hərbi

və mülki tərəfləri olan, beynəlxalq insan hüquqları standartlarına uyğun sülhü qoruma tədbirlərinin əhəmiyyətini tanıyır; Şuranı Ümumi Təhlükəsizlik və Müdafiə Siyasəti missiyaları ilə birlikdə, siyasi həllin tapılacağı təqdirdə, yerlərə geniş monitorinq missiyası göndərmək də daxil olmaqla sülh prosesinə kömək etmə imkanlarını öyrənməyə çağırır;

...26. Əlverişli biznes mühitinin yaradılmasının və özəl sektorun inkişafının əhəmiyyətini bildirir; Azərbaycanın əlamətdar iqtisadi inkişafının əsasən neft və qaz gəlirlərinə əsaslandığını bəyan edir; iqtisadiyyatı xarici investorlar üçün daha da cəlbedici edən islahatları dəstəkləyir; Azərbaycan rəhbərliyini Ümumdünya Ticarət Təşkilatına qoşulmaq üçün danışıqları sürətləndirməyə çağırır və Komissiyanı Azərbaycanı bu prosesdə dəstəkləməyə çağırır;

...29. Regionun Avropa İttifaqının enerji əməkdaşlığı və təhlükəsizliyi, xüsusilə Cənub Dəhlizinin (NABUKKO və Ağ Axın) inkişafı kontekstindən əhəmiyyətini anlayır; Aİ-Azərbaycan enerji tərəfdaşlığının genişlənməsinin əhəmiyyətini və Azərbaycanın enerji resurslarının onun iqtisadi inkişafında vacib rolunu vurğulayır; təbii sərvətlərin istismarından götürülən gəlirin bərabər bölünməsinin və bütövlükdə neft istehsalı azaldıqdan sonra bunun mənfi nəticələrindən qorunmaq üçün ölkənin inkişafı məqsədilə investisiya qoyulmasının əhəmiyyətini bildirir; Azərbaycan-Rusiya tərəfdaşlığının xüsusilə enerji sahəsində intensivləşməsini qeyd edir və bu kontekstdə Azərbaycanın öz iqtisadiyyatını hərtərəfli inkişaf etdirmək niyyətini alqışlayır; regionun enerji sektorunda şəffaflığın investorların etimadı üçün əsas olduğunu bildirir və Azərbaycanın Hasilat Sənayesində Şəffaflıq Təşəbbüsündə iştirakını alqışlayır.

...54. Siyasi sabitliyin etibarlı və fasiləsiz enerji təchizatı üçün vacibliyini və infrastrukturun inkişafı üçün uyğun şəraitin yaradılmasının təminatı məqsədilə vacibliyini vurğulayır; bununla bağlı olaraq, Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum kəmərlərinin yaratdığı ikiqat enerji dəhlizinin Aİ və Xəzər regionu arasında yaxınlaşmanı gücləndirdiyini xatırladır; enerji təchizatının dayandırılması baş verərsə, davranış qaydası və xüsusi tədbirlərin müəyyənləşdirilməsi məqsədilə "xüsusi enerji təhlükəsizliyi maddəsi" əks olunmuş Cənubi Qafqaz ölkələri arasındakı mövcud Anlaşma Memorandumlarının canlandırılmasına çağırır; enerji təchizatının və transit təminatının həmin ölkələrlə hərtərəfli Assosiasiya Sazişləri bağlanması üçün danışıqlarda amillərdən biri olmasını hesab edir.

# MÜNDƏRİCAT

Oxuculara müraciət ---------------------------------------------------------------- 11
Avropa Birliyi Komissiyasının sədri zati-aliləri Jak Santer cənablarına 1 avqust 1994-cü il ---------------------------------------------------------------------- 15
Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Avropa Birliyi rəhbərləri ilə görüşmək üçün Belçikaya yola düşərkən Binə Hava Limanında jurnalistlərə müsahibəsi - 17 aprel 1995-ci il ------------------------------------- 16
Azərbaycan Prezidenti Heydər Əliyevin Brüsseldən Vətənə dönərkən təyyarədə müsahibəsi - 18 aprel 1995-cı il ----------------------------------------- 17
Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Avropa Birliyi Komissiyasının komissarı Hans Van Den Brukla birgə mətbuat konfransında bəyanatı - 4 oktyabr 1995-ci il ------------------------------------------------------- 24
Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Qərbi Avropa ölkələrinə işgüzar səfərə yola düşməzdən əvvəl Binə Hava Limanında müxbirlərin suallarına cavabı - 21 aprel 1996-cı il -------------------------------- 26
Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Azərbaycan Respublikası ilə Avropa Birliyi arasında tərəfdaşlıq və əməkdaşlıq haqqında sazişin imzalanması mərasimində çıxışı - Lüksemburq, 22 aprel 1996-cı il -------- 29
Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Avropa Konfrans Mərkəzində Zaqafqaziyanın digər iki respublikasının prezidentləri ilə birgə mətbuat konfransı - Lüksemburq, 22 aprel 1996-cı il ----------------------------- 31
Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Qərbi Avropa ölkələrinə səfərdən qayıtdıqdan sonra respublika milli televiziyasına müsahibəsi - 27 aprel 1996-cı il ----------------------------------------------------- 38
Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Avropa Birliyi İqtisadi Komissiyasının sədri Jak Santer ilə görüşdə söhbətindən - Strasburq, Avropa sarayı, 10 oktyabr 1997-ci il ----------------------------------------------- 43
Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Tarixi İpək Yolunun bərpası üzrə Bakıda keçirilmiş beynəlxalq konfransda giriş nitqi 8 sentyabr 1998-ci il ------------------------------------------------------------------ 45
Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Tarixi İpək Yolunun bərpası üzrə Bakıda keçirilmiş Beynəlxalq Konfransda çıxışı - 8 sentyabr 1998-ci il ---------------------------------------------------------------------------- 47
Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Tarixi İpək Yolunun bərpası üzrə Bakıda keçirilmiş beynəlxalq konfransda yekun nitqi 8 sentyabr 1998-ci il ------------------------------------------------------------------ 49
Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Tarixi İpək yolu-

nun bərpası ilə əlaqədar Bakıda keçirilmiş konfransın yekunlarına həsr olunmuş müşavirədə nitqi - Bakı, 10 sentyabr 1998-ci il ------------------------------ 51

Avropa komissiyasının sədri zati-aliləri cənab Romano Prodiyə - 7 may 1999-cu il ------------------------------------------------------------------------------ 68

Avropa Birliyinin xarici siyasət və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Birliyi Şurasının Baş katibi cənab Xavyer Solanaya Bakı şəhəri, 22 oktyabr 1999-cu il ------------------------------------------------ 69

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Avropa Komissiyasının sədri Pomano Prodi ilə görüşdəki söhbətindən - İstanbul, "Çırağan sarayı", 19 noyabr 1999-cu il ---------------------------------------------------- 70

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Avropa Birliyinin Azərbaycandakı xüsusi elçisi Renato Battini və Avropa Komissiyasının Azərbaycan üzrə əlaqələndiricisi Robin Lideli qəbul edərkən söhbətindən Prezident sarayı, 5 fevral 2000-ci il ------------------------------------------------ 72

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Avropa Parlamentinin nümayəndə heyətini qəbul edərkən söhbətindən - Prezident sarayı, 29 fevral 2000-ci il --------------------------------------------------------------- 74

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Bakıda TRASEKA-nın daimi katibliyi ofisinin açılışı mərasimində nitqi - 21 fevral 2001-ci il ------------------------------------------------------------------------------ 84

Azərbaycan Respublikasının Prezidenti Heydər ƏliyevinAvropa İttifaqının nümayəndə heyətini qəbul edərkən söhbətindən - Bakı, 21 fevral 2001-ci il ------------------------------------------------------------------------------ 87

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Avropa Parlamentinin nümayəndə heyəti ilə görüşdə söhbətindən - 22 may 2001-ci il ------- 97

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Avropa Birliyinin nümayəndə heyətinin rəhbəri, İtaliyanın xarici işlər nazirinin müavini xanım Marqarita Boniveri və onu müşayiət edən şəxsləri qəbul edərkən söhbətindən Prezident sarayı, 8 iyul 2003-cü il ---------------------------------------------------- 107

Azərbaycan Respublikasının Prezidenti İlham ƏliyevAvropa Birliyinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsini qəbul etmişdir - 22 mart 2004-cü il ----------------------------------------------------------------------------- 110

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa Birliyi şurasının baş katibi Xavyer Solana ilə görüşü - 18 may 2004-cü il ----------------- 113

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa Komissiyasının sədri Romano Prodi ilə görüşü - 18 may 2004-cü il ---------------------- 116

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa Komissiyası sədrinin müavini Loyola De Palasio ilə görüşü - 18 may 2004-cü il ---------- 117

Azərbaycan Respublikasının Prezidenti İlham ƏliyevinAvropa Komissiya-

sının genişlənmə üzrə üzvü Günter Verhogen ilə görüşü - 18 may 2004-cü il -- 119
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa Birliyinin nümayəndə heyətini qəbul etmişdir - 7 iyul 2004-cü il --------------------------- 120
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa Komissiyasının sədri Romano Prodinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir 17 sentyabr 2004-cü il ------------------------------------------------------------ 122
